AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

ISSN 2518-752X
E-ISSN 3006-922X

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

ADU-nun Elmi Xəbərləri
(humanitar və ictimai elmlər)

Research Papers of AUL
(humanitarian and social sciences)

Научные статьи АУЯ
(гуманитарные и социальные науки)

№1, 2026

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
12.01.01-ci il tarixli 132 saylı əmri ilə
qrif verilmişdir.

TƏSİSÇİ: AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Redaksiya heyəti:

Abdullayev Kamal (baş redaktor)
(Azərbaycan Dillər Universiteti, f.e.d, akademik, AMEA-nın həqiqi üzvü)
Qəribova Jalə
(Azərbaycan Dillər Universiteti, f.f.d., dosent)
İmanov Muxtar
(Azərbaycan Dillər Universiteti, f.e.d., akademik, AMEA-nın həqiqi üzvü)
Alıyev Ceyhun
(Azərbaycan Dillər Universiteti, p.f.d., dosent)
Bayramov Qılıncxan
(Azərbaycan Dillər Universiteti, f.e.d., professor)
Hacıyeva Aytən
(Azərbaycan Dillər Universiteti, f.f.d., dosent)
Hacıyeva Kifayət
(Azərbaycan Dillər Universiteti, f.f.d.,dosent)
Xəlilli Şahin
(Azərbaycan Dillər Universiteti, f.e.d., professor)
İmanova Sevda
(Azərbaycan Dillər Universiteti, p.f.d., dosent)
Kərimov Namiq
(Azərbaycan Dillər Universiteti, t.f.d., dosent)
Kunina İrina
(Azərbaycan Dillər Universiteti, s.f.d., dosent)
Məmmədov Azad
(Azərbaycan Dillər Universiteti, f.e.d.,professor)
Nəbiyeva Nailə
(Azərbaycan Dillər Universiteti, f.f.d., dosent)
Şahmuradov Aqil
(Azərbaycan Dillər Universiteti, t.f.d., dosent)
İbrahim Ülfət
(Azərbaycan Dillər Universiteti, f.f.d., prof.əv)
Veysəlli Fəxrəddin
(Azərbaycan Dillər Universiteti, f.e.d., professor)

Məsləhətçi heyəti:

Nesterov Aleksandr (Rusiya)
(Ural Federal Universiteti, professor)
Miljkovic Emma (Serbiya)
(Belqrad Universiteti, professor)
Türkmən Fikrət (Türkiyə)
(Ege Universiteti, professor)
Buşoten Hendrik *(Almaniya)*
(Maynz Universiteti, professor)
Duşmurod Corayev *(Özbəkistan)*
(Özbəkistan Dövlət Cahan Dilləri Universiteti)
Bayxanov İsmayıl (Rusiya)
(Çeçenistan Dövlət Pedaqoji Universiteti, dosent)
Bejenaru Lyudmila (Rumıniya)
(Al. İ.Kuza adına Universiteti, professor)
Lapteva Natalya (Belarusiya)
(Minsk Dövlət Linqvistik Universiteti, rektor)
Ramazan Korkmaz (Türkiyə)
(Qafqaz Universitetləri Birliyi, professor)

Məsul katib: **Əliyev Loğman**
(Azərbaycan Dillər Universiteti)

Texniki redaktor: **Məhərrəmzadə Amalya**
(Azərbaycan Dillər Universiteti)

FOUNDER: AZERBAIJAN UNIVERSITY OF LANGUAGES

Editorial Board:

Abdullayev Kamal (editor-in-chief)
(Azerbaijan University of Languages, D.Sc., academician, corresponding member of ANAS)
Garibova Jala
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Imanov Mukhtar
(Azerbaijan University of Languages, D.Sc., academician, corresponding member of ANAS)
Alıyev Ceyhun
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Bayramov Kilinckhan
(Azerbaijan University of Languages, D.Sc., professor)
Hajiyeva Aytan
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Hajiyeva Kifayet
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Khalilli Shahin
(Azerbaijan University of Languages, D.Sc., professor)
Imanova Sevda
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Karimov Namig
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Kunina Irina
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Mammadov Azad
(Azerbaijan University of Languages, D.Sc., professor)
Nabiyeva Naila
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Shahmuradov Agil
(Azerbaijan University of Languages, Phd. assos.professor)
Ibrahim Ulfat
(Azerbaijan University of Languages, Phd., professor)
Veysalli Fakhraddin
(Azerbaijan University of Languages, D.Sc., professor)

Advisory Board:

Nesterov Aleksandr (Russia)
(Ural Federal University, D.Sc., professor)
Miljkovic Ema (Serbia)
(University of Belgrade, D.Sc.professor,)
Turkmen Fikret (Turkey)
(Ege University, D.Sc. professor)
Boeshoten Hendrik (Germany)
(Mainz University, D.Sc. professor)
Dushmurod Jorayev *(Uzbekistan)*
(Uzbekistan State World Languages University)
Baikhanov Ismayil (Russia)
(Chechen State Pedagogical University, assos.professor)
Bejenaru Lyudmila (Romania)
("Alexandru Ioan Cuza" University Iaşi, D.Sc. professor)
Lapteva Natalya (Belarus)
(Minsk State Linguistic University, D.Sc., professor)
Ramazan Korkmaz (Turkey)
(Union of Caucasian Universities, D.Sc., professor)

Executive Secretary: **Aliyev Loghman**
(Azerbaijan University of Languages)

Technical editor : **Maharramzade Amalya**
(Azerbaijan University of Languages)

УЧРЕДИТЕЛЬ: АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

Редакционный совет:

Главный редактор
Абдуллаев Камал *д.ф.н.,акад., действительный член НАНА, Азербайджанский Университет Языков*
Гарибова Джала *к.ф.н., доц., Азербайджанский Университет Языков*
Иманов Мухтар *д.ф.н.,акад., действительный член НАНА, Азербайджанский Университет Языков*
Алиев Джейхун*к.ф.н., доц., Азербайджанский Университет Языков*
Байрамов Кылынджхан *д.ф.н., проф., Азербайджанский Университет Языков*
Гаджиева Айтен *к.ф.н., доц., Азербайджанский Университет Языков*
Гаджиева Кифает *к.ф.н., доц., Азербайджанский Университет Языков*
Халилли Шахин *д.ф.н., проф., Азербайджанский Университет Языков*
Иманова Севда *к.п.н., доц., Азербайджанский Университет Языков*
Каримов Намиг *к.п.н., доц., Азербайджанский Университет Языков*
Кунина Ирина *к.с.н., доц., Азербайджанский Университет Языков*
Мамедов Азад *д.ф.н., проф., Азербайджанский Университет Языков*
Набиева Наиля *к.с.н., доц., Азербайджанский Университет Языков*
Шахмурадов Агиль *к.и.н., доц., Азербайджанский Университет Языков*
Ибрагим Ульфат *к.и.н., проф., Азербайджанский Университет Языков*
Вейселли Фахраддин *д.ф.н., проф., Азербайджанский Университет Языков*

Экспертный совет:

Нестеров Александр *проф., Уральский Федеральный Лингвистический Университет, Россия*
Милжкович Эма *проф. Белградского университета, Сербия*
Туркмен Фикрет *проф. Эгейский университет, Турция*
Бушотен Хендрик *проф. Университета Майнц, Германия*
Душмурод Джораев *(Узбекистан) (Узбекский государственный университет мировых языков)*
Байханов Исмаил *доц., Чеченский государственный педагогический университет, Россия*
Беженару Людмила *проф. Ясски Университет, Румыния*
Лаптева Наталья *проф., Минский государственный лингвистический университет, Беларусь*
Рамазан Коркмаз *проф, Ассоциация Кавказских университетов, Турция*

Ответственный секретарь: **Алиев Логман** *(Азербайджанский Университет Языков)*

Технический редактор: **Махаррамзаде Амалья** *(Азербайджанский Университет Языков)*

MÜNDƏRİCAT

DİLÇİLİK

Çingiz Qaraşarlı (ADU)
TÜRKLƏRİN VƏTƏNİ ALTAYDIRMI?.....14

Afina Hüseynova (BSU)
MƏDƏNİ KİMLİK KONSEPTİNİN İFADƏ RESURSLARININ SİNTAKTİK MODELLƏŞDİRMƏSİ.....21

Fikrət Cahangirov (BSU)
MODALLIQ VƏ QEYRİ-SƏLİS MƏNTİQ.....27

Ramilə Hüseynova (ADU)
SOSİAL KOMMUNİKATİV SİTUASİYALAR VƏ ONLARIN DİSKURSİV PRAKTİKALARIN FORMALAŞMASINDA ROLU.....35

Məryəm Abdullayeva (ADU)
QANUNVERİCİLİK MƏTNİ VƏ HÜQUQİ DİSKURS: PROBLEMLƏR, PERSPEKTİVLƏR.....41

Leyla Seyidova (ADU)
İNGİLİS DİLİNİN AMERİKAN VƏ BRİTANİYA VARİANTLARININ FONETİK-FONOLOJİ XÜSUSİYYƏTLƏRİ.....47

Nərgiz Kərimova (MDU)
İNGİLİSDİLLİ MEDİADİSKURSDA FRAZEOLOJİ VAHİDLƏRİN STRUKTUR, SEMANTİK VƏ FUNKSİONAL TƏHLİLİ.....52

Nərminə Məmmədova (BDU)
İSPAN MƏDƏNİYYƏTİNDƏ GENDER ROLLARININ DİLDƏ VƏ NİTQDƏ TƏSİRİ: İSPAN TƏDQİQATÇILARININ YANAŞMALARI.....56

Ləman Səmədova (ADU)
METATEKSTİN FUNKSİYALARI.....64

Yaşar İbrahimov (ADU)
YAPON DİLİNDƏ ÇIXIŞLIQ HALIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ VASİTƏLƏRİ.....69

Münəvvər Zeynalova (ADU)
GƏNCLƏRİN SOSİAL DİALEKTLƏRİNİN İNKİŞAFI VƏ GENİŞLƏNMƏSİ (PENELOPE ECKERT'İN ARAŞDIRMALARINA ƏSASLANARAQ).....75

Kəmalə Dünyamalıyeva (ADU)
RƏQƏMSAL ÜNSİYYƏT VƏ LEKSİK SADƏLƏŞMƏ PROSESİ.....81

Gülnar Xəlilova (Odlar Yurdu Universiteti)
DÜNYA DİLLƏRİNDƏ SÖZ SIRASI PROTOTİPLƏRİNİN MEYDANA GƏLMƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR..... 87

Zənurə Talıbova (BDU)
Türkay Verdiyeva (Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası)
İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRDƏ AZƏRBAYCAN DİLİNİN QORUNMASI: DİL SİYASƏTİ MİLLİ KİMLİK KONTEKSTİNDƏ.....96

Şəmsinur Aslanova
DİSKURS MARKERLƏRİNİN PRAQMATİK ASPEKTLƏRDƏN TƏDQİQİ.....101

ƏDƏBİYYAT

Mehri Hənifəyeva (ADNSU)
POSTHUMAN KONTEKSTİNDƏ K.İŞİQURONUN "KLARA VƏ GÜNƏŞ" ROMANINDA SÜNİ İNTELLEKT PROBLEMİ.....111

Ruzanə Süleymanova (ADAU)
YUNUS ƏMRƏ ƏDƏBİ İRSİ İNGİLİS TƏDQİQATINDA.....116

METODİKA

Nərminə Rəcəbova (BDU)
İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ QRAMMATİKANIN ƏHƏMİYYƏTİ.....123

PEDAQOGİKA

Afət İsrayılova (ADU)
İNKLÜZİV TƏHSİLİN MÜASİR PROBLEMLƏRİ.....129

Oyuga Norman Anyinyo (BDU)
ALİ TƏHSİLDƏ SOSİAL STRAFİKASYONUN BAŞLANMASINI TƏQDİM DƏRƏCƏSİ KİMİ SÜNİ İNTELLEKT..... 134

Vəfa Tağızadə (BSU)
MULTIMEDİA TEXNOLOGİYALARININ DİL TƏHSİLİ SİSTEMİNƏ İNTEQRASİYASI STRATEGİYASI (RUS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİ NÜMUNƏSİNDƏ) 140

PSİXOLOGİYA

Şəlalə Babayeva (ADU)
SOSİAL TƏSİR MƏDƏNİ KONTEKSTDƏ.....150

Ceyhun Alıyev, Cəsur Qulamov (ADU, Özbəkistan Dövlət Dünya Dilləri Universiteti)
ÖYRƏNƏNİN ŞƏXSİ MƏSULİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALAR VASİTƏ KİMİ.....156

Gülnur Abbasova (ADU)
PSİXOLOGİYA ÜZRƏ ARAŞDIRMALARDA BƏZİ ÜMUMİ VƏ XÜSUSİ TƏDQİQAT METODLARINDAN İSTİFADƏ.....162

Müşviq Mustafayev, Şəfəq Şahməmmədova, Ramin Allahverdiyev, Dəniz Şirəliyeva, Şəmsinur Hüseynova (BDU, ADU, Qarabağ Universiteti, BDU, BDU)
BAĞLANMA NÖVLƏRİ VƏ MADDƏ İSTİFADƏ POZUNTULARI ARASINDAKI ƏLAQƏ: PSİXOLOJİ VƏ KLİNİK YANAŞMA.....169

İCTİMAİ ELMLƏR

Afaq İsmayılova (ADU)
AZƏRBAYCANDA İNTİHAR VƏ ONUN ƏSAS SƏBƏBLƏRİ.....185

Mətanət Yusifova (MDU)
AZƏRBAYCANIN RUSİYA VƏ TÜRKİYƏ İLƏ İQTİSADİ-SİYASİ MÜNASİBƏTLƏRİNİN TARİXİNƏ BİR BAXIŞ.....191

TİBBİ BİLİKLƏR

Yeganə Məmmədova (ADU)
SU HƏYAT DEMƏKDİR.....197

Ziyafət Rafiyeva (ADU)
GƏLƏCƏYİN EKOLOJİ MƏDƏNİYYƏTİ, TƏHSİL VƏ TEXNOLOGİYALAR.....201

PERSONALİLƏR

NURƏDDİN KAZIMOV – 100.....207

RƏYLƏR

Nizami Cəfərov – QƏDİM EPOSUN MÜASİR DƏRKİ.....211

XRONİKA.....214

CONTENTS

LINGUISTICS

Chingiz Qarasharlı (AUL)
IS ALTAY THE MOTHERLAND OF THE TURKS? 14

Afina Huseynova (BSU)
SYNTACTIC MODELING OF THE EXPRESSIVE MEANS OF THE CONCEPT OF CULTURAL IDENTITY.....21

Fikrat Jahangirov (BSU)
MODALITY AND FUZZY LOGIC.....27

Ramila Huseynova (AUL)
SOCIAL AND COMMUNICATIVE SITUATIONS AND THEIR ROLE IN THE FORMATION OF DISCURSIVE PRACTICES.....35

Maryam Abdullayeva (AUL)
LEGISLATIVE TEXT AND LEGAL DISCOURSE: PROBLEMS, PROSPECTS.....41

Leyla Seyidova (AUL)
THE PHONETIC-PHONOLOGICAL FEATURES OF AMERICAN AND BRITISH ENGLISH.....47

Nargiz Kerimova (MSU)
STRUCTURAL, SEMANTIC, AND FUNCTIONAL ANALYSIS OF PHRASEOLOGICAL UNITS IN ENGLISH-LANGUAGE MEDIA DISCOURSE.....52

Narmina Mammadova (BSU)
THE INFLUENCE OF GENDER ROLES ON LANGUAGE AND SPEECH IN SPANISH CULTURE: APPROACHES OF SPANISH RESEARCHERS.....56

Laman Samadova (AUL)
THE FUNCTIONS OF THE METATEXT.....64

Yashar Ibrahimov (AUL)
MEANS OF EXPRESSING THE ACCUSATIVE CASE IN JAPANESE IN AZERBAIJANI.....69

Munavvar Zeynalova (AUL)
THE DEVELOPMENT AND EXPANSION OF ADOLESCENT SOCIAL DIALECTS (BASED ON PENELOPE ECKERT'S RESEARCH).....75

K*amala Dunyamaliyeva (AUL)*
DIGITAL COMMUNICATION AND THE PROCESS OF LEXICAL SIMPLIFICATION.....81

Gulnar Khalilova (Odlar Yurdu University)
VARIOUS FACTORS INFLUENCE THE EMERGENCE OF WORD ORDER PROTOTYPES IN THE LANGUAGES OF THE WORLD.....87

Zanura Talibova (BSU)
Turkay Verdiyeva (Academy of Public Administration under the President of the Republic of Azerbaijan)
PRESERVING THE AZERBAIJANI LANGUAGE IN PUBLIC RELATIONS: LANGUAGE POLICY IN THE CONTEXT OF NATIONAL IDENTITY.....96

Shamsinur Aslanova
THE STUDY OF DISCOURSE MARKERS FROM PRAGMATIC ASPECTS.....101

LITERATURE

Mehri Hanifayeva (ASOIU)
THE PROBLEM OF ARTIFICIAL INTELLIGENCE IN K. ISHIGURO'S NOVEL "CLARA AND THE SUN" IN THE CONTEXT OF POSTHUMANISM.....111

Ruzana Suleymanova (ASAU)
YUNUS EMRE'S LITERARY HERITAGE IN ENGLISH RESEARCH.....116

METHODICS

Narmina Rajabova (BSU)
THE IMPORTANCE OF GRAMMAR IN THE PROCESS OF TEACHING THE ENGLISH LANGUAGE.....123

PEDAGOGICS

Afet İsrayılova (AUL)
MODERN PROBLEMS OF INCLUSIVE EDUCATION.....129

Oyuga Norman Anyinyo (BSU)
ARTIFICIAL INTELLIGENCE AS A PREDICTOR OF EMERGING SOCIAL STRATIFICATION IN HIGHER EDUCATION.....134

Vafa Taghizade (BSU)
STRATEGY FOR INTEGRATING MULTIMEDIA TECHNOLOGIES INTO THE LANGUAGE EDUCATION SYSTEM (ON THE EXAMPLE OF TEACHING RUSSIAN AS A FOREIGN LANGUAGE).....140

PSYCHOLOGY

Shelale Babayeva (AUL)
SOCIAL IMPACT IN CULTURAL CONTEXT.....150

Ceyhun Alıev, Jasur Gulamov (AUL, Uzbek State University of World Languages)
DIGITAL TECHNOLOGIES AS A TOOL FOR DEVELOPING LEARNER`S PERSONAL RESPONSIBILITY).....156

Gulnur Abbasova (AUL)
USE OF SOME GENERAL AND SPECIFIC METHODS IN PSYCHOLOGICAL RESEARCH.....162

Mushfiq Mustafayev, Shafaq Shahmammadova, Ramin Allahverdiyev, Daniz Shiraliyeva, Shamsinur Huseynova (BSU, AUL, Kharabakh University, BSU, BSU)
THE RELATIONSHIP BETWEEN TYPES OF ATTACHMENT AND SUBSTANCE USE DISORDERS: A PSYCHOLOGICAL AND CLINICAL APPROACH.....169

SOCIAL SCIENCES

Afaq Ismayılova (AUL)
SUICIDE IN AZERBAIJAN AND ITS MAIN CAUSES.....185

Matanat Yusifova (MSU)
AN OVERVIEW OF THE HISTORY OF AZERBAIJAN'S ECONOMIC AND POLITICAL RELATIONS WITH RUSSIA AND TURKEY.....191

MEDICAL SCIENCES

Yegana Mammadova (AUL)
WATER MEANS LIFE.....197

Ziyafat Rafiyeva (AUL)
"ECOLOGICAL CULTURE OF THE FUTURE, TECHNOLOGY, AND EDUCATION".....201

BIG NAMES

NURADDIN KAZIMOV – 100.....207

REVIEWS

Nizami Jafarov – MODERN INTERPRETATION OF THE ANCIENT EPIC…..211

UNIVERSITY LIFE.....214

ОГЛАВЛЕНИЕ

ЛИНГВИСТИКА

Чингиз Карашарлы (АУЯ)
ЯВЛЯЕТСЯ ЛИ АЛТАЙ РОДИНОЙ ТЮРКОВ? 14

Афина Гусейнова (БСУ)
СИНТАКСИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ВЫРАЗИТЕЛЬНЫХ СРЕДСТВ КОНЦЕПТА КУЛЬТУРНОЙ ИДЕНТИЧНОСТИ.....21

Фикрет Джахангиров (БСУ)
МОДАЛЬНОСТЬ И НЕЧЕТКАЯ ЛОГИКА.....27

Рамиля Гусейнова (АУЯ)
СОЦИАЛЬНЫЕ И КОММУНИКАТИВНЫЕ СИТУАЦИИ И ИХ РОЛЬ В ФОРМИРОВАНИИ ДИСКУРСИВНЫХ ПРАКТИК.....35

Марям Абдуллаева (АУЯ)
ЗАКОНОДАТЕЛЬНЫЙ ТЕКСТ И ЮРИДИЧЕСКИЙ ДИСКУРС: ПРОБЛЕМЫ, ПЕРСПЕКТИВЫ.....41

Лейла Сеидова (АУЯ)
ФОНЕТИКО-ФОНОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ АМЕРИКАНСКОГО И БРИТАНСКОГО АНГЛИЙСКОГО.....47

Наргиз Каримова (МГУ)
АНАЛИЗ СТРУКТУРНЫХ, СЕМАНТИЧЕСКИХ И ФУНКЦИОНАЛЬНЫХ ОСОБЕННОСТЕЙ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ В АНГЛОЯЗЫЧНОМ МЕДИАДИСКУРСЕ.....52

Нармина Маммедова (БГУ)
ВЛИЯНИЕ ГЕНДЕРНЫХ РОЛЕЙ НА ЯЗЫК И РЕЧЬ В ИСПАНСКОЙ КУЛЬТУРЕ: ПОДХОДЫ ИСПАНСКИХ ИССЛЕДОВАТЕЛЕЙ.....56

Ляман Самедова (АУЯ)
МЕТАТЕКСТОВЫЕ ФУНКЦИИ РЕЗЮМЕ.....64

Яшар Ибрагимов (АУЯ)
СРЕДСТВА ВЫРАЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ ВИНИТЕЛЬНОГО ПАДЕЖА В ЯПОНСКОМ ЯЗЫКЕ.....69

Мунаввар Зейналова (АУЯ)
РАЗВИТИЕ И РАСШИРЕНИЕ СОЦИАЛЬНЫХ ДИАЛЕКТОВ ПОДРОСТКОВ (НА ОСНОВЕ ИССЛЕДОВАНИЙ ПЕНЕЛОПЫ ЭККЕРТ) 75

Камала Дуньямалыева (АУЯ)
ЦИФРОВАЯ КОММУНИКАЦИЯ И ПРОЦЕСС ЛЕКСИЧЕСКОГО УПРОЩЕНИЯ.....81

Гюльнар Халилова (Университет Одлар Юрду)
МНОГОЧИСЛЕННЫЕ ФАКТОРЫ ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ПРОТОТИПОВ ПОРЯДКА СЛОВ В МИРОВЫХ ЯЗЫКАХ.....87

Занура Талыбова (БГУ)
Тюркай Вердиева (Академия государственного управления при Президенте Азербайджанской Республики)
СОХРАНЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В СФЕРЕ СВЯЗЕЙ С ОБЩЕСТВЕННОСТЬЮ: ЯЗЫКОВАЯ ПОЛИТИКА В КОНТЕКСТЕ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ..... 96

Шамсинур Асланова
ИЗУЧЕНИЕ ДИСКУРСИВНЫХ МАРКЕРОВ С ПРАГМАТИЧЕСКОЙ ТОЧКИ ЗРЕНИЯ.....101

ЛИТЕРАТУРА

Мехри Ганифаева (АГУНП)
ПРОБЛЕМА ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В РОМАНЕ К. ИСИГУРО «КЛАРА И СОЛНЦЕ» В КОНТЕКСТЕ ПОСТГУМАНИЗМА.....111

Рузана Сулейманова (АГАУ)
ЛИТЕРАТУРНОЕ НАСЛЕДИЕ ЮНУСА ЭМРЕ В АНГЛОЯЗЫЧНЫХ ИССЛЕДОВАНИЯХ.....126

МЕТОДИКА

Нармина Раджабова (БГУ)
ЗНАЧЕНИЕ ГРАММАТИКИ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА.....123

ПЕДАГОГИКА

Афет Исраилова (АУЯ)
СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ.....129

Ойуга Норман Аньиньо (БГУ)
ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ КАК ПРЕДИКТОР ФОРМИРУЮЩЕЙСЯ СОЦИАЛЬНОЙ СТРАТИФИКАЦИИ В ВЫСШЕМ ОБРАЗОВАНИИ.....134

Вэфа Тагизаде (БСУ)
СТРАТЕГИЯ ИНТЕГРАЦИИ МУЛЬТИМЕДИА ТЕХНОЛОГИЙ В СИСТЕМУ ЯЗЫКОВОГО ОБРАЗОВАНИЯ (НА ПРИМЕРЕ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ).....140

ПСИХОЛОГИЯ

Шелале Бабаева (АУЯ)
СОЦИАЛЬНОЕ ВОЗДЕЙСТВИЕ В КУЛЬТУРНОМ КОНТЕКСТЕ.....150

Джейхун Алыев, Жасур Гуламов (АУЯ, УзГУМЯ)
ЦИФРОВЫЕ ТЕХНОЛОГИИ КАК СРЕДСТВО РАЗВИТИЯ ОТВЕТСТВЕННОСТИ ЛИЧНОСТИ ОБУЧАЮЩЕГОСЯ.....156

Гюльнур Аббасова (АУЯ)
ИСПОЛЬЗОВАНИЕ НЕКОТОРЫХ ОБЩИХ И СПЕЦИАЛЬНЫХ МЕТОДОВ В ПСИХОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ.....162

Мушвиг Мустафаев, Шафака Шахмеммедова, Рамин Аллахвердиев, Ширалиева Дениз, Хусейнова Шемсинур (АУЯ)
ВЗАИМОСВЯЗЬ МЕЖДУ ТИПАМИ ПРИВЯЗАННОСТИ И РАССТРОЙСТВАМИ, СВЯЗАННЫМИ С УПОТРЕБЛЕНИЕМ ПСИХОАКТИВНЫХ ВЕЩЕСТВ: ПСИХОЛОГИЧЕСКИЙ И КЛИНИЧЕСКИЙ ПОДХОД.....169

СОЦИАЛЬНЫЕ НАУКИ

Афаг Исмаилова (АУЯ)
СУИЦИД В АЗЕРБАЙДЖАНЕ И ЕГО ОСНОВНЫЕ ПРИЧИНЫ.....185

Метанет Юсифова (МГУ)
ОБЗОР ИСТОРИИ ЭКОНОМИЧЕСКИХ И ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНА С РОССИЕЙ И ТУРЦИЕЙ.....191

МЕДИЦИНСКИЕ НАУКИ

Егана Мамедова (АУЯ)
ВОДА – ЭТО ЖИЗНЬ.....197

Зияфат Рафиева (АУЯ)
ЭКОЛОГИЧЕСКАЯ КУЛЬТУРА БУДУЩЕГО, ТЕХНОЛОГИИ И ОБРАЗОВАНИЕ.....201

ПЕРСОНАЛИИ

НУРАДДИН КАЗИМОВ – 100.....207

РЕЦЕНЗИИ

Низами Джафаров – СОВРЕМЕННОЕ ОСМЫСЛЕНИЕ ДРЕВНЕГО ЭПОСА.....211

ХРОНИКА.....214

DİLÇİLİK

Çingiz Qaraşarlı
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1001

TÜRKLƏRİN VƏTƏNİ ALTAYDIRMI?

Açar sözlər: *Türklər, Altay nəzəriyyəsi, nostratika nəzəriyyəsi, Cənubi Azərbaycan, qədim türk dövlətləri*
Keywords: *Turks, Altaic theory, Nostratic theory, bouth Azerbaijan, Old Turkic states*
Ключевые слова: *турки, алтайская теория, ностратическая теория, Южный Азербайджан, древнетюркские государства.*

Avrasiya xalqlarının ortaq vətəni: Mesopotamiya

Türklərin hindavropalılarla, samilərlə, qafqazdillilərlə, uqro-finlərlə və digər nostratik xalqlarla eyni mənşəli olduqlarını sübut edən zəngin dil materialı vardır. İlkin olaraq diqqəti cəlb etmiş ümumi şəxs əvəzliklərinə nəzər salaq: Məsələn, Ural dillərinə aid mordva dilindəki **mon, ton, son** (“mən”, “sən”, “o”) şəxs əvəzlikləri ilə hind-Avropa mənşəli fransız dilindəki **mon, ton, son** (“mənim”, “sənin”, “onun”) yiyəlik əvəzlikləri tam üst-üstə düşür.

Mon (“mən”) şəxs əvəzliyinin fərqli fonetik şəkli olan **mən/men** türk dillərində, **me** ingilis və gürcü dillərində, **mne, menya** rus dilində işlənir.

Fərqli dil ailələrində aşkar olunan minlərcə ümumi söz köklərindən sadəcə kiçik bir qrupuna nəzər salaq. Misal üçün, fərqli dil ailələrində “boz” rəng anlayışı **bor/boz** (türk), **bora** (sami-hami), **bowra** (hind-Avropa), “yaxın” anlayışı **yak(ın)** (türk), **dak** (sami-hami), **daqa** (monqol), “qalmaq”, “yandırmaq” anlayışı **kalu** (sami-hami), **kalu** (dravid), **qala/kala** (türk), “işıq saçmaq”, “isti” anlayışları **tulannu** (dravid) **dulaqan** (monqol), **tule** (uqrofin), “vurmaq” anlayışı **thef/tep** (hind-Avropa), **tph/tbh** (sami-hami), **tep/tap** (türk), “parlaq”, “parlamaq” anlayışları **yaru** (qədim türk), **yarkiy** (rus), **eri** (dravid) sözləri ilə ifadə olunur (Иллич Свитыч, s.1).

Hətta dilçi olmayan hər bir şəxs fərqli dünya dillərində “parlamaq”, “işıq” mənalı sözlərin bir çoxunda “s” samitinin işləndiyini aydın görə bilər: “işıq”, “işıldamaq” (Azərbaycan dilində), “shine” (ingiliscə), “şüa” (ərəbcə) və b.

Digər bir fonetik əlaməti – **v** samiti ilə başlanan latın sözləri **o/ö/u/ü** ilə başlanan türk sözləri arasında görürük:

latın	**qədim türk**
volo “ovuc”, “daban”	**ul** “daban”

voco “çağırmaq”, “adlandırmaq” **okı** “çağırmaq”, “adlandırmaq”
voc “səs”, “söz” **ok** “səs”, “söz”
vulgo “çox” **uluq** “böyük” və s.

Eyni sözlərin fonetik variantları fərqli dil ailələrində də müşahidə olunur.

Türklərin Asiya mənşəli olub, Azərbaycana, Kiçik Asiyaya yeni eranın ortalarında gəldiklərini iddia edənlər bu suala cavab verməlidirlər: Hindavropalılarla, fin-uqorlarla, dravid və samilərlə çox qədim dil qohumluğuna malik olan türklər Asiya (Altay) mənşəli ola bilərlərmi?

Bu sualın gerçək cavabını məhz nostratik dilçilik nəzəriyyəsində tapırıq. Bu nəzəriyyəyə görə, türklər də daxil olmaqla bütün Avrasiya xalqlarının ulu vətəni Ön Asiya, Dəclə və Fərat çayları arasındakı ərazi olmuş, e.ə. XII minillikdən başlayaraq, türk, sami, hindavropalı və digər xalqların əcdadları tədricən fərqli qitələrə yayılmış və onların danışdıqları ulu dil əsasında fərqli dil ailələri meydana çıxmışdır.

Nostratika nəzəriyyəsindən çıxan nəticə budur ki, türklərin də əcdadları ilkin olaraq Dəclə-Fərat çayları arasında yaşamışlar.

İngilis alimləri İ.Lloyd və Q.Çayld turanlıların on-on iki min il öncə Dəclə-Fərat çayları arasında yaşadıqlarını və burada qədim sivilizasiyaların yaranmasında böyük rol oynadıqlarını yazırlar (Kazımov, s.57).

Urmiya gölü hövzəsində qədim türk dövlətləri

E.ə.XII minillikdə samilərdən, hindavropalılardan və başqalarından təcrid olunan turanlıların bir qismi qərbdə balkanlara, şərqdə Çin və yapon sərhədlərinədək irəliləmiş, onların bir qismi isə ulu vətəndə – Ön Asiyada qalmış (Q.Kazımov) və bu ərazidə baş vermiş tarixi hadisələrdə iştirak etmişdilər. Məsələn, e.ə. 2200-ci illərdə yazılmış Sarqonun daş kitabələrində **turkilərin** adı çəkilir, onların adı Akkad kralı Naram Sinə qarşı savaş aparan xalqların ittifaqında hallanır (S.Bayram, s.92).

Güney Azərbaycan ərazisində e.ə. III-II minilliklərdə Turukki, Aratta, Kuti və başqa dövlətləri quranlar ulu vətəndə – Ön Asiyada qalmış türklərin nəsilləri idilər. Bu dövlətlərin onomastikasındakı türk adları, eləcə də onların dilindən regionun digər qədim dillərinə daxil olmuş türkizmlər türklərin Ön Asiyanın erkən sakinlərindən olduqlarına əyani sübutdur.

Beş min il öncə Ön Asiyada danışılmış şumer dilindəki çox sayda türkizmlər görkəmli tədqiqatçıların (T.Hacıyev, A.Məmmədov, O.Suleymenov, I.Dyakonov) diqqətini cəlb etmişdir: **eşti** “eşitmək”, **ev** “ev”, **qulşe** “gülüş”, **deş** “deşik”, **uş-us** “ağıl”, **izi** “isti”, **kaş** “qaçmaq”, **aştar** “açar” **bar** “bardaq”, **de** “demək”, **be** “bəy”, **qum** “qum”, **dingir** – tenqri (“tanrı”), **udun** “odun” və b. (B.Tuncay, 2009).

E.ə. XXIV-XII əsrlərdə Dəclə-Fərat çayları arasında yaşamış akkadların dilində türkizmlər olduqca çoxdur: **tinqri** “tanrı” **qoru** “qorumaq”, **orman** “orman”, “meşə”, **boyun** “boyun”, **talaş** “dalaşmaq”, **eriş** “erişmək”, “çatmaq”. **qonum-qonşu** “qonşu”, “qohum”, **kızıl** “qızıl”, “qırmızı”, **qoşa** “qoşa”, **qudur** “qudurmaq”, **yağı** “düşmən”, **bars** “bars”, **yaru** “parlamaq”, **tedirgin** “rahatsız”, **artğu** “artıq” və b. (E.Alili)

Güney Azərbaycanın qədim dövlətləri ilə qonşuluqda yaşamış elamlıların dilində **ikə** “qardaş” (türk **ike** “böyük qardaş”), **kuti** “güdmək”, **kik** “göy”, “qök”, **şak** “uşaq” və b., urartların dilində isə **ate** “ata”, **töran** qədim türk **töri** “qayda”, “qanun”, **surə** “silah”, “türk” **sur** “cida”, **ərşə** “cavan”, azərbaycanca **ərsə** “cavan”, **e** “ev” və b. türkizmlər vardı (Q.Kazımov).

Ön Asiyanın ölü dillərindəki türkizmlərin şumer, akkad, elam və urartların dillərinə qonşuluqda yaşamış turanlıların dilindən alına bilərdi və bu isə türklərin hazırda İran adlanan ölkənin ərazisinə guya son çağlarda gələrək, yerli "irandilli" əhalini türkləşdirməsinə dair fikrə ziddir.

Güney Azərbaycan ərazisində e.ə. III-I minilliklərdə mövcud olmuş Aratta, Kuti, Turukki, Manna və Midiyanın türk onomastikası da türk etnosunun bu ərazidə farslardan bir neçə min il öncə yaşadıqlarını göstərir.

Dağlıq ölkə olan **Arattanın** adı şummer-akkad lüğətində qeyd olunan **arattu** ("dağ") və qədim türkcədəki **art** ("dağ", "dağlıq") sözü ilə eyni mənşəlidir. E.ə. VIII əsrdə Urartu qaynaqları Aratta ərazisini **Alatey** adlandırmış və ona "dağ" mənasını vermişdi. Turanlıların Orta Asiyaya köç edən hissəsi bu adı **Alatay/Altay** şəklində özlərinin yeni yurdlarından birinə – Altaya aparmışlar (Azərbaycan tarixi, 2011).

Güney Azərbaycan ərazilərində e.ə. III-I minilliklərə aid mənbələrdə **kuti/quti** adlı tayfadan danışılır. B.Landsberger kutilərin türk mənşəli olduğunu, kuti adının quz/oquz etnoniminin fonetik variantı olduğunu qəbul edir (Türk tarihinin ana hatları, s.363-365).

Kutilərin onomastikası onların türk olduğunu göstərən mühüm dəlillərdir:

Kutilərə aid **Yarlaq, Kurum, Elulumeş** hökmdar adları qədim türk etnonimiyasında yaxın qarşılıqlara malikdir. **Elulumeş** şəxs alı el ("ölkə") və ulula ("ucalt", "yüksəlt") sözlərindən ibarət olub "ölkəni ucaldan" mənasındadır. Adın hər iki hissəsi türklərdə ayrıca şəxs adları kimi işlənmişdir: **El, Ulula** ("ucalt").

Kutilərə məxsus **Kurum** qədim türklərə aid **Kurum** ("düzən") şəxs adıdır.

Cənubi Azərbaycan ərazisində e.ə. II minillikdə yaşamış **kassilərin** aşkar türkcə olan şəxs adları diqqəti çəkir:

Kadaş, kassı çarı türklərə aid **Kadaş** ("dost", "yaxın") şəxs adı;

Kadaşman, kassı kral adı. **Kadaş** sözündən və türkcə keyfiyyət bildirən – **man** şəkilçisindən ibarətdir. Qədim tatar və başqırd şəxs adları arasındakı **Kodaş, Kodaşman** eyni şəxs adlarıdır.

Kadaşman Turgu kassi kral adının ilk hissəsi (Kadaşman) kimi, **Turqu** da türklərdə şəxs adıdır: **Turku** "atəşli", "həyəcanlı".

Kara-Xardaş kassi kral adı türkcədəki **kara** ("qara") və **qardaş** sözlərindəndir və hər iki söz türklərdə ayrıca şəxs adları kimi indi də işlənməkdədir: **Qara/Kara, Kardaş.**

Kartaş şəxs adını qədimdə iskitlər də işlətmişlər.

Kandaş kassi kral adı qədim türkcədəki **kandaş** ("atadan bir qardaş") sözündəndir.

Kariantaş kassi kral adı isə türk dillərindəki **Karındaş** ("qardaş") şəxs adının eynidir.

Karzi – yabku kassi adının ikinci hissəsi (yabku) türklərə aid yabğu ("tayfa başçısı", "hökmdar") sözüdür.

E.ə. II minillikdə kassilər bu türk adlarını daşıyarkən, arilər (hazırkı farsların ataları) hələ bu əraziləri işğal etməmişdilər.

Urmu gölü hövzəsində e.ə. III-II minilliklərdə qeydə alınmış **turukkular** e.ə. 2200-cü illərdə yazılmış Sarqonun daş kitabələrindəki **turkilər** idi. Onların adı Akkad kralı Naram-Sinə qarşı savaş aparan xalqların siyahısında xatırlanır (S.Bayram).

Turukki/turki xalqının türklər olduğunu prakrit (qədim hind) dilindəki **turukka** etnonimi aşkar olaraq sübut edir. Bu mənbədə turukular türkləri bildirirdi.

Assur mənbələrində turukkilərlə yanaşı regionda yaşayan **kumen/kuman, qaşqay, tirgiş** (turkeş), **kanqar, subar, kimmer** və s. etnonimlər xatırlanır. Oxşar etnonimlər məhz qədim türklərə aid olmuşdur. Bütün qədim mənbələrdən və çağdaş türk xalqlarının onomastikasından bu etnonimlərin türklərə aid olduğu bəllidr.

Urmu gölü ətrafında yaranmış **Aratta, Kuti, Lullubi** dövlətlərinin bir zaman mövcud olduğu ərazilərdə e.ə. I minillikdə **Manna** dövləti yaranır. Mannalıların yaşadıqları ərazilər qədim türkcə idi: **Alateye** ("alatau", "aladağ"), **Gizilbuda** (qızılbud "qızıl/qırmızı təpə"), **Hundur** ("hündür"), **Durdukka** (durduk "duracaq"), **Gilzən** (**göl-özən** "göl-çay"), **Ereşteyena** ("Araz döyən") və b. (Q.Kazımov).

Mannalıların daşıdıqları **Aza, Ata, Erisin** hökmdar adları qədim türklərə aid **Aza, Ata, Ersin** şəxs adlarının eynidir (Öz Türkçe Erkek İsimleri).

Manna hökmdarı **Ullusunu** qədim türkcədəki ulu "böyük və sun" ("adam") sözlərindən, **Telusin** isə qədim türkcədəki **teli** "igid" və **sin/sun** ("adam") sözlərindən ibarətdir.

E.ə. I minillikdə eyni ərazidə yaranmış **Maday** türk dövləti (qədim yunancadakı təhrif olunmuş **Midia**) qazaxların etnik tərkibində əsas yer tutmuş maday tayfası ilə bağlıdır (Guliyeva, 2011). Assuriya mixi yazılarında bu ölkə əslinə yaxın şəkildə – **Madayya** adlanırdı. Dini həyatında **qamların** (şamanların) aparıcı yer tutduğu Maday ölkəsində işğalçı farslara qarşı vuruşmuş hökmdar **Qamata/Qaumata** ("qam ata") Herodot tərəfindən **mağ** ("şaman") kimi təsvir olunur (Q.Kazımov, s.263).

Qamata qədim türklərdəki eyni mənalı **Atakam** şəxs adının dəyişik şəklidir.

Madaylar (midiyalılar) qədim türkcə adlanan şəhərlərdə yaşayırdılar: **Uştaşay** ("üç daş"), **Taştami** ("daş dam"), **Künduran** ("gün duran"), **Kintau** ("qala dağ", **kin**-qədim türkcə "qala") ("Azərbaycan tarixi", 2011).

Madayların ("midiyalılar") "İncil"də, "Tövrat"da, eləcə də M.Kalankatuklunun "Alban" tarixində Yafətin oğulları (Gomer, Tiras və b.) arasında yer alır, Qomer, Tiras, Aşkenaz və b. mifik adlar isə qədim Avropa və türk şəcərələrində hun, bulqar, iskit və digər türklərin əcdadları sayılır (Kalankatuklu, s.17).

E.ə. 550-ci ildə Maday dövləti Əhəmənilər tərəfindən işğal olunsa da (as.wikipedia.org/wiki/ (Midiya dövləti), e.ə.338-ci ildə Əhəməni dövləti süqut etdi və bu ərazidə yeni türk dövləti (Atropatena) yarandı.

Eramızdan əvvəl III-I minilliklər arasında Cənubi Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin türk onomastikasını görməzdən gələn tədqiqatçılar türklərin gəlmə olduqlarına dair qeyri-elmi ideyanı həm də Şimali Azərbaycan (Qafqaz Albaniyası) tarixinə tətbiq edirlər.

Qafqaz albanları kim idi?

Bu sualın cavabını ilkin olaraq VII əsr alban müəllifi M.Kalankatuklunun "Alban tarixi" adlı əsərində tapmaq olur. O, albanların Qamar (Kimmer) nəslindən olduğunu və albanlara qohum olan xalqların şimalda yaşadıqlarını yazır ki, bu da onun xalqının etnik mənşəyi haqqında parlaq təsəvvür yaradır. "Alban tarixi" müəllifinin haqqında danışdığı şimal xalqları məhz kimmerlər, iskitlər, hunlar, bulqarlar və başqa türklər idilər.

Hazırda da yaşamaqda olan albanlara qazax, özbək, uyqur və qırğızların etnik tərkibində rast gəlinir. Qədim çağlarda isə onlar daha geniş yayılmışdılar. VI əsr müəllifi lordanın yazdığına görə, albanlar ilə iskitlər Türküstan ilə Çin arasında geniş ərazilərdə yaşayırdılar [B.Tuncay, 2009, s.13].

Yalnız albanları deyil, Albaniyanın digər böyük tayfası olmuş **qarqarları** da məhz türk xalqlarının tərkibində və onomastikasında aşkar edirik. Qarqarların türk xalqları ilə bağlılığı Orta Asiyanın onomastikasında aydın əks olunur. Qədim kimaklara aid **Qarqarxan** vilayət adı, türkmənlərin tərkibində **qarqar** etnonimi, (B.Tuncay, 2009, s.79-81) və digər adlar da qarqarların etnik mənşəyinin türklərlə bağlı olduğunu göstərir.

Beləliklə, Albaniya ərazisindəki iki aparıcı etnik qrupun-**alban** və **qarqarların** həm də Orta Asiyanın etnik keçmişində yer alması onların türk mənşəli olduğuna dəlalət edir. Lakin onomastika albanların türk mənşəli olduqlarını göstərən yeganə mənbə deyildir.

Qafqaz albanlarının türkcə gəlib çatmış ədəbiyyatı

Erməni əlifbasında, lakin qıpçaq dilində aşkar olunmuş minlərlə yazıların məhz qarqar-qıpçaqlara aid olduğu B.Tuncay tərəfindən sübut olunur. O, ilk dəfə olaraq XII əsr alban maarifçisi Mxitar Qoşun "Törə bitiki" ("Qanunlar toplusu") adlı kitabının bütöv bir parçasının və eyni çağa aid alban müəllifi Kirakos Gəncəlinin "Tarix" kitabının II fəslinə aid bütöv bir hissənin qıpçaq dilində yazılmış variantını aşkar edərək, hər iki müəllifin erməni deyil, alban olduqlarını sübut edir. Əslində ermənilərin öz müəllifləri kimi təqdim etdikləri Mxitar Qoş və Kirakos Gəncəli özlərini alban, Albaniyanı isə "bizim alban ölkəsi" adlandırmışlar [B.Tuncay, 2010, s.3].

Mxitar Qoşun "Töre bitiki" əsərindən bizə gəlib çatmış albanca (qıpçaqca) hissələrdəki dualar Azərbaycan dilində tamamilə anlaşılır:

Ari Canı Krisdosnunq
arıt meni Teni Krisdosnunq
saxla meni Kanı Krisdosnunq
içir meni köksünden çıxan suvu, tümüzle meni
Tərcüməsi:
"Kristosun arı (təmiz) ruhu,
arıt (təmizlə) məni Krisdosun təni,
saxla məni Krisdosun qanı
içir məni, köksündən çıxan suyu, təmizlə məni"
"Alğış Tenqriqe" ("Tanrıya alqış") adlı alban duasında deyilir:
Nerses qatoliqosun aytkanı
İnam bile tapunurman da
Yerni opermen sanqa
Ata oğul da Ari can
Tərcüməsi:
"Nerses katoliqosun söylədiyi
İnam ilə tapınıram, həm də
Yeri öpərəm sənin üçün
Ata, həm də oğul arı can (müqəddəs ruh) (Tuncay, 2010, s.27-28).

Qıpçaq türkcəsində səslənən və tamamilə anladığımız bu dualar bizim əcdadlarımız olan xristian alban-qıpçaqlara məxsusdur, yəni Şimali Azərbaycana türklərin ilk gəlişi, heç də iddia olunduğu kimi, yeni eranın XI əsrinə deyil, yeni eradan əvvəlki minilliklərə aiddir.

Nəticə. Türklərin Orta Asiya (Altay) mənşəli olub, Qərbə, o cümlədən də Azərbaycan ərazisinə yeni eranın ortalarından başlayaraq köçməcinə dair mövcud elmi nəzəriyyə nostratik dil faktları işığında təsdiq olunmur. XIX əsrdə yaranmış nostratik dilçilik türklər də daxil olmaqla bütün Avrasiya dillərinin eyni kökdən olduğunu, onların hamısının Mesopotamiyada mövcud olmuş ulu dildən yarandıqlarını aşkara çıxarır.

Bu halda Avrasiya dil ailələri ilə çox qədim ortaq dil təbəqəsinə malik olan türk dillərinin Altayda – Orta Asiyada meydana çıxması və onların Azərbaycan ərazisinə ilk gəlişinin yeni eranın XI əsrinə aid olması nəzəri baxımdan mümkün deyildir və bu səbəbdən də Mesopotamiya və qonşu Azərbaycan ərazilərində mövcud olmuş qədim dövlətlərin türk mənşəli olmadıqlarını iddia etmək qeyri-elmidir.

Ədəbiyyat:

1. Alili, E. (2015). Akkadcada Türkçe izleri ve dil kuralları ışığında Akkadca ve Türkçe dilleri arasında bağlar. Türk Dünya Kültür Araştırmaları Dergisi, (2), Haziran.
2. Azərbaycan tarixi. (2011). Bakı: Çıraq naşriyyatı.
3. Bayram, S. (1988). Kaynaklara göre Güney-Doğu Anadolu'da Prototürk izleri. Türk Dünyası Araştırmaları Vakfı.
4. Геродот. (1972). История в девяти книгах. Ленинград: Наука.
5. Древнетюркский словарь. (1961). Ленинград: Наука.
6. Kalankatuklu, M., & Gosh, M. (2006). Albaniya tarixi; Alban salnaməsi. Bakı: Avrasiya Press.
7. Kazımov, Q. (2003). Azərbaycan dilinin tarixi. Bakı: Təhsil.
8. Иллич-Свитыч, В. М. (1971). Опыт сравнения ностратических языков. Сравнительный словарь. Москва: Наука.
9. Öz Türkçe Erkek İsimleri-Türk Tarihi. (n.d.). https://www.turktarihim.com
10. Tuncay, B. (2009). Sakların tarixi və ədəbiyyatı. Bakı.
11. Tuncay, B. (2010). Qafqaz albanlarının dili və ədəbiyyatı. Bakı: Qanun nəşriyyatı.
12. Türk tarihinin ana hatları. (1930). İstanbul: Devlet Matbası.
13. Mediya dövləti. (n.d.). Wikipedia https://as.wikipedia.org/wiki/Midiya_dövləti

Chingiz Qarasharlı

Summary

IS ALTAY THE MOTHERLAND OF THE TURKS?

The traditional theory about Altaic origins of the Turks and the allegence that the first appearance of the Turks was connected with their westward migrations of the Middle Ages, contradict the nostratic theory. According to the the nostraties, all Euro-Asian language families including the Turkic languages have an ancient relationship, originating from their common mesopotamian ancestry.

This approach has been proved with ancestry thousands of common lexico-morphological element found in Altaic, Indo-European, Semito-Hamitic, Caucasian~ Kartvelian, Dravidian and other languages.

The linguistic layer common for all these language families are found in a great number of researches, provided by European linguists.

This linguistic layer is so evident that even the people, not having a linguistic background, can easily see this common layer, proving the common roots of different language families.

Чингиз Карашарлы

Резюме

ЯВЛЯЕТСЯ ЛИ АЛТАЙ РОДИНОЙ ТЮРКОВ?

Теория об алтайском происхождении тюрков и вымысел о раннем появлении тюрков на Западе в средние века, противоречат ностратической теории о дальнем родстве языковых семей, включая алтайскую.

В ностратике доказывается генетическое родство шести языковых семей: индоевропейской, семитохамитской, алтайской, уральской, кавказо-картвельской и дравидийской, устанавливаются общие лексико-морфо-логические элементы во всех ностратических языках.

Согласно этой лингвистической теории, общие предки носителей ностратических языков, жившие в Месопотамии около 10 тысячилетий назад начали миграцию на разные континенты где их языки подверглись постепенным изменениям.

Даже обыкновенному человеку вполне доступно увидеть общность множества древнейщих языковых единиц, в том числе личных и притяжательных местоимений в современных языковых семьях, заимствование которых из одного языка в другой практически исключается. Очевидное родство тюркских языков с другими языками Евразии исключает традиционную идею о среднеазиатском происхождении тюрков.

Rəyçi:prof.A.Y.Məmmədov

Afina Hüseynova
Bakı Slavyan Universiteti
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1004

MƏDƏNİ KİMLİK KONSEPTİNİN İFADƏ RESURSLARININ SİNTAKTİK MODELLƏŞDİRMƏSİ

Açar sözlər: *mədəni kimlik konsepti, ifadə resursları, sintaktik modellər, avto-identifikasiya, kimliyin prezentasiyası.*

Keywords: *concept of cultural identity, expressive means, syntactic models, self-identification, identity presentation.*

Ключевые слова: *концепт культурной идентичности, выразительные средства, синтаксические модели, самоидентификация, презентация идентичности.*

Giriş. Müasir koqnitiv dilçiliyin tədqiqat istiqamətlərinin genişlənməsi bir sıra yeni araşdırma ən maraq doğuran istiqamətlərinin meydana çıxmasını mümkün etmişdi. Bu əsnada konseptual reallaşmanın sintaktik mexanizmləri və ya sintaktik konsept anlayışları xüsusi diqqətə layiqdir. Bu və ya digər konseptual məkanın reallaşması konkret leksik-frazeoloji vahidlərlə reallaşmaya bilər. Bəzən hər hansı bir konseptin leksik-frazeoloji inventarı olmayan sözlərin müvafiq sintaktik qəlibə düşməsi ilə həmin konseptual məkanın verballaşması mümkün olur. Bilavasitə, identiklik anlayışını ifadə etməsi qabarıq sezilməyən (yəni, konseptin semantik nüvəsinə və ya yaxın periferiyasına aid olmayan) leksik vahidlər müəyyən sintaktik qəlibə cəlb edilməklə identiklik anlamını ifadə edə bilirlər.

Son dövr araşdırmaları sintaktik səviyyəli konseptuallaşmanın dilin struktur imkanları sayəsində gerçəkləşən və bilateral (iki cinsli, iki tərəfli: həm struktur-sintaktik, həm də konseptual-idraki-koqnitiv) mahiyyətli idrak elemeneti kimi ortaya çıxır.[2 ; s.42-43].

İdentiklik konseptual məkanının qeyri-homogen (yekcins olmayan, yəni bu kontekstdə sadəcə bir dil səviyyəsinə aid olmayan) ifadə resursları əsasında nəşət tapması ilə seçilir. Dilin leksik-semantik səviyyəsində təzahür edən ifadə resursları sayəsində reallaşma ilə məhdudlaşmayan, daha qəliz verballaşma mexanizmlərinə malik olan ifadə resursları yer almaqdadır. Bu konseptin sistemli təhlili xüsusi sintaktik modellərin, bilavasitə, konseptual reallaşmaya xidmət etdiyini, onu müəyyən qəlib çərçivəsində reallaşdırdığını ortaya qoyur.

Əsas hissə. Azərbaycan və ingilis dillərinin materiallarına əsasən "İdentiklik – kimlik" konseptinin verballaşma mexanizmlərinin müqayisəli təhlili müəyyən qəlibləşmiş sintaktik konstruksiyaların mövcudluğunu təsbit etməyə imkan verir.

Maraqlıdır ki, həmin sintaktik modellər öz yüksək tanınma əmsalı ilə seçilməklə, məhz müvafiq semantik sahəyə aidliyi sezdirə bilir, aidlik, identiklik, mədəni kimlik anlamının reallaşmasını gerçəkləşdirir.

Məsələn: *Mən bir müəllim olaraq, bunu təqdir edirəm // As a teacher, I appreciate this; Sən bir ana kimi buna etiraz etməli idin // As a mother, you should have objected to this*; *Bir vətəndaş kimi bu, mənim borcumdur // As a citizen, this is my duty*. Qeyd etdiyimiz nümunələrin sırasını ən fərqli peşə-sənət adları (bir həkim olaraq, bir bloger olaraq), gender identikliyi göstəriciləri (məsələn, *bir qadın kimi, kişi olaraq // as a woman, as a man*), yaş fərqliliyinə görə qarşılaşdırılan nəsil-yaş dönəmi nominativləri (*bir böyük kimi // bir ağsaqqal kimi // as an elder*), dini mənsubiyyət (*bir müsəlman olaraq, bir xristian kimliyinə malik şəxs kimi // as a Muslim, as a person with a Christian identity*) və s. bu kimi identikliklərlə davam etdirə bilərik. Yəni, bu leksik vahidlər (həkim, qadın, müsəlman və s.) özlüyündə fərqli konseptlərə aid olsa da,onların məhz verilmiş model çərçivəsində işlədilməsi həmin leksemləri identiklik konseptinin verballaşma resursları sırasına aid edir. Əslində, "peşə", "yaş", "gender", "din" və s. konseptlərinin ifadə resurslarını təcəssüm etdirən həmin leksik vahidlər, müvafiq sintaktik modelə daxil edilməklə, identiklik konseptinin reallaşmasının iştirakçısına çevrilir. Deməli, burada leksik vahidin deyil, sintaktik modelin identiklik konseptinə aidliyindən bəhs edilə bilər.

"*Bir yazıçı kimi mən özümü tənbəl adlandırardım*" [10]; "*Virginia Woolf – 'As a woman I have no country, as a woman I want no country, as a woman my country is the whole world ...*" [9].

Təqdim olunan nümunələrdən də aydınolur ki, müəyyən sintaktik model identiklik konseptinin semantik sahəsinin reallaşmasına xidmət edən struktur-semantik qəlib kimi ortaya çıxır. Ümumiyyətlə, bu və ya digər konseptin semantik sahənin reallaşmasında sintaktik modellərin iştirak amilinin dəyərləndirilməsi ilə bağlı linqvistik araşdırmalara diqqət verək.

Konseptlərin reallaşma formatlarının araşdırılması çərçivəsində aparılan son dövr tədqiqatlar, tam haqlı olaraq, bu və ya digər konseptual məkanın formalaşmasında leksik-semantik vahidlərlə yanaşı, semantik-sintaktik mahiyyətli strukturlaşmaların önəmli rol oynadığını da qeyd edilir. Konkret olaraq, O.A.Aktisova bədii mətn çərçivəsindəki konseptual reallaşmalarda xüsusi sintaktik modellərin əhəmiyyətli rol oynadığını qeyd etmişdi. [12 ; s.3], автореферат диссертации на соискание ученой степени кандидата филологических наук Волгоград – 2006, 26 с. ; с.3). Oxşar mövqedən çıxış edən digər dilçi – ingilis dilindəki sadə cümlə modelli sintaktik konsept reallaşmalarını araşdırmış S. Y. Kuzmina da hazır sintaktik qəliblərin bu və ya digər semantik sahə reallaşmalarında həlledici rol oynadığını ortaya qoymuşdu. Konkret olaraq, dilçi "*attribute of an object, location of an object, activity of an object, transfer of an object*" (obyektin atributu, yeri, fəaliyyəti, köçürülməsi) və s. bu kimi konseptləri struktur modellərlə reprezentasiya (təqdim) olunan semantik sahələr statusunda dəyərləndirir [14 ; s.26-27].

Avtoidentifikasiyanın (öz identikliyinin təqdimatının) semantik, praqmatik aspektlərini araşdırmış M.Lappo bununla bağlı fərqli ifadə resurslarından istifadə edildiyinə diqqət çəkmişdir. Dilçi danışanın öz identikfikasiyasının ifadə resursları çərçivəsində aktiv olan sintaktik modellərin mövcudluğunu təsbit etmiş və onların aşağıdakı formullar əsasında strukturlaşdırıldığını önə çəkmişdir: **Pron + cop + N** [15 ; s.85]. Burada **pron** – əvəzliyi ifadə edir, **cop** – isə bağlayıcı vasitəyə işarə edir, **N** – isə nominativ vahidi səciyyələndirir. Bu model M.Lapponun tədqiqat

apardığı rus dilinin sintaktik quruluşunda öz təsdiqini tapır. Məsələn, "***Я как президент,*** *обязан взять на себя полную ответственность.*" (Tərcümədə: ***Mən bir prezident olaraq****, bütün məsuliyyəti öz üzərimə götürməliyəm*).

Göründüyü kimi, burada biz, identifikasiyanın verbal təqdimatının sintaktik modelinin (eynilə M.Lapponun qeyd etdiyi kimi) ifadə tapdığını görürük. Burada birləşdirici funksiyanı ***как*** "kimi" bağlayıcısı ifadə edir. Analogiyadan çıxış etsək, ingilis dilində bənzər sintaktik konstruksiyada həmin funksiyanı **cop (as)+N** modeli ifadə edir. Məsələn, "*Seven things Trump says he will do as president.*" (Tərcümədə: "*Trampın, prezident olaraq edəcəyini söylədiyi yeddi şey*") [4]. Azərbaycan dilində bu sintaktik konstruksiya əksər hallarda **Pron+N+cop** modelinə uyğun gəlir. Ardıcıllığın fərqli olması, Azərbaycan dilinin sintaktik strukturlaşmasında fərqli söz sırasının qəlibləşməsi ilə şərtlənir. Göründüyü kimi, sintaktik konstruksiyada əvəzliyi və nominantiv vahidi əlaqələndirən komponent postpozisiyada (sintaktik modelin sonunda) yer alır. Məsələn: "***Mən Prezident kimi*** *bu illər ərzində əlimdən gələni edirdim*" [6].

Müqayisə üçün deyək ki, eyni konstruksiyanın ingilis dilində tərcüməsi əsasında apara biləcyimiz qarşılaşdırma onu deməyə əsas verir ki, burada əks istiqamətli sintaktik nizamlanma izlənilir: **cop+N+Pron.**"*I promise you,* ***as president I*** *will do my very best to listen and ensure transparency*". [3 ; s.1].

O da maraqlıdır ki, Azərbaycan dilində hər hansı bir diskursiv ortamla bağlı olaraq (məsələn, ailə, siyasi, təhsil diksursu və s.) identikfikasiya səciyyələndirməsi zamanı maraqlı sintaktik konstruksiya alternativi də müşahidə edilir. Belə ki, A.Hüseynovun, E.Hacıyevin araşdırmalarından da məlum olduğu kimi, dilimizdə bir sayı müxtəlif mövqelərdə müəyyənlik – qeyri-müəyyənlik kateoqriyasının (şərti anlamlı) ifadəsinə cəlb edilirlər. (Daha ətraflı bax: [13 ; s.91-97]). Buradakı şərtilik, heç şübhəsiz , Azərbaycan dilinin qrammatik sistemi üçün müəyyənlik – qeyri-müəyyənlik kateqoriyalarının eksplisit (aşkar) qrammatik təzahürünün səciyyəvi olmamasında qaynaqlanır.

"***Bir vətəndaş kimi, müəllim kimi*** *mənim düşündüklərim bunlardır*" [8; s.153]. Nümunədən də aydın göründüyü kimi, burada "bir" sayı müvafiq avtoidentifikasiya modeli çərçivəsində qeyri-müəyyənlik, abstraksiya (mücərrədlik) anlamının ifadəsinə xidmət edir. Yəni həmin sayın işlənməsi ilə sintaktik modeldə implisit şəkildə ifadə tapan şəxs göstəricisinin identiklik göstəricisindən fərqləndirildiyi mümkün olur: ümumən, vətəndaş anlayışı, klişeləşmiş müəllim anlayışı şəxsin kimliyi ilə qarşılaşdırılmaqla daxili hesabatı aparılır. Fərd həmin identiklik klişelərini bir ölçü vahidi, dəyərləndirmə şkalası kimi nəzərdən keçirir.Bu da öz növbəsində həmin sintaktik modelin aksioloji (qiymətləndirmə) potensialını ortaya qoyur.

Bu sintaktik modelləri həlledici müraciətlər, çıxış və andiçmə mətnləri çərçivəsində izləyə bilirik. "***Mən bir Prezident kimi****, ... bu prinsiplərə daim sadiq olacağam*" [1]; "***As President, I*** *will always defend the interests of every citizen...*" [11].

Birinci iqtibasda biz, Azərbaycan prezidenti Heydər Əliyevin 1993-cü ildəki andiçmə mərasimində çıxışındakı avtoidentifikasiya modelini izləyirik. Növbəti nümunədə isə hazırkı ABŞ prezidenti Donald Trampın Əmək günü ilə bağlı bəyənatının mətnindən iqtibas edilir. Hər iki halda sintaktik modelin aksioloji potensialından istifadə edilməklə, prezidentlik institutunun məsuliyyət və öhdəliklərinin ifadəsinə, yəni sosial identiklik hökmlülüyünün verballaşmasına yer verilir.

"***Mən qadın kimi*** *xoşbəxt ola bilmədim. Şükür ki,* ***ana, aktrisa kimi*** *xoşbəxtəm*" [7]. Təqdim olunan nümunədə isə fərqli identikliklərin kontekstual qarşılaşdırması, yəni kontekstual antonimlər kimi istifadə edilməsi müşahidə olunur. Bu zaman gender, ailə və peşə-sənət anlayışları ilə bağlı leksik vahidlər, məhz, haqqında danışdığımız sintaktik model sayəsində identiklik konseptinin ifadə sahəsinə daxil edilir.

M.Lappo identikliyin ifadəsinə yönəlik sintaktik modellərin yuxarıda qeyd olunan qəliblərlə məhdudlaşmadığını vurğulayır. Bu sıraya **Pron1 N1(a) və-həm N1(b)** sintaktik modelinin; eləcə də **Pron1 neg N1(a), N1(b)** sintaktik qəlibinin aid edilə bildiyini qeyd edir. [15; s.156]. Birinci modeldə fərqli identiklik aspektlərinin bir arada (eyni sintaktik model çərçivsəində) ifadəsi mümkün olur. Məsələn: *Mən həm ana, həm də sənətçi kimi bu məsələyə laqeyd qala bilmərəm // As a mother and an artist, (// As both a mother and an artist) I cannot remain indifferent to this issue*.

Digər modeldə isə qarşılaşdırma əsaslı identiklik dəqiqləşdirməsi aparılır. Məsələn: *Mən şuşalı, şəkili, naxçıvanlı deyiləm, mən azərbaycanlıyam*. Göründüyü kimi, burada identiklik qarşılaşdırması hiponim – hiperonim qarşılaşdırmasının situativ-kontekstual antonimliyi sayəsində mümkün olur. Xatırladaq ki, hiperonim daha böyük anlayışı (növü, cinsi və s.) əhatə etdiyi halda, hiponimlər ona daxil olan (həmin hiperonimə aid edilən) altnöv, cins, iyerarxik asılı olan anlayış və s. əhatə edir. Bu səbəbdən də həmin korelyasiya növü kvazisinonim (əsl mənada sinonim olmayıb, sinonimə bənzərlik daşıyan) səciyyəsi ilə seçilir. Sinonimiya paralellik (üfiqi) əsasında formalaşdığı halda, hiponim – hiperonim kvazisinonimlikliyi iyerarxik (şaquli) formatda bağlılıq nümayiş etdirir. Analoji hiponim – hiperonim qarşılaşdırmasını (kontekstual antonimliyini) aşağıdakı nümunədə izləyirik: "*I AM NOT A Jazz Musician; I AM A Musician*" (Tərcümədə: "*Mən caz musiqiçisi deyiləm, mən musiqiçiyəm*") [5]. Hər iki dildən gətirilən nümunədə biz, identiklik konseptinin sintaktik model əsasında reallaşma faktını izləyirik.

Nəticə. Məqalə çərçivəsində təqdim olunan nümunələr və bu əsnada aparılan təhlillər onu deməyə əsas verir ki, müasir koqnitiv dilçilik sahəsindəki araşdırmalar konsept anlayışının ənənəvi sərhədlərini daha da genişləndirərək, sintaktik konseptual həll mexanizmlərinin mövcudluğunu təsbit etmişdir. Konkret olaraq, identikliyin fərqli apsektli konseptual reallaşması kontekstində biz bir neçə sintaktik modelin işlək konseptual həll mexanizmi kimi çıxış etdiyini təsbit edə bilmişik.

Elmi yeniliyi. Tədqiqatda ilk dəfə Azərbaycan və ingilis dillərinin materiallarına istinadən "İdentiklik – kimlik" konseptinin verballaşma mexanizmlərində yer alan sintaktik kontruksiyaların – sintaktik konsept mahiyyəti müqayisəli şəkildə araşdırılmışdı.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin Andiçmə mərasimində nitqi. (1993, oktyabr 10). *Respublika* sarayı, Bakı. https://lib.aliyev-heritage.org/az/66679364.html
2. Babaşova, X. Ə. (2025). Sintaktik konsept cümlənin koqnitiv modelləşdirilməsi kontekstində. *Humanitar elmlərin öyrənilməsinin aktual problemləri*, (3), 39-45. https://mutercim.az/wp-content/uploads/2025/11/2025/5.pdf.pdf

3. Hedegaard, C. (2009, dekabr 6). Connie Hedegaard's speech at the COP15 opening session "Let's get it done" (4 pp.). https://unfccc.int/files/meetings/cop_15/statements/application/pdf/cop15-president_speech_final_061209.pdf
4. FitzGerald, J. (2024, noyabr 6). Seven things Trump says he will do as president. *BBC News*. https://www.bbc.com/news/articles/cev90d7wkk0o
5. Fabervibeman. (2012, aprel 8). I AM NOT A Jazz Musician; I AM A Musician, Who Loves Playing Jazz! *WordPress.com*. https://arnoldfabervibeman.wordpress.com/2012/04/08/i-am-not-a-jazz-musician-i-am-a-musician-who-loves-playing-jazz/
6. İlham Əliyev xalqa müraciət edib. (2020, noyabr 25). https://president.az/az/articles/view/47778
7. Lent.az. (2025, aprel 25). Qadın kimi xoşbəxt deyiləm, amma... – Xalq artisti ilə MÜSAHİBƏ. https://lent.az/xeber/medeniyyet/qadin-kimi-xosbext-deyilem-amma-xalq-artisti-ile-musahibe-40551849
8. Sadiq, Ş. (2018). *Mən bir müəlliməm*. Bakı: *XAN* nəşriyyatı. https://shamilsadiq.az/ktbseb-oxk/ktbupsb/2017/06/Samil-Sadiq.-Men-Bir-Muellimem.-2.pdf
9. Scutt, J. A. (2012, sentyabr 16). 'As a Woman I have no Country …'. *Women's History Network*. https://womenshistorynetwork.org/as-a-woman-i-have-no-country/
10. Sərdarqızı, T. (2010, aprel 30). Natiq Rəsulzadə: "Mən tənbəl yazıçıyam". *Mədəniyyət*. https://anl.az/down/meqale/medeniyyet/2010/aprel/117243.htm
11. Trump, D. (2025, avqust 28). Labor Day. By the President of the United States of America. A proclamation. https://www.whitehouse.gov/presidential-actions/2025/08/labor-day-2025/
12. Актисова, О. А. (2006). *Синтаксические средства реализации концептов в аспекте эволюции типов повествовательной речи* (na materiale opisaniy v romanah "Prestuplenie i nakazanie" F.M. Dostoevskogo i "Master i Margarita" M.A. Bulgakova). Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. Волгоград.
13. Гаджиев, Э. (2006). *Функционально-семантические особенности слов «» и «» в современном английском и азербайджанском языках*. Bakı: Мутарджим.
14. Кузьмина, С. Е. (2015). *Простое предложение современного английского языка как средство репрезентации синтаксического концепта*. Автореферат диссертации на соискание ученой степени доктора филологических наук. Нижний Новгород.
15. Лаппо, М. А. (2013). *Самоидентификация: семантика, прагматика, языковые ресурсы* (monografiya). Мин-во образования и науки РФ, Новосиб. гос. пед. ун-т. Новосибирск: Изд-во НГПУ. https://repo.nspu.ru/bitstream/nspu/656/1/samoidentifikaciya-semantika-pra.pdf

Afina Huseynova

Summary

SYNTACTIC MODELING OF THE EXPRESSIVE MEANS OF THE CONCEPT OF CULTURAL IDENTITY

This article examines the mechanisms for implementing the concept of identity. The analysis is based on materials in Azerbaijani and English. The examples provided and the analyses conducted within this article provide grounds to assert that research in modern cognitive linguistics has significantly expanded the traditional boundaries of

understanding this concept. Contemporary research in cognitive linguistics, particularly within the framework of cognitive syntax, has established the existence of syntactic mechanisms for the conceptual realization of a particular concept/semantic field. In particular, within the context of conceptualizing various aspects of the concept of identity, we have established that several syntactic models serve as functional mechanisms for the conceptual realization of this concept.

Афина Гусейнова

Резюме

СИНТАКСИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ВЫРАЗИТЕЛЬНЫХ СРЕДСТВ КОНЦЕПТА КУЛЬТУРНОЙ ИДЕНТИЧНОСТИ

В статье исследуются механизмы реализации концепта идентичности. Анализ основан на материалах на азербайджанском и английском языках. Приведенные в статье примеры и проведенные в рамках представленной статьи анализы дают основания утверждать, что исследования в области современной когнитивной лингвистики значительно расширили традиционные границы понимания концепта. Современные исследования в области когнитивной лингвистики, особенно в рамках когнитивного синтаксиса установили факт наличия здесь синтаксических механизмов концептуальной реализации того или иного понятия/семантического поля. В частности, в контексте концептуальной реализации различных аспектов понятия идентичности нам удалось установить, что несколько синтаксических моделей выступают в качестве функциональных механизмов концептуальной реализации данного понятия.

Rəyçi: f.e.d. B.G.Məmmədova

Fikrət Cahangirov
Bakı Slavyan Universiteti
https://orcid.org/0009-0004-1219-0902

https://doi.org/10.30546/2518-752X.02.101.1008

MODALLIQ VƏ QEYRİ-SƏLİS MƏNTİQ

Açar sözlər: *modallıq, məntiq, qeyri-səlis, epistemik, deontik, dinamik*
Keywords: *modality, logic, fuzzy, epistemic, deontic, dynamic*
Ключевые слова: *модальность, логика, нечеткая, эпистемическая, деонтическая, динамическая.*

Giriş. Müasir elmi düşüncədə modallıq anlayışı dilçilikdə, məntiqdə, eləcə də fəlsəfədə ən mühüm tədqiqat obyektlərindən biridir. Modallıq reallığın və münasibətin ifadəsində mümkünlük, zərurilik, ehtimal, şərtilik kimi məna çalarlarını əhatə edir. Bu xüsusiyyəti ilə insan təfəkkürünün qeyri-müəyyən və dərəcəli xarakterini əks etdirir. Klassik məntiq (Aristotel məntiqi) isə bu cür mürəkkəb və çoxölçülü mənaların təsvirində məhdud imkanlara malikdir, çünki onlar əsasən ikili (doğru və ya yalan) həqiqət dəyərlərinə əsaslanır. XX əsrin ikinci yarısında qeyri-səlis məntiqin formalaşması məntiqi modelləşdirmədə yeni mərhələnin başlanğıcı oldu. L.Zadə tərəfindən irəli sürülmüş bu yanaşma qeyri-müəyyənliyin və dərəcəliliyin formal təsvirinə imkan yaratmış, insan düşüncəsinə və təbii dilə daha yaxın olan modellərin qurulmasını təmin etmişdir.

Mövzunun aktuallığı. Qeyri-səlis məntiq semantik qeyri-müəyyənlik, qiymətləndirmə mülahizələri və kontekstual dəyişkənlik kimi hallar üçün uyğun analitik alət hesab edilir. Bu baxımdan modallıq və qeyri-səlis məntiq arasında mövcud olan nəzəri əlaqələrin araşdırılması elmi cəhətdən aktualdır. Modal ifadələrin böyük bir qismi sərt kateqoriyalar deyil, müxtəlif dərəcələr üzrə reallaşan ehtimal və zərurət münasibətlərini əks etdirir. Beləliklə, modallığın qeyri-səlis məntiq çərçivəsində təhlili həm modal mənaların daha dəqiq modelləşdirilməsinə, həm də klassik modal məntiqin məhdudiyyətlərinin aradan qaldırılmasına kömək edə bilər.

Məqalənin əsas məqsədi modallıq anlayışının qeyri-səlis məntiq çərçivəsində nəzəri əsaslarını araşdırmaq, modal mənaların dərəcəlilik xüsusiyyətlərini təhlil etmək və bu iki konsepsiyanın inteqrasiya imkanlarını müəyyənləşdirməkdir. Burada modallığın əsas növləri, qeyri-səlis məntiqin fundamental prinsipləri və onların qarşılıqlı əlaqəsi elmi-nəzəri aspektdən şərh olunur.

Məqalənin elmi yeniliyi modallığın qeyri-səlis təbiətinin sistemli şəkildə əsaslandırılmasından və onun dilçilik və digər tətbiqi sahələr üçün mümkün nəticələrinin ümumiləşdirilməsindən ibarətdir.

Məqalənin nəzəri və praktik əhəmiyyəti. Modallıq və qeyri-səlis məntiqin inteqrasiyası insan təfəkkürünün və dilin qeyri-müəyyən təbiətinin daha dərindən anlaşılmasına töhfə verir, müasir dilçilik, məntiq, tətbiqi elmlər üçün nəzəri və praktik əhəmiyyət daşıyan nəticələr ortaya qoyur.

Modallıq anlayışının nəzəri əsasları. Modallıq dil sistemində yeni yaranmış hadisə deyildir. Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrində, nağıl və dastanlarda, klassik ədəbiyyatda modallığı səciyyələndirən əlamətlərə rast gəlmək mümkündür. Eləcə də, tarixi mənbələrdə, hətta elmi üslubda yazılmış salnamələrdə və xronikalarda bu və ya digər hadisəyə müəllifin münasibəti açıq-aydın hiss olunur (3, s.12). Modallıq anlayışı ümumilikdə ifadə olunan məzmunun reallığa, normativ qaydalara və ya məntiqi zərurətə münasibətini bildirən semantik-kateqorial xüsusiyyət kimi izah olunur. Ən geniş mənada modallıq danışanın (və ya düşünən subyektin) hökmə münasibətini, həmin hökmün mümkünlük, zərurilik, ehtimal, icazə və ya məcburiyyət kimi qiymətləndirilməsini əks etdirir (13; 11). Modallığın əsas xüsusiyyətlərindən biri onun subyektivlik və qiymətləndirmə elementi daşımasıdır. Modallıq yalnız faktiki vəziyyəti deyil, həm də həmin vəziyyətə dair bilik səviyyəsini, inancları və ya sosial-normativ çərçivəni əks etdirir. Digər mühüm xüsusiyyət isə modallığın dərəcəlilik xarakteridir. Bir çox hallarda modal mənalar sərt ikilik (mümkündür-mümkün deyil) deyil, müxtəlif ehtimal və zərurət dərəcələri üzrə reallaşır ki, bu da modallığın qeyri-səlis təbiətini ön plana çıxarır (9).

Akademik ədəbiyyatda modallıq müxtəlif meyarlar əsasında təsnif edilsə də, ən geniş yayılmış bölgü epistemik, deontik, dinamik və aletik modallıq növlərini əhatə edir (11; 13). Epistemik modallıq hökmün doğruluğuna dair bilik, inam və ya ehtimal dərəcəsini ifadə edir. Bu növ modallıq danışanın məlumatlılıq səviyyəsini və nəticəyə gəlmə prosesini əks etdirir. “O, indi evdə ola bilər”, “Görünür, imtahan çətin olub” kimi ifadələr epistemik modallığa nümunədir. Epistemik modallıqda qeyri-müəyyənlik və ehtimal anlayışları əsas rol oynayır və bu xüsusiyyət onu qeyri-səlis məntiq üçün uyğun tədqiqat obyekti edir (9). Deontik modallıq sosial, hüquqi və ya etik normalara əsaslanan icazə, qadağa və məcburiyyət münasibətlərini ifadə edir. “Gərək sənədi vaxtında təqdim edəsən”, “Burada siqaret çəkmək olmaz” kimi cümlələrdə modal məna normativ çərçivəyə istinad edir. Deontik modallıqda modal dəyər çox vaxt “mütləqlik” kimi təqdim edilsə də, real ünsiyyətdə bu normaların tətbiqi də müxtəlif dərəcələrdə reallaşa bilər (14). Dinamik modallıq subyektin daxili imkan və qabiliyyətləri ilə bağlıdır. Bu növ modallıq fiziki, psixoloji və ya situativ imkanları ifadə edir: “O, bu məsələni həll edə bilər”, “Mən bu gün gələ bilmərəm”. Dinamik modallıq epistemik və deontik modallıqdan fərqli olaraq, əsasən subyektin potensial imkanlarına əsaslanır (13). Aletik modallıq mümkünlük və zərurətin obyektiv, məntiqi və ya ontoloji aspektlərini əhatə edir. Bu növ modallıq klassik modal məntiqin əsas kateqoriyalarını təşkil edir və “zəruridir ki…”, “mümkündür ki…” kimi formal ifadələrlə xarakterizə olunur. Aletik modallıq xüsusilə mümkün dünyalar semantikası çərçivəsində inkişaf etdirilmişdir (10). Lakin bu yanaşma çox vaxt dərəcəliliyi nəzərə almır və mümkünlük-zərurət münasibətlərini sərt kateqoriyalar kimi təqdim edir.

Dilçilikdə modallıq funksional-semantik kateqoriya kimi tədqiq olunur və əsasən qrammatik vasitələr (modal feillər, şəkilçilər, intonasiya) və leksik vahidlər vasitəsilə reallaşması araşdırılır (13). Burada modallıq kommunikativ məqsədlərlə sıx bağlı olub, mətn və diskurs amillərindən güclü şəkildə asılıdır. Məntiqdə modallıq formal sistemlər çərçivəsində öyrənilir. Klassik modal məntiq mümkünlük və zərurəti aksiomatik şəkildə təsvir etsə də, bu modellər qeyri-müəyyən və dərə-

cəli modal mənaların izahında məhdud qalır (7). Məhz bu səbəbdən müasir tədqiqatlarda qeyri-səlis məntiq və ehtimal yönümlü yanaşmalar modal məntiqə alternativ və ya tamamlayıcı model kimi irəli sürülür. Fəlsəfədə isə modallıq ontoloji və epistemoloji problemlərlə əlaqələndirilir. Burada əsas diqqət mümkün dünyalar, zərurət anlayışının təbiəti və biliklə reallıq arasındakı münasibətlərə yönəlir (11; 10). Fəlsəfi izahlar modallığın yalnız formal deyil, eyni zamanda konseptual və koqnitiv xarakter daşıdığını göstərir.

Qeyri-səlis məntiqin formalaşması və əsas prinsipləri. Qeyri-səlis məntiq (Fuzzy logic) XX əsrin ikinci yarısında klassik məntiq və ənənəvi riyazi modellərin real dünyanın qeyri-müəyyən və dərəcəli hadisələrini izah edilməsində məhdudiyyətlərinə cavab olaraq formalaşmışdır. Bu yanaşmanın elmi əsasları ilk dəfə 1965-ci ildə azərbaycanlı-amerikalı alim Lütfi-Zadə tərəfindən irəli sürülmüşdür. L. Zadə "Fuzzy Sets" adlı fundamental məqaləsində klassik çoxluqlar nəzəriyyəsindən fərqli olaraq, elementlərin çoxluğa ya tam aid, ya da tam aid olmaması prinsipini yenidən nəzərdən keçirmiş, aralıq dəyərlərin mümkünlüyünü əsaslandırmışdır (15). L. Zadənin konsepsiyası insan təfəkküründə və təbii dilin qeyri-dəqiqliyini formal şəkildə ifadə etməyə yönəlmişdir. Alimin fikrincə, real dünyada istifadə olunan "çox", "az", "təxminən", "yüksək ehtimalla" kimi anlayışlar klassik məntiqin sərt kateqoriyaları ilə adekvat şəkildə modelləşdirilə bilməz. Bu səbəbdən qeyri-səlis məntiq insan düşüncəsinə daha yaxın, elastik və adaptiv məntiq sistemi kimi təqdim olunmuşdur (16, s. 28-44).

Klassik məntiq ikili həqiqət prinsipi üzərində qurulmuşdur: hər bir hökm ya doğrudur (1), ya da yanlışdır (0). Bu yanaşma riyazi və formal sistemlər üçün yüksək dəqiqlik təmin etsə də, qeyri-müəyyən, kontekstual və dərəcəli hadisələrin təsvirində məhdud qalır (7). Qeyri-səlis məntiq isə bu ikili modeli genişləndirərək həqiqət dəyərlərinin [0,1] intervalında fasiləsiz dəyişə bilməsini qəbul edir. Beləliklə, bir hökm nə tam doğru, nə də tam yalan olmaq məcburiyyətindədir; o, müəyyən dərəcədə doğru hesab edilə bilər. Bu xüsusiyyət qeyri-səlis məntiqi real həyat vəziyyətlərinin, subyektiv qiymətləndirmələrin və ehtimal xarakterli mülahizələrin modelləşdirilməsi üçün daha əlverişli edir (8). Müqayisəli baxımdan demək olar ki, klassik məntiq dəqiqlik və formalizm, qeyri-səlis məntiq isə elastiklik və koqnitiv adekvatlıq prinsiplərinə əsaslanır. Bu fərq xüsusilə modallıq kimi qeyri-müəyyənlik və dərəcəliliklə xarakterizə olunan anlayışların izahında aydın şəkildə özünü göstərir.

Qeyri-səlis məntiqin mərkəzi anlayışlarından biri qeyri-səlis çoxluqdur. Klassik çoxluqlarda elementin çoxluğa aidliyi yalnız iki qiymət ala bildiyi halda, qeyri-səlis çoxluqlarda bu aidlik üzvlük dərəcəsi (membership degree) ilə ifadə olunur. Üzvlük dərəcəsi 0 ilə 1 arasında dəyişir və elementin müvafiq çoxluğa nə dərəcədə aid olduğunu göstərir. Qeyri-səlis məntiq prinsiplərinin dil-nitq sisteminə və strukturuna tətbiqi nəinki bütövlükdə dilçilik və informatika nəzəriyyəsi üçün, eyni zamanda digər sosial elmlər(ədəbiyyatşünaslıq, folklor, hüquq, iqtisadiyyat...) üçün də faydalı olacaqdır (1, s.16).

Qeyri-səlis məntiqdə həqiqət anlayışı klassik "doğru-yalan" oppozisiyasından kənara çıxaraq həqiqət dərəcələri formasında izah olunur. Burada hökmün doğruluğu müəyyən interval daxilində yerləşən kəmiyyət kimi qəbul edilir. Həqiqət dərəcələri məntiqi əməliyyatların da yenidən şərhini tələb edir. Qeyri-səlis

məntiqdə bu əməliyyatlar maksimum, minimum və tamamlayıcı funksiyalar vasitəsilə ifadə olunur. Beləliklə, məntiqi nəticələr sərt deyil, dərəcəli xarakter daşıyır və real koqnitiv proseslərə daha uyğun olur (16, s. 28-44).

Nəticə etibarilə, qeyri-səlis məntiqin əsas prinsipləri (dərəcəlilik, qeyri-müəyyənlik və kontekstual elastiklik) modallıq kimi semantik kateqoriyaların formal təsviri üçün möhkəm nəzəri baza yaradır. Bu xüsusiyyətlər qeyri-səlis məntiqi klassik məntiqə alternativ deyil, onu tamamlayan və genişləndirən yanaşma kimi dəyərləndirməyə imkan verir.

Modallıq və qeyri-səlis məntiqin qarşılıqlı əlaqəsi. Modal mənalar öz mahiyyətinə görə qeyri-müəyyən və dərəcəli xarakter daşıyır. "Mümkün", "ehtimal olunan", "zəruri" kimi anlayışlar real ünsiyyətdə nadir hallarda sərt sərhədlərlə ifadə olunur. Əksinə, onlar müxtəlif kontekstlərdə fərqli intensivlik və inam dərəcələrini əks etdirir. Klassik modal məntiqdə bu anlayışlar əsasən ikili kateqoriyalar kimi təqdim olunur: bir hökm ya mümkündür, ya da mümkün deyil; ya zəruridir, ya da zəruri deyil. Lakin təbii dil və koqnitiv proseslər bu cür ikili bölgünü əksər hallarda təsdiqləmir (11; 13). Qeyri-müəyyənlik xüsusilə epistemik modallıqda qabarıq şəkildə özünü göstərir. Danışanın fon bilikləri, sübutların natamamlığı və kontekstual amillər modal qiymətləndirmələrin dəyişkənliyinə səbəb olur. Bu baxımdan modal mənaların dərəcəlilik prinsipi ilə izahı onların real istifadəsinə daha uyğun hesab edilir. Qeyri-səlis məntiq bu dərəcəliliyi formal şəkildə ifadə etməyə imkan verən effektiv nəzəri alət təqdim edir (17).

Modal ifadələrin qeyri-səlis məntiq əsasında modelləşdirilməsi modal dəyərlərin müəyyən interval daxilində kəmiyyətləşdirilməsinə əsaslanır. Bu yanaşmada modal hökmün doğruluğu təkcə "doğru" və ya "yalan" kimi deyil, [0, 1] intervalında yerləşən dəyər kimi təqdim olunur. Məsələn, "Bu hadisə baş verə bilər" hökmü 0.4 və ya 0.7 həqiqət dərəcəsinə malik ola bilər ki, bu da ehtimal səviyyəsinin fərqliliyini göstərir (8). Qeyri-səlis modal modellərdə mümkünlük və zərurət operatorları klassik məntiqdəki sərt funksiyalar deyil, dərəcəli operatorlar kimi şərh olunur. Bu isə modal münasibətlərin daha elastik və reallığa yaxın təsvirinə imkan yaradır. Xüsusilə, süni intellekt və qərar qəbuletmə sistemlərində qeyri-səlis modal modellərdən qeyri-müəyyən informasiyanın emalı üçün geniş istifadə olunur (18).

Qeyri-səlis yanaşmada "mümkündür", "ehtimal olunur" və "zəruridir" kimi anlayışlar sərt məntiqi operatorlar deyil, müəyyən üzvlük funksiyaları ilə xarakterizə olunan anlayışlar kimi izah edilir. Belə ki, "mümkündür" anlayışı aşağı və orta dərəcəli üzvlük qiymətlərini, "ehtimal olunur" orta və yüksək dərəcəli qiymətləri, "zəruridir" isə 1-ə yaxın üzvlük dərəcələrini əhatə edə bilər (17). Bu şərh modallığın təbii dilə xas olan qeyri-dəqiqliyini və kontekstual dəyişkənliyini nəzərə almağa imkan verir. Məsələn, eyni hökm müxtəlif danışanlar üçün fərqli ehtimal dərəcələrinə malik ola bilər. Qeyri-səlis məntiq bu subyektiv fərqləri formal modelə daxil etməklə modal mənaların daha dəqiq semantik təsvirini təmin edir (4).

Müasir elmi tədqiqatlarda modal məntiq və qeyri-səlis məntiqin inteqrasiyası istiqamətində mühüm addımlar atılmışdır. Bu inteqrasiya klassik mümkün dünyalar semantikasını qeyri-səlis üzvlük dərəcələri ilə birləşdirərək "qeyri-səlis mümkün dünyalar" modellərinin yaradılmasına imkan verir. Belə modellərdə mümkün dünyalar arasında münasibətlər sərt deyil, dərəcəli şəkildə müəyyən edi-

lir (6). Qeyri-səlis modal məntiq yanaşmaları modallığın həm formal, həm də semantik aspektlərini əhatə edir və klassik modal məntiqin məhdudiyyətlərini aradan qaldırmağa yönəlir. Bu yanaşma, xüsusilə, dilçilik, süni intellekt və avtomatlaşdırılmış qərar qəbuletmə sistemlərində perspektivli hesab olunur (5). Beləliklə, modallıq və qeyri-səlis məntiqin qarşılıqlı əlaqəsi modal mənaların dərəcəlilik və qeyri-müəyyənlik xüsusiyyətlərini formal şəkildə əsaslandırmağa imkan verir. Bu inteqrasiya modallığın yalnız mücərrəd məntiqi kateqoriya deyil, eyni zamanda koqnitiv və kommunikativ fenomen kimi daha dolğun izahını təmin edir.

Dilçilik və digər tətbiqi sahələrdə qeyri-səlis modallıq. Dilçilikdə modallıq funksional-semantik kateqoriya kimi təhlil olunur və onun reallaşması müxtəlif səviyyələrdə – leksik, qrammatik və prosodik vasitələrlə baş verir. Bu vasitələrin çoxluğu və dəyişkənliyi modallığın formal modelləşdirilməsini çətinləşdirir. Qeyri-səlis məntiq bu nöqtədə təbii dil modallığının qeyri-müəyyən və dərəcəli xüsusiyyətlərini nəzərə alan daha adekvat analitik çərçivə təqdim edir (11). Modal mənaların interpretasiyasında diskurs və kontekst həlledici rol oynayır. Eyni modal ifadə müxtəlif situasiyalarda fərqli dərəcələrdə mümkünlük, ehtimal və ya zərurət mənası kəsb edə bilər. Məsələn, "Bu problem həll oluna bilər" ifadəsi elmi diskursda yüksək ehtimalı, gündəlik ünsiyyətdə isə zəif ehtimalı bildirə bilər. Bu cür dəyişkənlik modallığın kontekstual və qeyri-səlis xarakterini bir daha təsdiqləyir (9). Qeyri-səlis yanaşma diskurs faktorlarını modal qiymətləndirmənin tərkib hissəsi kimi modelləşdirməyə imkan verir. Burada kontekstual amillər üzvlük dərəcələrinin dəyişməsi şəklində ifadə olunur və beləliklə, modal mənaların dinamik xarakteri formal şəkildə təsvir edilir (4).

Qeyri-səlis modallıq anlayışı kompüter dilçiliyi və süni intellekt sahələrində xüsusi əhəmiyyət kəsb edir. Təbii dilin avtomatik emalı proseslərində modal ifadələrin düzgün tanınması və interpretasiyası mühüm problemlərdən biridir. Klassik qaydalar əsasındakı fundamental sistemlər modal mənaların dərəcəliliyini və kontekstual dəyişkənliyini nəzərə almaqda çətinlik çəkir (12). Qeyri-səlis məntiq əsasında qurulan modellər isə modal ifadələri ehtimal və inam dərəcələri ilə əlaqələndirərək daha elastik nəticələr əldə etməyə imkan verir. Məsələn, mətnin semantik təhlili zamanı epistemik modallıq qeyri-səlis dəyərlər vasitəsilə təmsil oluna bilər ki, bu da nəticələrin insan təfəkküründə daha yaxın olmasını təmin edir. Bu yanaşma intellektual agentlərin qərar qəbuletmə mexanizmlərində də geniş tətbiq olunur (17).

Qeyri-səlis modallıq, xüsusilə, qeyri-müəyyən informasiya şəraitində fəaliyyət göstərən qərar qəbuletmə sistemlərində mühüm rol oynayır. Real problemlərdə qərarlar çox vaxt natamam məlumat, qeyri-dəqiq meyarlar və subyektiv qiymətləndirmələr əsasında qəbul edilir. Bu cür şəraitdə "ən uyğun", "mümkün qədər yaxşı", "yüksək ehtimalla effektiv" kimi modal ifadələr əsaslandırıcı funksiya daşıyır (18). Qeyri-səlis məntiq bu ifadələri formal modelə daxil etməklə qərar qəbuletmə proseslərini daha çevik və realist edir. Modal dəyərlər burada alternativlərin üstünlük dərəcələrinin qiymətləndirilməsi üçün istifadə olunur və nəticədə qərar mexanizmi sərt optimallaşdırma deyil, dərəcəli seçim prinsiplərinə əsaslanır (8).

Dilçilikdə qeyri-səlis modallıq yanaşması modal mənaların semantik təhlilini zənginləşdirir və onların təbii dilə xas olan qeyri-dəqiqliyini nəzərə alan daha əhatəli model təqdim edir. Tətbiqi sahələrdə isə bu yanaşma süni intellekt, ekspert

sistemləri və avtomatlaşdırılmış qərar qəbuletmə mexanizmlərinin effektivliyini artırır. Beləliklə, qeyri-səlis modallıq həm nəzəri, həm də praktik baxımdan modallığın müasir interpretasiyası üçün mühüm istiqamət kimi çıxış edir və dil, təfəkkür və texnologiya arasındakı qarşılıqlı əlaqənin daha dərindən anlaşılmasına töhfə verir.

Qeyri-səlis məntiqin modallığın izahındakı üstünlükləri, məhdudiyyətləri və alternativ nəzəri baxışlar. Aparılan təhlillər göstərir ki, qeyri-səlis məntiq modallığın izahında klassik yanaşmalara nisbətən bir sıra mühüm üstünlüklərə malikdir. Əvvəla, qeyri-səlis məntiq modallığın əsas xüsusiyyətlərindən biri olan dərəcəlilik prinsipini formal şəkildə ifadə etməyə imkan verir. İkincisi, qeyri-səlis məntiq qeyri-müəyyənliyin idarə olunması baxımından üstünlük təşkil edir. Epistemik və dinamik modallıq kimi sahələrdə bilik natamamlığı və kontekstual dəyişkənlik əsas rol oynadığından, qeyri-səlis üzvlük dərəcələri bu qeyri-müəyyənliyi formal modelə daxil etməyə imkan verir. Üçüncüsü, qeyri-səlis məntiqin elastik strukturu modallığın tətbiqi sahələrdə – xüsusilə süni intellekt, kompüter dilçiliyi və qərar qəbuletmə sistemlərində effektiv istifadəsini təmin edir.

Bununla yanaşı, qeyri-səlis məntiq əsasında modallığın izahı müəyyən məhdudiyyətlərdən də azad deyil. Əsas problemlərdən biri üzvlük funksiyalarının seçiminin subyektivliyi ilə bağlıdır. Modal anlayışların hansı dərəcədə "mümkün" və ya "zəruri" hesab edilməsi çox vaxt tədqiqatçının və ya sistem dizaynerinin qərarından asılı olur. Bu isə modellərin universal tətbiqini çətinləşdirə bilər (6). Digər məhdudiyyət qeyri-səlis modellərin formal dəqiqlik baxımından klassik məntiq sistemləri ilə müqayisədə zəif görünməsidir. Klassik modal məntiq aksiomatik struktur və sübut nəzəriyyəsi baxımından daha sərt və sistemli çərçivə təqdim edir. Qeyri-səlis yanaşmalar isə çox vaxt tətbiq yönümlü olur, vahid formal standartlara tam uyğun gəlmir (4). Bundan əlavə, bəzi hallarda ehtimal nəzəriyyəsi ilə qeyri-səlis məntiq arasında sərhədlərin qeyri-müəyyənliyi metodoloji problemlərə səbəb olur. Modal mənaların ehtimal dərəcələri ilə ifadə olunması zaman-zaman ehtimalçı interpretasiya ilə qarışdırıla bilər.Bu da anlayışların konseptual aydınlığını zəiflədər (8).

Modallığın izahında qeyri-səlis məntiqdən başqa bir sıra alternativ nəzəri yanaşmalar da mövcuddur. Klassik modal məntiq mümkünlük və zərurət anlayışlarını məqbul dünyalar semantikası vasitəsilə izah edir və yüksək formal dəqiqlik təmin edir (10). Lakin bu yanaşma modallığın dərəcəlilik və kontekstual dəyişkənlik aspektlərini əksər hallarda nəzərə almır.

Ehtimal məntiqi və Bayes formulu (ehtimal nəzəriyyəsinə əsaslanan və qeyri-müəyyənlik şəraitində qərarvermə, nəticə çıxarma və öyrənməni izah edən statistik-metodoloji yanaşmalardır) epistemik modallığın kəmiyyətləşdirilməsində effektiv hesab olunur. Bu modellər bilik və inam dərəcələrini riyazi ehtimallar vasitəsilə ifadə edir. Bununla belə, ehtimal nəzəriyyəsi semantik qeyri-dəqiqliyi deyil, əsasən statistik qeyri-müəyyənliyi modelləşdirir və bu baxımdan təbii dil modallığının bütün aspektlərini əhatə etmir (4).

Qeyri-səlis məntiq isə bu yanaşmalar arasında aralıq mövqe tutur: o, klassik məntiqin formal strukturlarını saxlayaraq, eyni zamanda semantik dərəcəliliyi və kontekstual elastikliyi nəzərə alır. Bu səbəbdən müasir tədqiqatlarda modallığın izahı üçün hibrid modellərin – qeyri-səlis, ehtimal və modal məntiqin inteqrasiya-

sına əsaslanan yanaşmaların – perspektivli olduğu qəbul edilir (6). Ümumilikdə, indiyə qədər aparılmış tədqiqatlar onu göstərir ki, qeyri-səlis məntiq modallığın dərin və çoxölçülü təbiətini izah etmək üçün güclü nəzəri baza təqdim etsə də, onun effektivliyi digər məntiqi və semantik yanaşmalarla qarşılıqlı əlaqədə daha da artır.

Nəticə. Apardığımız tədqiqat modallıq anlayışının klassik məntiq çərçivəsində tam şəkildə izah olunmasının mümkün olmadığını və bu anlayışın qeyri-müəyyənlik və dərəcəlilik kimi xüsusiyyətləri səbəbindən alternativ yanaşmalara ehtiyac duyduğunu göstərir. Modallıq mümkünlük, ehtimal və zərurət kimi məna kateqoriyalarını əhatə etməklə, insan idrakının və təbii dilin dinamik və kontekstual xarakterini əks etdirir. Bu baxımdan qeyri-səlis məntiq modallığın semantik mahiyyətinin daha adekvat şəkildə modelləşdirilməsi üçün mühüm nəzəri əsas yaradır. Qeyri-səlis məntiq modallığın yalnız nəzəri izahı üçün deyil, eyni zamanda tətbiqi sahələr üçün də geniş imkanlar açır. Dilçilikdə qeyri-səlis modallıq yanaşması təbii dilin semantik xüsusiyyətlərini daha dolğun şəkildə təsvir etməyə, süni intellekt və kompüter dilçiliyində isə modal mənaların avtomatik emalını təkmilləşdirməyə imkan verir. Qərar qəbuletmə sistemlərində qeyri-səlis modal modellər qeyri-müəyyən informasiya şəraitində daha çevik və realist qərar mexanizmlərinin qurulmasına şərait yaradır. Eyni zamanda, araşdırma göstərir ki, qeyri-səlis məntiq modallığın izahında universal və yekun model kimi deyil, daha çox klassik modal məntiq və ehtimal yönümlü yanaşmaları tamamlayan bir nəzəri çərçivə kimi qiymətləndirilməlidir. Gələcək tədqiqatlar üçün qeyri-səlis, ehtimal və modal məntiq elementlərini birləşdirən hibrid modellərin işlənilməsi, eləcə də bu modellərin empirik dil materialı üzərində tətbiqi perspektivli istiqamətlər kimi görünür.

Ədəbiyyat:

1. Abdulla, K., & Əliyev, R. (2024). Qeyri-səlis məntiq və dil-nitq. Bakı: Sim-Sim.
2. Aliev, R. A., & Huseynov, O. H. (2014). Decision theory with imperfect information. World Scientific Publishing.
3. Cahangirov, F. (2005). İngilis və Azərbaycan dillərində modallığın struktur-semantik tədqiqi (müqayisəli-tipoloji tədqiqat). Bakı: Elm.
4. Dubois, D., & Prade, H. (1988). Possibility theory: An approach to computerized processing of uncertainty. New York: Plenum Press.
5. Dubois, D., Lang, J., & Prade, H. (1994). Possibilistic logic. In D. M. Gabbay et al. (Eds.), Handbook of logic in artificial intelligence and logic programming (Vol. 3, pp. 439–513). Oxford: Oxford University Press.
6. Hajek, P. (1998). Metamathematics of fuzzy logic. Dordrecht: Springer.
7. Hughes, G. E., & Cresswell, M. J. (1996). A new introduction to modal logic. London: Routledge.
8. Klir, G. J., & Yuan, B. (1995). Fuzzy sets and fuzzy logic: Theory and applications. Upper Saddle River, NJ: Prentice Hall.
9. Kratzer, A. (1991). Modality. In A. von Stechow & D. Wunderlich (Eds.), Semantics: An international handbook of contemporary research (pp. 639-650). Berlin: de Gruyter.
10. Kripke, S. A. (1963). Semantical considerations on modal logic. Acta Philosophica Fennica, 16, 83-94.
11. Lyons, J. (1977). Semantics. Cambridge: Cambridge University Press.

12. McShane, M., & Nirenburg, S. (2012). Linguistic analysis for text processing. Amsterdam: John Benjamins.
13. Palmer, F. R. (2001). Mood and modality (2nd ed.). Cambridge: Cambridge University Press.
14. von Wright, G. H. (1951). An essay in modal logic. Amsterdam: North-Holland.
15. Zadeh, L. A. (1965). Fuzzy sets. Information and Control, 8(3), 338-353.
16. Zadeh, L. A. (1973). Outline of a new approach to the analysis of complex systems and decision processes. IEEE Transactions on Systems, Man, and Cybernetics, 3(1), 28-44.
17. Zadeh, L. A. (1975). The concept of a linguistic variable and its application to approximate reasoning. Information Sciences, 8(3), 199-249.
18. Zimmermann, H. J. (2001). Fuzzy set theory – and its applications (4th ed.). Boston: Springer.

Фикрет Джахангиров

Резюме

МОДАЛЬНОСТЬ И НЕЧЕТКАЯ ЛОГИКА

Данная статья посвящена изучению теоретических основ понятия модальности в рамках нечеткой логики и научному обоснованию градуированной, неопределенной природы модальных значений. Исследование показывает, что бинарный подход «истина-ложь», «возможно-невозможно», присущий классической аристотелевской логике и традиционным моделям модальной логики, недостаточен для полного объяснения сложных модальных отношений естественного языка и человеческого мышления. Модальность, по сути, включает в себя градуированные и зависящие от контекста значения, такие как возможность, вероятность и необходимость.

В статье анализируются основные типы модальности: эпистемическая, деонтическая, динамическая и алетическая, а также подчеркивается, что эпистемическая и динамическая модальность с точки зрения неопределенности и градации являются подходящими объектами исследования для нечеткой логики. Основные принципы нечеткой логики, сформулированные Л. Заде – нечеткие множества, степени принадлежности и непрерывные значения истинности – представлены как эффективные теоретические инструменты для формального моделирования модальных выражений. Нечеткий подход позволяет количественно оценить модальные значения в интервале, с учетом их изменчивости и субъективности в реальном общении.

Исследование также демонстрирует перспективы интеграции модальности и нечеткой логики в лингвистике, вычислительной лингвистике, искусственном интеллекте и системах принятия решений. Помимо этого оцениваются ограничения нечеткой логики и ее связь с альтернативными теоретическими взглядами, такими как вероятностная логика, подходы Байэса и классическая модальная логика. Таким образом, нечеткая логика рассматривается как важная теоретическая основа, дополняющая и обогащающая другие подходы, а не как независимая и окончательная модель в объяснении модальности.

Rəyçi: prof.A.Y.Məmmədov

Рамиля Гусейнова
Азербайджанский Университет Языков
https://orcid.org/0009-0007-8599-3409

https://doi.org/10.30546/2518-752X.02.101.1010

СОЦИАЛЬНЫЕ И КОММУНИКАТИВНЫЕ СИТУАЦИИ И ИХ РОЛЬ В ФОРМИРОВАНИИ ДИСКУРСИВНЫХ ПРАКТИК

Ключевые слова: *дискурсивные практики, коммуникативная ситуация, социальный контекст, социокогнитивный подход, идеология*
Açar sözlər: *diskursiv praktika, kommunikativ situasiya, sosial kontekst, sosio-koqnitiv yanaşma, ideologiya*
Keywords: *discursive practices, communicative situation, social context, socio-cognitive approach, ideology*

Введение. В современной лингвистике и социальной теории дискурс понимается как форма социального действия, а не как нейтральная передача информации. Дискурсивные практики возникают на стыке языка, общества и коммуникации и неотделимы от ситуаций, в которых они создаются и интерпретируются. Социальные и коммуникативные ситуации обеспечивают контекстуальную основу, которая формирует то, как говорящие формулируют высказывания, обсуждают значения и позиционируют себя и других в процессе коммуникации.

Актуальность изучения социальных и коммуникативных ситуаций определяется растущей сложностью современной коммуникации, особенно в институциональной, медийной и цифровой средах. Глобализация, медиатизация и технологические изменения порождают новые коммуникативные форматы и нормы взаимодействия, превращая ситуационный анализ в актуальную проблему в исследованиях дискурса. С точки зрения CDA и социо-когнитивной теории, ситуативные контексты имеют решающее значение для понимания того, как дискурс участвует в построении идеологии, властных отношений и социальной идентичности.

Целью данной статьи является анализ роли социальных и коммуникативных ситуаций в формировании дискурсивных практик в рамках критического дискурсивного анализа и социо-когнитивного подхода. Целями исследования являются: уточнение понятия социальных и коммуникативных ситуаций в современной теории дискурса; изучить, как ситуационные параметры определяют лингвистический и дискурсивный выбор; интегрировать CDA и социо-когнитивные подходы в анализ дискурса; использовать теоретический вклад Петра Шародо и других дискурсологов; продемонстрировать динамическую и идеологическую природу дискурсивных практик в институциональном и медийном контекстах.

Понятие коммуникативной ситуации тесно связано с понятием контекста в исследованиях дискурса. Ранние социолингвистические и интеракционистские подходы (Хаймс, Гоффман) подчеркивали, что коммуникация регулируется ситуативными параметрами, такими как участники, цели, нормы и окружение. Эти идеи заложили основу для более поздних моделей, ориентированных на дискурс.

С социолингвистической точки зрения социальная ситуация включает в себя социальные роли участников, властные отношения, институциональные ограничения и ожидания, разделяемые культурой. Прагматика показывает, как смысл формируется намерениями говорящего и интерпретациями слушателя в конкретных ситуациях. CDA еще больше расширяет эту точку зрения, демонстрируя, как ситуативные контексты способствуют воспроизводству социального неравенства и доминирующих идеологий [3, с 15].

Социальные ситуации как детерминанты дискурса. Социальные ситуации определяют, что может быть сказано, как это может быть сказано и кем. Институциональные условия, такие как учебные классы, суды, научные конференции и политические арены, накладывают определенные дискурсивные нормы, жанры и регистры. Например, академический дискурс характеризуется безличностью, аргументированностью и доказательностью, отражая социальные ценности объективности и рациональности. Социальные ситуации также структурируют властные отношения между участниками, определяя асимметрию полномочий, опыта и коммуникативных прав. С точки зрения критического дискурс-анализа, эта асимметрия не нейтральна, а идеологически мотивирована, поскольку она регулирует доступ к дискурсу и легитимизирует одни голоса, в то время как другие маргинализируются. Как утверждает [3, с 10]. Файрклоу, социальные ситуации функционируют как площадки, где дискурс способствует поддержанию или преобразованию социальной власти.

Напротив, повседневные разговорные ситуации способствуют большей неформальности, эмоциональному самовыражению и интерактивным переговорам. Один и тот же говорящий может использовать разные дискурсивные стратегии в зависимости от того, занимается ли он профессиональным, семейным или общественным общением. С социо-когнитивной точки зрения такая вариативность объясняется активацией различных ментальных моделей, соответствующих конкретным социальным ситуациям [7, с. 62]. Таким образом, дискурсивные практики социально обусловлены, конвенционализированы и зависят от контекста, отражая взаимодействие между ситуативными ограничениями, когнитивными репрезентациями и идеологическими рамками.

Коммуникативные ситуации непосредственно влияют на языковой выбор на всех уровнях языка. Выбор лексики, грамматических структур, модальности и дискурсивных маркеров определяется коммуникативными целями, структурой аудитории и средством общения.

В коммуникативных ситуациях убеждения предпочтение, как правило, отдается оценочной лексике, модальным глаголам и риторическим приемам, в то время как в информационных ситуациях приоритет отдается ясности, последовательности и эксплицитности. В цифровой коммуникации мульти

модальность, интертекстуальность и краткость становятся доминирующими чертами, трансформирующими традиционные дискурсивные практики и вводящими новые нормы взаимодействия. Коммуникативные ситуации непосредственно влияют на языковой выбор на всех уровнях языка, от фонетического и лексического отбора до синтаксической организации и структурирования дискурса. Выбор языковых средств никогда не бывает случайным; он обусловлен коммуникативными целями, ролями участников, соотношением сил и ожиданиями, связанными с конкретной ситуацией. На лексическом уровне коммуникативные ситуации определяют использование специальной терминологии, оценочной лексики, эвфемизмов или разговорных выражений. Например, в институциональных и профессиональных ситуациях предпочтение отдается терминологически точной и стандартизированной лексике, в то время как неформальное межличностное общение допускает использование экспрессивного, эмоционально окрашенного и идиоматического языка. С точки зрения CDA, лексический выбор может также выполнять идеологическую функцию, определенным образом формулируя события и социальных субъектов. На грамматическом и синтаксическом уровнях коммуникативные ситуации влияют на предпочтение определенных конструкций, таких как страдательный залог, модальность или номинализация. В академическом и бюрократическом дискурсе пассивные конструкции и номинализации часто используются для обезличивания заявлений и процессов, а не действующих лиц, что соответствует институциональным нормам объективности и авторитета. Напротив, в разговорных ситуациях обычно используются активные конструкции и личные местоимения, что усиливает межличностную вовлеченность. Прагматический выбор, включая речевые действия, стратегии вежливости и формы обращения, также определяется ситуацией. Коммуникативные ситуации определяют, что считается уместными просьбами, указаниями или оценками. Социо- когнитивная теория объясняет такой выбор посредством активации ментальных моделей, зависящих от контекста, которые определяют ожидания говорящих относительно значимости, уместности и потенциальной интерпретации адресатом [7, с.69]. Средство коммуникации является еще одним важным ситуационным параметром. В условиях цифровой коммуникации языковой выбор определяется технологическими возможностями и ограничениями, что приводит к более широкому использованию аббревиатур, эмодзи, хэштегов и мультимодальных ресурсов. Эти особенности изменяют традиционные дискурсивные нормы и способствуют появлению новых форм дискурсивной практики. Таким образом, лингвистический выбор отражает сложное взаимодействие между коммуникативными намерениями, ситуативными ограничениями, когнитивными репрезентациями и идеологическими рамками, укрепляя представление о дискурсе как о контекстно-зависимом и социально обоснованном явлении.

В рамках критического дискурсивного анализа дискурс концептуализируется как форма социальной практики, которая одновременно отражает и формирует социальные структуры [3, с.15]. Социальные и коммуникативные

ситуации определяют институциональные роли, легитимные формы знания и приемлемые способы взаимодействия.

Социокогнитивный подход Теуна А. ван Дейка дополняет CDA, представляя ментальные модели в качестве посредников между дискурсом и обществом. Согласно Ван Дейку [7], коммуникативные ситуации активизируют общие социальные знания, убеждения и идеологии, которые направляют производство и понимание дискурса. Таким образом, дискурс формируется не непосредственно социальными структурами, а посредством социально сконструированного познания. Значительный вклад в ситуационный дискурсивный анализ внес Петр Шародо, который ввел понятие коммуникативного контракта (contrat de communication). Этот контракт регулирует роли, намерения, легитимность и ожидаемые эффекты участников в коммуникативной ситуации [2, с.24] . Согласно Шародо, дискурс ограничен институциональными рамками и коммуникативными ожиданиями, которые определяют, кто может говорить, на каких основаниях и с каким авторитетом [2, с.24]. Этот подход подчеркивает прагматические и интерактивные аспекты дискурса и дополняет CDA, фокусируясь на неявных правилах, регулирующих коммуникативные ситуации.

Отечественная лингвистика обладает богатой традицией дискурсивных и ситуационно-ориентированных исследований. Н. Д. Арутюнова [1, с.44] определяет дискурс как "речь, погруженную в жизнь", подчеркивая неразрывность языка и ситуации. Это понятие предвосхищает современные теории дискурса, которые выдвигают на первый план контекстуальную укорененность. Теория институционального дискурса В. И. Карасика [4, с. 115] фокусируется на роли социального статуса, норм и ценностей в формировании коммуникативного поведения (Карасик, 2020, с. 112-130). Он утверждает, что стабильные коммуникативные ситуации порождают узнаваемые дискурсивные практики внутри институтов. Когнитивно-дискурсивная парадигма Е. С. Кубряковой [1] акцентирует внимание на взаимодействии лингвистических структур и когнитивных процессов в конкретных коммуникативных ситуациях, рассматривая дискурс как интерфейс между языком, познанием и социальным контекстом [1, с.88]

Дискурсивные практики не статичны; они развиваются в ответ на изменение социальных и коммуникативных ситуаций. Глобализация, технологические инновации и изменение культурных норм способствуют появлению гибридных дискурсов, сочетающих в себе черты различных коммуникативных областей. В современном медиа дискурсе коммуникативные ситуации часто нестабильны и полифоничны, вовлекая множество аудиторий и накладываясь друг на друга коммуникативными контрактами. Эти условия обостряют идеологическую борьбу и требуют от участников постоянной адаптации своих дискурсивных стратегий.

Важный вклад в изучение дискурса в лингвистике связан с профессором Азадом Мамедовым, в работах которого дискурс концептуализируется как сложный коммуникативно-когнитивный феномен. А. Мамедов [6, с.227] последовательно утверждает, что дискурс нельзя свести к текстовому продукту; скорее, его следует понимать как процесс, включенный в конкретную

коммуникативную ситуацию. Как недвусмысленно утверждает Мамедов, “дискурс представляет собой единство текста, коммуникативного намерения и ситуативного контекста, без которого лингвистическое значение остается неполным” [7]. Это определение подчеркивает решающую роль коммуникативной ситуации в активизации прагматических значений и интерпретационных рамок. По мнению А. Мамедова, коммуникативная ситуация определяет не только выбор языковых средств, но и стратегическую направленность дискурса. Он подчеркивает, что “каждый дискурсивный акт ориентирован на адресата и предполагает общие фоновые знания, сформированные социокультурным опытом” [7, с.230]. В этом смысле дискурс функционирует как механизм социального взаимодействия, посредством которого говорящие влияют на установки, формируют идентичность и регулируют межличностные отношения. Мамедов также подчеркивает динамическую и идеологическую природу дискурса, особенно в институциональном и медийном контекстах. Он отмечает, что “изменения в социальных условиях неизбежно приводят к трансформации дискурсивных норм и коммуникативных стратегий” [7, с. 229]. Эта позиция тесно согласуется с социо-когнитивным подходом, который делает упор на ментальные модели и общие знания, а также с критическим дискурсивным анализом, который рассматривает дискурс как место силы и идеологического влияния.

Таким образом, теория дискурса А. Мамедова укрепляет ситуационные подходы к дискурсу, интегрируя лингвистические, прагматические и социокультурные аспекты в единую аналитическую структуру.

Научная новизна. Научная новизна статьи заключается в комплексном анализе социальных и коммуникативных ситуаций как ключевых детерминант формирования дискурсивных практик в рамках интегративного подхода, объединяющего критический дискурс-анализ, социо-когнитивную теорию и концепцию коммуникативного контракта. В отличие от исследований, сосредоточенных преимущественно на текстовых или институциональных аспектах дискурса, в данной статье коммуникативная ситуация рассматривается как динамическое единство социальных условий, когнитивных моделей и прагматических ожиданий участников коммуникации.

Практическая значимость. Практическая значимость исследования заключается в возможности применения полученных выводов в преподавании дисциплин, связанных с теорией дискурса, прагматикой, социолингвистикой, медиа лингвистикой и критическим анализом дискурса.

Заключение. Проведённый анализ подтверждает, что социальные и коммуникативные ситуации играют ключевую роль в формировании и функционировании дискурсивных практик. Дискурс предстает не как автономная языковая структура, а как контекстуально обусловленная социальная практика, формирующаяся на пересечении языковых средств, когнитивных моделей и социальных условий коммуникации. Именно ситуативные параметры – институциональные рамки, роли участников, коммуникативные цели, средство общения и идеологический фон – определяют выбор лингвистических стратегий и способы конструирования смысла. Таким образом, учет социальных и коммуникативных ситуаций является

необходимым условием адекватного анализа дискурса в современной лингвистике. Перспективы дальнейших исследований связаны с эмпирическим изучением конкретных дискурсивных практик в цифровой и медийной среде, а также с углублением междисциплинарного диалога между дискурс-анализом, когнитивной лингвистикой и социальной теорией.

Литература:

1. Арутюнова, Н. Д. (1999). Язык и мир человека (с. 40-58). Москва: Языки русской культуры.
2. Charaudeau, P. (2019). Le discours politique: Les masques du pouvoir (pp. 25-47). Paris: Vuibert.
3. Fairclough, N. (2015). Language and power (3rd ed., pp. 1-27). London: Routledge.
4. Карасик, В. И. (2020). Языковой круг: личность, концепты, дискурс (с. 110-145). Москва: Гнозис.
5. Кубрякова, Е. С. (2017). В поисках сущности языка (с. 85–102). Москва: Знак.
6. Mammadov, A. L., & Ziyadova, (2016). Subjectivity of discourse and translation: A functional-cognitive approach. Asia Pacific Translation and Intercultural Studies, 3(3), 223–234. Routledge.
7. Van Dijk, T. A. (2018). Discourse and knowledge (pp. 60-95). Cambridge: Cambridge University Press.

Ramilə Hüseynova

Xülasə

SOSİAL KOMMUNİKATİV SİTUASİYALAR VƏ ONLARIN DİSKURSİV PRAKTİKALARIN FORMALAŞMASINDA ROLU

Məqalədə sosial və kommunikativ situasiyaların diskursiv praktikaların formalaşmasındakı rolu araşdırılır; burada klassik diskurs-analiz, tənqidi diskurs-analiz (CDA) və sosiokognitiv yanaşma inteqrasiya olunur. Diskurs yalnız linqvistik fenomen kimi deyil, həm də konkret kommunikativ situasiyalarda formalaşan, sosial baxımdan köklənmiş və ideoloji cəhətdən şərtlənmiş bir praktika kimi nəzərdən keçirilir. Qərb və Rusiya diskurs tədqiqatları ənənələrinə əsaslanaraq, tədqiqatda situativ amillərin dil seçiminə, məna konstruksiyasına, eləcə də sosial normaların bərpasına və ya transformasiyasına necə təsir göstərdiyi təhlil olunur. İnstitusional kontekstə və KİV kontekstinə, həmçinin müasir kommunikasiya şəraitində diskursun dinamik xarakterinə xüsusi diqqət yetirilir.

Ramila Huseynova

Summary

SOCIAL AND COMMUNICATIVE SITUATIONS AND THEIR ROLE IN THE FORMATION OF DISCURSIVE PRACTICES

The article examines the role of social and communicative situations in the formation of discursive practices, integrating classical discourse analysis with Critical Discourse Analysis (CDA) and the sociocognitive approach. Discourse is viewed not merely as a linguistic phenomenon but as a socially embedded and ideologically conditioned practice formed within concrete communicative situations. Drawing on Western and Russian traditions of discourse research, the study analyzes how situational factors influence linguistic choice, meaning construction, and the reproduction or transformation of social norms. Particular attention is paid to institutional and media contexts, as well as to the dynamic nature of discourse in contemporary communication.

Rəyçi: prof.A.Y.Məmmədov

Məryəm Abdullayeva
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0007-4992-6807

https://doi.org/10.30546/2518-752X.02.101.1016

QANUNVERİCİLİK MƏTNİ VƏ HÜQUQİ DİSKURS: PROBLEMLƏR, PERSPEKTİVLƏR

***Açar sözlər**: qanunvericilik mətni, hüquqi diskurs, implisit, eksplisit, xronotop*
***Keywords:** legislative text, legal discourse, implicit, explicit, chronotope*
***Ключевые слова**: законодательный текст, юридический дискурс, имплицитный, эксплицитный, хронотоп*

Giriş. Hüquq dili funksional dilin xüsusi növüdür. Hüquq dilinin spesifikliyi, cəmiyyətdə hüquqi tənzimləmənin həyata keçirilməsi vasitəsi kimi işlənməsidir. Bu baxımdan o, siyasi, elmi, fəlsəfi, tibbi və hər hansı digər funksional dildən üslub və ifadə xüsusiyyətləri ilə, məqsədinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Bu məqalədə biz qanunvericilik mətni və hüquqi diskursu praqmatik, kommunikativ nöqteyi-nəzərdən təhlil etməyə, araşdırmağa çalışacağıq.

Əsas hissə. Hüquqi diskurs və qanunvericilik mətnini tədqiq və təhlil etməzdən öncə diskurs anlayışına bir qədər aydınlıq gətirək. Hal-hazırda diskursun vahid tərifi yoxdur. O, çoxmənalı və geniş kateqoriyadır. "Diskurs" ya tematik olaraq bir-biri ilə əlaqəli mətnlərin məcmusu, ya da yazılı və ya şifahi nitq formatında kommunikativ hadisə başa düşülür. Son zamanlar şərqi və qərbi Avropada, eləcə də dünyanın bir çox ölkələrində diskurs və onun tipologiyası ilə bağlı bir çox tədqiqat işləri aparılmışdır. Bununla belə, diskursun dəqiq təsnifatı hələ yaradılmamışdır. Səbəblərdən biri odur ki, onun tipologiyası bu və ya digər dərəcədə mətnin strukturunu müəyyən edən müxtəlif parametrlərə əsaslanır. Diskursu təsnif etmək üçün müxtəlif meyarların tamamilə məntiqi nəticəsi onun növ müxtəlifliyi və bu məsələdə alimlərin fikir ayrılıqlarıdır.

T.A. Van Deykə görə, diskurs dil, cəmiyyət, ideologiya kimi qeyri-müəyyən anlayışdır və bu cür qeyri-müəyyənliyi onu poulyar hala gətirir [8]. Dilçilikdə bu anlayış üç aspektdə öyrənilir:

1) "Ekstralinqvistik – praqmatik, sosial-mədəni, psixoloji və digər amillərlə birləşən əlaqəli mətn" kimi;

2) "Hadisə aspektində götürülmüş mətn" kimi.

3) "İnsanların və onların şüurunun mexanizmlərinin (idrak proseslərinin) qarşılıqlı təsirində iştirak edən komponent" kimi [1, s.136-137].

Diskursun bir tərəfi praqmatik situasiya ilə əlaqəlidir ki, ki, bu da diskursun ahəngdarlığını, kommunikativ adekvatlığını müəyyən etmək, onun təsir və müqəddimələrini aydınlaşdırmaq, şərh etmək üçün istifadə olunur[1, s. 137]. Bu, öz növbəsində o deməkdir ki, spesifik diskursiv formasiyalar onunla əlaqəli olan im-

plisit məzmunun müvafiq kommunikativ vəziyyətinin "adekvatlığını", dil subyekti haqqında əsas bilikləri, diskursu xaricdən formalaşdıran hər şeyin əsasını təşkil edən müqəddimələri müəyyən etmək üçün mühüm mənbə təşkil edir. Diskurs digər tərəfdən, ünsiyyət iştirakçılarının idrak aktları – onların etnoqrafik, sosial-mədəni, psixoloji dəyər modellərindən istifadəsi, mövcud kommunikativ problemlərin həlli üçün strategiyaların hazırlanması əsasında spesifik ünsiyyət formasiyaları ilə əlaqəlidir.

Y.S.Stepanova "Diskurs dilin xüsusi istifadəsidir... xüsusi mentaliteti ifadə etmək üçün... xüsusi ideologiyadır" dedikdə, əlahiddə istifadə edilən dilin müəyyən xüsusiyyətlərinin aktivləşdirilməsini və son nəticədə xüsusi qrammatika və lüğətin xüsusi qaydalarını nəzərdə tutur [12, s. 38-39].

Diskursun bir sıra tipləri vardır. Onlardan biri də hüquqi diskursdur. "Hüquqi diskurs dedikdə, müəyyən tarixi və sosial-mədəni kodlar (ənənələr) ilə tənzimlənən, normaların formalaşdırılmasına, hüquqi möhkəmlənməsinə (qanunlaşdırılması), ictimai münasibətlərin yaradılmasına və nəzarətinə yönəlmiş fəaliyyət növüdür " [9].

Hüquqi diskurs aşağıdakı xüsusiyyətlərə malik olan linqvistik fəaliyyətdir (nitqdir):

a) onun fəaliyyət sferası hüquq sahəsidir (hüquqi məsələlərin müzakirə edildiyi və həll olunduğu yerdə hüquqi diskurs mütləq izlənilir);

b) hüquqi diskursun mövzusu və aparıcı motivi qanunun məzmunu və baxılan konkret hadisənin qanuna uyğunluğudur;

c) hüquqi diskursun kommunikativ fokusunu sosial münasibətlərin tənzimlənməsi təşkil edir;

d) hüquqi diskursun ümumi koqnitiv spesifikliyi faktların dəyərlər üzərində üstünlüyüdür.

Bəs mətn nədir? Bu anlayış, bir tərəfdən danışanın fikrini ifadə etmək üçün bir neçə cümlənin əlaqəli ardıcıllığını nəzərdə tutur. Bununla yanaşı, bəzi dilçilər mətni şifahi və yazılı formada bir spesifik quruluş kimi başa düşürlər (M.A.Hallidey və R.Həsən), digəri isə mətnə kontekstlə sıx əlaqədə baxır. İ.Q.Qalperin mətnə daha geniş prizmadan yanaşır,onu linqvistik aspektləri (praqmatik, leksik, qrammatik, üslubi, məntiqi və s.) özündə ehtiva edən bir sintaktik vahid kimi başa düşür [6, s. 18].

"Mətn" və "diskurs"un rabitəli nitqin tədqiqində geniş istifadə olunduğunu vurğulayan Ə.Ə.Abdullayev, bu iki məfhuma yanaşmada iki əsas meyili fərqləndirir. O, qeyd edir ki, "hər iki anlayış bir sıra araşdırmalarda eyniləşdirilir və birbirini əvəzləyə bilir. Digər hallarda isə, onların fərqləndirilməsi hadisəsi müşahidə olunur. Onun fikrincə, bu proses də birmənalı deyildir, çünki burada nəzərdən keçirilən anlayışlar, bir tərəfdən, müstəqil anlayışlar kimi nəzərdən keçirilir, digər tərəfdən isə onların müəyyən dərəcədə əlaqəli olmaları vurğulanır" [2, s. 180].

Diskursun aktuallaşdırılmış mətn olması fikrini T.A. Van Deyk irəli sürmüşdür. O, özünün "Diskursun tərifinə dair" əsərində bu məfhumun dəqiq tərifinin olmamasını belə izah edir: "Dil, cəmiyyət, ideologiya anlayışları kimi diskurs anlayışı da tam aydın deyildir. Biz bilirik ki, ən dumanlı və tərif verməyə çətin gələn anlayışlar ən populyar olurlar" [6, s. 1-2]. T.A.Van Deyk diskursu müxtəlif bucaqlar altında – konkret danışıq kimi, danışıq tipi, janr, sosial funksiya kimi nəzərdən

keçirir və belə bir yekun nəticəyə gəlir ki, diskurs kontekstdəki mətndir. Əgər mətnlə (tekst) kontekst arasında müəyyən hədd qoymaq mümkündürsə, diskursda onların vəhdəti çıxış edir və bu həddi qoymaq mümkün deyildir. Hətta yazılı mətnin konteksti qavrayan üçün aydın deyilsə, onun tam qavranılmasından söhbət gedə bilməz. Bu məqamda da diskursun tamlığı üçün mətn və kontekstin birliyi nəzərə alınmalıdır. Başqa sözlə "diskurs=mətn+kontekst" (burada verbal və qeyri-verbal, dildaxili və dilxarici ünsürlərin tam vəhdəti nəzərdə tutulur) olmalıdır. Eyni fikri N.E.Enkvistdə də görmək olar. O qeyd edirdi: "Diskurs mətn ilə situasiya komponentinə malik kontekstin məcmusudur" [6, s.369].

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, hüquqi diskurs qanunvericilik mətni ilə kontekstin cəminə bərabərdir.

K.Abdullayevin mətnlə bağlı fikirləri də maraqlıdır. K.Abdullayev "tekst" anlayışının məzmununa yeni rakursdan, tamamilə fərqli yanaşma nümayiş etdirir. O, dilçiliyin obyekti kimi teksti, mətn dilçiliyinin obyekti olan tekstdən fərqləndirilməsinin vacibliyini xüsusi olaraq vurğulayır. Bu dilçi alimə görə, mətn dilçiliyi sahəsindəki tədqiqatlar iki istiqamətdə aparılır. Birinci istiqamət mətn qurulmasının ümumi qanunauyğunluqlarını üzə çıxarmaq məqsədilə aparılan təhlillərdən formalaşır. Bu halda mətn dilçiliyinin obyekti kimi "yeksteam" götürülür. İkinci istiqamət tekstemanın aktual reallaşması ilə bağlı, yəni konkret qarşıya çıxan müəyyən mətn kəsiyi, müəyyən bədii, publisistik, elmi profilli mətn kəsiyinin linqvo-üslubi statusunun müəyyənləşdirilməsi ilə bağlıdır. Birinci istiqaməti o, emik, ikinci istiqaməti isə etik tekst kimi şərh edir, eyni zamanda bu iki istiqamətin biri digərini şərtləndirdiyini vurğulayır [3, s. 81-82].

Hüquqi diskurs ilk növbədə müəllifin xüsusi hüquqi biliyə (həmçinin mətndə hüquqşünaslara xas sosial rola və statusiyaya oriyentasiyalarını, ideyalarını və baxışlarını əks etdirən peşəkar dil biliyi) malik olması ilə seçilir. Bu halda ünvan sahibinin heç bir xüsusi hüquqi biliyi yoxdur. Peşəkar hüquq cəmiyyətinin üzvləri tərəfindən yazılmış mətnlərlə müqayisədə, adresata yönəlmiş hüquqi diskurs onun gündəlik təcrübəsinə əsaslanan və aid olduğu sosial cəmiyyətdə dominant olan ideyaları, bilikləri və stereotipləri əks etdirir. Hüquqi diskursu diskursun digər növlərdən fərqləndirən əsas xüsusiyyətlər bunlardır:

1) müəyyən iştirakçı cütlərinin olması: vəkil – müştəri, iddiaçı – cavabdeh, məhkəmə prosesinin tərəfləri və s.;

2) xüsusi etikanın, məsələn, peşəkar hüquqşünasla müştəri arasında ünsiyyətlə əlaqəli xüsusi davranış normalarının olması;

3) Xüsusi hüquqi terminlərlə yanaşı ümumişlək sözlərdən ibarət dildən istifadə;

4) müxtəlif səviyyəli hüquq sferasının nümayəndələri arasında müəyyən ünsiyyət növlərinin xüsusi təyinatı;

5) hüquqi diskursun ünvanlandığı şəxs nə hüquqi terminlər, nə də hüquqi mətnlərin məzmunu ilə bağlı məsələlərdən xəbərdar deyildir [7].

Hüquqi diskursun strukturunda aşağıdakı tipik parametrlər vardır:

a) fəaliyyət sferası – hüquq sahəsi (hüquqi məsələlərin müzakirə olunduğu hər yerdə hüquqi diskurs mütləq izlənilir);

b) mövzu və aparıcı motiv – qanunun məzmunu və baxılan konkret hadisənin qanuna uyğunluğu;

c) kommunikativ fokus – ictimai münasibətlərin tənzimlənməsi (hüquqi diskursda bu funksiya fəal şəkildə həyata keçirilən qanunun aliliyi prinsipi ilə həyata keçirilir);

d) ümumi koqnitiv spesifiklik – faktların dəyərlər üzərində üstünlüyü (həm fərdi, həm də kollektiv, tarixən formalaşmış), obyektiv məlumat istəyi, rasionalın emosionaldan üstünlüyü).

Qeyd etmək lazımdır ki, hüquqi diskurs xüsusi kommunikativ vəzifələri həll edir: prokurorun ittiham aktında bu, təqsirləndirilən şəxsin təqsirinin sübutlu əsaslandırılmasıdır; vəkilin müdafiə çıxışında məhkəmə və ya andlı iclasçıları müttəhimin təqsirsizliyinə, onun təqsirini yüngülləşdirən halların mövcudluğuna və ya ən azı sonrakı məhkəmə icraatını düzgün olmayan prosessual pozuntulara inandırmaqdır. Bu baxımdan hüquqi diskurs kommunikativ mühitin darlığı kimi mühüm xüsusiyyətlə müəyyən edilir.

Hüquqi nitqin dili institusional mühitdə ənənəvi olaraq istifadə olunan ən unikal kodlardan biridir. Onun unikallığı konseptual və semantik linqvistik vasitələrin (terminlərin), klişelərin və rəsmilərin geniş istifadəsində, ifadə vasitələrinin olmamasında (hətta qəsdən yerdəyişmədə), sintaktik strukturların mürəkkəbliyində, janr və üslub vasitələrinin sabit istifadəsində, bütövlükdə janr və məhdud üslub diapazonunda və s. Hüquqi diskurs üçün xarakterik olan linqvistik və üslubi vasitələrin "topluluğu", habelə nitq aktlarının növləri onların hüquqi diskursun məqsədinə – fərdlər arasında münasibətlərin normallaşdırılmasına tabeliyindən xəbər verir" [9].

Hüquqi diskursdan bəhs edərkən, L.A. Borisova qeyd edir:

1) ümumən hüquq diskursunun iştirakçıları onun nümayəndələrinin və vətəndaşların simasında dövlətdir;

2) hüquq diskursunun xronotopu hüquqi diskursun yerləşməsidir: parlament, məhkəmə zalı, hüquqi məsləhətləşmə və s.;

3) hüquqi diskursun məqsədi hüquqi münasibətləri tənzimləməkdir. Hüquqi diskursun funksiyaları məqsədlə sıx bağlıdır ki, bunlara tənzimləyici, icraedici və informativ, şərhedici, məcmu təqdimat, kod, göstəriş, arqumentativ, deklarativ daxildir;

4) hüquqi diskursun dəyərləri "hüquq" və "hüquq"un əsas anlayışlarıdır;

5) hüquq diskursunun strategiyaları da onun məqsədi ilə müəyyən edilir və hüquq normasının formalaşdırılması, tətbiqi və şərhindən ibarətdir;

6) hüquq diskursunun predmeti müxtəlifdir və hüquq münasibətlərinin tənzimləndiyi hüquq sahələri ilə müəyyən edilir;

7) hüquqi diskursun janr differensasiyası onun növlərə və yarımtiplərə təsnifatından daha çox heterojendir [5, s. 135].

K.A.Petruka görə, hüquqi diskursun sistem formalaşdıran xüsusiyyətləri bunlardır:

1) xronotop (hüquqi dialoq üçün səciyyəvi zaman və məkan);

2) məqsəd (sosial sistemin fəaliyyətinin tənzimlənməsi, sosial münasibətlərin nizamlanması, müəyyən azadlıqların və vəzifələrin təmin edilməsi, sosial sistemin üstünlük təşkil edən dəyər və ideallara uyğunluğunun təmin edilməsi);

3) əsas anlayışlarda ifadə olunan dəyərlər (qanun, hüquq, ədalət);

4) strategiyalar (izah, tənzimləmə, nəzarət, resept, təşkilat) [11].

O.V.Kosonoqova hüquqi diskursu aşağıdakı komponentlərlə müəyyən edir:

1) ünsiyyət iştirakçılarının status-rol xüsusiyyətləri (hakim – təqsirləndirilən şəxs, vəkil – təqsirləndirilən şəxs, hakim – vəkil və s.);

2) ünsiyyətin məqsədi (cinayətin baş vermə hallarının müəyyən edilməsi, şübhəli şəxsin təqsirli və ya təqsirsizliyinin müəyyən edilməsi və s.);

3) ünsiyyətin prototip yeri (həbsxana, məhkəmə zalı və s.) [10, s. 61].

Qanunvericilik mətni hüquqi əhəmiyyətli məlumatların təqdim edilməsinin xüsusi forması və hüquqi reallığı əks etdirməyin və yaratmağın xüsusi üsuludur. Hüquq mədəniyyətinin elementi kimi qanunvericilik mətni yalnız müəyyən mədəniyyətin inkişafı zamanı yığılmış müəyyən sosial dəyərləri əks etdirmir, həm də müəyyən qaydaları, insanın həyatının çərçivəsini, onun yerinə yetirə biləcəyi və ya edə bilməyəcəyi sosial və hüquqi rolları, demək olar ki, bütün sosial sferalarda fəaliyyət alqoritmlərini, qaydaların pozulmasına, institusional rolların yerinə yetirilməməsinə görə məsuliyyət ölçüsünü müəyyən edir.

Qanunvericilik mətni hüquqi diskursu daim təkrarlayır və dəyişdirir. Hüquq diskursunun formalaşması bir-biri ilə əlaqəli iki prosesə: ümumi məcburi qaydaların yaradılması və onların həyata keçirilməsinin təmin edilməsinə əsaslandığı üçün qanunvericilik mətnini iki mərhələ ilə əlaqələndirmək məqsədəuyğundur: hazırlıq və əsas. Hazırlıq mərhələsində qanun layihəsinin gələcək ideyası formalaşdırılır, onun ilkin mətni hazırlanır və ona yenidən baxılır. Hazırlıq mərhələsi yenidən işlənmiş və razılaşdırılmış qanunvericilik mətninin parlament iclasında qəbulu prosesi ilə başa çatır. Qanunvericilik normalarının praktikada tətbiqinə başlandıqdan sonra qanunvericilik mətninin mövcudluğunun əsas mərhələsindən – hüquqi diskursda fəaliyyət göstərməsindən danışmaq olar.

Nəticə. Qanunvericilik mətni və hüquqi diskursu təhlil və tədqiq etdikdən sonra belə bir nəticəyə gəlmək olar ki, hüquqi diskursa aid olan mətnlər öz funksional, quruluş və dil xüsusiyyətlərinə görə digər diskursa aid olan mətnlərdən fərqlənir. Bu cür mətnlər xüsusi məqsədlər üçün müəyyən edilən hüquqi dildə yazılır. Son zamanlar insanların sosial-siyasi həyatı ilə bağlı bir sıra məsələlər dilçilərin diqqətini cəlb etməyə başlamış və bu sahəyə maraq artmışdır. Araşdırmağa çalışdığımız bu problemə qərb və rus dilçiliyində müraciət edilsə də, təəssüf ki, Azərbyacan dilçiliyi barəsində eyni fikri söyləmək olmur. Hesab edirik ki, bu məqalədə tədqiq edilən mövzunun elmi aktuallığını sübut edir. Məqalənin tətbiqi əhəmiyyətinə gəldikdə isə, qeyd etməliyik ki, mövzu ABŞ qanunvericilik mətnləri və hüquq diskursuna aid olduğundan bu məqalədən magistratura pilləsində ingilis dilinin üslubiyyatı və mətn dilçiliyi fənlərinin tədrisində istifadə etmək olar.

Ədəbiyyat:

1. Abdullayev, Ə.Ə. Koqnitiv dilçiliyin əsasları, Bakı.: Sabah, 2006. 228 s.
2. Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs, Bakı.: Zərdabi LTD MMC, 2011. 32 s.
3. Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / - Bak: Maarif, 2011. – 281 s.
4. Məmmədov, A.Y. Mətn yaranmasında formal əlaqə vasitələri sistemi / A.Y.Məmmədov. – Bakı: Elm, 2001. – 144 s.
5. Борисова, Л.А. Юридический дискурс: основные характеристики // Язык, коммуникация и социальная среда. Воронеж, 2016. С. 133-151.

6. Гальперин, И.Р. Текст как объект лингвистического исследования / И.Р.Гальперин. – Москва, – 2007. – 148 с.
7. Глищенко, А.С. Популярный юридический дискурс в США: общая характеристика и перспективы исследований, ВГУ, Вестник ВГУ. Серия: Лингвистика и межкультурная коммуникация, 2018. № 36-30.
8. Дейк Т.А. Ван к определению дискурса. URL: http://psyberlink.flogiston.ru/internet/bits/vandijk2.htm. 8.p.
9. Кожемякин Е.А. Юридический дискурс как культурный феномен: структура и смыслообразование.URL:http://konference.siberiaexpert.com/publ/doklad_s_obsuzhdeniem_na_sajte/kozhemjakin_e_a_juridicheskij_diskurs_kak_kulturnyj_fenomen_struktura_i_smysloobrazovanie/2-1-0-28
10. Косоногова, О.В. Характеристики юридического дискурса: границы, содержание, параметры / О.В. Косоногова // Историческая и социально образовательная мысль. – 2015. – Т. 7,№ 1. – С. 61–68.
11. Петрук К.А. Семантико-синтаксические характеристики речевого жанра «дискламация» в англоязычном юридическом дискурсе: автореф. дис. ... канд. филол. наук Семантико-синтаксическая характеристика речи. Жанр «дискламации» в английском юридическом дискурсе: автореф. канд. наука дисс. Волгоград, 2007. 18 с.
12. Степанов, Ю.С. Константы. Словарь русской культуры. М. 1997.
13. Чернышев, А. Юридический дискурс и его основные характеристики, 2016, с. 22-28.

Maryam Abdullayeva

Summary

LEGISLATIVE TEXT AND LEGAL DISCOURSE: PROBLEMS, PROSPECTS

The article “Legislative text and legal discourse: problems, prospects” is devoted to one of the most urgent problems of modern text linguistics - the study of legal discourse and legislative text. The article analyzes and studies the specific features of discourse, one of its types, legal discourse and legislative text, and the views of linguists on this issue. In order to achieve the goal, the author refers to the views of Western, Russian and Azerbaijani linguists.

Марям Абдуллаева

Резюме

ЗАКОНОДАТЕЛЬНЫЙ ТЕКСТ И ЮРИДИЧЕСКИЙ ДИСКУРС: ПРОБЛЕМЫ, ПЕРСПЕКТИВЫ

Статья «Законодательный текст и юридический дискурс: проблемы, перспективы» посвящена одной из самых актуальных проблем современной лингвистики текста – изучению юридического дискурса и законодательного текста. В статье анализируются и изучаются специфические черты дискурса, одного из его видов – юридического дискурса и законодательного текста, а также взгляды лингвистов на эту проблему. Для достижения своей цели автор обращается к взглядам западных, российских и азербайджанских лингвистов.

Rəyçi: prof. F.F.Cahangirov

Leyla Seyidova
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1019

İNGİLİS DİLİNİN AMERİKAN VƏ BRİTANİYA VARİANTLARININ FONETİK-FONOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər**: Amerikan ingilis dili, Britaniya ingilis dili, fonetika, fonologiya, saitlər, samitlər, intonasiya*
***Keywords:** American English, British English, phonetics, phonology, vowels, consonants, intonation*
***Ключевые слова:** американский английский, британский английский, фонетика, фонология, гласные, согласные, интонация*

Giriş. İngilis dili qlobal miqyasda ən çox istifadə olunan dillərdən biridir və onun müxtəlif variantları mövcuddur. Bu variantlar arasında Amerikan və Britaniya ingiliscəsi ən diqqət çəkən fərqliliklərə malikdir. Məqalə bu iki dil variantının fonetik-fonoloji xüsusiyyətlərini müqayisəli şəkildə təhlil etməyi qarşısına məqsəd qoyur. Bu fərqlərin öyrənilməsi dilin dərin quruluşunu anlamaq üçün əhəmiyyətlidir.

İngilis dilinin iki əsas variantı olan Britaniya və Amerika İngiliscəsi arasındakı fonetik-fonoloji fərqləri müqayisəli şəkildə təhlil etmək məqsədi daşıyır. Baxmayaraq ki, bu iki ölkə eyni dili danışır, onların tələffüz, lüğət, orfoqrafiya və qrammatika baxımından bir sıra fərqləri mövcuddur. Məqalə, xüsusilə, bu fərqlərin saitlər (monoftonq və diftonqlar daxil olmaqla) və samitlər səviyyəsində necə təzahür etdiyinə fokuslanır. Məqalənin əsas məqsədi, İngilis dilini öyrənənlərə bu iki variantı fərqləndirməyə və şüurlu şəkildə istifadə etməyə kömək etməkdir.

Tarixi cəhətdən, Britaniyalıların XVII əsrdə Amerikaya gəlişi ilə başlayan bu dil fərqliliyi, ticarət və müharibələr səbəbindən yaranan əlaqə kəsilmələri ilə daha da dərinləşmişdir. İngilis dilinin bu iki variantı arasında üç əsas mərhələ müəyyən edilir: ilk mərhələdə Amerika İngiliscəsi sadəcə bir müstəmləkə dili statusunda idi, ikinci mərhələdə özünəməxsus xarakterlərini inkişaf etdirdi, üçüncü və hazırkı mərhələdə isə Amerika İngiliscəsi Britaniya İngiliscəsi ilə eyni statusa malikdir və hətta digər dilə öz təsirini göstərir.

Bu məqalənin metodologiyası müqayisəlidir; məlumatlar kitabxana və internet resurslarından toplanıb. Təhlil üçün Beynəlxalq Fonetik Əlifba (IPA) simvollarından istifadə olunub, çünki bu, səs təsvirində yüksək dəqiqliyi təmin edən standart bir sistemdir. Aksent: Tələffüzlə əlaqəli olaraq bir insanın coğrafi və sosial mənşəyini göstərən nitq xüsusiyyətidir. Məsələn, Britaniyada RP (Received Pronunciation) və Amerikada GA (General American) standart aksentlər kimi qəbul olunur.

Fonetika: İnsan nitq səslərinin fiziki xüsusiyyətlərini, onların fizioloji istehsalını və akustik xarakteristikalarını öyrənən dilçilik sahəsidir. Fonetikanın üç əsas qolu var:

1. Artikulyator fonetika: Nitq səslərinin necə tələffüz olunduğunu öyrənir.

2. Akustik fonetika: Nitq səslərinin danışandan dinləyənə necə ötürüldüyünü öyrənir.

3. Auditor fonetika: Nitq səslərinin dinləyən tərəfindən necə qəbul edildiyini öyrənir.

Fonologiya: Səs və ya işarə sistemlərinin mücərrəd və qrammatik xarakteristikalarını öyrənən sahədir. Fonetika nitqin fiziki cəhətinə, fonologiya isə səs sisteminin dil daxilindəki funksiyasına fokuslanır.

İngilis dili dünya miqyasında geniş istifadə olunsa da, onun müxtəlif coğrafi bölgələrdə formalaşmış variantları fonetik və fonoloji xüsusiyyətlərinə görə fərqlənir. Bu fərqlər sözlərin tələffüzündə, vurğuda, ritm və intonasiyada özünü göstərir. Amerikan və Britaniya variantlarının səslər sistemindəki bu müxtəliflik, dil öyrənənlər üçün müəyyən çətinliklər yarada bilər. Məqalənin məqsədi Amerikan və Britaniya ingilis dilinin fonetik-fonoloji xüsusiyyətlərini müqayisəli şəkildə təhlil etmək və onların fonoloji struktura təsirini izah etməkdir.

Amerikan və Britaniya ingilis dilində saitlərin tələffüzü əhəmiyyətli fərqlərə malikdir. Məsələn, Britaniya ingilis dilində ** /ɑː/ ** səsi uzun tələffüz olunur (“bath” /bɑːθ/), Amerikan ingilis dilində isə qısa və daha açıq bir səs kimi səslənir (/bæθ/). Eyni zamanda, “lot”, “dog” kimi sözlərdə də sait səslərində fərqlər müşahidə olunur. Diftonqların formalaşması da regiondan asılı olaraq dəyişir; məsələn, Britaniya variantında ** /əʊ/ ** səslənən sözlər Amerikan ingilis dilində ** /oʊ/ ** kimi ifadə olunur (“go” /gəʊ/ vs /goʊ/). Saitlərin tələffüzü Britaniya və Amerikan ingiliscəsi arasında ən böyük fərqlərdən biridir.

- Qısa /ɒ/ vs. Uzun /ɑː/: Britaniya İngiliscəsində “not”, “hot” kimi sözlərdə dodaqlanan qısa /ɒ/ səsi istifadə edildiyi halda, Amerikan İngiliscəsində eyni sözlər daha açıq və dodaqlanmayan uzun /ɑː/ səsi ilə tələffüz olunur. Məsələn:
  - Fox: BrE - /fɒks/ ; AmE - /fɑːks/
- Uzun /ɑː/ vs. Qısa /æ/: Britaniyada /s/, /f/, /t/ samitlərindən əvvəl gələn /ɑː/ səsi Amerikan dilində /æ/ kimi tələffüz edilir. Məsələn:
  - Grass: BrE - /grɑːs/ ; AmE - /græs/
- Uzun /ɔː/ vs. Uzun /ɑː/: Britaniya tələffüzündə rast gəlinən orta, arxa /ɔː/ səsi (məsələn, "bought" sözündə) Amerikan ingiliscəsində adətən /ɑː/ səsinə çevrilir.
  - Thought: BrE - /θɔːt/ ; AmE - /θɑːt/
- /juː/ vs. /uː/: Britaniya İngiliscəsində bəzi samitlərdən (məsələn, /t/, /d/, /n/) sonra gələn /juː/ səsi, Amerikan ingiliscəsində sadəcə /uː/ kimi tələffüz olunur.
  - Due: BrE - /djuː/ ; AmE - /duː/

Diftonqlar (iki sait səsin birləşməsi) hər iki dialektdə fərqli şəkildə reallaşa bilər.

- /ɪə/ vs. /ɪr/: Britaniyada "dear", "beard" kimi sözlər mərkəzləşən /ɪə/ diftonqu ilə tələffüz edildiyi halda, Amerikan ingiliscəsi rotik olduğu üçün sonuna /r/ samiti əlavə olunur.
  - Dear: BrE - /dɪə/ ; AmE - /dɪr/
- /əʊ/ vs. /oʊ/: Britaniya İngiliscəsində "yeoman" kimi sözlər /əʊ/ diftonqu ilə tələffüz olunsa da, Amerikan ingiliscəsində bu səs daha çox /oʊ/ kimi reallaşır.

Samit səslərindəki fərqlər daha az olsa da, əhəmiyyətlidir.

- Rotisizm (/r/ səsi): Bu, iki dialekt arasındakı ən vacib fərqlərdən biridir. Amerikan İngiliscəsi Şotlandiya və İrlandiya istisna olmaqla, tamamilə rotikdir,

yəni saitdən sonra gələn /r/ səsi tələffüz olunur ("car" - /kɑːr/). Britaniya İngiliscəsi isə qeyri-rotikdir, yəni /r/ səsi tələffüz edilmir ("car" - /kɑː/).

• /t/ samitinin cingiltiləşməsi (Flap T): Amerikan İngiliscəsinə xas bir xüsusiyyətdir. İki sait arasında gələn /t/ səsi cingiltiləşərək, zəif /d/ (flapped t) kimi tələffüz olunur. Məsələn, "atom" sözündəki /t/ səsi.

o Writer: BrE - /ˈraɪ.tə/ ; AmE - /ˈraɪ.ɾɚ/

• /s/ və /ʃ/ fərqləri: Bəzi sözlərdə (məsələn, "Cassia") Britaniyalılar /s/ səsindən istifadə etdiyi halda, Amerikalılar /ʃ/ səsindən istifadə edə bilər.

• /θ/ və /ð/ samitləri: Bəzi sözlərdə, xüsusən də mürəkkəb sözlərin tərkibində, Britaniya ingiliscəsində cingiltili /ð/ səsi tələffüz olunsa da, Amerikan ingiliscəsində kar /θ/ səsi istifadə edilir.

o Booth: BrE - /buːð/ ; AmE - /buːθ/

Vurğu və intonasiya Amerikan və Britaniya variantlarını bir-birindən ayıran digər fonoloji xüsusiyyətlərdir. Britaniya ingilis dilində cümlə vurğusu daha çox söz daxilində paylanır, Amerikan ingilis dilində isə əsas vurğu cümlənin sonunda yerləşir. Eyni zamanda, intonasiya melodiyası da Amerikan variantında bir az daha "yüksək" və "düzgünlük" orientasiyalıdır, Britaniya variantında isə daha "dalğalı" və regional fərqləri əks etdirir.

Fonetik fərqlərin tarixi səbəbləri böyük sait dəyişikliyi, diftonqların inkişafı və samit transformasiyaları ilə bağlıdır. Amerikan ingilis dili Britaniya ingilis dilindən köç zamanı formalaşmış və müəyyən səslər sadələşdirilmiş, digərləri isə regional dialektlərin təsiri ilə dəyişmişdir. Dialektoloji baxımdan isə hər iki variantın müxtəlif bölgələrdə fərqli fonetik xüsusiyyətləri qorunub saxlanmışdır.

Amerikan və Britaniya ingilis dili variantları fonetik və fonoloji baxımdan fərqli xüsusiyyətlərə malikdir. Bu fərqlər sait və samit tələffüzündə, vurğu, intonasiya və diftonq sistemində özünü göstərir. Tarixi və dialektoloji faktorlar bu fərqlərin yaranmasında əsas rol oynayır. Fonetik-fonoloji müqayisə, həm dil öyrənənlər, həm də filoloqlar üçün Amerikan və Britaniya ingilis dilində düzgün tələffüz və anlayış yaratmaq baxımından böyük əhəmiyyət kəsb edir.

Məqalənin predmeti. Məqalənin predmeti, Amerikan və Britaniya ingiliscəsinin səs sistemləri, xüsusən də sait və samit səslərinin tələffüzü, diftonqlar, vurğu və intonasiyadakı fərqləri müqayisəli şəkildə araşdırmaqdan ibarətdir. Məqalə həmçinin bu fonetik-fonoloji fərqliliklərin tarixi və dilin inkişafı ilə bağlı səbəblərinə də toxunur.

Elmi yenilik. Bu məqalənin elmi yeniliyi, Amerikan və Britaniya ingiliscəsinin fonetik-fonoloji fərqlərini kompleks şəkildə təhlil edərək, hər iki variantın səs sistemlərini sistemli olaraq qarşılaşdırmasıdır. Məqalə saitlərdəki, samitlərdəki, diftonqlardakı, vurğu və intonasiyadakı əsas fərqləri aydın nümunələr və beynəlxalq fonetik transkripsiya ilə göstərməklə, bu sahədəki biliklərin daha da dəqiqləşməsinə töhfə verir. Bu təhlil, dil öyrənmə metodologiyaları üçün də yeni perspektivlər açır.

Nəticə. Hər bir dil elementar tərkib səslərindən ibarətdir. İngilis dili bütün dünyada öyrənilən, qəbul olunan dilə çevrilib. İngilis dilini öyrənmək üçün, başlanğıc elementlər kimi səslər öyrənilməlidir. Deyilməlidir ki, Britaniya və Birləşmiş Ştatlar çərçivəsində bir çox aksent dəyişikliyi var. Həmçinin, Birləşmiş Ştatlarda bəzi Şərq aksentləri BBC tələffüzünə Ümumi Amerikan tələffüzündən daha

yaxındır, necə ki, bəzi Britaniya aksentləri BBCdən daha çox Ümumi Amerikan aksentini xatirladır. Buna baxmayaraq, RP (qəbul olunmuş tələffüz) və Ümumi Amerikan İngiliscəsi (Ümumi Amerikan) hələ də və yəqin ki, İngilis dili öyrənciləri tərəfindən dogma dil daşıyıcıları kimi onların modeli kimi öyrənmək istədikləri aksentlər olacaq. Nəticə olaraq, bu məqalədə təqdim olunan məlumat xarici və ya ingilis dilini öyrənənlərə Britaniya və Amerikan İngilisləri arasındakı çeşidləri daha yaxşı başa düşməyə imkan verəcəkdir.

Üstəlik, bu məqalə onlara iki ingilis növündən birini şüurlu şəkildə istifadə etməyə və istifadə etdikləri şeyləri daha yaxşı başa düşməyə və qavramağa kömək edəcəkdir. Bu məqalə həm də Britaniya və Amerika İngilisləri arasında olan növlərin digər aspektləri ilə bağlı əlavə tədqiqatlar üçün, eləcə də bu sahələrlə maraqlananlar üçün yol açacaqdır. Fonetik çeşidlərlə yanaşı, bu iki dil arasında lüğət, orfoqrafiya, qrammatika, deyim kimi digər fərqlər də var.

Ədəbiyyat:

1. Baugh, A. C., & Cable, T. (2002). A history of the English language. London: Routledge.
2. Barber, C. (2000). The English language: A historical introduction. Cambridge: Cambridge University Press.
3. Hogg, R., & Denison, D. (2006). A history of the English language. Cambridge: Cambridge University Press.
4. Lass, R. (1999). Phonology and morphology. Cambridge: Cambridge University Press.
5. Roach, P. (2009). English phonetics and phonology. Cambridge: Cambridge University Press.

Leyla Seyidova

Summary

THE PHONETIC-PHONOLOGICAL FEATURES OF AMERICAN AND BRITISH ENGLISH

This article comparatively examines the phonetic differences between British and American English. The author analyzes the main differences in the pronunciation of vowels, diphthongs, and consonants that exist between these two variants of the language. The article touches upon the historical development of both dialects, explaining how they formed independently. Among the most notable phonetic differences, features such as "rhoticity" (the pronunciation of the 'r' sound after a vowel) and the "flap t" (the 't' sound becoming a "d" sound after stressed vowels) are highlighted. The main goal of this article is to help English learners understand these differences and use them consciously. Ultimately, the article demonstrates that British and American English have fundamental differences not only in vocabulary and grammar but also in their phonetics.

Лейла Сеидова

Резюме

ФОНЕТИКО-ФОНОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ АМЕРИКАНСКОГО И БРИТАНСКОГО АНГЛИЙСКОГО

Эта статья исследует фонетические различия между британским и американским английским языковыми вариациями. Автор анализирует основные различия в произношении гласных, дифтонгов и согласных, которые существуют

между этими двумя вариантами языка. В статье рассматривается историческое развитие обоих диалектов, объясняя, как они формировались независимо друг от друга. Среди наиболее заметных фонетических отличий выделяются такие особенности, как «ротичность» (произношение звука «r» после гласного) и «флап-т» (звук «t» становится похожим на «d» после ударных гласных). Основная цель этой статьи – помочь изучающим английский язык понять эти различия и сознательно их использовать. В заключении, в статье делается вывод, что британский и американский английский имеют существенные различия не только в лексике и грамматике, но и в своих фонетических системах.

Rəyçi: fil.f.d., dosent əvəzi X.R.Səfərova

Nərgiz Kərimova
Xəzər Universitetinin dissertantı
Mingəçevir Dövlət Universitetinin müəllimi
https://orcid.org/0000-0001-7360-3951

https://doi.org/10.30546/2518-752X.02.101.1021

İNGİLİSDİLLİ MEDİADİSKURSDA FRAZEOLOJİ VAHİDLƏRİN STRUKTUR, SEMANTİK VƏ FUNKSİONAL TƏHLİLİ (2020-2024)

Açar sözlər: *ingilisdilli mediadiskurs; frazeoloji vahidlər; leksiko-semantik təsnifat, sosial-psixoloji vəziyyətlər; siyasi və iqtisadi frazeologiya; konflikt diskursu; etik-mədəni dəyərlər; intellektual-nitq fəaliyyəti; media dili*

Keywords: *English-language media discourse, phraseological units, lexico-semantic classification, socio-psychological states, political and economic phraseology, conflict discourse, ethical and cultural values, intellectual-verbal activity, media language*

Ключевые слова: *англоязычный медиадискурс; фразеологические единицы; лексико-семантическая классификация; социально-психологические состояния; политическая и экономическая фразеология; конфликтный дискурс; этико-культурные ценности; интеллектуально-речевая деятельность; язык СМИ*

Giriş. İngilisdilli mediadiskurs qlobal informasiya məkanında xüsusi mövqe tutur. Müasir dövrdə internet resursları da daxil olmaqla, ingilisdilli media mətnlərinin həcmi digər dillərdə təqdim olunan materialların ümumi həcmini əhəmiyyətli dərəcədə üstələyir. Mediadiskursun tematik çərçivəsi çoxşaxəlidir və siyasət, iqtisadiyyat, sosial proseslər, təhlükəsizlik, mədəniyyət, beynəlxalq münasibətlər kimi sahələri əhatə edərək həm ingilisdilli ölkələrin, həm də dünya ictimaiyyətinin aktual məsələlərini işıqlandırır.

İngilisdilli mediadiskursda frazeoloji vahidlərin geniş işlədilməsi onların dilin obrazlılıq və ifadəlilik imkanlarını artırması ilə bağlıdır. Frazeologizmlər hadisə və prosesləri daha canlı və metaforik şəkildə təqdim edir, mətnə qiymətverici çalar gətirir, ekspressivliyi artırır və oxucuda müəyyən emosional münasibət formalaşdırır. Bu baxımdan frazeoloji vahidlər mediadiskursun semantik və üslubi strukturunda mühüm funksional rol oynayır, informasiyanın təqdim edilmə formasına və qəbuledicinin qavrayışına bilavasitə təsir göstərir.

Metodologiya. Məqalədə frazeoloji vahidlərin toplanması üçün seçmə (sampling) metodu tətbiq olunmuşdur. Onların leksiko-semantik və funksional xüsusiyyətləri müqayisəli lingvostilistika analizi ilə öyrənilmişdir. Frazeologizmlərin təsnifatı və paylanması matris metodu ilə müəyyən edilmiş, kəmiyyət təhlili isə tezlik və payını qiymətləndirmək üçün istifadə olunmuşdur. Bu metodlar birlikdə frazeologizmlərin mediadiskursdakı rolunu sistemli şəkildə araşdırmağa imkan vermişdir.

Əsas material. Tədqiqatın materialını 2020-2024-cü illər üzrə ingilisdilli mediadiskursdan seçilmiş 200 frazeoloji vahid təşkil edir. Faktlar müxtəlif media re-

surslarından seçmə (sampling) metodu ilə toplanmışdır. İstifadə edilən əsas mənbələr bunlardır: Official website of President of Azerbaijan Republic, BBC News, The Independent, The Economist, The Guardian, Azernews, The Times, The Indian Express, The Irish Sun, The Telegraph, The Washington Post, Metro, Newsweek.

Frazeoloji vahidlərin müəyyənləşdirilməsi və leksik-semantik xüsusiyyətlərinin dəqiqləşdirilməsi üçün aşağıdakı lüğətlərdən istifadə edilmişdir: Longman Dictionary of English Idioms, Oxford Dictionary of English Idioms, N. Vəliyeva, Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət (2006), K. Məmmədzadə, İngiliscə-rusca-azərbaycanca frazeoloji lüğət (2008).

Bu baza əsasında ingilisdilli mediadiskursda frazeoloji vahidlərin leksiko-semantik təsnifatı, funksional xüsusiyyətləri və informasiya mətnlərinə təsir mexanizmi araşdırılır.

Aparılan tədqiqatda frazeologizmlərin təsnifatı onların nüvəsində dayanan semantik məzmun və kommunikativ-pragmatik funksiyalar əsasında həyata keçirilmişdir. Bu yanaşma ifadələrin mediadiskursda oynadığı rolu daha dəqiq müəyyənləşdirməyə, həm emosional, həm də ideoloji təsir mexanizmlərini üzə çıxarmağa imkan verir. Analiz nəticəsində bir neçə əsas leksiko-semantik sahə (LSS) müəyyən edilmişdir: sosial-psixoloji vəziyyətlər, siyasət və hakimiyyət, iqtisadi fəaliyyət, təhlükə və qarşıdurma, etik-mədəni dəyərlər sistemi və intellektual-nitq fəaliyyəti. Bu sahələrin hər biri müasir informasiya məkanının strukturlaşdırılmasında xüsusi funksiyaya malikdir.

Sosial-psixoloji vəziyyətləri əhatə edən frazeologizmlər (29%) mediada üstünlük təşkil edir və bu, kütləvi informasiya vasitələrinin auditoriya ilə emosional əlaqə yaratmağa xüsusi önəm verdiyini göstərir. *"On tenterhooks" (gərgin gözləntidə olmaq, həyəcan içində qalmaq), "green-eyed monster" (qısqanclıq, paxıllıq), "cool as a cucumber" (tam soyuqqanlı olmaq, özünü tam ələ almaq)* kimi ifadələr insan duyğularının intensivliyini vurğulayır və xəbərlərin emosional fonunu gücləndirir. Bu sahənin yüksək payı media mətnlərinin narahatlıq, sensasiya və psixoloji təsir üzərində qurulan strategiyasını nümayiş etdirir.

Siyasət və hakimiyyət (13.5%) ilə iqtisadi fəaliyyət (17%) birlikdə 30.5% təşkil edir, bu da qlobal gündəmin əsasən iqtisadi-siyasi proseslər ətrafında cəmləşdiyini göstərir. *"To throw one's weight behind" (birisinə tam dəstək vermək, onun arxasında durmaq, mövqeyini gücləndirmək), "red herring" (diqqəti əsas mövzudan yayındıran amil, yanlış iz, çaşdırıcı məlumat), "cash cow" (sabit və böyük gəlir gətirən mənbə; "qaz göndərən toyuq", dayanıqlı mənfəət gətirən resurs), "golden handshake" (yüksək vəzifəli şəxsin işdən çıxarkən aldığı böyük kompensasiya; "şərəfli ayrılma paketi", böyük təzminat),"to make ends meet" (şələsini sudan çıxarmaq, birtəhər dolanmaq), "grey market" (qeyri-rəsmi bazar), "sweep from power" (hakimiyyətdən uzaqlaşdırmaq)* kimi ifadələr iqtisadi çətinlikləri, bazar risklərini və siyasi manipulyasiyaları metaforik şəkildə təqdim edir. Nəticə olaraq, media bu frazeologizmlər vasitəsilə həm sosial-iqtisadi qeyri-sabitliyə, həm də güc münasibətlərinə diqqət çəkir və informasiya məkanında ideoloji kodların formalaşmasına təsir göstərir.

Təhlükə, aqressiya və konfliktlə bağlı ifadələr (16.5%), mediada xəbərlərin dramatik tonunu artırır. "*To walk a tightrope" (son dərəcə həssas, riskli vəziyyətdə olmaq; hər addımı diqqətlə atmaq məcburiyyətində qalmaq), "to face war*

crimes trial" (hərbi cinayətlərə görə məhkəmə qarşısına çıxmaq; hərbi cinayətlərə görə mühakimə olunmaq) "to play with fire" (özünü təhlükəyə atmaq), "beat to a pulp" (biri-ni əzib-doğram etmək, pis vəziyyətdə döymək), "dead on arrival" (başlanğıcdan uğursuz, işə yaramayan layihə/ideya) kimi ifadələr hadisələrin konflikt yönünü qabardır, auditoriyada həyəcan və gərginlik yaradır. Bu qrupun kifayət qədər böyük olması mediadiskursun sensasiyaya meylli olduğunu və dramatizasiya strategiyasına üstünlük verdiyini göstərir.

Etik və mədəni kodları təcəssüm etdirən frazeologizmlər (17%) isə ictimai dəyərlərin, kollektiv təcrübənin və mədəni yaddaşın aktual media məkanında necə təqdim edildiyini göstərir. *"To burn bridges" (geri dönüş yolunu qapamaq; münasibətləri birdəfəlik korlamaq; qayıdış imkanını özün üçün məhv etmək), "good riddance" ("Yaxşı ki, canımız qurtardı!" "Qurtulduğumuza şükür."), "time is money" (vaxt itirmək pul itirmək kimi dəyərləndirilir; vaxtın dəyəri böyükdür), "It's no use crying over spilt milk" (keçən işə heyifsilənməyin mənası yoxdur", olan oldu), "from rags to riches" (kasıbçılıqdan var-dövlətə yüksəlmək), "the prodigal son" (əslağı oğul", "peşman olub geri dönen oğul")* kimi ifadələr xəbər materiallarında nəsihət, ibrət, dəyər yönümlü yanaşmanı gücləndirir. Bu, media mətnlərinə həm mənəvi çalar, həm də mədəni identifikasiya elementi qatır.

İntellektual-nitq fəaliyyəti sahəsi (7%) daha çox akademik çevrələrə, ekspert rəyinə və ya siyasi ritorikaya yönəlmiş ironiyanı özündə birləşdirir. *"Ivory tower" (cəmiyyətdən uzaq, qüllədə yaşayan intellektual), "gift of the gab" (şirin dilli olmaq, gözəl danışıq qabiliyyəti), "stuffed shirt" (özündən razı, rəsmi və qurulu adam, boşboğaz və təkəbbürlü şəxs)* kimi ifadələr cəmiyyətdə intellektual elita ilə məsafənin olduğunu, bəzən isə ekspert fikrinə skeptik yanaşmanın mövcudluğunu əks etdirir.

Ümumi nəticə. Frazeologizmlərin bu şəkildə paylanması müasir ingilisdilli mediadiskursun əsas xüsusiyyətlərini aydın şəkildə göstərir:

1. Emosional təsir mərkəzi yer tutur; sosial-psixoloji frazeologizmlərin çoxluğu bunu təsdiqləyir.
2. Siyasi və iqtisadi kontekstin üstünlüyü, müasir dünyanın gündəm mövzularının mediada metaforik dillə əks olunmasını təmin edir.
3. Dramatikləşdirmə və sensasiyaya meyl, konflikt frazeologizmlərinin yüksək payı ilə özünü göstərir.
4. Etik və mədəni çalarlar, mediada hadisələrin mənalandırılmasına, dəyərlərin vurğulanmasına xidmət edir.
5. İntellektual ironiya, ekspertlik institutunun ictimai qavrayışında olan qeyri-bərabər münasibəti ifadə edir.

Beləliklə, frazeologizmlər media dilində yalnız bədii vasitə deyil, həm də ideoloji çərçivələndirmə, emosional yönləndirmə və sosial təsir aləti kimi çıxış edir. Onların struktur və tezlik baxımından təhlili mediada dominant mövzuları, aktual narativləri və ictimai şüurun formalaşma mexanizmlərini açıq şəkildə üzə çıxarır.

Ədəbiyyat

1. Vəliyeva, N. Ç. (2006). Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət (460 s.). Bakı: Nurlan.
2. Məmmədzadə, K. (2008). İngiliscə-azərbaycanca-rusca frazeoloji lüğət (323 s.). Bakı: Qafqaz Universitetinin nəşri.

3. Longman dictionary of English idioms (5th ed., p. 512). (2005).
4. Oxford dictionary of English idioms (2nd ed., p. 480). (2003).

Nargiz Kerimova

Summary

STRUCTURAL, SEMANTIC, AND FUNCTIONAL ANALYSIS OF PHRASEOLOGICAL UNITS IN ENGLISH-LANGUAGE MEDIA DISCOURSE (2020-2024)

The present study investigates the lexico-semantic characteristics and functional load of phraseological units employed in English-language media discourse. A systematic analysis of 200 phraseological units extracted from various media platforms spanning the years 2020-2024 reveals that these units serve as key linguistic mechanisms in shaping the emotional tonality, evaluative stance, and ideological orientation of media texts. Based on their semantic core, the units were classified into six principal lexico-semantic domains: socio-psychological states, political and economic processes, danger and conflict, ethical and cultural values, and intellectual-verbal activity. The findings indicate that phraseological units reflecting socio-psychological states constitute the dominant category, whereas political and economic expressions define the thematic trajectory of contemporary global information flow. The notable proportion of phraseological units associated with danger and conflict reveals the intensive use of dramatization strategies in media discourse. Units about ethical-cultural and intellectual-verbal domains illustrate how value-laden perspectives and critical attitudes are encoded linguistically. Overall, the research underscores the essential role of phraseological units in determining the semantic-structural dynamics of media discourse and in shaping its persuasive and ideological impact.

Наргиз Каримова

Резюме

АНАЛИЗ СТРУКТУРНЫХ, СЕМАНТИЧЕСКИХ И ФУНКЦИОНАЛЬНЫХ ОСОБЕННОСТЕЙ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ В АНГЛОЯЗЫЧНОМ МЕДИАДИСКУРСЕ (2020-2024)

Исследование посвящено выявлению лексико-семантических особенностей и функциональных нагрузок фразеологических единиц, используемых в англоязычном медиадискурсе. Системный анализ 200 фразеологизмов, отобранных с различных медиа-платформ за 2020-2024 годы, показал, что данные единицы выступают важным языковым средством формирования эмоциональной тональности, оценочных оттенков и идеологической направленности медиадискурса. Фразеологизмы были распределены по шести лексико-семантическим полям на основе их семантического ядра: социально-психологические состояния, политические и экономические процессы, опасность и противостояние, этико-культурные ценности и интеллектуально-речевая деятельность. Анализ подтверждает доминирование выражений социально-психологического содержания, тогда как политико-экономические фразеологизмы определяют тематическую направленность глобального информационного потока. Доля единиц, связанных с опасностью и конфликтом, отражает интенсивность стратегии драматизации в медиадискурсе. Фразеологизмы этико-культурной и интеллектуально-речевой сфер представляют собой формы выражения ценностных и критических установок на языковом уровне. В целом исследование выявляет значимость фразеологизмов для определения семантического и структурного динамизма медиадискурса и его воздействующих механизмов.

Rəyçi: A.K.Hacıyeva

Nərminə Məmmədova
Bakı Dövlət Universiteti
https://orcid.org/0000-0001-5425-2818

https://doi.org/10.30546/2518-752X.02.101.1025

İSPAN MƏDƏNİYYƏTİNDƏ GENDER ROLLARININ DİLDƏ VƏ NİTQDƏ TƏSİRİ: İSPAN TƏDQİQATÇILARININ YANAŞMALARI

Açar sözlər: *gender, dil, sosial rollar, lingvistik diskriminasiya, İspan dili, inklüzivlik, qrammatik cins*

Keywords: *gender, language, social roles, linguistic discrimination, Spanish language, inclusivity, grammatical gender*

Ключевые слова: *гендер, язык, социальные роли, лингвистическая дискриминация, испанский язык, инклюзивность, грамматический род*

Giriş

Müasir dövrdə dil və cinsiyyət münasibətlərinin tədqiqi sosial-linqvistik və mədəni araşdırmaların mühüm istiqamətlərindən birinə çevrilmişdir. Qloballaşma, multikulturalizm və gender bərabərliyi məsələlərinin aktuallıq qazandığı XXI əsrdə dlin sosial strukturları və mədəni dəyərləri necə əks etdirdiyi sualı xüsusi elmi maraq doğurur. Bu baxımdan, ispan dilində gender rollarının dildə və nitqdə təzahürünü öyrənmək, dilin sosial münasibətləri formalaşdırmadakı rolunu anlamaq üçün mühüm əhəmiyyət daşıyır.

İspan dilində qrammatik cinsiyyət kateqoriyasının dərin kökləri və bu sistemin sosial mənaları, dilin yalnız kommunikativ vasitə deyil, həm də ideoloji və mədəni alət olduğunu göstərir. Feminist dilçilik və kritik diskurs analizi kimi nəzəri yanaşmalar ispan cəmiyyətində qadın və kişi rollarının dil vasitəsilə necə qurulduğunu və təkrarlanaraq normallaşdırıldığını ortaya qoyur. Bu konteksdə ispan tədqiqatçılarının – María Luisa Calero Vaquera, Ana María Vigara Tauste, Carmen Alario Trigueros, Mercedes Bengoechea və digərlərinin işləri dil və gender münasibətlərinin elmi öyrənilməsinsə dəyərli nəzəri baza formalaşdırır.

Azərbaycan dilçiliyi üçün bu mövzu həm müqayisəli, həm də tətbiqi baxımdan xüsusi əhəmiyyətə malikdir. Bir tərəfdən, ispan dilindəki genderli strukturun analizi, Azərbaycan dilinin qeyri-genderli quruluşu ilə müqayisədə maraqlı nəticələr əldə etməyə imkan verir; digər tərəfdən, gender bərabərliyinin dil mühitində təmin olunması məsələləri Azərbaycan cəmiyyətində də müasir sosial inkişafın əsas komponentlərindən biridir. Bu səbəbdən, ispan dilində gender rollarının dildə və nitqdə ifadə formalarının araşdırılması yalnız ispan dilçiliyi üçün deyil, həm də Azərbaycan linqvistikası üçün yeni elmi istiqamətlərin formalaşmasına, sosial-linqvistik yanaşmaların genişlənməsinə və dilin mədəni kodlarının dərin təhlilinə töhfə verir.

Beləliklə, mövzu həm beynəlxalq, həm də milli konteksdə aktual olub, dilin sosial strukturda gender bərabərliyinin təmininə necə xidmət edə biləcəyinə dair elmi düşüncələrin inkişafına imkan yaradır.

Bu səbəbdən, müasir dilçilikdə sosial və mədəni amillərin dil strukturuna təsirini araşdırmaq xüsusi aktuallıq kəsb edir. Bu baxımdan, **ispan dilində gender kateqoriyasının və sosial cinsiyyət fərqlərinin dil səviyyəsində təzahür formalarının öyrənilməsi** həm nəzəri, həm də praktik baxımdan mühüm elmi istiqamət kimi diqqət mərkəzindədir.

Əsas hissə

İspan dilçilik və gender tədqiqatları sahəsində aparılan araşdırmalar göstərir ki, dilin genderləşdirilməsi və sosial cinsiyyət rollarının dil vasitəsilə qurulması məsələləri İspaniyada həm nəzəri, həm də empirik səviyyədə ciddi şəkildə tədqiq olunmuşdur. Feminist dilçilik, kritik diskurs analizi və sosial-linqvistik yanaşmalar bu sahənin əsas nəzəri çərçivəsini formalaşdırmışdır.

María Luisa Calero Vaquera [8, s.45] ispan dilində qrammatik cinsiyyət kateqoriyasının (masculino/femenino) dilin struktur səviyyəsində fundamental bir funksiya daşıdığını xüsusi vurğulayır. Onun araşdırmalarına əsasən, bu qrammatik xüsusiyyət yalnız dilin sintaktik və morfoloji sistemində texniki bir funksiya yerinə yetirmir, eyni zamanda, daha dərin sosial-mədəni kodların daşıyıcısı kimi çıxış edir [8, s.46-47]. Calero Vaquera dilin cinsə əsaslanan formalarının – məsələn, *el médico* (həkim, kişi cinsində) və *la enfermera* (tibb bacısı, qadın cinsində) kimi – yalnız dilin daxili struktur mexanizmlərindən irəli gəlmədiyini, bununla yanaşı, sosial reallıqlarda mövcud olan gender fərqliliyinin dil səviyyəsində yenidən istehsal edildiyini göstərir.

Araşdırmalarında Calero Vaquera, cinsiyyət kateqoriyasının ispan dilində "təbiətən" və "neytral" kimi qəbul olunmadığını, əksinə, sosial rolları və genderə dair normativ gözləntiləri dil vasitəsilə təkrar istehsal etdiyini qeyd edir. Beləliklə, dil yalnız reallığın təsviri üçün bir vasitə deyil, eyni zamanda, sosial reallıqların və gender əsaslı iyerarxiyaların qurulmasında fəal rol oynayan bir alətə çevrilir.

Calero Vaquera'nın bu yanaşması, dilin struktur xüsusiyyətləri ilə sosial dinamika arasındakı qarşılıqlı təsir əlaqəsini ön plana çıxarır. Onun fikrincə, dilin qrammatik cinsiyyət sistemi cəmiyyətin qadın və kişi rolları barədəki kollektiv təsəvvürlərini təbliğ edir və bu təsəvvürlərin nəsildən-nəsilə ötürülməsinə şərait yaradır. Xüsusilə, peşə adlarının və sosial rolların dilə cinsiyyət markerləri ilə inteqrasiyası, müəyyən peşə sahələrinin kişi və ya qadın cinsinə aid edilməsi stereotiplərini möhkəmləndirir və onların normallaşmasına xidmət edir.

María Luisa Calero Vaquera'nın bu analizi dil və gender münasibətlərinin tədqiqində vacib nəzəri çərçivə yaradır və dilin sosial ideologiyalarının qurulmasında oynadığı rolu anlamaq üçün mühüm elmi baza təşkil edir. Onun araşdırmalarının nəticələri sübut edir ki, gender bərabərliyinin əldə edilməsi üçün dəyişikliklər təkcə sosial institutlarda deyil, eyni zamanda dilin daxili quruluşunda və praktik istifadəsində baş verməlidir.

Prof. Dr. María Jesús Fernández Planas [13] ispan dilində fonetik və fonoloji fərqlərin genderlə əlaqələndirilməsi istiqamətində mühüm tədqiqatlar aparmışdır. Onun araşdırmaları göstərir ki, qadın və kişi nitqində müşahidə olunan fərqlər yalnız fizioloji səciyyələrdən deyl, həm də sosial-mədəni gözləntilərdən və və kommunikativ davranış modellərindən qaynaqlanır. Müəllif ispan dilində qadınların nitqinin daha yüksək diapazonu, daha emosional intonasiya və daha çox fasilə ilə

xarakterizə olunduğunu qeyd edir. Bu xüsusiyyətlər qadın danışığının daha ifadəli, empatik və münasibət yönümlü təəssürat yaratmasına xidmət edir.

Əksinə, kişilərin danışığında daha sabit ton səviyyəsi, daha az intonasiya dəyişkənliyi və daha güclü akustik enerji müşahidə olunur ki, bu da adətın sosial baxımdan "dominant" və "möhkəm" ünsiyyət tərzi ilə əlaqələndirilir. Tədqiqatçının fikrincə, bu fonetik xüsusiyyətlər bioloji determinantlarla məhdudlaşmır, onlar eyni zamanda, cəmiyyətin gender rollarına dair gözləntilərinin nitqə sirayət etməsinin nəticəsidir.

Fernández Planas bu yanaşma ilə göstərir ki, fonetik səviyyədəki fərqlər də dilin sosial semantikasına xidmət edir və gender kimliyinin formalaşmasında mühüm əhəmiyyət daşıyır [12, s.45-68].

Beləliklə, Fernández Planasın tədqiqatları ispan dilndə fonetik fərqlərin yalnız texniki-akustik hadisə deyil, həm də sosial-mədəni konstruksiyanın bir hissəsi olduğunu sübut edir.Bu nəticələr, həm fonetik gender tədqiqatlarının nəzəri bazasının inkişafına, həm də genderlə bağlı dil fərqlərinin çoxsəviyyəli təhlilini dəyərli töhfə verir.

Ana María Vigara Tauste [21] ispan dilində qadınların dil vasitəsilə simvolik şəkildə görünməzləşdirilməsi (invisibilización simbólica) məsələsini geniş şəkildə tədqiq etmişdir. Onun tədqiqatları göstərir ki, ispan dilində kişi cinsinin qrammatik formalarının "neytral" və universal kimi qəbul edilməsi qadınların dil məkanında təmsilçiliyinin azalmasına və onların sosial reallıqlarda ikinci dərəcəli mövqeyə yerləşdirilməsinə gətirib çıxarır. Vigara Tauste həmçinin vurğulayır ki, bu hal təkcə dil struktur xüsusiyyətlərindən deyil, cəmiyyətin patriarxal ideologiyalarının dil sisteminə sirayət etməsindən qaynaqlanır [21, s. 57].

Ana Maria Vigara Tauste qeyd edir ki, gender asimmetriyalarının dildə təzahürü təkcə linqvistik deyil, həm də dərin sosial ədalətsizlik problemini əks etdirir. Müəllifin fikrincə, kişi cinsinə aid qrammatuk formaların ümumiləşdirici subyektləri ifadə etmək üçün işlədilməsi- (məsələn, *los alumnos* – şagirdlər) ifadəsində olduğu kimi – qadınların həm simvolik diskursda, həm də real ictimai sahədə görünməzləşdirilməsinə səbəb olur. Vigara Tauste bu kontekstdə dilin struktur səviyyəsində yenilənməsinin və gender bərabərliyinə uyğunlaşdırılmasının zərurətini vurğulayır [21, s.57-59].

Ana María Vigara Tauste [21] ispan dilində gender bərabərliyinin təşviqi məqsədilə dilin transformasiyası üçün bir sıra praktik istiqamətlər müəyyənləşdirir. Tədqiqatçı xüsusilə kişi və qadın formalarının paralel istifadəsini (*los alumnos y las alumnas* – oğlan və qız şagirdlər) dilin cinslərarası balansı qoruyan inklüziv model kimi təklif edir. Bundan əlavə o, mümkün hallarda gender neytral ifadələrin işlədilməsini dilin qeyri-ayrıseçkilik inkişaı üşün vacib hesab edir. Araşdırmacı bu yanaşmaları yalnız dilin formal strukturuna aid deyil, həm də social münasibətlər sistemində gender ədalətinin bərqərar olunması baxımından mühüm hesab edir.

Onun elmi iris, xüsusilə *Lenguaje, mujer y poder* [21] əsərində ifadə olunduğu kimi, feminist dilçilik hərəkatının ispan dili müstəvidə həm nəzəri, həm də praktik əsaslarını formalaşdırmışdır. Vigara Tauste dilin sosial reallığı formalaşdırmaq gücünə malik olduğunu göstərərək, dil dəyişiklikləri iklə sosial transformasiyalar arasındaki qarşılıqlı asılılığı xüsusi vurğulayır[21, s. 84-87].

Carmen Alario Trigueros [1] ispan dilində cinsiyyət stereotiplərinin mediada necə istehsal olunduğunu və ictimai şüurda necə təkrarlandığını sistemli şəkildə araşdırmışdır. Müəllifə görə, kütləvi informasiya vasitələrinin diskursu təkcə məlumat ötürmək funksiyasını yerinə yetirmir,həm də mövcud gender münasibətlərinin ideoloji əsaslarını möhkəmləndirən simvolik mexanizm rolunu oynayır. Alario Trigueros qeyd edir ki, media təsvirlərində kişilər çox vaxt aktivlik,liderlik və rasionallıq xüsusiyyətləri ilə assosiyasiya edilir, qadınlar isə daha çox emosional, ailəyə bağlı və ikinci dərəcəli rollarda təqdim olunur.

Tədqiqatçının qənaətinə görə, bu cür təsvir modelləri mediada istifadə edilən dil seçimləri, tematik vurğular və təqdimat strategiyaları vasitəsilə möhkəmləndirilir. Qadın fiqurlarının ictimai və peşəkar sahələrdə təmsilçiliyi ya məhdudlaşdırılır, ya da onların fəaliyyətləri ailəvi və emosional konteksdə yenidən çərçivələndirilir. Beləliklə, media diskursu cəmiyyətin patriarxal güc münasibətlərini təbii və dəyişməz social reallıq kimi legitimləşdirən ideoloji vasitəyə çevrilir [1, s.47-52].

Bu konseptual yanaşma Norman Faircloughun [11] Kritik Diskurs Analizi (Critical Discourse Analysis – CDA) konsepsiyas; kontekstində izah oluna bilər. Fairclough-un nəzəri modelinə görə, dil yalnız ünsiyyət vasitəsi deyil, həm də social güc münasibətlərinin qurulması, qorunması və legitimləşdirilməsi üçün ideoloji alət funksiyasını daşıyır. Carmen Alario Triguerosun tədqiqatları bu yanaşmanı empirik səviyyədə təsdiqləyərək göstərir ki, media diskursu gender əsaslı sosial asimmetriyaları dil strukturları və diskurs praktikaları vasitəsiləyenidən istehsal edir.

Beləlklə, Alario Triguerosun töhfələri ispan dilçiliyində genderlə bağlı güc münasibətlərinin təhlili üçün mühüm nəzəri və metodoloji baza yaradır və media vasitəsilə formalaşan cinsiyyət stereotiplərinin tədqiqinə yeni istiqamət qazandırır [1, s.53-58].

María José Coperías Aguilar [10] öz tədqiqatlarında qadın və kişi nitq üslublarını fərqli şəkildə araşdıraraq, genderə bağlı kommunikativ davranışların empirik əsaslarını müəyyənləşdirmişdir. Müəllifin nəticələrinə görə, qadınların ünsiyyət strategiları daha çox qarşılıqlı anlaşma, sosial harmoniya və emosional dəstək üzərində qurulur. Onların nitqində nəzakət, empatiya və dialoq yönümlü ifadə formaları üstünlük təşkil edir.

Əksinə, kişilərin diskursu daha açıq, birbaşa və məqsədyönlü ünsiyyət formaları ilə xarakterizə olunur. Onlar qarşı tərəfə təsir göstərmək, mövqelərini gücləndirmək və social statusu qorumaq məqsədilə dominant və rəqabətçil nitq strategiyalarından istifadə etməyə meyillidirlər.. Coperías Aguilarının müşahidələri yalnız fərdi nitq davranışları səviyyəşsində deyil, həm də müxtəlif kommunikasiya kontekstlərində – o cümlədən, işgüzar, akademik və gündəlik ünsiyyətdə – aparılmış empirik təhlillərlə təsdiqlənmişdir.

Onun nəticələri, xüsusilə Deborah Tannenin [20] "gender və dil üslubu" konsepsiyası ilə səsləşir; Tannen də göstərirdi ki, qadın ünsiyyəti əlaqə və qarşılıqlı anlaşma yaratmağa, kişi ünsiyyətini isə fərqlilik və status nümayişinə yönəkmişdir.

Beləliklə, María José Coperías Aguiların araşdırmaları ispan dilində genderə əsaslanan diskurs xüsusiyyətlərinin öyrənilməsinə dəyərli elmi töhfə vermis, eyni zamanda dilin social sosial münasibətlərinin formalaşmasında və gender identikliyinin qurulmasında oynadığı rolu empiric şəkildə əsaslandırmışdır [8,14].

Feminist dilçi və tədqiqatçı Mercedes Bengoechea [5] dilin sosial transformasiya proseslərində oynadığı rolu və gender bərabərliyinin təminində dil siyasətlərinin starteji əhəmiyyətini sistemli şəkildə təhlil etmisdir. Onun fikrincə, dil kommunikasiya vasitəsi deyil, həm də social varlıqları yaradan və onları ideoloji səviyyədə legitimləşdirən imühüm alət kimi fəaliyyət göstərir. Bu baxımdan, Bengoechea hesab edir ki, dilin struktur vəleksik səviyyəsində həyata keçirilən dəyişikliklər gender bərabərliyinə nail olunmasının əsas şərtlərindən biridir.

Tədqiqatçı İspaniyada rəsmi sənədlər, qanunvericilik mətnləri və kütləvi informasiya vasitələrində genderə həssas dilin (lenguaje inclusivo) tətbiqinin genişləndirilməsinin vacibliyini ön plana çəkir. O, qadınların ictimai dikursda görünürlüğünün artırılması, kişi cinsindəki formaların "neytral" kimi qəbul edilməsindən doğan simvolik asimmetriyanın aradan qaldırılması və institusional səviyyədə bərabərlik yönümlü dil siyasətlərinin formalaşdırılması üçün konkret metodoloji və praktik tövsiyələr təqdim etmişdir.

Beləliklə Mercedes Bengoechea'nın irəli sürdüyü əsas prinsiplər sırasında kişi və qadın formalarının paralel işlədilməsi (məsələn, *los ciudadanos y las ciudadanas*), mümkün hallarda gender neytral terminlərin istifadəsi, cinsi stereotipləri gücləndirən ifadələrdən qaçlnmaq və qadınların ictimai məkanlarda görünürlüğünü artırmaq məqsədilə dilin transformasiyasının təşviq olunması xüsusi yer tutur. Onun təşəbbüsləri nəticəsində İspaniyada bir çox ictimai institut və dövlət qurumları rəsmi sənədlərlə və inzibati yazışmalarda genderə həssas dil standartlarını qəbul etmişdir [5, s. 58-63].

Bengoecheanın nəzəri mövqeyi dilin yalnız social reallıqları passiv şəkildə vəziyyətləri əks etdirən vasitə deyil, eyni zamanda onları formalaşdıran və dəyişdirən güclü ideoloji mexanizm olduğunu irəli sürmüşdür. Bu yanaşma Norman Faircloughun [11] Kritik Diskurs Analizi modelinin əsas prinsipləri ilə səsləşir; hır iki tədqiqatçı dilin güc münasibətlərinin qurulmasında və social ədalətin təminində mühüm rol oynadığını vurğulayır. Beləliklə, Bengoechea'nın tədqiqatları göstərir ki, dilin yenilənməsi və inklüzivləşdirilməsi, gender bərabərliyinə yönəlmiş sosial islahatların həyata keçirilməsi üçün zəruri şərtləndəndir.

Eyni zamanda, María del Mar Galindo Merinonun [14] tədqiqatlarında ispan cəmiyyətində qadın və kişi nitq strategiyalarının sosial-mədəni konteksdə fərqli istiqamətlərdə formalaşdığı müəyyən edilmişdir. Alim göstərir ki, qadınların dil istifadəsində etik prinsiplərə, consensus yaratmağa və qarşılıqlı anlaşmaya əsaslanan ifadə modelləri üstünlük təşkil edir. Bunun əksinə olaraq, kişilərin qətiyyətli, birbaşa və dominant starategilarla səciyyələnir.Galindo Merino həmçinin İspaniyada qadın siyasətçilərin, müəllimlərin və jurnalistlərin nitq fəliyyətini təhlil edərək, genderə əsaslanan diskurs fərqlərinin yalnız fərdi ünsiyyət səviyyəsində deyil, həm də ictimai və peşəkar kommunikasiya məkanlarında dil normativlərinin formalaşmasına təsir göstərdiyini ortaya qoymuşdur. Bu nəticələr göstərir ki, dil üslubları vasitəsilə gender rolları həm sosial reallıqda, həm də ictimai diskursda təkrar istehsal olunur və normativlədirilir [14, s.115-122].

İspaniyada genderli dil məsələsi son onillikdə yalnız ictimai diskursda deyil, hüquqi və təhsil sistemlərində dərin əks-səda doğurmuşdur. Real Academia Española (RAE) tərəfindən müəyyən mənada dəstəklənən, lakin feminist dilçilər və social nəzəriyyəçilər tərəfindən eyni zamanda tənqid edilən bu islahatlar, inklüziv və gendere həssas ifadə modellərinin işlənməsi istiqamətində mühüm debatlara yol

açmışdır. dilin tətbiqi ilə bağlı geniş ictimai və elmi diskussiyalara səbəb olmuşdur [6, s.42-44]. Bu debatlar göstərir ki, dil yalnız ünsiyyət vasitəsi deyil, həm də social kimliklərin formalaşma arenasıdır [2, s.490]. Feminist dilçilər, xüsusilə Eulàlia Lledó Cunillas [16] İspan dilinin strukturunda qadınların simvolik görünməzliyinə qarşı çıxaraq dil islahatlarını social ədalətin bir elementi kimi qiymətləndirir. Mercedes Bengoechea [5] kimi, Eulàlia Lledó Cunillas da "las ciudadanas y los ciudadanos", "las profesoras y los profesores" parallel gender formalarını pozmaq və qadın subyektivliyini dilk səviyyəsində təsdiqləmək baxımından vacibdir [5, 16].

Eulàlia Lledó Cunillas xüsusilə leksik-semantik analizlərə əsaslanaraq göstərir ki, dilin strukturunda yerləşmiş cinsiyyət markerləri yalnız qrammatik deyil, həm də mədəni və ideoloji səciyyə daşıyır [16, s.67-70]. O, qadınların dil vasitəsilə təmsil olunmasının ictimai rəy və dəyərlər sisteminə təsir etdiyini, gender balansının təmin edilməsinin isə dil planlaşdırmasının mühüm istiqamətlərindən biri olduğunu vurğulayır.

Bununla yanaşı, **Inés Fernández-Ordóñez və Susana Narotzky kimi alimlər də genderli dilin yalnız leksiç səviyyədə deyil, həm də dil siyasəti və təhsil sistemləri səviyyəsində tənzimləməsinin zərurətini vurğulayırlar. Onların fikrincə, gender inklüziv dili təşviq edən qanunvericilik mexanizmləri social bərabərliyin dil sferasına inteqrasiyasını təmin etməyə xidmət edir [12, 18].**

Nəticə

Aparılmış tədqiqatların nəticəsi göstərir ki, ispan dilində gender strukturu sadəcə qrammatik kateqoriya olmaqdan kənara çıxaraq sosial münasibətlərin, güc balansının və mədəni identikliklərin ifadə vasitəsinə çevrilmişdir. Cinsiyyət kateqoriyasının morfo-sintaktik səviyyədə təzahürü, dilin cəmiyyətin gender stereotiplərini və sosial rollarını necə yenidən istehsal etdiyini açıq şəkildə nümayiş etdirir.

Gender inklüzivliyinə yönəlmiş dil siyasətləri və feminist dilçilik yanaşmaları ispan cəmiyyətində bərabərlik, sosial ədalət və simvolik görünürlük prinsiplərini gücləndirir. Bu tədqiqatlar göstərir ki, dil təkcə kommunikasiya vasitəsi deyil, həm də sosial reallığın formalaşdırılmasında fəal ideoloji və struktur alətdir. Qadın və kişi nitq üslubları arasındaki fərqlər yalnız fərdi ifadə tərzləri kimi deyil, həm də cəmiyyətin mədəni dəyərlərinin, sosial gözləntilərinin və ideoloji konstruksiyalarının dil üzərindəki əks-sədası kimi qiymətləndirilməlidir.

Bu nəticələr Azərbaycan dilçiliyi üçün də mühüm müqayisəli perspektiv təqdim edir. Azərbaycan dilində qrammatik cinsiyyət kateqoriyasının olmamasına baxmayaraq, diskurs səviyyəsində sosial rollar və genderə dair stereotiplər müəyyən dil strategiyaları vasitəsilə ifadə olunur. İspan təcrübəsi göstərir ki, dilin struktur və leksik səviyyəsində inklüziv yanaşmaların tətbiqi gender bərabərliyinə və social ədalətə töhfə verə bilər.Bu baxımdan, ispan alimlərinin araşdırmaları Azərbaycan dil mühitində də bərabərlikçi dil siyasətləri üçün nəzəri və raktik model kimi dəyərləndirilə bilər.

Beləliklə, ispan dilində aparılmış çoxşahəli tədqiqatlar göstərir ki, genderli dil fenomeni təkcə qrammatik transformasiyalarla məhdudlaşmır, həm də mədəniyyət, ideologiya və social münasibətlər sistemində baş verən dərin dəyişikliklərin dilə yansımasıdır. Bu konteksdə real Academia Españolanın mühafizəkar mövqeyi ilə feminist dilçilərin yenilikçi yanaşmaları arasında aparılan elmi və ictimai

müzakirələr müasir ispan dilinin inklüiv, dinamik və sosial cəhətdən tarazlı inkişafı üçün vacib təcrübə yaradır.

Ədəbiyyat:

1. Alario Trigueros, C. (2002). Lenguaje y medios de comunicación: La reproducción de los estereotipos de género. Madrid: Ediciones Cátedra.
2. Alario Trigueros, C. (2002). Lenguaje y medios de comunicación: Una perspectiva de género. Madrid: Ediciones Complutense.
3. Alario Trigueros, C. (2004). El sexismo lingüístico. Madrid: Ediciones del Orto.
4. Bengoechea Bartolomé, M. (2009). La visibilidad de la mujer en el discurso institucional. Revista de Filología Española, 89(1), 101–125.
5. Bengoechea, M. (2001). Lenguaje, género y poder: La importancia de las políticas lingüísticas inclusivas. Madrid: Universidad de Alcalá.
6. Cabrera, J. C. Moreno. (2018). La dignidad e igualdad de las lenguas: Crítica del racismo lingüístico. Madrid: Ediciones Península.
7. Calero Vaquera, M. L. (1997). La lengua y el género: Perspectivas actuales. Madrid: Ediciones Cátedra.
8. Calero Vaquera, M. L. (1997). Lengua y discriminación sexual. Madrid: Cátedra.
9. Cameron, D. (2005). Language, gender, and sexuality: Current issues and new directions. Applied Linguistics, 26(4), 482–502.
10. Coperías Aguilar, M. J. (2005). Género y estilos de comunicación: Diferencias discursivas entre hombres y mujeres. Valencia: Universitat de València.
11. Fairclough, N. (1995). Critical discourse analysis: The critical study of language. London: Longman.
12. Fernández-Ordóñez, I. (2019). La lengua y la igualdad: Políticas lingüísticas con perspectiva de género. Madrid: Universidad Autónoma de Madrid.
13. Fernández Planas, M. J. (2013). Diferencias fonéticas de género en el español. Barcelona: Universidad de Barcelona Press.
14. Galindo Merino, M. M. (2001). Lengua y género. Madrid: Arco/Libros.
15. Galindo Merino, M. M. (2015). Lenguaje y poder: Estrategias discursivas de mujeres y hombres en contextos profesionales. Sevilla: Universidad de Sevilla.
16. Lledó Cunill, E. (2011). El análisis del sexismo lingüístico y su impacto en la educación. Barcelona: Icaria Editorial.
17. Lledó Cunillas, E. (2010). Lenguaje, género y manipulación. Barcelona: Icaria Editorial.
18. Narotzky, P. (2020). Cultura, lenguaje y género: Perspectivas antropológicas sobre la igualdad. Barcelona: Bellaterra.
19. Real Academia Española. (2012). Esbozo de una nueva gramática inclusiva. Madrid: RAE.
20. Tannen, D. (1990). You just don't understand: Women and men in conversation. New York: Ballantine Books.
21. Vigara Tauste, A. M. (1992). Lenguaje y discriminación sexual. Madrid: Narcea Ediciones.
22. Vigara Tauste, A. M. (1992). Sexismo y lenguaje. Madrid: Narcea Ediciones.
23. Vigara Tauste, A. M. (2000). Lenguaje, mujer y poder. Madrid: Cátedra.

Narmina Mammadova

Summary

THE INFLUENCE OF GENDER ROLES ON LANGUAGE AND SPEECH IN SPANISH CULTURE: APPROACHES OF SPANISH RESEARCHERS

This article provides a systematic examination of the social, cultural, and grammatical aspects of gender structure in the Spanish language. Research demonstrates that the grammatical gender category is not merely a technical element of the syntactic and morphological system, but also a socio-cultural mechanism through which existing gender roles and stereotypes in society are reproduced via language. The study analyzes the works of María Luisa Calero Vaquera, Ana María Vigara Tauste, Carmen Alario Trigueros, Mercedes Bengoechea, and other Spanish scholars, presenting their theoretical and empirical approaches to language and gender relations in detail. Findings indicate that differences in male and female speech styles are not only explained by physiological and linguistic structural factors but are closely connected to social roles, ideological values, and cultural norms. The article also highlights the significance of strategies promoting gender-inclusive language in Spain and their impact on language policy. These findings offer valuable comparative insights for Azerbaijani linguistics, as the Azerbaijani language also reflects social roles and stereotypes through linguistic form. Overall, this research illustrates that language is not only a means of communication but also an active instrument in shaping social and cultural realities.

Нармина Маммедова

Резюме

ВЛИЯНИЕ ГЕНДЕРНЫХ РОЛЕЙ НА ЯЗЫК И РЕЧЬ В ИСПАНСКОЙ КУЛЬТУРЕ: ПОДХОДЫ ИСПАНСКИХ ИССЛЕДОВАТЕЛЕЙ

В статье рассматриваются социальные, культурные и грамматические аспекты гендерной структуры испанского языка. Исследования показывают, что грамматическая категория рода является не только техническим элементом синтаксической и морфологической системы языка, но и социально-культурным механизмом, который воспроизводит существующие в обществе гендерные роли и стереотипы через язык. В статье проанализированы работы María Luisa Calero Vaquera, Ana María Vigara Tauste, Carmen Alario Trigueros, Mercedes Bengoechea и других испанских исследователей, подробно представлены их теоретические и эмпирические подходы к изучению отношений между языком и гендером. Исследования демонстрируют, что различия в речевых стилях женщин и мужчин объясняются не только физиологическими и структурными особенностями языка, но и тесно связаны с социальными ролями, идеологическими ценностями и культурными нормами. В статье также подчеркивается важность стратегий продвижения гендерно-инклюзивного языка в Испании и их влияние на языковую политику. Результаты исследования представляют интерес для азербайджанской лингвистики в перспективе, так как в азербайджанском языке категория рода также играет значительную роль в формировании социальных ролей и стереотипов. Работа демонстрирует, что язык является не только средством коммуникации, но и активным инструментом формирования социальных и культурных отношений.

Rəyçi: dos. V.Ağabəyli

Ləman Səmədova
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1027

METATEKSTİN FUNKSİYALARI

Açar sözlər: *metatekst, təsvir və izah, müqayisə və kontrast, nəticə çıxarma, qrammatika, yazı strukturunun izahı, əlaqə qurma, vurğulama, ümumiləşdirmə*

Keywords: *metatext, description and explanation, comparison and contrast, drawing conclusions, grammar, writing structure explanation, linking, emphasis, summarization*

Ключевые слова: *метатекст, описание и объяснение, сравнение и контраст, выводы, грамматика, объяснение структуры текста, связь, акцент, обобщение*

Giriş. Metatekst funksiyaları, mətnin struktur və məzmununu daha aydın və asan başa düşülən şəkildə təqdim etmək üçün istifadə olunan vasitələrdir. Bu funksiyalar mətnin müxtəlif hissələrini izah edərək, oxucunun mətndəki məna və məqsədləri daha dəqiq qavraya bilməsinə kömək edir. Metatekst, bir növ mətnin izah və strukturlaşdırma işlərini görür və oxucuya mətni təkcə oxumağa deyil, həm də onun necə təşkil edildiyini, hansı məqsədlə yazıldığını və necə oxunması lazım olduğunu başa düşmək imkanı da verir. Bu anlayışlar, oxucunun mətndən alacağı məlumatı və onun dərinliyini artırmağa xidmət edir.

Metatekst, mətndəki fikirlərin əlaqələrini aydınlaşdırır və bu əlaqələri oxucuya necə təqdim edəcəyi yollarini təklif edir. Metatekst mətnin məqsədi, mesajı və auditoriyası arasında körpü rolunu oynayır, beləliklə oxucu mətnin hər bir hissəsinin necə formalaşdığını və nə üçün yazıldığını daha yaxşı anlamağa çalışır. Metatekst funksiyaları həm də mətni strukturlaşdıran bir alət olaraq istifadə olunur. Məsələn, mətndəki müxtəlif hissələr arasındakı keçidləri asanlaşdırmaq, təkrarlanan və vurğulanan ideyaların gücləndirilməsini təmin etmək və ya əsas fikirləri ümumiləşdirmək metatekst vasitəsilə həyata keçirilir. Bu proses, oxucunun mətnin quruluşunu izləməsini və ondan maksimum fayda əldə etməsini təmin edir [1, s.45]. Aşağıda metatekstin funksiyaları geniş şəkildə təhlil olunur :

1. Hissələrə ayırma (Segmentation)-Metatekst funksiyaları arasında mətni hissələrə ayırmaq və əlaqələndirmək, oxucunun məzmunu başa düşməsini asanlaşdıran ən vacib vasitələrdən biridir. Mətnin hissələrə ayrılması yalnız mətni daha tərtibli və başa düşülən etmir, həm də hər bir hissənin müəyyən bir məqsədini izah edərək oxucuya mətnin ümumi quruluşunu və məna axışını daha yaxşı izah etməyə kömək edir. Bu, xüsusilə akademik və peşəkar yazılarda vacibdir, çünki həmin yazılar adətən mürəkkəb mövzuları izah edir və oxucunun mətndən maksimum fayda əldə etməsi üçün aydın və yaxşı təşkil edilmiş olmalıdır.

Giriş oxucuya məqalənin mövzusu haqqında ilkin məlumat verir və oxucunun nə gözləyəcəyini anlamağa kömək edir. Əsas hissə, arqumentin dəstəkləndiyi və sübutlarla gücləndirildiyi yerdir, nəhayət, nəticə isə oxucuya mətni yekunlaşdırır və gələcək istiqamətlərə işarə edir. Hissələr arasındakı əlaqələr metatekst vasitəsilə aydınlaşdırılır, oxucuya hər hissənin rolunu başa düşməkdə kömək edir.

Aşağıda hissələrə ayırma funksiyasına uyğun ingilis dilində nümunə və onun metatekst analizi verilmişdir: [5, s.156-162].

Introduction: In this article, we will explore the essential rules of English grammar that form the foundation of effective communication. The primary focus will be on sentence structure, verb tenses, and subject-verb agreement. Understanding these rules is critical for both written and spoken English, as they ensure clarity and coherence in communication.

Body: The body of the article is divided into three key sections:

1. Sentence structure: This section explains the basic components of a sentence, including the subject, verb, and object. It also discusses different types of sentences, such as declarative, interrogative, and imperative, and how each is structured to convey meaning.

2. Verb tenses: This subsection focuses on the different verb tenses in English, such as the present simple, past continuous, and future perfect. Each tense is explained with examples, showing how verb tense affects the timing and aspect of an action.

3. Subject-verb agreement: The final section covers the rule of subject-verb agreement, emphasizing the importance of matching the subject with the correct verb form, especially in complex sentences. Examples are provided to demonstrate common errors and how to avoid them.

Conclusion: In conclusion, mastering English grammar is essential for clear and accurate communication. The article has discussed key grammar rules that help structure sentences correctly, use verb tenses appropriately, and maintain subject-verb agreement. By understanding and applying these principles, learners can improve their writing and speaking skills. Further practice and study are recommended to deepen grammar knowledge and proficiency.

2. Təsvir və izah (description and explanation) – Metatekst funksiyaları, mətndəki ideyaların, mövzuların və ya konseptlərin izahını və təsvirini təmin edərək oxucuya aydınlıq gətirir. Bu, oxucunun mövzunu daha yaxşı anlamasına və mürəkkəb anlayışları aydın şəkildə qavramasına kömək edir. Bu, mürəkkəb və abstrakt məsələləri sadələşdirməyə kömək edir, beləliklə oxucu mətni daha yaxşı başa düşə bilər.Nümunə:

The second section of the article explains the relationship between theory and practice, providing real-life examples to clarify complex concepts. For example, the author gives examples of innovative urban planning projects in certain cities to demonstrate how theory is applied in practice. These examples show the clear connection between theory and practice, helping the reader understand how this relationship works.

Metatekst Təhlili:

• Təsvir: Məqalənin ikinci bölməsi, nəzəriyyə və praktika arasındakı əlaqəni təsvir edir. Burada təqdim olunan real həyatdan nümunələr oxucuya bu əlaqəni başa düşmək üçün aydın bir şəkil verir.

• İzah: Bu bölmə, nəzəriyyə ilə praktikanın necə birləşdirildiyini izah edir. Nümunələr vasitəsilə oxucuya mürəkkəb bir anlayış (nəzəriyyənin praktikaya tətbiqi) açıq şəkildə izah edilir və izah olunan məsələnin gündəlik həyatda necə tətbiq olunduğu aydınlaşdırılır.

3. Qoşulmalar (Linking) – Metatekst funksiyalarından biri, mətnin müxtəlif hissələri arasında əlaqələr qurmaqdır. Mətnin hissələri arasında düzgün əlaqələr qurulması, ideyaların və arqumentlərin bir-birini necə tamamladığını və necə ardıcıl olaraq inkişaf etdiyini göstərir.Məsələn,

To link the previous point, the author introduces a case study that demonstrates the practical application of the theoretical concepts discussed earlier. This case study helps the reader see how theory is applied in real life and further clarifies how the ideas discussed in the earlier sections are implemented in practice [4, s. 44].

Metatekst Təhlili:

• Qoşulma: Mətnin əvvəlki hissəsi ilə əlaqə yaratmaq üçün müəllif, nəzəriyyənin praktikada necə tətbiq olunduğunu göstərən bir nümunə təqdim edir. Bu, mətndəki ardıcıllığı qoruyur və oxucunun mövzunu izləməsini asanlaşdırır.

4. Xülasə və qeyd (summary and comment) – Metatekst funksiyası, mətnin əsas məqamlarını qısa şəkildə ümumiləşdirmək və əsas fikirləri vurğulamaq üçün istifadə olunur. Bu funksiyanın məqsədi, oxucunun mətndəki ən vacib məsələləri anlamağını asanlaşdırmaq və ona ümumi bir fikir təqdim etməkdir. Nümunə:

In summary, the author argues that technological advancements have revolutionized the way we work and live, but challenges such as privacy concerns remain unresolved. This emphasizes both the positive impact of technological progress on our lives and the ongoing challenges that need to be addressed.

5. Təkrarlama və vurğulama (Repetition and emphasis) – Metatekst funksiyası, mətndəki əsas ideyaların təkrarlanması və daha da gücləndirilməsi üçün istifadə olunur. Bu funksiya, oxucuya vacib məqamları bir daha xatırlatmağa və bu fikirləri vurğulamağa kömək edir. Mətndə bu funksiya, məsələnin vacibliyini və təkrarlanan ideyanın mətndəki rolunu vurğulayır.Nümunə:

The importance of environmental sustainability is emphasized throughout the article, particularly in the conclusion, where the author stresses the urgent need for action. This reinforces the significance of environmental protection and the immediate need for action to address the issue [3, s. 110].

Metatekst Təhlili:

• Xülasə və qeyd: Bu funksiya mətni ümumiləşdirir, əsas fikirləri qısa şəkildə təqdim edir və oxucuya məqalənin əsas məqamlarını başa düşməyə kömək edir. Xülasə, məqalənin əsas tapıntılarını və müzakirə olunan məsələləri qısa və dəqiq şəkildə xatırladır.

• Təkrarlama və vurğulama: Bu funksiya əsas ideyaları təkrarlayaraq onların əhəmiyyətini gücləndirir. Məqalədəki vacib məsələlərin diqqətə çatdırılmasını və oxucunun bu məsələləri daha yaxşı mənimsəməsini təmin edir. Bu funksiyalar oxucunun nəzərə almalı olduğu vacib olan mövzuları bir daha vurğulayır.

6. Müqayisə və Kontrast (comparison and contrast) – Metatekst funksiyaları, oxucunun iki və ya daha çox ideya arasındakı fərqləri və oxşarlıqları daha yaxşı başa düşməsinə kömək edir. Müqayisə və kontrast, müxtəlif anlayışları və ya mövzuları müqayisə etməklə oxucunun həmin mövzuların arasındakı əlaqələri və ya fərqləri dərk etməsini təmin edir. Məsələn:

While the first approach focuses on individual responsibility, the second approach emphasizes collective action as the key to solving global challenges. The first approach encourages individuals to take responsibility for their actions,

while the second approach argues that a collective effort is more effective in addressing these issues.

7. Nəticə çıxarma (Conclusions) – Metatekst, mətnin sonundakı nəticələri çıxarmağa və ümumiləşdirməyə imkan verir. Nəticə çıxarma, oxucuya mətnin sonunda verilən tapıntılardan və müzakirə olunan məsələlərdən əsas nəticələri əldə etməyə kömək edir.

Based on the analysis of the data, it can be concluded that social media has a significant impact on public opinion, but its influence is not without controversy. The data shows that social media often spreads inaccurate or misleading information, which keeps its role in shaping public opinion a debatable issue.

Nəticə: Nəticə çıxarma funksiyası, oxucuya təqdim olunan məlumatlardan ümumi bir nəticə əldə etməyə və əsas tapıntıları bir araya gətirməyə imkan verir. Bu funksiya mətnin sonundakı əsas nəticələri izah edərək oxucunun məqaləni və ya müzakirəni daha yaxşı qavramasına kömək edir.

Ədəbiyyat:

1. Eyyubova, A. (n.d.). Mətnin struktur-semantik aspektləri. AEM.az, 43-48.
2. Pisanski Peterlin, A. (2005). Text-organising metatext in research articles: An English-Slovene contrastive analysis. English for Specific Purposes, 25(3), 307-319.
3. Witosz, B. (2017). Metatext in the discourse of the theory of text, stylistics, and pragmalinguistics. Forum Lingwistyczne, (4), 107-112.
4. Bunton, D. (1999). The use of higher level metatext in Ph.D. theses. English for Specific Purposes, 18(Supplement), 41-56.
5. Hyland, K., & Tse, P. (2004). Metadiscourse in academic writing: A reappraisal. Applied Linguistics, 25(2), 156-177.

Laman Samadova

Summary

THE FUNCTIONS OF THE METATEXT

The functions of the metatext play a crucial role in academic writing and communication by helping readers understand the organization and logical structure of a text. These functions guide the reader through different sections of the text, clarifying the connections among ideas, arguments, and conclusions. Key metatext functions include segmentation, description and explanation, linking and connections, summary and comment, repetition and emphasis, comparison and contrast, and concluding. Segmentation divides the text into manageable sections, such as the introduction, body, and conclusion, each with a specific purpose, ensuring a logical flow.Finally, drawing conclusions helps synthesize the text's main findings and insights, allowing readers to grasp its overall significance. These metatext functions not only improve the readability of a text but also ensure that the reader can follow the argument and extract meaningful insights. Proper use of metatext can elevate the quality of academic and professional writing, facilitating clearer communication and stronger connections between ideas.

Ляман Самедова

Резюме

МЕТАТЕКСТОВЫЕ ФУНКЦИИ

Метатекстовые функции играют ключевую роль в академическом письме и коммуникации, помогая читателям понять композицию и логическую структуру

текста. Эти функции направляют читателя через различные части текста, обеспечивая ясность в связях между идеями, аргументами и выводами. Основные метатекстовые функции включают сегментацию, описание и объяснение, связь и соединения, резюме и комментарий, повторение и акцент, сравнение и контраст, а также выводы.

Сегментация делит текст на удобоваримые части, такие как введение, основная часть и заключение, каждая из которых имеет свою цель, обеспечивая логичное течение текста. Описание и объяснение предоставляют ясность, раскрывая сложные концепции, делая их более понятными с помощью примеров. Связь и соединения помогают поддерживать связность между частями текста, направляя читателя через развитие текста. Правильное использование метатекста может повысить качество академического и профессионального письма, облегчая более четкую коммуникацию и укрепляя связи между идеями.

Rəyçi: prof. Ş.A.Mahmudova

Yaşar İbrahimov
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1034

YAPON DİLİNDƏ ÇIXIŞLIQ HALIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ VASİTƏLƏRİ

Açar söz: *Azərbaycan dilində – hal qoşmaların təsnifatı, çıxışlıq hal, qoşma*
Keywords: *classification particle of case, prepositional case, particle*
Ключевые слова: *классификация частиц, винительный падеж, частица*

Giriş. Yapon dilində istifadə olunan halsonqoşmaları ilə bağlı araşdırmalar etməkdə əsas məqsəd onları Azərbaycan dilindəki hal şəkilçiləri ilə müqayisə edərək onlar arasında fərqli və oxşar cəhətləri aşkar etməkdir. Yapon dilində hal münasibətlərinin ifadə vasitələri Azərbaycan dili ilə müqayisədə bir qədər fərqlidir. Belə ki, Azərbaycan dilində hal münasibətləri şəkilçilər, şəkilçiyə yaxın formalı qoşmalar və qoşmalarla, yapon dilində isə artıq qeyd etdiyimişz kimi, sadə və mürəkkəb qoşmalarla reallaşır.

Azərbaycan dili yapon dilindən fərqli olaraq hal kateqoriyasına malik olan dillərdəndir. Eyni zamanda Azərbaycan dilinin hal sistemi sabitliyi ilə səciyyələnir. Bu dilin tarixinə nəzər salan dilçi alim H.Mirzəzadə yazır ki, Azərbaycan dilinin qədim dövrlərinə aid materiallardan belə aydın olur ki, bütün dövrlərdə isimlərin hallanması bir cür, bir qaydada olmuşdur. [1, 40]. Alim fikrinin davamı olaraq bildirir ki, təxminən yeddi əsrlik bir dövr ərzində ədəbi dilimizə aid olan materiallarda belə bir xüsusiyyətin ardıcıl surətdə davam etməsi dilimizin qrammatik quruluşundakı sabitliyini bir daha təsdiq edir [1, 41].

Bugünkü müasir Azərbaycan dili qrammatika kitablarında isimlərin altı halı formalaşmışdır ki, onlar aşağıdakılardan ibarətdir. Adlıq, yiyəlik, yönlük, təsirlik, yerlik və çıxışlıq halları. Yapon dilində isə əksər alimlər tərəfindən qəbul edilən on sədə hal qoşması istifadə olunur ki, onlar da aşağıdakılardan ibarətdir.

1) ゼロ格(zero kaku) – sıfır halı, 2) が(qa) – adlıq, 3) を(o) – təsirlik, 4) に(ni) – yönlük, 5) へ(e) – istiqamət, 6) で(de) – yerlik, 7) と(to) – birgəlik, 8) から(kara) – çıxışlıq, 9) まで(made) – məhdudiyyət, 10) より(yori) – müqayisə bildirən qoşmalar.

Bu məqalədə yapon dilində istifadə edilən çıxışlıq halın məna və funksiyalarını araşdırmağı və onu Azərbaycan dili ilə müqayisə etməyi düşünürük. Çıxışlıq hal ifadə etdiyi məna və funksiyalara görə məkani hallar sırasına daxildir. Qeyd edək ki, məkani hallar sırasına çıxışlıq haldan başqa yönlük, istiqamət, yerlik və məhdudiyyət halları misal göstərmək olar. Ümumiyyətlə, çıxışlıq halı məhdudiyyət hala əks məna ifadə edir. Məhdudiyyət halın əsas funksiyası hərəkətin qurtarma və ya son nöqtəsini ifadə etməkdirsə, çıxışlıq halın əsas funksiyası hərəkətin başlanğıc və çıxış nöqtəsini bildirməkdir. Əksər dilçi alimllər bu halın əsas funksiyası kimi iş, hal və ya hərəkətin çıxış yerini bildirmək olduğunu qeyd etsələr də, çıxışlıq hal tək-

cə bu funksiya ilə məhdudlaşmır. M.Hüseynzadə çıxışlıq halı belə ifadə edir: “İsmin bu halı həm iş və hərəkətin, həm də əşyanın çıxış, yəni başlanğıc nöqtəsini bildirir. Bu hal da həm mütəhərrik, həm də qeyri-mütəhərrik, həm təsirli, həm də təsirsiz feillərlə əlaqədardır; yəni onların tələbinə görə isimlər çıxışlıq halda işlənməli olur” [2, 55]. Çıxışlıq halı məkani hal hesab edən Y.Seyidov yazır: “İsmin bu halı da məkan mənalı haldır. Sözün lüğəvi mənasından aslı olmayaraq, yerlik halda olduğu kimi, bu hal ismə qrammatik məkan çaları verir” [3, 258]. Müəllif daha sonra yerlik halla çıxışlıq halın fərqini izah edərək yazır: “Yerlik hal məkanın səthini, hərəkətin, hadisənin baş vermə yerini, əşyanın mövcud olduğu yeri bildirdiyi halda, çıxışlıq halda heç bir məkan sahəsi ifadə olunmur, məkanın əhatəsinə, onun səthinə işarə də edilmir. Bu hal hərəkətin, hadisənin başlanğıc yerini göstərir” [3, 258].

Müasir Azərbaycan dili (Morfologiya. EA-nın nəşri 1980) kitabında çıxışlıq hal belə təsvir olunur: “Çıxışlıq hal mənasına görə yönlük halın əksini təşkil edir. Yəni yönlük halda olan sözlər haraya? kimə? nəyə? suallarına cavab verib sözün geniş mənasında subyektin yaxınlaşdığı, çatdığı obyekti bildirirsə, çıxışlıq halda olan sözlər haradan? kimdən? nədən? suallarına cavab olub subyektin hər hansı obyektdən uzaqlaşmasını, ayrılmasını bildirir” [4, 65].

Tədqiqatçılar hind-Avropa dillərində əvvəllər yerlik və çıxışlıq halların olduğunu qeyd edirlər. Lakin sonrakı dövrlərdə hind-Avropa dillərinin bəzilərində bu hallar işlənmir.

Çıxışlıq hal, digər hallar kimi, dilimizdə qədim dövrlərdən istifadə olunmağa başlamışdır. Ədəbi dilimizin tarixi inkişafını əks etdirən materiallardan məlum olur ki, bu halda çox cüzi dəyişiklik olmuşdur, çıxışlıq hal şəkilçisinin yerlik hal şəkilçisi ilə qarışması heç də çıxışlıq hala və onun şəkilçisinə təsir etməmişdir [1, 47].

Orta əsrə aid ədəbi dil materiallarından məlum olur ki, çıxışlıq halın şəkilçisi -dan, -dən, -din, -dın şəklində işlənmişdir. -din, -dın şəkilçiləri türk dillərinin bəziləri üçün daha xarakterikdir. Hal-hazırda -din, -dın şəkilçiləri dilimizdə istifadə olunmur [1, 47].

Azərbaycan dilində hal-hazırda çıxışlıq halın morfoloji əlaməti -dan, -dən şəkilçiləridir. Azərbaycan dilində bu hal şəkilçisinin məna və funksiyaları digər hal şəkilçilərinin məna və funksiyalarından heç də geri qalmır.

Yapon dilində isə çıxışlıq hal から(kara) qoşması ilə ifadə olunur. Bu qoşmanın da əsas funksiyası hərəkət və işin çıxış nöqtəsini bildirmək olsa da, onun başqa funksiyaları da vardır.

Tədqiqatçılar から(kara) qoşması haqqında geniş araşdırmalar aparmış və onun məna və funksiyalarını ətraflı öyrənmişlər. Əvvəlcə həmin tədqiqatlarla tanış olaq. T.Masuoka və Y.Takubo から(kara) qoşmasının məna və funksiyalarını beş qrupa bölür: 1) çıxışlıq yeri və zamanı; 2) hərəkətin subyekti; 3) hərəkətin keçmə yeri; 4) səbəb və mühakimənin istinad yeri; 5) xammal və material [5, 7].

İ.İori, Ş.Takanaşi və başqaları から(kara) çıxışlıq hal qoşmasının məna və funksiyalarını aşağıdakı kimi təsnif edirlər: 1) çıxış yeri və zamanı; 2) xammal və material; 3) dəyişiklikdən əvvəlki vəziyyəti; 4) mühakimənin istinad yeri; 5) hadisənin səbəbi.

Müqayisə etsək, bu təsnifatların həm say, həm də məzmun cəhətdən oxşar olduğunu görərik. Lakin bir-birindən fərqlənən məqamlar da vardır. Təsnifatlar

say tərkibi etibarilə üst-üstə düşsə də, məzmun cəhətdən fərqlər vardır. T.Masuoka və Y.Takubonun から(kara) çıxışlıq hal qoşması üçün qeyd etdiyi hərəkətin subyekti və hərəkətin keçmə yeri funksiyası İ.İori və Ş.Takanaşinin bölgüsündə yoxdur. Eləcə də から(kara) çıxışlıq hal qoşması üçün İ.İori və Ş.Takanaşinin göstərdiyi dəyişiklikdən əvvəlki vəziyyəti ifadəetmə funksiyası T.Masuoka və Y.Takubonun bölgüsündə yoxdur.

Rus dilçisi B.P.Lavrentyev から(kara) qoşmasının məna və funksiyalarını daha geniş araşdırmışdır. B.P.Lavrentyev bu qoşmanın həm məna və funksiyalarını, həm də bəzi özünəməxsus istifadə qaydalarını tədqiq etmişdir. Əvvəlcə, təsnifata daxil olan məna və funksiyaların nədən ibarət olmasına baxaq:

1) çıxış yeri və zamanı; 2) hərəkətin subyekti; 3) hərəkətin keçmə yeri; 4) hadisənin səbəbi; 5) material və tərkib; 6) məchul formalı feili xəbərin subyekti; 7) fikir və baxışın çıxış nöqtəsi; 8) qurtulmanın və yayınmanın obyekti və s.

Göründüyü kimi, B.P.Lavrentyevin təsnifatı məzmun və say tərkibi etibarilə daha geniş və əhatəlidir [6, 43].

から(kara) çıxışlıq hal qoşmasının məna və funksiyalarının aşağıdakılardan ibarətdir:

1) Çıxış yeri və zamanı: から(kara) qoşması bu funksiyada hərəkət və ya hadisənin həm zamana, həm yerə görə çıxış nöqtəsini bildirir. Məsələn,

a) ここから富士山がよく見える(Koko kara Fucisan qa yoku mieru) – Buradan Fuci dağı yaxşı görünür [7, 45].

b) 大学は何時からですか(Daiqaku va nan ci kara desu ka) – Universitet saat neçədən işə başlayır [10, 69].

Hər iki cümlədə から(kara) qoşmasının həm zamana görə, həm də yerə görə yerinə yetirdiyi funksiya Azərbaycan dilindəki çıxışlıq hal şəkilçisinin funksiyasından heç nə ilə fərqlənmir.

2) Hərəkətin subyekti: Bu funksiyaya mücərrəd informasiyanın yerdəyişməsini ifadə edən feili xəbərli cümlələrdə daha çox rast gəlinir. から(kara) qoşması insan münasibətlərinə aid olan iş və hərəkətin subyektini göstərir. Məsələn,

a) 先生へは私から申し上げます(Sensei e va vataşi kara mouşiagemasu) – Müəllimə mən deyəcəyəm [7, 75].

b) 警察当局から事件の真相を発表した(Keisatsu toukyoku kara ciken no şinsou o happyou şita) – Polis idarəsindən hadisəyə aid həqiqətlərə açıqlama verildi [65, 75].

a cumləsindəki から(kara) qoşmasının funksiyası Azərbaycan dilində formal cəhətdən özünü göstərməsə də, hərəkət aktının mən tərəfdən icra olunduğuna işarə edilir. Lakin b cümləsində hər iki dildə, yəni həm yapon, həm də Azərbaycan dilində bu funksiya çıxışlıq hal göstəricisi ilə ifadə oluna bilmişdir.

3) Hərəkətin keçmə yeri: Bu funksiyada から(kara) hal qoşması hərəkətin, işin keçmə yerini göstərir. Məsələn,

戸の透き間から光が漏れています(To no sukima kara hikari qa morete imasu) – Qapının arasından işıq düşür [6, 45].

Bu cümlədə から(kara) hal qoşması həm funksiya, həm də formal cəhətdən Azərbaycan dili ilə üst-üstə düşür.

4) Hadisənin səbəbi: Burada から(kara) qoşması hər hansı bir nəticənin yaranma səbəbini göstərir. Məsələn:

a) 社長が働きすぎから病気になった(Şaçou qa hatarakisuqi kara byouki ni natta) – Rəis həddindən artıq işlədiyindən xəstələndi [7, 74].

b) ふとした不注意から大きな事故を起こしました(Futoşita fuçuui kara ookina ciko o okoşimaşita) –Təsadüfi diqqətsizlikdən böyük bir qəza törətdim [6, 46].

Burada da hər iki cümlədə から(kara) hal qoşması həm funksiya, həm də formal cəhətdən Azərbaycan dili ilə üst-üstə düşür.

5) Material və tərkib: Bu funksiyada から(kara) qoşması əksər hallarda konkret isimlərə qoşularaq nəyinsə yarandığına və düzəldiyi xammal və materiala işarə edir. から(kara) qoşmasının bu məna və funksiyası で(de) qoşmasının məna və funksiyası ilə oxşarlıq təşkil edir. Məsələn,

私たちはブドウからワインを作ります(Vataşi taçi va budou kara vain o tsukurimasu) – Biz üzümdən çaxır düzəldirik. [8, 97].

Cümlədən göründüyü kimi から(kara) qoşması həm funksiya, həm də formal cəhətdən Azərbaycan dili ilə üst-üstə düşür.

6) Məchul növlü feili xəbərin subyekti: から(kara) qoşmasının bu funksiyası təkcə məchul növlü feili xəbərli cümlələrdə deyil, həm də almaq-vermək mənalı feili xəbərli cümlələrdə ortaya çıxır. Məsələn:

a) 太郎が田中先生から褒められた(Tarou qa Tanaka sensei kara homerareta) – Taro Tanaka müəllim tərəfindən tərifləndi [7, 74].

b) 次郎は花子からお金を借りた(Cirou va Hanako kara okane o karita) – Ciro Hanakodan borc pul aldı [7, 74].

c) 電話番号を田中さんから教えてもらった(Denva banqou o Tanaka san kara oşiete moratta) – Telefon nömrəsini Tanakadan aldım [9, 291].

a cümləsində から(kara) qoşması Azərbaycan dilinə tərcümədə formal cəhətdən tərəfindən kimi ifadə edilir, lakin b cümləsindəki qoşma həm funksiya, həm də formal cəhətdən Azərbaycan dili ilə üst-üstə düşür.

7) Fikir və baxışın çıxış nöqtəsi: から(kara) qoşması bu funksiyada mühakimənin və baxışın istinad və çıxış yerinə işarə edir. Məsələn:

雲の具合から判断すると明日は雨だ(Kumo no quai kara handan suru to asu va ame da) – Buludların hərəkətindən ehtimal etmək olar ki, sabah yağış olacaq [5, 7].

から(kara) qoşmasının bu mənası da Azərbaycan dili ilə müqayisə etsək, heç bir fərqin olmadığının şahidi olarıq.

8) Qurtulmanın və yayınmanın obyekti: Bu funksiyada から(kara) qoşması hər hansı bir hərəkət aktından və ya hadisədən yayınmanın obyekti mənasını ifadə edir. Məsələn,

a) 人類を新しい世界戦争から救う(Cinrui o ataraşii sekai sensou kara sukuu) – Bəşəriyyəti yeni dünya müharibəsindən xilas edəcəyik [6, 46].

b) そのような思想からやっと抜け出せた(Sono youna şisou kara yatto nukedaseta) – Bu cür düşüncədən axır ki, yaxa qurtara bildim [6, 46].

a və b cümlələrində から(kara) qoşması həm funksiya, həm də formal cəhətdən Azərbaycan dili ilə üst-üstə düşür.

9) Müqayisə obyekti: から(kara) qoşması isimlərə qoşularaq müqayisə olunan obyekti ifadə edir. Bu funksiya əsasən xəbəri 遠い(tooi)-uzaq, 近い(çikai)-yaxın və s. kimi sifətlərdən düzələn cümlələrdə reallaşır. Məsələn,

a) 神戸は海から近いです(Koube va umi kara çikai desu) – Kobe şəhəri dənizdən yaxındır [7, 73].

b) お父さんの工場は駅から遠いです(Otousan no koucou va eki kara tooi desu) – Atamın zavodu qatar stansiyasından uzaqdadır [7, 73].

から(kara) qoşmasının bu məna və funksiyasını Azərbaycan dili ilə müqayisə etsək, fərqin olmadığının şahidi olarıq.

Nəticə. Çıxışlıq halın ifadə vasitəsi olan から(kara) qoşmasının məna və funksiyalarını aşağıdakı şəkildə ümumiləşdirə bilərik:

1. Yapon dilində çıxışlıq halın ifadə vasitəsi olan から(kara) qoşmasının əsas funksiyası Azərbaycan dilində olduğu kimi hərəkətin çıxış yerini və nöqtəsini ifadə etməkdir.

2. Yapon dilində から(kara) qoşmasının məna və funksiyalarının əksəriyyəti Azərbaycan dilindəki çıxışlıq hal şəkilçisinin məna və funksiyaları ilə ifadə edilir. Lakin bəzi funksiyalarda, məsələn, subyektin ifadə olunduğu cümlələrdə çıxışlıq hal şəkilçisi əvəzinə tərəfindən sözü işlədilir.

3. から(kara) çıxışlıq hal qoşmasının məna və funksiyaları onun istifadə qaydasından asılı olaraq が(qa)-adlıq, を(o)-təsirlik, に(ni)-yönlük və で(de)-yerlik hal qoşmaları ilə əvəz oluna bilir.

4. Yapon dilində から(kara) qoşması Azərbaycan dilində çıxışlıq hal şəkilçisi kimi özünə digər qoşmaları birləşdirə bilir.

Ədəbiyyat:

1. Mirzəzadə, H. İ. (1990). Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərbaycan Universiteti.
2. Hüseynzadə, M. (2007). Müasir Azərbaycan dili. III hissə. Morfolojoya. Bakı: Şərq-Qərb.
3. Seyidov, Y. M. (2002). Azərbaycan dilinin qrammatikası. Bakı: Bakı Universitet Nəşriyyatı.
4. Müasir Azərbaycan dili. (1980). Morfologiya. II cild. Bakı: Elm Nəşriyyatı.
5. Masuoka, T., & Takubo, Y. (2002). Nihongo bunpou masuta şirizu 3 kakucoşi. Tokyo: Kuruşio.
6. Лаврентев, Б. П. (1998). Практическая грамматика японского языка. Москва: Живой язык.
7. Pak, C. K. (1997). Gendai Nihongo, Kankokuqo no kakucoşi no hikaku kenkyuu. Tokyo: Benseişuppan.
8. Tomita, T. (1998). Bunpou no kiso çişiki to sono oşiekata. Tokyo: Boncinşa.
9. Arima, T. (2001). Nihongo no oshiekata no hiketsu, şinnihonqo no kiso. Tokyo: Surienettovaku.
10. Tanaka, Y., Makino, A., & Tsuruo, Y. (2001). Minna no Nihongo: Şokyuu I, Oşiekata no tehiki. Tokyo: Surienettovaku.

Yashar Ibrahimov

Summary

MEANS OF EXPRESSING THE ACCUSATIVE CASE IN JAPANESE IN AZERBAIJANI

The article studies the meaning and functions of the conjunction から (kara) expressing the accusative case in Japanese in a comparative manner with the accusative case in Azerbaijani. At the same time, the opinions of Japanese and Azerbaijani linguists were compared, and the differences and similarities of the accusative case were revealed and summarized as a result. In addition, the article also provides information about the numerical composition of the case affixes included in the classification.

The meanings and functions of the conjunction から(kara), which is a means of expressing the accusative case in Japanese, can be expressed in Azerbaijani with the suffixes *-dan, dən,* и *tərəfindən*. The main function of this affix is to express the place and point of departure of the action.

Яшар Ибрагимов

Резюме

СРЕДСТВА ВЫРАЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ ВИНИТЕЛЬНОГО ПАДЕЖА В ЯПОНСКОМ ЯЗЫКЕ

В статье изучаются семантические и функциональные функции суффикса から(kara) японского языка, выражающего винительный падеж, в сравнении с азербайджанским суффиксом. При этом сопоставляются мнения японских и азербайджанских лингвистов, в результате чего выявляются и обобщаются различия и сходства винительного падежа. Кроме того, в статье также приведены сведения о количественном составе падежных наречий, включенных в классификацию.

Значение и функции японского суффикса から (кара), являющегося средством выражения винительного падежа, в азербайджанском языке практически можно выразить с помощью суффиксов *-dan, dən,* и *tərəfindən*. Основная функция этого суффикса – выражение места и исходной точки действия.

Rəyçi: dos. C.Babayev

Munavvar Zeynalova
Azerbaijan University of Languages

https://doi.org/10.30546/2518-752X.02.101.1037

THE DEVELOPMENT AND EXPANSION OF ADOLESCENT SOCIAL DIALECTS (BASED ON PENELOPE ECKERT'S RESEARCH)

Keywords: *sociolinguistics, slang, pronunciation, social identification, language changes, linguistic variation*
Açar sözlər: *sosiolinqvistika, slenq, tələffüz, sosial identifikasiya, dil dəyişiklikləri, linqvistik variasiya*
Ключевые слова: *социолингвистика, сленг, произношение, социальная идентификация, языковые изменения, лингвистическая вариативность*

There are a number of reasons of emergence of social dialects among teenagers. First, for **constructing identity**, i.e. adolescence is a critical period for developing identity. Teenagers use language as a tool to express their social identity, mark themselves as being part of a particular group or groups, and distinguish themselves as different from some other group. Understanding dialects help us see how language is involved in the construction of social categories such as class, ethnicity, and subculture.

The **sociolinguistic transformation** may be a second reason because youth are generally the origin of language innovation and transformation. By studying their dialects, researchers can understand how language evolves over the centuries. The youth introduce the new words, slang, and pronunciation, most of which get incorporated into the wider community and hence become the primary drivers of language change.

By studying the social dialects of young people, we gain insight into language as a social phenomenon, the role of language in the construction of identity, and the driving forces of linguistic evolution in society.

Many authors have discussed the emergence and spread of social dialects among young people. One of them is Penelope Eckert. P. Eckert's "Jocks and Burnouts: Social Categories and Identity in the High School" (1989a) is one of the important works in the field of sociolinguistics that discusses how social categories influence language use and identity among high school students. The work is based on the language use of two large groups known as "jocks" and "burnouts". These groups use different language features in describing their social position and worldview. In her research, Eckert studied high school students and found that various social groups, such as the "jocks" and "burnouts" had different linguistic behaviors, reflecting their values and identities. The jocks, being nearer to the school's mainstream culture, used more standard forms of language, while the burnouts, being counter to the mainstream, used more non-standard features. These linguistic differences emerged and were maintained through the

interactions and activities that defined each community of practice. She considers it to be a response to "adolescent needs that may be, in some cases, independent of class" [1, p. 173].

They were comprised of youth, more specifically teenagers, that engaged wi th one another on a daily basis, forming close social communities based on shared interests, values, long-term aspirations. They were not only held together by frequent interactions, but were also held together by the same educational goals and by the same aspirations for their lives after high school. Through the close analysis of these local social categories, it was possible for Penelope Eckert to discover how social class was understood and enacted among the youth in this particular school.

One of the primary groups identified in Eckert's research was the *Jocks*, who were highly engaged in the corporate and institutional aspects of school life. They actively participated in various extracurricular activities ranged from varsity sports, student government to the school newspaper, all of which provided them with effective social and organizational skills. Their involvement in these structured activities not only reinforced their status within the school community but also prepared them for a future college education and eventual integration into middle-class professional culture. Their engagement in school-based activities showed an interest in academic achievement and leadership roles, putting them on a path towards long-term success in mainstream societal institutions.

In contrast, the *Burnouts* followed a very different trajectory. Unlike the *Jocks*, who embraced school culture, *Burnouts* remained largely detached from institutionalized extracurricular activities and instead cultivated strong ties with their local neighborhoods. Their social lives revolved around interactions outside of school, often in urban settings, where they engaged in activities that aligned more closely with working-class cultural norms. The majority of *Burnouts* viewed the structured and competitive environment of school life as restrictive and irrelevant to their future aspirations, which were often geared toward entering the workforce directly after high school rather than having higher education. Their disengagement from school-sponsored activities and their preference for socializing in informal, urban spaces reflected their orientation toward a working-class adult lifestyle, where job opportunities and social networks were rooted in the local community rather than in academic or corporate environments.

In the course of investigating these opposing social categories, Eckert demonstrated how language, social practice, and cultural affiliation played a crucial role in shaping young people's identities and determining their future trajectories. The *Jocks and Burnouts* were not two disparate peer groups but, rather, represented greater social cleavages reflecting class-based divisions within society more broadly. In this view, Eckert's work highlighted the manner in which adolescent social networks and language use reflected underlying socioeconomic structures, influencing the development of social dialects and young people's sense of belonging in their respective communities [1].

Besides above mentioned, this book highlights the relationship between language, social identity, and the formation of social categories, making it a fundamental text for understanding how sociolinguistic variation is connected to

social dynamics in youth communities. P. Eckert demonstrates this language as a means of building and preserving social relationships within society. This work is considered an essential resource for those doing research on topics such as sociolinguistics, social aspects of language, and social identity.

The concept of the "community of practice" explains the formation of social dialects among youth by highlighting how shared adolescents by observing how shared activities and goals lead to the construction of linguistic styles that differentiate one group from another. Language becomes a tool for expressing solidarity, establishing group boundaries, and signaling belonging. In this way, social dialects are not just a reflection of broader social categories but are actively constructed and negotiated through everyday social practices within communities of practice.

Penelope Eckert explained the role of youth in forming social dialects and driving linguistic change by emphasizing their position as key innovators in the process of language evolution. According to Eckert, adolescence is a critical period for social identity construction, and language plays a central role in how young people navigate and express their social affiliations, individuality, and resistance to authority. This makes youth a particularly dynamic group in terms of linguistic behavior and change.

P. Eckert explains that the theory of linguistic variation assumes that speakers of social experiences are *constituting* social categories and are actively *constructing* the social meaning of variation [4, p. 3]. This approach is most clearly expressed in her ethnography of Belten High School in Detroit, USA.

Penelope Eckert's "Linguistic Variation as Social Practice: The Linguistic Construction of Identity in Belten High" (2000) is one of her another important work in the field of sociolinguistics. In this book, Eckert examines how language plays a role in the formation and consolidation of social identity. He conducted this research in a school called Belten in the United States of America. In this school, students associate language users with certain social groups and learn how they construct and reinforce the boundaries of those groups.

Eckert spent two years interacting with students from Belten High, both in schools and in communities, and in doing so she created a picture of the groups, their interests, values and friendships [4].

P. Eckert considers language not only as a means of communication, but also as part of social practices. It analyzes how variations in students' everyday spoken language change according to the social situations in which they live and their positions in those situations. The book shows how these changes shape social identification at both the individual and group level.

P. Eckert's concept of the "community of practice" is a key theoretical framework used to explain the formation of social dialects among youth. A community of practice (CoP) refers to a group of people who come together around a shared interest or activity, engaging regularly in joint practices that shape their social relationships and identity. These communities are dynamic and are formed through social interactions, which makes them powerful sites for linguistic development.

Eckert's concept emphasizes that language use is closely tied to social practice. Unlike traditional approaches that categorize individuals based on broad social demographics like class or gender, the community of practice model focuses on the more localized and situational aspects of social life. Youth often form communities of practice based on their social affiliations, interests, and activities – such as friendship circles, sports teams, or school clubs. Through participation in these communities, they develop shared linguistic norms and practices.

These contested CoPs positions are structured around core principles such as territory, clothing, use of materials, values, and language. Eckert's linguistic analysis focused on one syntactic structure, negative agreement, and six phonological structures [4]. As in previous studies, she examined these youth variables in relation to macro-level social categories such as class and gender, but opened her analysis to examine the influence of youth participation in sports in the jock/burnout CoPs. Only negative agreement showed a significant relationship with socialization. Socialized adolescents from working-class background used the non-standard forms more often than their middle-class peers. However, here the strongest statistically significant relationship was associated with community of practice participation – burnouts used more non-standard negation mechanisms than jocks. There is no correlation between the adolescents' use of vocalic language changes and their parents' socioeconomic status.

P. Eckert highlighted that young people are often at the forefront of linguistic change. Adolescents, especially in informal settings, tend to experiment with language to create and express their identities, leading to the development of new words, expressions, and speech patterns. They use language to signal belonging to specific social groups and differentiate themselves from others, especially adults or other social groups. By doing so, they introduce innovations that can eventually spread throughout the community, contributing to broader linguistic change.

In her studies, such as her ethnographic work at high schools, Eckert showed that different social groups of adolescents adopt distinct linguistic features that align with their values and social practices. For instance, in her research on the "jocks" and "burnouts" she observed that the groups developed divergent linguistic behaviors to assert their identities. The linguistic choices made by these groups were influenced by their social orientation – whether towards the institutional norms or in resistance to them.

These variables were included in the *Northern Cities Chain 7 Shift*, i.e. a series of changes affecting the vowels of the English language spoken in the urban centers of the northern US states. The sound changes occurred in Detroit, but were more advanced in the urban areas than in the suburbs. Thus, an "urban" sound in speech emerged.

As burnouts saw themselves as part of the developing urban landscape, P. Eckert argues that they were more active than jocks in the Northern Cities Shift. Her "community of practice" approach emphasizes the extent to which people use language to construct their own individual and group identities.

The *jocks* and *burnouts* created different meanings for the linguistic variables studied by Eckert based on the specific practices they engaged in, and

combined these variables with other semiotic resources to create their own unique style. For example, burnouts expressed their anti-school, urban-centered stances in their clothing by wearing dark colored rock concert T-shirts, leather jackets, wrist bands and in the spaces they occupied within the school, such as smoking areas, and refusing to go to the cafeterias, and in their use of the non-standard grammar and urban forms of the late stages of the Northern Cities Shift.

These differences illustrate how social dialects emerge as markers of group identity among adolescents. Adolescents use language as a means of constructing social boundaries and communicating their stance toward social structures, which leads to the creation of new dialect forms that embody the social and cultural dynamics of the youth community.

P. Eckert used the concept of indexicality to explain how specific linguistic features become associated with particular social meanings and identities. Adolescents are adept at using linguistic features to signal their social status, attitudes, or affiliations. For example, the use of certain slang or pronunciations may index being "cool", rebellious, or aligned with a specific subculture. Through these indexical processes, youth actively shape the social meanings of language, contributing to changes in how particular linguistic forms are perceived and used in society. P. Eckert states that "it is the collection of types of communities of practice at different places in society that ultimately constitutes the assemblage of practice that is viewed as class culture, ethnic culture, gender practice, etc." [4, p. 39].

Briefly, Penelope Eckert stressed the crucial role that youth play in the evolution of social dialects and the broader process of language change. This influence stems from their unique social positioning, their ongoing identity-building processes, and the strength of their peer networks. Adolescents occupy a transitional stage in life, where they actively seek to establish their individuality while simultaneously aligning themselves with particular social groups. As a result, their use of language become a powerful tool for expressing group identity, social belonging, and even resistance to dominant linguistic norms.

Eckert emphasized that the point that youth are not so much passive recipients of language but active participants in its evolution. Their linguistic practices serve both as a reflection of their social identities and as a means of shaping and reinforcing those identities within their peer communities. By adopting, modifying, or even creating new linguistic forms, adolescents contribute to the continuous evolution of language. These innovations often emerge from their informal interactions, where language is used dynamically to negotiate status, express solidarity, and mark social distinctions.

Besides, intense peer networks also play a fundamental role in accelerating linguistic change. Unlike their forebears, whose language usage was potentially more stabilized, adolescents tend to experiment with language, borrowing from a number of sources and reshaping them to fit their group conduct and cultural demands. This rapid dissemination and cross-influence of linguistic features among peer groups enable new dialectal variations to take root and spread their influence beyond local communities.

Eckert's research makes the important argument that language change does not occur in a vacuum but is deeply embedded in social structures and cultural

contexts. Adolescents, as main agents of linguistic innovation, drive changes in pronunciation, vocabulary, and grammar, many of which will slowly make their way into the general language use. Their speech patterns, initially associated with youth culture, can come to represent broad social trends, illustrating the ways in which language is continually shaped by the ongoing interaction between speakers and society.

References:

1. Eckert, P. (1989a). Jocks and burnouts: Social categories and identity in the high school. New York: Teachers College Press.
2. Eckert, P. (1997). Age as a sociolinguistic variable. In F. Coulmas (Ed.), The handbook of sociolinguistics (pp. 151–167). Oxford: Basil Blackwell. Available at: EQCLfvbkTrdUJ1wfyNI9uOdcK30z1wbWWX060mrXBNwp2Tse
3. Eckert, P. (2012). Three waves of variation study: The emergence of meaning in the study of sociolinguistic variation. The Annual Review of Anthropology, 41, 87-100.
4. Eckert, P. (2000). Linguistic variation as social practice: The linguistic construction of identity at Belten High. Oxford: Blackwell.

Münəvvər Zeynalova

Xülasə

GƏNCLƏRİN SOSİAL DİALEKTLƏRİNİN İNKİŞAFI VƏ GENİŞLƏNMƏSİ (PENELOPE ECKERT'İN ARAŞDIRMALARINA ƏSASLANARAQ)

Gənclərin bir-biri ilə ünsiyyət qurduğu sosial mühit sosial dialektlərin formalaşması və genişlənməsinə əhəmiyyətli təsir göstərir. Gənclər arasında istifadə olunan spesifik dil və ifadə üslubları onların sosial qrupları daxilində yaranır və inkişaf edir. Fərqli dialektlər müəyyən sosial qrupun kimliyini və mədəniyyətini əks etdirə bilər. Gənclər arasında müxtəlif dil üslubları və dialektlər onların sosial qrupun bir hissəsi kimi necə tanındığını və öz kimliklərini necə ifadə etdiyini göstərir. Dil transformasiyaları qrupdaxili əlaqələri gücləndirir və müxtəlif qruplar arasında sərhədlər yaradır.

Мунаввар Зейналова

Резюме

РАЗВИТИЕ И РАСШИРЕНИЕ СОЦИАЛЬНЫХ ДИАЛЕКТОВ ПОДРОСТКОВ (НА ОСНОВЕ ИССЛЕДОВАНИЙ ПЕНЕЛОПЫ ЭККЕРТ)

Социальная среда, в которой молодые люди общаются друг с другом, оказывает значительное влияние на формирование и развитие социальных диалектов. Специфические языковые и речевые стили, используемые молодежью, формируются и развиваются внутри этих социальных групп. Различные диалекты могут отражать идентичность и культуру определённой социальной группы. Разнообразие языковых стилей и диалектов среди молодежи показывает, как они идентифицируются как часть собственной социальной группы, и выражают свою идентичность. Языковые трансформации укрепляют внутригрупповые связи и создают границы между различными группами.

Rəyçi: prof. A.Y.Məmmədov

Kəmalə Dünyamalıyeva
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1038

RƏQƏMSAL ÜNSİYYƏT VƏ LEKSİK SADƏLƏŞMƏ PROSESİ

Açar sözlər: *rəqəmsal ünsiyyət, leksik sadələşmə, dil dəyişməsi, sosial şəbəkələr, diskurs, dilin inkişafı*

Keywords: *digital communication, lexical simplification, language change, social media, discourse, language development*

Ключевые слова: *цифровая коммуникация, лексическое упрощение, языковые изменения, социальные сети, дискурс, развитие языка*

Giriş. Qloballaşma və rəqəmsallaşma dövründə ünsiyyət vasitələri köklü şəkildə transformasiyaya uğramış, ənənəvi ünsiyyət formalarını daha sürətli, çevik və interaktiv modellər əvəz etmişdir. İnternetin, sosial şəbəkələrin və mobil texnologiyaların geniş yayılması nəticəsində insanlar gündəlik həyatlarında getdikcə daha çox rəqəmsal platformalar vasitəsilə ünsiyyət qurmağa başlamışdır. Bu proses yalnız kommunikasiya vasitələrinin dəyişməsi ilə məhdudlaşmır, eyni zamanda dilin strukturuna, funksiyalarına və istifadə mexanizmlərinə də ciddi təsir göstərir. Dil artıq yalnız informasiya ötürmə vasitəsi deyil, həm də rəqəmsal mühitdə sosial identikliyin, ünsiyyət strategiyalarının və mədəni davranış modellərinin formalaşdığı dinamik sistem kimi çıxış edir.

Rəqəmsal ünsiyyətin əsas xüsusiyyətlərindən biri sürət, qənaət və operativlikdir. Müasir istifadəçi qısa zaman ərzində maksimum informasiya ötürməyə çalışır və bu, dilin iqtisadi prinsipini daha da aktuallaşdırır. Beləliklə, dil vahidləri sadələşir, uzun və mürəkkəb ifadələr daha qısa və funksional formalarla əvəz olunur. Bu kontekstdə leksik sadələşmə prosesi xüsusi əhəmiyyət kəsb edir. Sözlərin qısaldılması, abreviaturalardan istifadə, fonetik yazılış formalarının genişlənməsi və qeyri-rəsmi ifadələrin artması rəqəmsal ünsiyyətin səciyyəvi xüsusiyyətlərinə çevrilmişdir. Bu hallar Sosiolinqvistika baxımından dilin sosial mühitə uyğunlaşmasının təbii nəticəsi kimi qiymətləndirilir.

Bununla yanaşı, rəqəmsal kommunikasiya mühiti yeni diskurs formalarının yaranmasına səbəb olmuşdur. Sosial şəbəkələrdə və messencerlərdə formalaşan ünsiyyət modeli ənənəvi yazılı və şifahi nitq arasında aralıq mövqe tutur və özünəməxsus dil xüsusiyyətləri ilə seçilir. Bu xüsusiyyətlər Diskurs təhlili çərçivəsində araşdırıldıqda, dilin kontekstə uyğun olaraq necə dəyişdiyi, yeni kommunikativ strategiyaların necə formalaşdığı aydın şəkildə görünür. Eyni zamanda, bu proseslər istifadəçilərin idrak fəaliyyətinə də təsir edir və Psixolinqvistika baxımından informasiyanın qavranılması və emal olunmasının daha sürətli və sadələşdirilmiş formalarını stimullaşdırır.

Rəqəmsal ünsiyyət yalnız dilin strukturuna deyil, həm də onun funksional sahələrinə təsir edir. Emojilər, giflər, qısaltmalar və digər vizual elementlər dilin ənə-

növi ifadə vasitələrini tamamlayaraq yeni semantik qat yaradır. Bu isə dilin multimodal xarakterini gücləndirir və ünsiyyət prosesini daha ekspressiv və emosional edir. Lakin bu dəyişikliklər eyni zamanda ədəbi dil normalarının zəifləməsi, yazılı nitq mədəniyyətinin sadələşməsi kimi müəyyən problemləri də gündəmə gətirir.

Rəqəmsal ünsiyyət və leksik sadələşmə prosesi müasir dilçilikdə aktual tədqiqat istiqamətlərindən biri kimi çıxış edir və bu fenomenin sosial, psixoloji və pedaqoji müstəvilərdə araşdırılması xüsusi elmi əhəmiyyət kəsb edir.

Rəqəmsal ünsiyyət ənənəvi yazılı və şifahi nitqdən bir sıra mühüm xüsusiyyətlərinə görə fərqlənir və bu fərqlər onun strukturunu və funksional imkanlarını müəyyənləşdirir. İlk növbədə, rəqəmsal mühitdə ünsiyyətin sürətli və ani xarakter daşıması diqqəti cəlb edir. İstifadəçilər məlumatı real vaxt rejimində ötürmək və qəbul etmək imkanına malik olduqları üçün kommunikasiya prosesi daha dinamik və fasiləsiz xarakter alır. Bu isə öz növbəsində dilin daha çevik və operativ istifadəsini tələb edir.

Rəqəmsal ünsiyyətdə qısa və konkret ifadələrin üstünlük təşkil etməsi də əsas xüsusiyyətlərdən biridir. Uzun və mürəkkəb cümlələr əvəzinə daha yığcam və məzmunu tez çatdıran ifadələrdən istifadə olunur. Bu hal dilin iqtisadi prinsipinin daha da güclənməsinə səbəb olur. Məhz bu səbəbdən sözlərin qısaldılması, abreviaturaların istifadəsi və sintaktik sadələşmə geniş yayılmışdır.

Digər mühüm xüsusiyyət qeyri-rəsmi üslubun dominantlığıdır. Sosial şəbəkələr və messencerlər əsasən gündəlik ünsiyyət mühiti olduğundan burada rəsmi dil normalarına riayət səviyyəsi nisbətən aşağı olur. İstifadəçilər daha sərbəst, emosional və fərdi üslubda ünsiyyət qurmağa üstünlük verirlər ki, bu da dilin normativ çərçivələrinin müəyyən qədər elastikləşməsinə gətirib çıxarır. Bu proses sosiolinqvistika baxımından dilin sosial mühitə uyğunlaşmasının təbii təzahürü kimi izah olunur.

Rəqəmsal ünsiyyət vizual elementlərin geniş istifadəsi ilə də səciyyələnir. Emojilər, simvollar, stikerlər və digər vizual vasitələr nitqin emosional və ekspressiv çalarlarını gücləndirir, bəzən isə sözlərin yerini tamamilə əvəz edir. Bu isə dilin multimodal xarakter almasına və yeni kommunikativ formaların yaranmasına şərait yaradır. Belə dəyişikliklər diskurs təhlili çərçivəsində yeni diskurs modellərinin formalaşması kimi qiymətləndirilir.

Rəqəmsal ünsiyyətin bu xüsusiyyətləri dilin daha funksional, qənaətli və dinamik formaya keçidini təmin edir, eyni zamanda onun struktur və üslub baxımından transformasiyasına səbəb olur.

Leksik sadələşmə dilin mürəkkəb və çoxkomponentli vahidlərinin daha sadə, qısa və funksional formalarla əvəz olunması prosesidir və müasir rəqəmsal ünsiyyət mühitində xüsusilə intensiv şəkildə müşahidə olunur. Bu proses dilin daxili inkişaf qanunauyğunluqları ilə yanaşı, sosial və texnoloji amillərin təsiri altında formalaşır. Rəqəmsal platformalarda ünsiyyətin sürətli və operativ xarakter daşıması istifadəçiləri daha qısa və yığcam ifadələrdən istifadə etməyə sövq edir. Sözlərin qısaldılması, abreviaturaların geniş yayılması və sintaktik konstruksiyaların sadələşdirilməsi dil praktikasında normaya çevrilir.

Leksik sadələşmənin əsas səbəblərindən biri zaman qənaəti ilə bağlıdır. Müasir istifadəçi informasiyanı mümkün qədər tez ötürmək və qəbul etmək istəyir, bu isə dilin minimal vasitələrlə maksimal məzmun ifadə etməsi prinsipini ak-

tuallaşdırır. Digər tərəfdən, texniki amillər də bu prosesə təsir göstərmişdir. Xüsusilə mobil ünsiyyətin ilkin mərhələlərində SMS-lərdə tətbiq olunan simvol məhdudiyyətləri istifadəçiləri sözləri qısaltmağa və daha kompakt ifadələr yaratmağa vadar etmişdir. Bu tendensiya sonradan sosial şəbəkələrdə və digər rəqəmsal platformalarda da davam etmişdir.

Qeyri-rəsmi ünsiyyət mühitinin üstünlük təşkil etməsi də leksik sadələşməni stimullaşdıran mühüm amillərdəndir. Sosial şəbəkələrdə və messencerlərdə istifadə olunan dil daha sərbəst və danışıq üslubuna yaxın olduğundan burada normativ dil qaydalarına riayət daha az müşahidə olunur. Bu isə yeni söz formalarının, qeyri-standart ifadələrin və sleng elementlərinin yaranmasına şərait yaradır. Xüsusilə gənclər subkulturası bu prosesdə aparıcı rol oynayır; onlar öz sosial identikliklərini ifadə etmək üçün yeni leksik vahidlər yaradır və dilə innovativ elementlər daxil edirlər. Bu baxımdan leksik sadələşmə Sosiolinqvistika çərçivəsində sosial qrupların dilə təsirinin nəticəsi kimi də izah olunur.

Eyni zamanda bu proses insanın idrak fəaliyyəti ilə də sıx bağlıdır. Psixolinqvistika baxımından leksik sadələşmə informasiyanın daha sürətli qavranılması və emal olunması ehtiyacından irəli gəlir. Sadə və qısa ifadələr beynin məlumatı daha tez qəbul etməsinə və daha effektiv şəkildə emal etməsinə imkan yaradır. Bu isə rəqəmsal mühitdə intensiv informasiya axını şəraitində ünsiyyətin səmərəliliyini artıran mühüm amillərdən biri kimi çıxış edir.

Beləliklə, leksik sadələşmə prosesi həm texnoloji inkişafın, həm sosial mühitin, həm də insanın idrak xüsusiyyətlərinin qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks dil hadisəsidir.

Rəqəmsal mühitdə formalaşan diskurs ənənəvi yazılı və şifahi nitq normalarından müəyyən dərəcədə fərqlənir və bu fərqlər dilin strukturunda və istifadə mexanizmlərində yeni tendensiyaların yaranmasına səbəb olur. Sosial şəbəkələr, messencerlər və digər rəqəmsal platformalar ünsiyyətin daha sürətli, qeyri-rəsmi və interaktiv xarakter almasını təmin etdiyindən burada dil daha sərbəst və elastik formada istifadə olunur. Bu isə normativ qaydalara münasibətin dəyişməsi ilə nəticələnir.

Rəqəmsal diskursda qrammatik qaydalara riayət səviyyəsinin azalması geniş müşahidə olunan hallardandır. İstifadəçilər ünsiyyət zamanı daha çox məzmunun tez çatdırılmasına üstünlük verdikləri üçün cümlə quruluşunda sadələşmə, bəzi qrammatik elementlərin ixtisarı və qeyri-standart formaların istifadəsi adi hala çevrilir. Bu, dilin kommunikativ funksiyasının formal qaydalardan daha üstün tutulduğunu göstərir.

Punktuasiya sistemində də əhəmiyyətli dəyişikliklər baş verir. Rəqəmsal ünsiyyətdə nöqtə, vergül, sual və nida işarələrinin istifadəsi ya minimuma endirilir, ya da tamamilə aradan qalxır. Bəzən isə əksinə, emosiyanı ifadə etmək üçün eyni işarənin təkrarlanması (məsələn, “!!!”, “???”) müşahidə olunur. Bu hal punktuasiyanın yalnız sintaktik deyil, həm də ekspressiv funksiya daşıdığını göstərir.

Digər diqqətçəkən xüsusiyyət sözlərin fonetik yazılışa yaxınlaşdırılmasıdır. İstifadəçilər sözləri danışıq dilinə uyğun şəkildə, daha sadə və sürətli yazmağa meyil göstərirlər. Bu isə yazılı nitqin şifahi nitqə yaxınlaşmasına, yəni iki ünsiyyət formasının müəyyən mənada sintez olunmasına gətirib çıxarır.

Bu dəyişikliklər diskurs təhlili çərçivəsində yeni kommunikativ modellərin formalaşması kimi qiymətləndirilir. Belə ki, rəqəmsal diskurs özünəməxsus qaydalar, üslub xüsusiyyətləri və ifadə vasitələri ilə seçilən müstəqil bir kommunikasiya sistemi kimi çıxış edir. Bu sistemdə dilin əsas məqsədi normativlikdən daha çox effektivlik, sürət və emosional ifadəliliklə müəyyən olunur.

Leksik sadələşmə prosesi müasir rəqəmsal ünsiyyət mühitində dilin inkişafına həm müsbət, həm də mənfi təsirlər göstərən mürəkkəb bir hadisədir. Bu proses bir tərəfdən ünsiyyətin daha effektiv və sürətli həyata keçirilməsinə şərait yaradır, digər tərəfdən isə dilin normativ və estetik xüsusiyyətlərinə müəyyən mənada təsir göstərir.

Müsbət tərəflərdən biri ünsiyyətin sürətlənməsidir. Qısa və sadə ifadələrin istifadəsi informasiyanın daha operativ şəkildə ötürülməsinə imkan verir və bu da xüsusilə rəqəmsal mühitdə ünsiyyətin səmərəliliyini artırır. Bununla yanaşı, dil daha çevik və dinamik xarakter alır. Yeni kommunikasiya şəraitinə uyğun olaraq dil dəyişir, yenilənir və müxtəlif sosial qrupların tələblərinə uyğunlaşır. Bu proses nəticəsində yeni ifadə vasitələri, abreviaturalar, sleng və innovativ dil formaları yaranır ki, bu da dilin inkişafının təbii mərhələsi kimi qiymətləndirilə bilər. Bu baxımdan leksik sadələşmə Sosiolinqvistika çərçivəsində dilin sosial dəyişikliklərə adaptasiyasının göstəricisi hesab olunur.

Lakin bu prosesin mənfi tərəfləri də mövcuddur. Ən önəmli problemlərdən biri ədəbi dil normalarının zəifləməsidir. Rəqəmsal ünsiyyətdə qeyri-rəsmi və sadələşdirilmiş dil formalarının geniş yayılması normativ qaydalara riayət səviyyəsinin azalmasına səbəb olur. Bu isə xüsusilə rəsmi yazışma və akademik mətnlərin keyfiyyətinə mənfi təsir göstərə bilər. Digər tərəfdən, yazılı nitq bacarıqlarının aşağı düşməsi də ciddi narahatlıq doğuran məqamdır. İstifadəçilər qısa və sadələşdirilmiş ifadələrə alışdıqları üçün daha mürəkkəb və strukturlaşdırılmış mətnlər qurmaqda çətinlik çəkə bilərlər.

Bundan başqa, söz ehtiyatının məhdudlaşması riski də mövcuddur. Eyni qısa və standart ifadələrin tez-tez istifadəsi dilin zənginliyinin azalmasına gətirib çıxara bilər. Psixolinqvistika baxımından fərdin dil bacarıqlarının və ifadə imkanlarının daralması ilə əlaqələndirilir.

Leksik sadələşmə prosesi müasir ünsiyyətin ayrılmaz hissəsi olmaqla yanaşı, onun təsirlərinin balanslı şəkildə qiymətləndirilməsini və xüsusilə təhsil mühitində düzgün istiqamətləndirilməsini tələb edən mühüm dil hadisəsidir.

Rəqəmsal ünsiyyət və leksik sadələşmə prosesi müasir təhsil sistemində də özünü aydın şəkildə göstərir və tədris mühitinin məzmununa, metodlarına və məqsədlərinə birbaşa təsir edir. Müasir dövrdə şagird və tələbələr informasiyanı əsasən rəqəmsal platformalar vasitəsilə qəbul etdikləri üçün onların dil istifadəsi də bu mühitin xüsusiyyətlərinə uyğun formalaşır. Buna görə rəqəmsal pedaqogika çərçivəsində rəqəmsal ünsiyyətin dilə təsirinin düzgün istiqamətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Təhsil prosesində müəllimlərin əsas vəzifələrindən biri şagirdlərdə balanslı dil bacarıqları formalaşdırmaqdır. Yəni, bir tərəfdən onların rəqəmsal mühitdə effektiv və operativ ünsiyyət qurmaq bacarıqları inkişaf etdirilməli, digər tərəfdən isə ədəbi dil normalarına riayət etmə vərdişləri qorunmalıdır. Bu məqsədlə dərs prosesində həm formal, həm də qeyri-formal ünsiyyət modellərinin müqayisəli şə-

kildə tədrisi, dil üslublarının fərqləndirilməsi və situativ istifadə bacarıqlarının formalaşdırılması vacibdir.

Rəqəmsal alətlərin tədrisə inteqrasiyası şagirdlərin dil bacarıqlarının inkişafına yeni imkanlar yaradır. Onlayn platformalar, interaktiv tapşırıqlar və rəqəmsal kommunikasiya vasitələri vasitəsilə şagirdlər həm yazılı, həm də şifahi ünsiyyət bacarıqlarını inkişaf etdirə bilirlər. Lakin bu prosesdə leksik sadələşmənin həddindən artıq təsirinin qarşısını almaq üçün müəllim tərəfindən nəzarət və istiqamətləndirmə mühüm rol oynayır.

Eyni zamanda, şagirdlərdə tənqidi düşünmə və dil şüuru formalaşdırılmalıdır ki, onlar müxtəlif ünsiyyət mühitlərində hansı dil formasının daha uyğun olduğunu düzgün müəyyən edə bilsinlər. Bu yanaşma onların həm akademik, həm də gündəlik kommunikasiya bacarıqlarının daha effektiv inkişafına şərait yaradır.

Tədqiqatın elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi rəqəmsal ünsiyyət şəraitində leksik sadələşmə prosesinin kompleks şəkildə araşdırılması və onun yeni diskurs modeli kimi izah olunmasıdır. Bu proses Sosiolinqvistika və Diskurs təhlili çərçivəsində təhlil edilərək, həmçinin Psixolinqvistika baxımından əsaslandırılmış və təhsil mühitində tətbiqi Rəqəmsal pedaqogika kontekstində müəyyənləşdirilmişdir.

Nəticə. Rəqəmsal ünsiyyət və leksik sadələşmə müasir dil inkişafının mühüm və aktual istiqamətlərindən biri kimi çıxış edir. Bu proses dilin daha dinamik, çevik və funksional olmasına şərait yaradır, ünsiyyətin sürətini və effektivliyini artırır. Bununla yanaşı, o, dilin normativ sisteminə, ədəbi dil qaydalarına və ifadə zənginliyinə də müəyyən təsirlər göstərir.

Müasir dilçilik baxımından bu dəyişikliklər sosiolinqvistika və diskurs təhlili çərçivəsində yeni kommunikativ modellərin formalaşması kimi qiymətləndirilir. Bu isə dilin sabit deyil, daim inkişaf edən və sosial mühitə uyğunlaşan canlı sistem olduğunu bir daha təsdiq edir.

Nəticədə, rəqəmsal ünsiyyət və leksik sadələşmə prosesinin elmi əsaslarla öyrənilməsi və onun təhsil mühitində düzgün tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə aparılan tədqiqatlar dilin inkişaf tendensiyalarını daha dərindən anlamağa və müasir təhsil strategiyalarının formalaşdırılmasına mühüm töhfə verə bilər.

Ədəbiyyat:

1. AMEA. (2018). Azərbaycan dilçiliyinin aktual problemləri. Bakı: Elm.
2. Vəliyev, F. (2017). Sosiolinqvistika. Bakı: Bakı Universiteti Nəşriyyatı.
3. Saussure, F. de. (1983). Course in general linguistics. London: Duckworth.
4. Van Dijk, T. A. (2008). Discourse and context: A sociocognitive approach. Cambridge: Cambridge University Press.
5. UNESCO. (2019). Digital literacy in education. Paris: UNESCO Publishing.

Kamala Dunyamaliyeva

Summary

DIGITAL COMMUNICATION AND THE PROCESS OF LEXICAL SIMPLIFICATION

This study aims to investigate the transformation of lexical units and their functional changes within the language system in the context of digital communication from a linguistic perspective. In the modern digital environment, the acceleration and optimization

of communication intensify the processes of simplification and reduction at the lexical level of language. The phenomenon of lexical simplification is analyzed within sociolinguistic and discourse-based approaches, and its causes and impact on the structure of language are identified. Tendencies such as the shortening of lexical units, abbreviation, and the expansion of phonetic writing forms in digital discourse are interpreted as indicators of the functional dynamics of language. The study concludes that the process of lexical simplification enhances communicative efficiency while also influencing the normative and structural features of language.

Камала Дуньямалыева

Резюме

ЦИФРОВАЯ КОММУНИКАЦИЯ И ПРОЦЕСС ЛЕКСИЧЕСКОГО УПРОЩЕНИЯ

Данное исследование направлено на изучение трансформации лексических единиц и их функциональных изменений в системе языка в условиях цифровой коммуникации с лингвистической точки зрения. В современной цифровой среде ускорение и оптимизация коммуникации усиливают процессы упрощения и редукции на лексическом уровне языка. В статье феномен лексического упрощения анализируется в рамках социолингвистического и дискурсивного подходов, выявляются причины его возникновения и влияние на структуру языка. Такие тенденции, как сокращение лексических единиц, аббревиация и расширение фонетических форм написания в цифровом дискурсе, интерпретируются как показатели функциональной динамики языка. В результате исследования установлено, что процесс лексического упрощения, с одной стороны, повышает коммуникативную эффективность, а с другой оказывает влияние на нормативные и структурные характеристики языка.

Rəyçi: prof. F.F.Cahangirov

Gülnar Xəlilova
Odlar Yurdu Universiteti
https://orcid.org/0000-0001-5245-482X

https://doi.org/10.30546/2518-752X.02.101.1043

DÜNYA DİLLƏRİNDƏ SÖZ SIRASI PROTOTİPLƏRİNİN MEYDANA GƏLMƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR

Açar sözlər: *söz sırası, prototip söz sırası, koqnitiv amillər, psixolinqvistika*
Keywords: *word order, prototypical word order, cognitive factors, psycholinguistics*
Ключевые слова: *порядок слов, прототип порядка слов, когнитивные факторы, психолингвистика*

Giriş. Dünya dillərində söz sırası problemi öyrənildikcə, yeni-yeni suallar ortaya çıxır, bu problemlə bağlı qaranlıq məqamların öyrənilməsinə maraq artır. Belə problemlər içərisində dillərdə baza söz sırası və onun meydana gəlməsi, dünya dillərində baza söz sırasındakı oxşarlıqlar, onların meydana gəlmə səbəbləri kimi suallara cavab axtarışı nəzəri dilçilikdə çox maraqlı tədqiqat əsərlərinin meydana gəlməsi ilə nəticələnmişdir. Bu problemlərin tədqiqi ilə təkcə dilçilər deyil, psixoloqlar, filosoflar, məntiqçilər, sosioloqlar da həm nəzəri, həm də eksperimental axtarışlar apararaq qeyd olunan məsələlərin öyrənilməsinə cəhd edirlər. Bunun üçün psixoloqların və psixolinqvistlərin apardıqları elmi axtarışları xüsusilə qeyd etməliyik.

Son dövrlərdə baza söz sırasının meydana gəlməsinin araşdırılmasına haradan başlamaq sualına cavab insan idrakında axtarılmağa başlanmışdır. Məsələnin mahiyyətində eksperimentlərin təşkili və onları düzgün istiqamətə yönəltmə dayanır. Bu istiqamətdə aparılan tədqiqatlarla yaxından tanış olduqdan sonra insanın idrak sisteminin söz sırası ilə hansı əlaqələrə malik olduğu və həlledici məqamın nədən ibarət olduğu haqqında yeni fikirlər üzə çıxır. Belə məlum olur ki, söz sırasını dillər üzrə baza şəklində formalaşması bəşəri inkişafın o dövrünə aiddir ki, insanlar müasir anlamda düşündüyümüz dildən deyil, o funksiyanı yerinə yetirən, bunun üçün müxtəlif üsullardan istifadə edən, məntiqi idrakı tədricən inkişaf etməyə başlayan insanların formalaşması ilə əlaqədardır. Bunu nəzərə alaraq psixoloqlar və psixolinqvistlər baza söz sırası ilə bağlı iki məqama diqqət yetirirlər:

1. İdraki proseslərə;
2. O dövr insanının idrakında söz sırası anlayışına yaxın fəaliyyət mexanizminin meydana çıxmasına.

Ona görə də dilçilərin eksperimentləri bu istiqamətə yönəltməsi öz məntiqi nəticələrini vermişdir [4].

Görkəmli alimlərin tədqiqatları baza söz sırasının formalaşması ilə bağlı yeni elmi faktları üzə çıxarmışdır. Həmin tədqiqatların nəticələrini nəzərdən keçirək.

Dünya dillərinin çoxunda söz sırası SOV və SVO strukturlarından ibarətdir. Buna səbəbin nə olması dilçiləri həmişə maraqlandırmışdır. Həmin problemin şərhi üçün çox cəhdlər edilmişdir. Nəticədə belə bir qərara gəlmişlər ki, baza söz sırası modelini öyrənmək üçün metodoloji cəhətdən daha əlverişli üsulla jestlər üzərində eksperimentlər aparmaqdan ibarətdir [4]. Onlar eksperiment iştirakçılarına bildirirlər ki, yalnız səssiz jestlərdən istifadə etsinlər, səsli nitqdən istifadə etməsinlər. Nəticədə məlum olur ki, jestlərlə danışan insanlar ana dilindəki söz sırasına meyil göstərmirlər. Buna görə onlar informasiyanı ötürmək üçün oxşar strukturlara müraciət edirlər. Bu üsuldan istifadə edərək lal jestlərin söz sırasının meydana gəlməsindəki rolu haqqında çoxlu sübutlar əldə edilmişdir. Bu metod yeni dillərin meydana gəlməsi, sərbəst söz sırasının morfoloji strategiyası, eləcə də məkan münasibətlərinin jest dilindəki rolunu ortaya çıxarmışdır.

Jestlər barədə əldə olunan nəticələrdən çıxış edərək dilin strukturu haqqında müxtəlif potensial mexanizmlər irəli sürülmüşdür. Beləliklə, lal jestlərin söz sırasının yaranmasındakı rolu müəyyənləşdirilmişdir. Onlar eksperiment nəticələrini belə ümumiləşdirirlər: *"Təcrübə göstərdi ki, isimlər feillərdən əvvəl gəlir; bu, təbii üstünlükdür. İsim birləşmələrinin sifətdən əvvəl sıralanması da üstünlük təşkil edir; bu da təbii sıralanmadır.*

Səssiz jest paradiqmasından (burada nitqsiz simvolik jestlər təqdim etdiyimiz) istifadə edərək, biz müxtəlif iştirakçıları feil frazasında (isim-feil və feil-isim) və müxtəlif tezliklərə malik isim ifadəsində (isim-sifət və sifət-isim) qabaqcadan müəyyənləşmənin söz sıralarına təsirini müşahidə etdik. İsim ifadəsinin təzadlı vəziyyətində nizamlanmanın ən böyük olduğunu müəyyənləşdirdik. Sifətlərin sıralanmasına qarşı domen miqyasında qabaqcadan müəyyənləşmə və buna linqvistik meyl sifətlərdən əvvəl düzüldükdə, iştirakçılar girişdən asılı olmayaraq eyni dərəcədə nizamlandılar: hətta əsas xətti ilə uyğunlaşma hesabına daha çox söz sırası müəyyənləşməsinə uyğun qanunauyğunluq seçdilər" [2].

İnsanlar nəyinsə haqqında danışarkən hadisənin agenti, pasiyenti və hərəkətinin yerləşdirilməsi barəsində seçim etməlidirlər. İnsanlar bu qaydanı yerinə yetirərkən iki söz sırasına eyni səviyyədə üstünlük verirlər. Xüsusilə, onlar hadisənin müxtəlif komponentlərinin qeyd edilmə ardıcıllığını müəyyən etməlidirlər. Bunu edə biləcək bir sıra müxtəlif yollar olsa da, dünya dillərinin əksəriyyətində danışanlar bunu, adətən, iki modeldən birini – SOV və ya SVO sırasını istifadə edirlər. Bu iki söz sırası dünyanın müasir dilləri arasında bərabər şəkildə təmsil olunur. Halbuki koqnitiv ehtiyacın əsas SOV sırasına doğru istifadəsinə meylin olmasına dair sübutlar vardır [3].

Səssiz paradiqmadan istifadə zamanı eksperiment iştirakçılarından hadisədə nə baş verdiyini yalnız əlləri ilə göstərmələri istənilmişdir. Nəticələr göstərmişdir ki, sadə keçid hadisələrini jestlərlə təsvir edərkən [məsələn, düyməni çevirən qadın], natiqlər feil-isim əvəzinə isim-feil sırasından istifadə edirlər. Feil ifadəsində ən çox qeyd olunan arqumentlər üzə çıxmışdır: linqvistik fonda insanlar feili ifadə etməzdən əvvəl birbaşa obyekti, yəni ismi ifadə edirdilər. Üstəlik, bu nəticələrə uyğun olaraq dünyanın ən yeni dilləri, o cümlədən, Əl-Seyyid Bədəvi İşarə Dili [2] və karların ev işarə dili sistemləri [2] həmçinin SOV sırasına üstünlük vermişlər. Eyni səssiz jest paradiqmasından istifadə edərək sonrakı iş bu tapıntıları genişləndirmiş və göstərmişdir ki, söz sırası (obyekt) üçün "təbii" üstünlük isim

feil kimi əlavə amillərlə modullaşdırıla bilər. Bununla belə, isim-feil sırasının prototip, canlı-cansız hadisələr üçün gözlənildiyi barədə ümumi qənaət meydana çıxmışdır. Bəzi ilkin dəlillər əsas idrak məkanında isimlərin və onları dəyişdirən sifətlərin ardıcıllığında qabaqcadan müəyyənləşməyə işarə etmişdir.

Lal jestlər üzrə aparılan tədqiqatlar göstərmişdir ki, hadisələrin və obyektlərin qeyri-şifahi təsvirində koqnitiv müəyyənləşmələr daha ümumi olaraq dillərdə söz sırasını müəyyənləşdirməkdə mühüm rol oynaya bilər. Dünya dillərində söz sırası prototiplərinin müəyyənləşməsində cümlədə söz sırasının dəyişməsi və ya dəyişə bilməməsi prinsipinə də üstünlük verilir. SOV-un geri dönməz keçid hadisələrinə üstünlük verməsi, mövzu məlumatının ilkin, əlaqə məlumatının isə sonuncu təqdim edilməsinə üstünlük verilməsi koqnitiv meyllə əlaqələndirilir.

SOV-dan SVO-ya keçidi izah etmək üçün səs kanalı məlumat nəzəriyyəsinə müraciət olunur və rabitənin səsli hadisə olduğu, kommunikatorların qəbuledici tərəfdəki potensial səhvləri minimuma endirməyə çalışdığı mərkəzi müşahidə kimi qəbul edilir.

Qabaqcadan müəyyənləşdirilmiş SOV-un bir hissəsi (S və ya O) səs-küy səbəbindən itirilirsə və qalan element mövzu və ya obyekt ola bilərsə, o zaman nəticə çıxarmaq mümkün deyil; qalan məlumat subyekt-feil və ya obyekt-feil cütüdür. Feil medialları, əksinə, səs-küyə daha davamlıdır, çünki iştirakçılardan biri haqqında məlumat ləğv edildikdə belə, həmsöhbət yalnız feilə nisbətən mövqedən qalan məlumatın aid olub-olmadığını deyə bilər.

Xülasə etmək üçün, səs-küylü kanalların hesablanması başlanğıc nöqtəsi olaraq söz sırası üstünlüklərini müəyyən edən iki koqnitiv amili nəzərə alır: mövzu ilə bağlı ilkin müəyyənləşmə (subyektə) və (zəif) feil sonluğu müəyyənləşməsi. O, geri dönən hadisələr üçün SVO-nun istifadəsini ünsiyyət prinsipi ilə izah edir, geri dönən hadisələrin səs-küyə xüsusilə həssas olduğunu və SVO sırasının daha sabit olduğunu qeyd edir.

Müəlliflər qeyd edirlər ki, geri dönən hadisələr üçün səssiz jest istifadəçiləri SOV sıralanmasından uzaqlaşmağa üstünlük verirlər, çünki bu müəyyənləşmə onların əvvəlcə subyektin rolunu, sonra birbaşa obyekti, daha sonra isə dolayısı ilə yenidən subyektin rolunu təcəssüm etdirməsinə səbəb olur. Bununla da iki söz sırası konvensiyasını idarə edən müxtəlif prosesləri vurğulayırlar.

Rol münaqişəsi modallığa və söz sırası törəməsinə xasdır: o, insanların jest təsvirləri yaratdıqda baş verən prosesləri özündə əks etdirir. Səs kanalı, əksinə, idrak və ünsiyyətin ümumi prinsiplərinə əsaslanır. İki hesabat səssiz jest təcrübələrində müşahidə edilən potensial digər müəyyənləşmələr (SOV və SVO-dan başqa), həm də SOV/SVO modelinin ümumiliyi haqqında müxtəlif proqnozlar verir.

Rol konflikti hesabı proqnozlaşdırır ki, danışıq modallığı geri çevrilən hadisələr üçün eyni problemlərlə üzləşmir və beləliklə, burada təsvir edilən söz sırası modelinin yalnız vizual bələdçilik sahəsində dilin xüsusiyyəti olacağı gözlənilir. Səs kanalı isə nümunənin ümumi koqnitiv, kommunikativ qabaqcadan müəyyənləşmə tərəfindən idarə olunduğunu fərz edir və modallıqdan asılı olmayaraq, ümumiyyətlə, dilin bir xüsusiyyəti olacağını proqnozlaşdırır.

Söz sırasının ortaya çıxmasının tədqiqi SOV/SVO növbəsini vizual təlimatdan başqa modallıqda da təkrarlayır. SVO söz sırasının koqnitiv izahı Alan Lanqus və Marina Nespor tərəfindən verilmişdir. Onlar dünya dilləri üzrə apardıqları

müşahidəyə əsaslanaraq belə bir fikir irəli sürürlər ki, dünya dillərindəki qrammatik müxtəliflik insanların fərdi idrakından irəli gəlir. Dünya dilləri arasında müşahidə olunan qrammatik müxtəliflik fərdi idrak arasındakı qarşılıqlı təsirdən yaranır; sistemlər öz üstünlük verdiyi strukturları insan dilinə tətbiq etməyə çalışır.

Dünya dillərində ən çox yayılmış iki söz sırası – SOV (Mövzu-Obyekt-Feil) və SVO – idraki əsaslara malikdir. Dil dəyişikliyi, qrammatikləşmə, nizamın sabitliyi və nəzəri arqumentlərdən əldə edilən sübutlar SVO-nun sintaktik üstünlüyünü təsdiqləyir. İki jest təcrübəsində və bir jestdə anlama eksperimentində SOV ana dillərində (italyan və türk dilləri) müxtəlif söz sıralarına malik olan iştirakçılarda üstünlük verilən tərkib konfiqurasiyası kimi ortaya çıxır [133]. Onlar belə bir konsepsiya irəli sürürlər ki, dünya dilləri içərisində SOV söz sırası dilə qədərki kommunikasiyada koqnitiv mexanizmə malik olmuşdur. Beləliklə, dünya dillərində rəqabət aparan iki söz sırası, kommunikasiyanı idarə edən hesablama qrammatikası sistemləri arasındakı mübarizənin nəticəsi kimi ortaya çıxır. Onlar da N.Xomskinin aşağıdakı konsepsiyasına arxalanırlar.

Beləliklə, dünya dillərində ən çox yayılmış iki söz sırasının hökmranlığı, qrammatik hesablama sisteminin üstünlükləri ilə prelinqvistik ünsiyyəti idarə edən qüvvələr arasında mübarizənin nəticəsidir. İnsanın dil qabiliyyətinin modul olduğu və bunun spesifik linqvistik tapşırıqlardan məsul olan müxtəlif idrak sistemlərini müəyyənləşdirməyin mümkün olduğu fərziyyəsinə arxalanırıq [3]. Onlar göstərirlər ki, dilin reallaşması və anlaşılması (həm danışıq, həm də işarə dili) ən azı üç şərtlə bağlıdır:

1. Kommunikasiyanı təmin edən və şərh edən konseptual sistem (semantika);
2. Linqvistik ifadələrin mənasını istehsal edən sensor-motor sistem (fonologiya və fonetika), aktual səs və əlamətləri qavrayır;
3. Hesablama qrammatikası sistemi (sintaksis), mənanı səslərə (və ya işarələrə) bağlayan, cümlə quruluşunu yaradan sistemdir.

Beləliklə, dominantlıq edən iki söz sırası dünya dillərində qrammatikanın hesablama sisteminin hansına üstünlük verməsi ilə bağlıdır. Belə güman edilir ki, insanların dil qabiliyyəti modul xüsusiyyətlərə malikdir və konkret dil vəzifəsinə cavab verən müxtəlif koqnitiv sistemlərdə özünü göstərir [4].

Alan Lanqus və Marina Nespor belə qərara gəlirlər ki, dünya dillərində söz sırasının variantlarının meydana çıxması təkcə qrammatikanın hesablama sistemindən yaranmır, həmdə yuxarıda qeyd etdiyimiz üç koqnitiv şərtlə bağlıdır. Onlar fikirlərini belə yekunlaşdırırlar: Tarixi müqayisəli dilçilik belə güman edir ki, söz sırası nə vaxt ki, dilin daxili qaydaları ilə idarə olunur, onda qrammatik hesablama sistemi onu SVO söz sırasına istiqamətləndirir [9].

Təcrübə göstərir ki, SVO sistemi digər dil qrupları ilə müqayisədə daha stabildir. Bu söz sırası universal baza söz sırasıdır. Sonra Alan Lanqus və Marina Nespor N.Xomskinin belə bir fikrinə əsaslanırlar: *"Bu əsas strukturda fraza başlıqları həmişə əlaqəli obyektlərdən əvvəl gəlir: məsələn, feillər obyektlərindən, ön sözlər isimlərdən, baş cümlələr isə tabe cümlələrdən əvvəl gəlir. Bundan əlavə, müəyyənedicilər – bəzi hallarda 'bəzi' kimi başlıqları müəyyən edən sintaktik kateqoriyalar – həmişə əlaqələndirildikləri başlıqdan əvvəl olur. Bu təyinedici-başlıq-tamamlayıcı konfiqurasiya SVO sırasına uyğundur"* [6].

Beləliklə, onlar SVO söz sırasının meydana gəlməsi səbəbləri kontekstində təyin – təyin olunan aspektində söz sırasının koqnitiv əsaslarına diqqəti çəkirlər. A.Lanqus və M.Nespor sonra belə bir sualla qarşılaşırlar: SOV söz sırasının meydana gəlməsinə hansı koqnitiv mexanizm cavab verir və niyə dünya dillərində onların hər ikisi mühüm yer tutur? Bununla belə, bildiyimizə görə, nə nəzəri təkliflər, nə də eksperimental məlumatlar dil qabiliyyətində alternativ konfiqurasiyaların niyə və harada yarandığını aydınlaşdırmayıb. Maraqlıdır ki, SVOvə SOV arasındakı dixotomiya iki xüsusi atipik vəziyyətdə aşkar edilmişdir. Problemin təcrübi tərəfini aydınlaşdırmaq üçün Goldin-Meadow, So, Özyürek və Milanderin təcrübələrinə istinad edilir; Çin, ispan və türk dillərində söz sırasının koqnitiv əsaslarını müəyyənləşdirmək üçün jestlər üzrə aparılan təcrübələrin nəticələrinə müraciət olunur .

Uşaqlarda evdə istifadə etdikləri jest sisteminin strukturundakı oxşarlıq, SOV strukturunda sadəcə improvizə edilmiş kommunikasiyadır. Həmin konsepsiyanın əhatə dairəsini bir qədər də genişləndirərək onlar belə hesab edirlər ki, bu, sensor və konseptual sistemlərin birbaşa qarşılıqlı əlaqəsinin nəticəsidir. Beləliklə, dünya dillərində iki söz sırası daha çox dilləri əhatə edir. Dünya dillərində qeyd olunan söz sırasının formalaşmasını öyrənmək üçün jestlər üzrə eksperimentlərin aparılması elmi cəhətdən real nəticələrə gətirib çıxarmışdır. Alan Lanqus və Marina Nesporun ilkin söz sırasının formalaşması haqqındakı konseptual yanaşması elmi cəhətdən yeni fikirlər təqdim edir.

SVO söz sırası dünya dillərində universal səciyyə daşıyır. Qrammatik hesablama sistemi söz sırasının müəyyənləşməsində mühüm rol oynayır. OSV söz sırası prototipik model kimi. Dünya dillərində söz sırası tədqiq edilərkən sözlərin cümlə daxilində necə yerləşməsi ardıcıllığı öyrənilir. Söz sırası işarədir, cümlə üzvlərinin məqsədyönlü düzülüşüdür; yəni söz sırasının formalaşması və fəaliyyəti hər hansı bir dilin müvafiq qaydaları əsasında mümkün olur. Söz sırası özü-özlüyündə cümlədə veriləcək informasiyanı deyil, onun cümlə kontekstində verilmə üsulunu nümayiş etdirir. Yəni söz sırası modeli fikri ifadə modelidir.

Dünya dillərində söz sırasını öyrənən dilçilər altı əsas model müəyyənləşdirmişlər. Həmin modellər yalnız cümlə konstruksiyasında daşıdığı fikrə görə mənalandırılır. Məsələ ondadır ki, bəzən bir dildə bir neçə söz sırası modeli özünü göstərə bilir. Lakin onlardan bəziləri prototip xüsusiyyətlərin daşıyıcısı olsa da, digərləri törəmə faktor olaraq müəyyən qədər də aktivliyini qoruyub saxlayır. Məsələn, müasir ingilis dilində əsas söz sırası SVO-dur, lakin az miqdarda OSV modelinə də rast gəlinir (Qeyd edək ki, Hixkary ana dilində – Braziliya ərazisində – OSV söz sırasına rast gəlinir. Bu dildə az sayda insan danışsa da, bu, dil faktı olaraq mövcuddur).

Dünya dillərinin bəzilərində, məsələn, latın və fin dillərində standart söz sırası yoxdur; belə dillərdə sintaktik quruluş çevik hesab olunur. Onlarda söz sırası üzrə tədqiqatlar aparılarkən belə bir sualla rastlaşılır: nəyə görə subyektlə başlayan söz sırası daha çox üstünlük təşkil edir? Fransız dilində belə maraqlı bir fakt vardır ki, bu dildə söz sırası əsasən SVO-dur, lakin müəyyən şəraitdə SOV olur.

Dillər üzrə aparılan bu tipli tədqiqatlar göstərir ki, bütün dillərdə prototip üzrə oxşarlıqlar mövcuddur. Bu fakta əsasən nəzəri dilçilikdə belə bir fikir meydana gəlmişdir ki, bütün dillər bir dildən törəmişdir. Elə isə belə güman etmək olar

ki, dünya dillərində söz sırası bir prototipdən yayılmış və müasir dövrdə onun əlamətləri müxtəlif dəyişikliklərlə qorunub saxlanmışdır. Məsələn, belə güman olunur ki, ilk insanların dilində söz sırası SOV olmuşdur. Ondan sonra SVO yaranmış, SVO-dan isə VSO və VOS yaranmışdır. Mirray Gell-Mann və Merrit Ruhlen belə hesab edirlər ki, OVS və OSV birbaşa SOV-dan gəlir [3]. Müəlliflər bu faktı qeyd olunan dillərdəki söz sırasının məntiqi-linqvistik əsasını öyrənmək üçün həmin dil daşıyıcılarının genetik, arxeoloji və linqvistik xüsusiyyətlərini nəzərə almaqla kompleks yanaşma metodu əsasında araşdırmağı qarşılarına məqsəd qoyurlar. Onlar "ağıllı insanların" düşüncə tərzini yüksək ehtimal əsasında təsəvvürə gətirərək söz sırasının mümkün variantlarını müəyyənləşdirirlər. Problem ondadır ki, bu məntiq əsasında dünya dillərində söz sırası əksəriyyətlə onların güman etdikləri fərziyyəni doğruldur. Həmin fərziyyə əsasında "adam", "öldürdü", "ayını" strukturu (SVO) real fakt kimi özünü göstərir.

Yuxarıda müraciət etdiyimiz müəlliflər bu faktdan çıxış edərək dünya dillərindəki söz sırası ilə bağlı inandırıcı mülahizələr irəli sürürlər. Məsələn, rus dilində sərbəst söz sırasından danışarkən subyekt və obyektin sintaktik funksiyasının isimdə qeyd olunması, altı söz sırasının özünü göstərməsinə imkan verir. Buna baxmayaraq, dilin əsas söz sırası SVO-dur. Eləcə də bir sıra amillər – məsələn, praqmatika və xüsusi vurğu – bu aspektdə mühüm rol oynayır. Yəni digər söz sırasına da ehtiyac hiss olunur. Dünya dillərində SOV-dan VSO-ya keçid, söz sırası prototipinin yayılması kimi mümkün bir gedişdir.

SOV-SVO iki istiqamətdə: VSO və VOS üzrə inkişaf etdiyi güman olunur. Digər bir məsələ – bizi maraqlandıran OVS söz sırası SVO ilə yanaşı olaraq mövcud olmuş (OVS, OSV) iki söz sırasından biridir. Sonra onlar dünya dillərində söz sırasının paylanmasını aşağıdakı kimi təsvir etmişlər: SOV/SVO və sonra SVO/VSO. Beşdən sonra gözlənildiyi kimi VSO/VOS, SVO/VOS, SOV/OVS və SOV/OSV yayılması baş vermişdir.

T.Givonun vaxtilə irəli sürdüyü *"dünya dillərinin bir prototip söz sırasından törəndiyi"* ehtimalı bugünkü tədqiqatlarda da özünü doğruldur [140, s.15-16]. Sonra Murray Gell-Mann və Merrit Ruhlen Givonun bu istiqamətdəki tədqiqatları ilə razılaşaraq yazırdılar: *"Givon 30 il əvvəl qeyd etmişdi ki, dünya dil ailələrinin əksəriyyəti ya bu gün əsasən SOV-dir, ya da əyani şəkildə SOV olan daha əvvəlki mərhələdən, ən azı 7000 və ya 8000 il əvvəldən yaranmışdır ki, bu da o zamanlar müqayisəliliyin mümkün həddi hesab olunurdu. Givon daha sonra təklif etdi ki, bütün və ya ən çox təsdiqlənmiş dillərdən qaynaqlanan orijinal bir dildə mütləq SOV söz sırası olmuş, dil mənimsənilməsində tapılan sıranın təkrarı olaraq – tək cümlədən çoxmüddətli diskursa qədər – təkrarlanmışdır. O, bu əcdad dili ilə köhnə söz ailələrinin eranın 800-cü əsrləri arasındakı məlum intervalda əsasən SOV olaraq qalacağını nəzərdə tutmuşdur. Nəhayət, o, sintaktik dəyişikliyin demək olar ki, yalnız SOV > VSO > SVO istiqamətində baş verdiyini təklif etmişdir. Bizim məlumatlarımız Givonun bütün fərziyyələrini tam dəstəkləyir, SOV-un sürüşmə nəticəsində VSO olması istisna olmaqla. Aydındır ki, bir söz sırasını tədricən digərinə dəyişdirən dəqiq diaxronik proseslər, xüsusən də, dillərarası nöqteyi-nəzərdən, əlavə araşdırma tələb edir"* [3].

Məsələnin digər tərəfi ondan ibarətdir ki, OSV söz sırasının nadir hal olduğu, eləcə də həmin söz sırasının SOV-dan törədiyi bütün tədqiqatlarda özünü gös-

tərir. Gell-Mann və M.Ruhlen dünya dillərində OSV söz sırası problemi ilə bağlı D.C.Derbişir və G.K.Pullumun tədqiqatlarına əsaslanaraq aşağıdakı mülahizələrini bölüşərək, iki nadir söz sırasının – OVS və OSV-nin – birbaşa SOV-dan törədiyini qeyd edirlər. Məsələn, Paezan, Andean, Makro Tucanoan, Makro-Carib və Makro-Ge ailələrində OVS və ya OSV söz sırasına malik olanlar istisna olmaqla, demək olar ki, bütün dillər SOV-dur. Bu xarici sübuta əlavə olaraq, OVS və ya OSV söz sırası ilə ayrı-ayrı dillərin təhlili tez-tez göstərir ki, SOV bu dillərdə bəzən xüsusi sintaktik konstruksiyalarda, bəzən isə OVS və ya OSV ilə demək olar ki, sərbəst variasiyada alternativ söz sırasıdır. Məsələn, Carib ailəsində Hixkaryana – bəlkə də ən məşhur OVS dili – yeganə əhəmiyyətli variant sıra kimi SOV-a malikdir və eyni ailədə Apalai SOV-a nisbətən OVS-ə bir qədər üstünlük verir, Bacairi isə OVS-ə çevrilmək yolunda ya OVS dilidir, ya da SOV dilidir. Ge ailəsində Chavante OSV-dir, lakin digər Ge dilləri SOV; Tupi ailəsində UrubuOSV-dir, lakin əsas variant kimi SOV-a malikdir.

Bütün bunlar onu göstərir ki, son dərəcə nadir olan iki söz sırası SOV söz sırasının birbaşa mutasiyalarıdır.

Amerikan dillərindən kənarda tapılan digər OSV və ya OVS nümunələri də SOV ilə oxşar şəkildə əlaqələndirilir [3]. D.C.Derbişir və G.K.Pullum 1979-cu ildəki məqaləsində Mamvu dilindəki söz sırasından danışarkən Ruhlenin tədqiqatlarına müraciət etmiş və son araşdırmalarında da bunu qeyd etmişlər. Onların fikrincə, Braziliya Amazon bölgəsi xaricində heç bir yerdə məlum OSV dilləri yoxdur. Müəlliflər məqalənin sonunda belə nəticəyə gəlirlər ki, bu kiçik məqalədə OVS və OSV söz sırası ilə bağlı fikirləri tam yekunlaşdırmaq və qəti nəticə çıxarmaq mümkün deyil. Onların fikrincə, hələ də mübahisəli qalan məsələlər vardır. Xüsusilə OSV dilləri haqqında məlumat azlığı özünü göstərir. Digər tərəfdən, OSV-yə aid olan səkkiz dildən yeddisi Karib hövzəsinə aiddir. Sonra müəlliflər Schwartz-a istinad edərək feil başlanğıc və feil-son söz sırası modelləri ilə bağlı mülahizələri izah etmişlər.

VSO dillərində feil öndədir, SOV-da isə sondadır. SOV-larda həmişə isimdən əvvəl bir cümlə olur. VSO dilləri həmişə SVO alternativi ilə rastlaşır, yəni mümkün işlənmə alternativi kimi mövcud olur. Onların ikinci qeyd i ondan ibarətdir ki, bu məqalədə müzakirə olunan dillər areal klaster dilləridir. Artıq dediyimiz kimi, Cənubi Amerikadan başqa qitələrin dillərində obyekt əsaslı söz sırasına dair heç bir aydın dəlil yoxdur. Obyektlə başlayan məlum dillər əslində hamısı Amazona axan ərazilərlə üst-üstə düşən ciddi məhdud coğrafi bölgədən götürülüb. Bu bölgə Qviana dağlıq ərazilərini, Braziliyanın şərqindən Belemə və cənubdan Braziliyaya, Kolumbiyanın cənub-şərqinin bir hissəsinə və Orinokodan cənubda yerləşən Venesuelanı əhatə edir. Əsas sıra kimi OVS olan Karib dillərinin stilistik olaraq daha əvvəl qrammatikləşdiyini, lakin mövzu postskriptinin tez-tez istifadə olunan variantını fərz etsək, OVS dil sinfinin diaxronik inkişafının kifayət qədər ağlabatan inkişaf xəttini görmək olar. Bu məsələnin həllində həmin ərazidə yaşayan əhalinin demoqrafik vəziyyətinin dəyişməsi də əsas şərtlərdən biridir.

Praktiki əhəmiyyət. Tədqiqatın nəticələri dil tədrisində söz sırası modellərinin daha effektiv öyrədilməsinə, xüsusilə ingilis dili müəllimlərinin peşəkar-metodik hazırlığında koqnitiv yanaşmaların tətbiqinə imkan yaradır. Eyni zamanda, bu yanaşma tələbələrin cümlə quruluşunu daha düzgün və şüurlu mənimsəməsinə kömək edir.

Elmi yenilik. Tədqiqatda söz sırası prototiplərinin formalaşması koqnitiv və psixolinqvistik amillərin vəhdətində izah edilir, jest eksperimentləri və kommunikativ prinsiplər əsasında yeni nəzəri yanaşma təqdim olunur. SOV və SVO modellərinin yaranması insan idrakı ilə əlaqəli şəkildə sistemli şəkildə əsaslandırılır.

Nəticə. Braziliya hinduları 1500-cü ildə indikindən xeyli çox olmuşdur. Göstərilən faktlar bir daha onu deməyə əsas verir ki, OSV söz sırasının kompleks yanaşma əsasında öyrənilməsi, bir çox tarixi, etnoqrafik, arxeoloji və linqvistik faktlara söykənərək bu modeldə olan söz sırasının diaxron tədqiqi bir sıra real nəticələrə gətirib çıxarsa da, yenə də mübahisəli problemlər qalmaqdadır. Biz bu başlıq altında OSV söz sırasının törəməsi və yayılma coğrafiyasını göstərdik.

Ədəbiyyat:

1. Abdullayev, K. M. (1998). Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif.
2. Axundov, A. (2006). Ümumi dilçilik. Bakı: Şərq-Qərb.
3. Cavadov, Ə. (1977). Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası. Bakı: Elm.
4. Kazımov, Q. (2007). Azərbaycan dilinin sintaksisi. Bakı: Təhsil.
5. Rəcəbli, Ə. Ə. (2010). Tipoloji dilçilik. Bakı: Elm və Təhsil.
6. Veysəlli, F. Y. (2013). Dilçiliyin əsasları. Bakı: Mütərcim.
7. Aksan, D. (2003). Her yönüyle dil: Ana çizgileriyle dilbilim. Ankara: TDK.
8. Karahan, L. (2016). Türkçede söz dizimi. Ankara: Akçağ Yayınları.
9. Greenberg, J. (1970). Some universals of grammar with particular reference to the order of meaningful elements.

Gulnar Khalilova

Summary

VARIOUS FACTORS INFLUENCE THE EMERGENCE OF WORD ORDER PROTOTYPES IN THE LANGUAGES OF THE WORLD

The article examines the factors influencing the emergence of word order prototypes in the languages of the world. It focuses on the dominant SOV and SVO patterns and explains their formation through cognitive, psycholinguistic, and communicative principles. Special attention is given to gesture-based experiments, which demonstrate that word order preferences are not only language-specific but also rooted in human cognition. The study highlights the role of conceptual, sensorimotor, and grammatical systems in shaping sentence structure. It is concluded that word order variation results from the interaction of cognitive mechanisms and grammatical organization, while SVO is considered more stable and universal in modern languages.

Гюльнар Халилова

Резюме

МНОГОЧИСЛЕННЫЕ ФАКТОРЫ ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ПРОТОТИПОВ ПОРЯДКА СЛОВ В МИРОВЫХ ЯЗЫКАХ

В статье рассматриваются факторы, влияющие на формирование прототипов порядка слов в мировых языках. Основное внимание уделяется моделям SOV и SVO, происхождение которых объясняется с точки зрения когнитивных,

психолингвистических и коммуникативных факторов. Особое место занимают эксперименты с жестами, показывающие, что предпочтения в порядке слов обусловлены не только особенностями конкретных языков, но и человеческим мышлением. Подчеркивается роль концептуальной, сенсомоторной и грамматической систем в формировании структуры предложения. В заключении, делается вывод, что вариативность порядка слов является результатом взаимодействия когнитивных механизмов и грамматической организации, при этом порядок SVO характеризуется большей стабильностью и универсальностью.

Rəyçi: prof. A.Y.Məmmədov

Zənurə Talıbova
Bakı Dövlət Universiteti

Türkay Verdiyeva
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

https://doi.org/10.30546/2518-752X.02.101.1045

İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRDƏ AZƏRBAYCAN DİLİNİN QORUNMASI: DİL SİYASƏTİ MİLLİ KİMLİK KONTEKSTİNDƏ

Açar sözlər: *Azərbaycan dili, ictimaiyyətlə əlaqələr, dövlət dili siyasəti, milli kimlik, media dili*

Keywords: *Azerbaijani language, public relations, state language policy, national identity, media language*

Ключевые слова: *азербайджанский язык, связи с общественностью, государственная языковая политика, национальная идентичность, язык СМИ.*

Giriş

Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli düşüncə tərzinin, tarixi yaddaşın və mədəni identikliyin daşıyıcısıdır. Dövlətçilik ənənələrinin formalaşmasında dilin rolu xüsusilə əhəmiyyətlidir, çünki dövlətlə cəmiyyət arasında ideoloji və mənəvi əlaqələr məhz dil vasitəsilə qurulur. İctimaiyyətlə əlaqələr sistemi isə bu kommunikasiyanın institusional səviyyədə təşkili və davamlılığını təmin edən əsas mexanizmdir.

Müasir informasiya cəmiyyətində ictimaiyyətlə əlaqələr yalnız rəsmi bəyanatlar və press-relizlərlə məhdudlaşmır, eyni zamanda sosial şəbəkələr, onlayn platformalar və multimodal kommunikasiya kanalları vasitəsilə həyata keçirilir. Bu isə dilin normativliyinə və funksional düzgünlüyünə olan tələbləri daha da artırır. Azərbaycan cəmiyyətində dil məsələsinin dövlət səviyyəsində strateji mahiyyət daşıması təsadüfi deyil və bu amil ölkənin dil siyasətində ardıcıl şəkildə öz əksini tapır.

Əsas təhlil

Dil milli kimliyin yalnız simvolu deyil, həm də onun gündəlik praktikada "işləmə mexanizmi"dir. Milli identiklik fərdin özünü hansı mədəniyyətin daşıyıcısı kimi qəbul etməsindən, ictimai davranışına qədər uzanan geniş bir sahəni əhatə edir. Bu sahənin formalaşmasında dil mərkəzi mövqedə dayanır: tarixi yaddaş, məişət ünsiyyəti, mədəni kodlar, folklor və ədəbi irs dil vasitəsilə nəsildən-nəslə ötürülür. Buna görə də ədəbi dil normalarının zəifləməsi yalnız dilçilik problemi kimi yox, sosial-mədəni transformasiyanın göstəricisi kimi qiymətləndirilməlidir [4].

Sosiolinqvistika milli kimliklə dil arasındakı əlaqəni bir neçə səviyyədə izah edir. Birinci səviyyə "mənsubiyyət" səviyyəsidir: ana dili fərdin müəyyən icmaya

aid olduğunu təsdiqləyir və sosial sərhədləri müəyyənləşdirir. İkinci səviyyə "prestij" səviyyəsidir: dilin ictimai nüfuzu, o dildə danışmağın sosial dəyəri və rəmzi kapitalı formalaşdırır. Üçüncü səviyyə isə "normativlik" səviyyəsidir: dilin qayda-qanun sistemi ictimai diskursun mədəni keyfiyyətini müəyyənləşdirir. Bu üç səviyyədən hər hansı birində geriləmə müşahidə olunarsa, milli kimlik məzmun baxımından zəifləyə bilər [8], [9].

Müasir dövrdə milli kimliyin qorunması yalnız tarixi-mədəni faktların xatırlanması ilə bitmir. Dilin faktiki istifadə sferaları geniş olmalıdır. Əgər ana dili ictimai nüfuz baxımından zəifləyir, gündəlik ünsiyyətdə "ikinci plana" keçir və ya rəsmi-işgüzar kommunikasiya sahəsində alternativ dillərlə əvəzlənirsə, bu, milli kimliyin rəmzi dayaqlarını da sarsıdır. Buna görə dilin ictimaiyyətlə əlaqələr sistemində mövqeyi milli kimliyin dinamik indikatorlarından biri hesab oluna bilər [3], [10].

İctimaiyyətlə əlaqələr (piar) informasiya ötürməklə yanaşı, ictimai rəyin idarə olunması, institusional etimadın qurulması və sosial dialoqun təşkilinə xidmət edən sahədir. Bu sahədə dil, sadəcə vasitə deyil, həm də təsir mexanizmidir. Piar mətnləri (press-reliz, brifinq çıxışı, sosial media mətni, korporativ bəyanat və s.) nitq strategiyalarını, üslub seçimini və etik çərçivəni özündə birləşdirir [11], [12]. Dil normalarının pozulması isə yalnız estetik qüsur yaratmır, mesajın legitimliyinə və qəbul olunmasına təsir göstərir.

İctimaiyyətlə əlaqələr mühitində dilin bir neçə əsas funksiyası ön plana çıxır. Burada ilk növbədə informativ funksiyaya, yəni faktın dəqiq, aydın təqdim olunmasına diqqət yetirilməlidir. İnandırma funksiyasına isə məntiqi ardıcıllıq, etibarlılıq və arqumentasiyanın dil vasitəsilə qurulması aid edilir. Vacib funksiyalardan biri imicin formalaşdırılmasıdır. Təşkilatın, dövlət qurumunun və ya şəxsin imici nitq üslubu vasitəsilə möhkəmləndirilir. Sosial inteqrasiya funksiyasına müxtəlif sosial qruplar üçün "ortaq anlaşma dili" yaratmaq, normayaratma funksiyasına isə media və rəsmi kommunikasiya vasitəsilə cəmiyyət üçün dil modelinin formalaşdırılması aiddir [6], [7].

Bu funksiyaları nəzərə aldıqda aydın olur ki, ictimaiyyətlə əlaqələr sistemində dilə yanaşma fərdi zövq məsələsi deyil, o, peşə standartı və ictimai məsuliyyət meyarıdır. Xüsusilə dövlət qurumlarının kommunikasiya mətnlərində ədəbi dil norması həm hüquqi-siyasi legitimlik, həm də mədəni nüfuz göstəricisi kimi çıxış edir. Dilin qeyri-dəqiq, qarışıq, lazımsız alınma sözlərlə yüklənmiş forması ünsiyyət səmərəliliyini aşağı salır, informasiyanın qəbulunu çətinləşdirir və etimad resursunu zəiflədir.

Müasir mediada dil problemləri tək bir amillə izah olunmur. Burada institusional, texnoloji və sosial faktorlar bir-birini tamamlayır. Xəbər portalları və sosial şəbəkə platformaları informasiya istehsalını sürətləndirib. Sürət prioritetə çevrildikdə redaktə və korrektə mərhələləri zəifləyir, nəticədə dil norması ikinci plana keçir. Bu, xüsusilə başlıq yazılışında, qısa xəbər formatlarında və sosial media mətnlərində daha açıq görünür [5].

Bəzi piar mətnlərində alınma sözlər peşəkarlıq göstəricisi kimi təqdim olunur. Halbuki peşəkarlıq termin bolluğu ilə deyil, mətnin məqsədəuyğunluğu və aydınlığı ilə ölçülür. Alınma sözlərin normadan artıq istifadəsi mətni ağırlaşdırır, mürəkkəbləşdirir, auditoriya ilə məsafə yaradır və ana dilin ifadə imkanlarını azaldır.

Terminoloji qeyri-sabitlik də ictimaiyyətlə əlaqələrin qurulmasında maneə yaradır. Marketinq və rəqəmsal kommunikasiya sahələri sürətlə yeniləndiyi üçün terminlərin bir qisminin Azərbaycan dilində əvəzlənməsi və ya tərcüməsi ya gec formalaşır, ya da standartlaşmır. Standartlaşma olmadan eyni anlayış müxtəlif mətnlərdə fərqli formalarla işlənir. Bu hal kommunikasiya sistemində normativ xaos yaradır və "dil vahidi kimi sabitlik" prinsipini zəiflədir [10], [11].

Dil mədəniyyətinə institusional nəzarət mexanizmləri gücləndirilməli, televiziya və radio kimi ənənəvi mediada redaksiya heyəti bu məsələyə xüsusi diqqət yetirməlidir. Onlayn mediada və sosial şəbəkələrdə bu nəzarət mexanizmi sistemli xarakter daşımır, normadan kənar yazı üslubu kütləvi şəkildə yayılır və auditoriya tərəfindən qəbul edilir.

Ana dilin saflığına risk yaradan amil həm də alınma sözlərin zərurətdən artıq istifadəsidir. Dil inkişaf edən sistemdir və digər dillərlə təmas nəticəsində alınmaların olması təbiidir. Məsələ alınmaların mövcudluğu deyil, onların funksional zərurət prinsipi ilə tənzimlənməsidir. Əgər yeni anlayış dilə daxil olur və onun ana dildə qarşılığı yoxdursa, terminoloji alınma müəyyən mərhələdə qaçılmazdır. Lakin ana dildə işlək qarşılıq mövcud olduğu halda, yalnız "daha müasir görünmək" motivi ilə xarici formaya üstünlük verilməsi normativ pozuntu yaradır [4], [9].

Bu kontekstdə üç meyar əsas götürülə bilər: semantik uyğunluq, auditoriya uyğunluğu, normativ uyğunluq. Belə ki, seçilən vahid anlayışı dəqiq ifadə etməli, mətn hədəf auditoriya tərəfindən asan qəbul olunmalı, ədəbi dilin qaydaları ilə ziddiyyət təşkil etməməlidir. Bu meyarlar tətbiq olunmadıqda, piar mətnləri hibrid struktur alır. Belə ki, cümlə quruluşu Azərbaycan dilində olsa da, leksik qat müxtəlif dillərin təsadüfi qarışığına çevrilir. Belə mətnlər üslub bütövlüyünü itirir, kommunikativ təsir gücü azalır və dilin estetik imkanları zəifləyir [8].

Dövlət dili siyasəti dilin hüquqi statusunu müəyyənləşdirməklə yanaşı, onun ictimai tətbiq mexanizmlərini də tənzimləməlidir. Hüquqi baza (Konstitusiya, "Dövlət dili haqqında" qanun və digər normativ sənədlər) dilin rəsmi statusunu qoruyur, lakin real təsir üçün institusional mexanizmlər vacibdir [1], [2]. Bu mexanizmlərə aşağıdakılar daxildir:

- dövlət qurumlarının kommunikasiya standartlarının hazırlanması;
- media subyektləri üçün dil keyfiyyəti üzrə daxili redaksiya qaydaları;
- Piar və jurnalistika təhsili proqramlarında dil mədəniyyəti modulunun gücləndirilməsi;
- terminoloji standartlaşmanı təmin edən ixtisaslaşmış platformaların fəaliyyəti;
- sosial mediada dövlət və ictimai qurumların nümunəvi dil davranışı.

Dövlət dili siyasətinin ictimai kommunikasiya mühitində gözlənilən nəticəni verməsi üçün "qadağa" yanaşması ilə yanaşı, "stimullaşdırma" xətti də gücləndirilməlidir. Məsələn, nümunəvi media dili üzrə təşviq mexanizmləri, peşəkar redaktor institutunun dəstəklənməsi, terminoloji lüğət və tövsiyə sənədlərinin əlçatan edilməsi müsbət nəticə verə bilər.

Problemin həlli yalnız tənqid və çağırışlarla məhdudlaşmamalı, sistemli təkliflər formalaşdırılmalıdır. Məlesən, piar mətnləri üçün "üslub bələdçisi" və ya digər

adlar altında standartlar hazırlana və qurum daxilində tətbiq edilə bilər. Onlayn mühitdə isə redaktə üçün avtomatlaşdırılmış alətlərin tətbiqi mümkündür. Piar və media mütəxəssislərinə mütəmadi təlimlərin keçirilməsi də zəruridir [3], [10].

Bu və digər tədbirlər vasitəsilə dil siyasətini "mətn üzərində nəzarət" səviyyəsindən çıxarıb "kommunikasiya keyfiyyətinin idarə olunması" səviyyəsinə gətirmək olar. Nəticədə, dil yalnız qorunan dəyər kimi deyil, həm də ictimai idarəetmənin və mədəni təhlükəsizliyin işlək aləti kimi funksionallaşır.

Nəticə

Tədqiqatın nəticələri göstərir ki, ictimaiyyətlə əlaqələr sistemində Azərbaycan dilinin qorunması milli kimliyin və dövlətçilik dəyərlərinin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Media və ictimai diskursda ədəbi dil normalarına riayət edilməsi cəmiyyətin mədəni təhlükəsizliyinin əsas şərtlərindən biridir.

Dil siyasətinin effektivliyi yalnız normativ sənədlərlə deyil, eyni zamanda praktiki tətbiqlə ölçülür. Bu baxımdan dövlət strukturları, media qurumları, elmi ictimaiyyət və vətəndaş cəmiyyəti arasında koordinasiyalı fəaliyyət zəruridir. Azərbaycan dilinin ictimaiyyətlə əlaqələr sistemində funksional mövqeyinin qorunması milli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Konstitusiyası. (1995). Bakı.
2. Azərbaycan Respublikasında dövlət dili haqqında Qanun. (2002). Bakı.
3. Əliyev, İ. (2025). *Azərbaycan dilinin qorunması və milli kimlik məsələləri.* Rəsmi çıxışlar və müsahibələr. Bakı.
4. Qasımov, F. (2018). *Dil və milli kimlik.* Bakı: Elm.
5. Hüseynov, A. (2020). Media dilinin sosiolinqvistik problemləri. *Filologiya məsələləri*, №2, s. 45–52.
6. Məmmədli, N. (2019). *Kütləvi informasiya vasitələrində dil mədəniyyəti.* Bakı: Təhsil.
7. Ağayev, T. (2021). İctimai diskurs və milli dil məsələləri. *Dil və cəmiyyət*, №1, s. 33-41.
8. Fishman, J. A. (1991). *Reversing Language Shift: Theoretical and Empirical Foundations of Assistance to Threatened Languages.* Clevedon: Multilingual Matters.
9. Crystal, D. (2000). *Language Death.* Cambridge: Cambridge University Press.
10. Spolsky, B. (2004). *Language Policy*. Cambridge: Cambridge University Press.
11. Fairclough, N. (1995). *Media Discourse.* London: Edward Arnold.
12. McQuail, D. (2010). *McQuail's Mass Communication Theory.* 6th ed. London: Sage Publications.

Zanura Talibova,
Turkay Verdiyeva

Summary

PRESERVING THE AZERBAIJANI LANGUAGE IN PUBLIC RELATIONS: LANGUAGE POLICY IN THE CONTEXT OF NATIONAL IDENTITY

The article provides a scientific and theoretical analysis of the current state and key challenges related to the use of the state language in Azerbaijan's contemporary public relations system. The aim of the study is to examine the impact of state language policy

on the public communication environment and to highlight the importance of preserving literary language norms in media and public discourse from the perspective of national identity. The conceptual framework of the article is based on the views expressed by the President of the Republic of Azerbaijan, Ilham Aliyev, in an interview given to local television channels on January 5, 2026, as well as in his speech delivered at an event dedicated to the 80th anniversary of the Azerbaijan National Academy of Sciences. The findings demonstrate that, under the influence of globalization, digital media, and social networks, the excessive use of foreign lexical units in the field of public relations negatively affects the functional and aesthetic qualities of the Azerbaijani literary language. Consequently, the preservation of the Azerbaijani language is regarded as a shared responsibility of the state, the media, scholars, and society as a whole.

Занура Талыбова,
Тюркай Вердиева

Резюме

СОХРАНЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В СФЕРЕ СВЯЗЕЙ С ОБЩЕСТВЕННОСТЬЮ: ЯЗЫКОВАЯ ПОЛИТИКА В КОНТЕКСТЕ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ

В статье с научно-теоретических позиций анализируются современное состояние и основные проблемы использования государственного языка в системе связей с общественностью Азербайджана. Цель исследования заключается в изучении влияния государственной языковой политики на публичную коммуникационную среду, а также в определении значимости сохранения норм литературного языка в медиапространстве и общественном дискурсе с точки зрения национальной идентичности. Концептуальную основу статьи составляют идеи, высказанные Президентом Азербайджанской Республики Ильхамом Алиевым в интервью, данном местным телевизионным каналам 5 января 2026 года, а также в его выступлении на мероприятии, посвящённом 80-летию Национальной академии наук Азербайджана. Результаты исследования показывают, что в условиях глобализации, развития цифровых медиа и социальных сетей чрезмерное использование иностранных лексических единиц в сфере связей с общественностью оказывает негативное влияние на функциональные и эстетические качества азербайджанского литературного языка. В результате делается вывод о том, что сохранение азербайджанского языка является совместной ответственностью государства, средств массовой информации, научного сообщества и общества в целом.

Rəyçi: prof. A.Y.Məmmədova

Şəmsinur Aslanova
Azərbaycan Dillər Universiteti

https://orcid.org/0000-0003-2394-0137

DİSKURS MARKERLƏRİNİN PRAQMATİK ASPEKTLƏRDƏN TƏDQİQİ

***Açar sözlər**: danışıq marketləri, , koqnitiv kontekst, praqmatik ifadələr, quruluş yaradan diskursiv markerlər,mənaöturucü diskursiv markerlər.*

***Keywords:**discourse markers, cognitive context, pragmatic expressions, structural discourse markers,meaning-conveying discourse markers*

***Ключевые слова:** разговорные маркеры, когнитивный контекст, прагматические выражения, дискурсивные маркеры,создающие структуры; семантические дискурсивные маркеры.*

Giriş. Son zamanlarda, real həyat kontekstlərində danışıq dili üzərində aparılan tədqiqatlar kəskin şəkildə artmışdır. Nəticədə, əvvəllər "boş", "artıq" və "ixtisar olunmuş" hesab edilən sort of, y'know və well kimi bəzi markerlər indi şəxslərarası ünsiyyətin həlledici aspektləri kimi qəbul edilir. "Diskur Markerləri" və ya "Praqmatik ifadələr" adlandırılan bu ifadələr "müzakirə əlaqələrini sərhədləndirməkdəki rollarına, eləcə də sosial münasibətləri indeksləşdirmə potensiallarına görə tədqiqatlar aparan alimlərin böyük marağına səbəb olmuşdur".

Tədqiqatın aktuallığı: Diskurs markerlərinin aktuallığı onunla şərtlənir ki, bir fikirdən digərinə keçiddə məna əlaqəliyini yaratsın.Diskurs markerlərinin tədqiqi dildə məntiqi keçidin formalaşmasına təsir edir. Onlar təkcə şifahi nitqin strukturunda deyil, yazılı strukturda da əsas mövqe tutur.

Elmi yenilik: Tədqiqatın elmi yeniliyi onunla izah olunur ki, ən çox işlənən diskursiv markerləri tədqiq etmək və onu dilin bazasında yerləşdirmək.

Praktik əhəmiyyət: Diskursiv markerlərin alman dili stilistikası semantika və praqmatika dərslərində istifadə olunmasıdır.

Əsas funksiyaları:

1.Diskursiv markerlər əlaqələndirici funksiya yaradır.

2. Mövzu keçidi funksiyasını yerinə yetirir.

3. Əvvəl deyilən fikri aydınlaşdırır.

Son illərdə Diskur Markerlərinə dair irəli sürülmüş nəzəri yanaşmaları nəzərdən keçirmək maraqlı olardı. DM-lər və onların danışıq diskursundakı funksiyaları ilə bağlı aparılmış ən görkəmli tədqiqatları araşdırarkən. DM-lərin diskursun mətn və şəxslərarası səviyyələrində necə işlədiyinə dair xeyli maraqlı faktlar araşdırmışıq.

Diskurs markerlərinin xüsusiyyətlərini aydınlaşdırmaq üçün istifadə olunan müxtəlif terminlər DM-lərin diskursda yerinə yetirdiyi funksiyaların müxtəlifliyini aydın göstərir. Bu linqvistik elementləri necə adlandırmaq barədə ümumi razılıq yoxdur. Onlar müxtəlif tədqiqatçılar tərəfindən bir sıra fərqli etiketlər altında

öyrənilmişdir, bunlardan bir neçəsini qeyd edək. Bunlara: praqmatik marker, diskurs bağlayıcıları, diskurs operatorları, göstərici ifadələr, diskurs hissəcikləri, praqmatik hissəciklər və praqmatik ifadələr aiddir.

Daha az rast gəlinən digər terminlər kimi diskurs siqnalizasiya vasitələri və göstərici vasitələr işlətmək olar. Praqmatik bağlayıcılar, praqmatik operatorlar, praqmatik formativlər, semantik qoşmalar və cümlə bağlayıcıları kimi daha mənalı adlara rast gəlmək olur. DM-lərə dair görkəmli tədqiqatlar arasında Deborah Schiffrin'in ingilis dilindəki 11 DM-in ətraflı təhlili ən əhatəli hesab edilə bilər. "Dilin ünsiyyət üçün nəzərdə tutulduğunu" fərz edən Deborah Schifrin özünün "Diskur Markerləri" kitabında, DM-lərin danışıq vahidləri arasında əlaqələr yaratmaqla söhbət diskursunun ardıcıllığına necə töhfə verdiyini, xüsusən də eyni elementin söhbətdəki yerindən asılı olaraq necə fərqli funksiyaları yerinə yetirdiyini göstərmək məqsədilə nəzəri bir model hazırlayır[25, s.6].

Onun DM-lər haqqında verdiyi ətraflı məlumat – markerlərə və onların fəaliyyət göstərdiyi diskursa sosiolinqvistik yanaşma – DM-lərin davranışını danışığın beş fərqli səviyyəsində izah edir. DM-ləri "danışıq vahidlərini mötərizəyə alan ardıcıl asılı elementlər" kimi təyin edən Schiffrin [25, s.31], bu xüsusiyyətlərin bir-birindən asılı olduğunu və onlardan heç birinin digərlərinə diqqət yetirmədən başa düşülə bilməyəcəyini vurğulayaraq, DM-lər üçün aşağıdakı xüsusiyyətləri müəyyən edir:

Onlar quruluş yaradırlar, onlar məna ötürürlər, onlar hərəkətləri həyata keçirirlər. Söhbətin çoxqatlı qarşılıqlı əlaqə olduğuna inanan Schiffrin [25, s.24-28], danışığın beş müstəvisinə aşağıdakı kimi istinad edir:

Mübadilə quruluşu: Bu, söhbət mübadiləsinin mexanizmini əks etdirir və iştirakçıların növbələşməsinin nəticələrini və bu növbələşmələrin bir-biri ilə necə əlaqəli olduğunu göstərir. Fəaliyyət quruluşu: Bu, diskurs daxilində baş verən nitq aktlarının ardıcıllığını əks etdirir. İdeya quruluşu: Bu, diskurs daxilində tapılan ideyalar (təkliflər) arasındakı müəyyən əlaqəni əks etdirir. İştirak çərçivəsi: Bu, danışanın və dinləyənin bir-biri ilə əlaqə qura biləcəyi müxtəlif yollara aiddir. Məlumat vəziyyəti: Bu, diskurs gedişində inkişaf etdiyi kimi, biliklərin davam edən təşkili və idarə olunmasını əks etdirir. Bu komponentlərin hər biri digərləri ilə əlaqəlidir və onların hamısı söhbətin axınına töhfə verir. Schiffrin hesab edir ki, ünsiyyətin uğurlu olması üçün bütün bu komponentlər inteqrasiya olunmalıdır və diskur markerləri ifadəni danışığın müəyyən müstəvilərində lokallaşdırmaqla diskursun ardıcıllığına töhfə verir. Schiffrin'in təhlili, Filadelfiyadakı yəhudi ailələrlə lentə aldığı müsahibələr əsasında topladığı məlumatlara söykənirdi. O, öz kitabında ingilis dilindəki 11 DM-in, o cümlədən: and (və), but (amma), or (yaxud), so (beləliklə), well (yaxşı), then (onda), now (indi), because (çünki), oh (oh), y'know (bilirsən) və I mean (demək istəyirəm) ətraflı təhlilini təqdim edir. Schiffrinə görə, DM-lərə əsaslanan ardıcıllıq yanaşması "markerlərin birgə qurulmuş diskursdakı rollarını təhlil etmək üçün qarşılıqlı əlaqə və variasiya yanaşmalarını birləşdirir" [25, s.60].

O, öz təhlilinə əsaslanaraq iddia edir ki, and və but həm birləşdirici (cohesive), həm də struktur rollara malikdir; struktur rolla, çünki onlar iki və ya daha çox sintaktik vahidi, məsələn, budaq cümləsi, söz birləşmələrini və ya feilləri əlaqələndirir; birləşdirici rolla, çünki bütün qoşulan ifadənin şərhi hər iki qoş-

manın birləşməsindən asılıdır. Schiffrin'in fikrincə, because (çünki) "səbəb və nəticə" əlaqəsini, so (beləliklə) isə "ilkin şərt və nəticə" əlaqəsini göstərmək üçün istifadə olunur [25, s.191]. O, now (indi) sözünün danışanın diskursda irəliləməsini göstərmək üçün istifadə edildiyini bildirir. O, həmçinin danışıqdakı yaxınlaşan dəyişikliyi göstərmək üçün də istifadə olunur. Then (onda) əvvəlki və növbəti danışıq arasındakı ardıcıllığı göstərmək üçün istifadə olunur. Schiffrin [25, s.74] oh və well sözlərinə fərqli yanaşır, belə ki, onlar müvafiq olaraq diskurs strukturunun informativ və qarşılıqlı əlaqə səviyyələrində fəaliyyət göstərirlər. O, oh-u məlumat idarəetməsi markeri kimi təqdim edir. O, köhnə məlumatın tanınmasını və yeni məlumatın qəbulunu, məlumatın dəyişdirilməsini və yenidən bölüşdürülməsini göstərmək üçün istifadə olunur. O, həmçinin düzəlişlərdə, suallarda, cavablarda və təsdiqlərdə istifadə olunur [25, s.95]. Well (yaxşı) izahat və aydınlaşdırma tələbinin göstəricisi olduğu halda, y'know (bilirsən) iki diskurs funksiyasına malikdir: danışanların və dinləyənlərin bölüşdüyü metabilik markeri və ümumiyyətlə məlum olan metabilik markeri. O, həmçinin danışanın dinləyənin müəyyən bir məlumat haqqında bəzi biliklərə malik olduğunu bildiyi vəziyyəti göstərmək üçün də istifadə olunur.

Lesen sie viel ? Bugünlər çox çalışırsan?

I mean (demək istəyirəm) danışanın danışıq aspektinə yönəlməsini qeyd edir: ideyalar və niyyətlər. O, danışanın əvvəlki ifadənin ideyalarına və niyyətlərinə ediləcək yaxınlaşan dəyişikliyi qeyd etmək üçün istifadə olunur. Schiffrin'in DM-lər haqqında izahı, onların danışıq vahidlərini əlaqələndirməklə diskurs ardıcıllığını saxlamaqda oynadıqları linqvistik və struktur roluna daha çox diqqət yetirir. O, iddia edir ki, "markerlər danışığın məzmunu vasitəsilə təmin edilən potensial mənalardan hər hansı bir məna əlaqəsini seçir və sonra həmin əlaqəni göstərir" [25, s.318].

Buna görə də, DM-in istifadəsi danışanın ifadədən çıxara biləcəyi potensial şərhlərin sayını azaldır. DM-lər eyni anda birdən çox struktur səviyyəsində işləyə bilər. Schiffrin'in beş müstəvili modelində diskursiv markerlər vahiddir və bunlara well, and, but, or, so və you know müxtəlif funksiya yerinə yetirir. FQ-nun əsas vahidi nitq aktıdır və oh, well, and, but, so, because və then nitq aktlarını özlərinin ikinci dərəcəli funksiyalarından biri kimi qeyd edir. İQ-nun əsas vahidi təklifdir və but, or, and, so, because, now və then özlərinin əsas funksiyasını bu müstəvidə yerinə yetirir, well, I mean və y'know isə ikinci dərəcəli istifadələri olan markerlər kimi təqdim olunur. İştirak çərçivəsi daxilində, danışanla onun ifadəsi arasındakı əlaqələr ifadə edilir və razılaşdırılır. Well və I mean bu işi görmək üçün əsas markerlərdir, oh, so, now və y'know-un ikinci dərəcəli istifadəsi ilə dəstəklənir. MV səviyyəsində, oh, y'know ilə birlikdə well, so, because, then və I mean bilik və metabilik – danışanın nə bildiyini və dinləyənin nə bildiyini fərz etdiyini – idarə etməyə və təşkil etməyə kömək edir. Bu səviyyədə diqqət danışanın və dinləyənin idrak qabiliyyətlərinə yönəldilir. [23, s.88]

Schiffrin belə nəticəyə gəlir ki, təhlil edilən DM-lərin bütün üzvləri bir əsas funksiyaya malikdir, danışığın beş müstəvisindən birində diskurs strukturunu siqnalizasiya edir. O, həmçinin qeyd edir ki, onların hamısı ən azı bir digər danışıq müstəvisində fərqli bir quruluş növünü siqnalizasiya edən ikinci dərəcəli funksiyaya malik ola bilər. Schiffrin'in diqqət mərkəzində olan DM-lər vahid qrammatik

sinfə aid olmasa da, onlar funksional olaraq əlaqəlidir. Müəllifə görə, Schiffrin'in tədqiqatına edilən əsas tənqid onun təhlilini əsaslandırdığı korpusun miqdarı ilə bağlıdır. O, başqa bir DM-in istifadəsini göstərmək üçün tez-tez eyni transkripsiya hissələrindən istifadə edir. Nümunə çox kiçik olduqda, kəmiyyət ifadəsi və ya ümumiləşdirmə etmək mənasız görünür. Schiffrin'in işi ilə bağlı başqa bir problem, DM-ləri "mörtərizələmə vahidləri" kimi təyin etməsinə baxmayaraq, "vahid"in nə olduğuna dair açıq bir tərif verməməsidir. Bundan əlavə, onun modeli məhdud etibarlılığına və izah gücünə görə tənqid edilmişdir. Lenk iddia etdiyi kimi, Schiffrin'in beş müstəvili danışıq modelindəki nəzərəçarpan boşluq, onun DM-lər arasında fərq qoymağı dayandırmasıdır. "DM-lər eyni anda birdən çox struktur səviyyəsində funksiya yerinə yetirə bildiyi halda, dinləyən həmin DM-in konkret haldakı funksiyası barədə şərhinin düzgün olduğundan necə əmin ola bilər?" [22, s.43]. Kontekstdə müəyyən bir DM-in funksiyasını anlamağa çalışarkən dinləyənin qarşılaşdığı qeyri-müəyyənlik, bütün markerlərin danışığın bütün fərqli müstəvilərində funksiya yerinə yetirə bilməsi ilə artır. Onun modelinə başqa bir tənqid "diskurs ardıcıllığının dinləyən üçün daha qlobal səviyyədə necə siqnalizasiya edildiyi" ilə bağlıdır, yəni müəyyən mövqelərdəki markerlər diskursun əvvəlki hissələrinə qayıdan və ya sonrakı diskursu irəli aparan əlaqələri necə siqnalizasiya edə bilər. Başqa bir tənqid, Schiffrin'in beş müstəvili diskurs modelinin diskurs ardıcıllığı komponentlərinin aydın tərifindən və izahından məhrum olması fikri ilə Kroon tərəfindən gəlir[20, s.41].

Fraser'in DM-lərə dair tərifi onların xüsusiyyətlərini açıq şəkildə göstərir:

Onların əsas mənası var və spesifik mənası kontekst tərəfindən razılaşdırılır. Onlar özlərinin təqdim etdiyi seqmentin əvvəlki seqment ilə olan şərhi arasındakı əlaqəni siqnalizasiya edir. Fraser tərəfindən təklif olunan "məzmun mənası" və "praqmatik məna" arasındakı fərq, məzmun mənasına "cümlənin hərfi şərhi", danışanın dinləyənin diqqətinə çatdırmaq istədiyi dünyanın bəzi vəziyyətlərinin az ifadəli təqdimatı kimi istinad edir, praqmatik məna isə danışanın ünsiyyət niyyəti, yəni "danışanın cümləni ifadə etməklə çatdırdığı birbaşa mesaj" ilə əlaqədardır [13, s.386]. Fraser hesab edir ki, praqmatik məna dörd fərqli praqmatik marker dəsti tərəfindən ötürülür: 1) əsas praqmatik markerlər, 2) şərhçi praqmatik markerlər, 3) paralel praqmatik markerlər və 4) diskurs markerləri. Fraser DM-lərin konseptual və prosedural mənaları arasında fərq qoysa da, Andersen iddia edir ki, konseptual və prosedural fərqi DM kateqoriyasını xarakterizə edən müəyyənedici meyarlar kimi qəbul etmək olmaz[3, s.81].

Fraser hesab edir ki, diskurs markerləri danışana iki seqment arasında çatdırmaq istədiyi əlaqə növünü aydınlaşdırmağa kömək edir. DM-lərə praqmatik markerlərin alt sinfi kimi baxarkən, Fraser praqmatik markerləri dörd kateqoriyaya ayırmışdır [13, s.56]:

Əsas praqmatik marker: O, əsas mesajın qüvvəsini, danışanın çatdırmaq istədiyi illokutiv qüvvəni siqnalizasiya edir.

Ex: My mom promised to help us – Meine Mutter hat versprochen, uns zu helfen.

I regret that i had joined you. – Ich bedaure, dass ich mich ihnen angeschlossen habe.

Şərhçi praqmatik marker: mesajı şərh edən başqa bir mesajı kodlayır. Aşağıdakılar şərhçi praqmatik markerlərin müxtəlif növlərini nümunə göstərir:

a. Qiymətləndirmə markerləri: fortunately (xoşbəxtlikdən), sadly (təəssüflə).

b. Danışıq tərzi markerləri: frankly speaking (açıq danışsaq), bluntly speaking (kobud danışsaq).

c. Sübutedici markerlər: certainly (şübhəsiz), conceivably (ehtimal ki).

d. Şayiə markerləri: reportedly (məlumatlara görə), allegedly (iddialara görə).

a)Glücklicherweise; leider

b) Ehrlich gesagt, ganz offen gesagt

c) sicherlich, denkbar

d) angeblich, angeblich

Paralel praqmatik marker əsas mesajla yanaşı əlavə bir mesajı siqnalizasiya edir. Paralel praqmatik markerlərin alt kateqoriyaları nümunələri ilə birlikdə aşağıdakı kimidir:

Hörmət markerləri:

a. Herr (cənab), Euer Ehren(Sizin şərəfinizə)

Your honour (Sizin cənabınız).

b. Söhbətin idarə olunması markerləri: b) Jetzt (indi), also (yaxşı), es ist passiert (oldu).

c. Diskur marker: əsas mesajın əvvəlki diskursla əlaqəsini siqnalizasiya edir: daher (beləliklə), und (və), aber (amma), trotzdem (hər halda), jedoch (lakin), obwohl (baxmayaraq ki).

Fraser DM-lərin danışıq vahidləri arasındakı ardıcıllıq əlaqələrini göstərməklə mətnin ardıcıllığına töhfə verdiyini iddia edir. Məsələn, Er lernte fleißig, fiel aber durch die Prüfung.

DM-in təqdim etdiyi seqmenti diskursdakı hər hansı digər əvvəlki seqmentlə əlaqələndirə bilər ki, o da bunu Schiffrin'in "lokal ardıcıllığı"nın əksinə olaraq "qlobal ardıcıllıq" adlandırır. Bundan əlavə, DM-lərin istifadəsi "DM-in əlavə olunduğu ifadəni necə şərh etmək barədə dinləyiciyə təlimat verməklə" ifadələr arasındakı əlaqəni aydınlaşdırır [25, s.186].

Alman dilində 100-dən çox DM olmasına baxmayaraq, Fraser onların istifadəsində əks olunan yalnız dörd əsas semantik əlaqə tapdığını təklif edir. Ziddiyətli markerlər (Kontrast markierumgen) ifadənin əvvəlki ifadənin təklifi mənasına zidd olduğunu siqnalizasiya edir, məsələn, but (aber).

İzahatçı Markerlər (Elaborative Markers) əvvəlki diskursun bir növ təkmilləşdirilməsi kimi fəaliyyət göstərir, məsələn, and (və), above all (hər şeydən əvvəl), also (həmçinin), in other words (başqa sözlə), in fact (əslində), moreover (üstəlik) [14, s.188].

Nəticə çıxaran markerlər (Inferential Markers) ifadənin əvvəlki diskursdan irəli gələn bir nəticə olduğunu siqnalizasiya edir, məsələn, so (beləliklə), after all (nəhayət), therefore (buna görə də), thus (beləliklə).

Mövzu Dəyişdirən Markerlər (Topic-change Markers) cari mövzudan uzaqlaşmağı siqnalizasiya edir, məsələn, by the way (yeri gəlmişkən), before I forget (unutmamışdan əvvəl)...

Brinton'un DM-lərin "fonoloji cəhətdən qısa olan, heç bir və ya az istinad mənası daşımayan, lakin praqmatik və ya prosedural məqsədə xidmət edən ele-

mentlər" kimi təklif etdiyi tərifi maraqlidir [8, s.1], DM-lərin əsasən danışığın praqmatik/metadiskurs müstəvisində fəaliyyət göstərməsi və diskursun mənasına az və ya heç bir təklifi töhfəsi verməməsi durur.

Brinton DM-lərin diskursda mətn funksiyasını yerinə yetirməsində aşağıdakı funksiyaları təklif edir:

Müxtəlif növ sərhədləri qeyd etmək (bir diskursu başlamaq və ya bitirmək, yaxud mövzuda dəyişiklik etmək). a) Şifahi diskursda növbə götürməyə və ya b) yazılı diskursda hissələrə ayırmağa kömək etmək.

Brinton'a görə, diskursu başlamaq və bağlamaq, mövzu dəyişikliklərini qeyd etmək, yeni və köhnə məlumatları göstərmək və bitişik ifadələrin aktuallığını məhdudlaşdırmaq zərurəti DM-lərin mətn funksiyalarının bir hissəsidir [2, s,13]. Mövzu dəyişikliyini siqnalizasiya etmək, bitişik ifadələrin aktuallığını məhdudlaşdırmaq, əvvəlki ifadəni izah etmək və ya şərh etmək, və özünü korreksiya etmək DM-lərin mətn sahəsindəki funksiyaları sırasındadır [28, s.33].

Şəxslərarası səviyyədə isə onlar aşağıdakılar üçün istifadə olunur:

Subyektiv olaraq münasibəti ifadə etmək, qarşılıqlı olaraq danışanla dinləyici arasında yaxınlıq yaratmaq.

DM-lər danışanla dinləyici arasındakı münasibətlərin qurulmasına və saxlanmasına töhfə verən vasitələr kimi qəbul edilir. Danışanla onun yaratdığı diskursa olan münasibət arasındakı əlaqəni göstərmək DM-lərin daxili xüsusiyyəti hesab olunur. Onlar qeyri-müəyyənliyi ifadə etmək üçün hedges (ehtiyat ifadələri) və dinləyicidən təsdiq üçün müraciət kimi istifadə olunur. Onlar həmçinin əvvəlki ifadəyə cavab və ya reaksiya kimi də istifadə edilə bilər. Bazzanella nəzakət, biliyi qorumaq və dolayı yolla ifadə etməyi DM-lərin şəxslərarası funksiyalarına daxil olan gündəlik söhbətlərin ayrılmaz xüsusiyyətlərinə aid edir [4, s.103]. Ümumiyyətlə, şəxslərarası funksiya DM-lərin daxili xüsusiyyətidir. Bu mənada onlar qarşıdan gələn diskursun mənfi təsirlərini yumşaltmaq üçün hedges/mitiqator kimi, eləcə də qarşılıqlı danışıq zamanı iştirakçılar tərəfindən qurulan reaksiyalar, cavablar və əlaqələr kimi çıxış edirlər.

DM-lər müxtəlif qrammatik siniflərdən olan geniş bir sıra elementləri əhatə etsə də (məsələn: zərflər: frankly (açığı), well (yaxşı); leksik ifadələr: you know (bilirsən), I mean (demək istəyirəm); bağlayıcılar: but (amma), since (çünki), and (və); feillər, sözlər: oh (oh)), onlar bəzi ortaq xüsusiyyətləri bölüşürlər:

a) Onlar demək olar ki, bütün dillərdə istifadə olunur.

b)Onlar sintaktik cəhətdən müstəqildir və onlar sintaktik cəhətdən çevikdir, yəni ifadənin əvvəlində, ortasında və ya sonunda görünə bilərlər.

Bu çeviklik onların diskursda olduqca faydalı olmasına və danışıq səviyyəsinin tezliyinə töhfə verir [16, s.44].

Onlar ifadənin təklifi mənasına təsir etmir [25, s.54].

Onlar diskursun informativ məzmununa heç bir töhfə vermir.

Onlar diskursun praqmatik aspektləri ilə məşğul olur [3, s.41]

Onlar mənalıdır, lakin həqiqət-şərtə aid deyil> [21, s.29].

Onlar çoxfunksiyalıdır (Fraser; Schiffrin;Yilmaz).

Onlar qısa olub, bir-üç hecadan ibarətdir. [22, s.36]

Brinton DM-lərə aşağıdakı xüsusiyyətlərə malik leksik elementlər kimi istinad edir [6]: onlar fakultativdir, tərcüməsi çətindir, söz sinfinə görə marginaldır,

sintaktik cəhətdən olduqca sərbəstdir, leksik mənalardan məhrumdur və təklifi mənalara və ya qrammatik funksiyalara malik deyillər. Brinton'a görə, DM-lər şifahi diskursda daha çox istifadə edilməsi, əsasən (tamamilə olmasa da) cümlənin əvvəlindəki mövqeyi, yüksək rastgəlmə tezliyi və fakultativ istifadəsi ilə xarakterizə olunur.

Schiffrin bir sözün DM kimi istifadəsinə imkan verən aşağıdakı şərtləri müəyyən edir [25, s.58]:

Onlar sintaktik cəhətdən ayrılabiləndir.

Onlar tez-tez başlanğıc mövqeyini tuturlar.

Onlar bir sıra prosodik konturları əhatə edir.

Onlar həm lokal, həm də qlobal səviyyələrdə fəaliyyət göstərirlər.

Onlar diskursun müxtəlif müstəvilərində fəaliyyət göstərirlər.

O, iddia edir ki, nə markerlər, nə də onların funksiya yerinə yetirdiyi diskurs yalnız bir nöqteyi-nəzərdən deyil, eyni zamanda struktur, semantik, praqmatik və sosial amillərin inteqrasiyası kimi başa düşülə bilər. O, DM-lərin diskurs ardıcıllığı üçün lazım olan inteqrasiyanın həyata keçirilməsindəki roluna istinad edir ki, bu da öz növbəsində DM-lərin çoxfunksiyalılığı ilə əlaqələndirilir.

Lam DM-lərin xüsusiyyətlərini üç kateqoriya altında müzakirə edir:

Zəruri xüsusiyyətlər: az və ya heç bir təklifi məna daşımaması, indekslilik və sintaktik fakultativlik [21, s.77]

Diskurs markerləri diskursda müxtəlif funksiyaları yerinə yetirir. Muller DM-lərin ən ümumi funksiyalarına aşağıdakıları aid edir [23, s.9]:

DM-lər diskursu başlayır;

DM-lər diskursda bir sərhədi (mövzuda dəyişiklik/qismən dəyişiklik) qeyd edir;

DM-lər cavaba və ya reaksiyaya qabaqcadan giriş edir;

DM-lər filler (doldurucu) və ya gecikmə taktikaları kimi xidmət edir;

DM-lər danışanın söz haqqını (floor) saxlamasına kömək edir;

DM-lər danışan-dinləyici arasındakı qarşılıqlı əlaqəyə və ya bölüşməyə təsir edir;

DM-lər diskursu ya kataforik, ya da anaforik olaraq mötərizəyə alır;

DM-lər ya ön plana çəkilmiş, ya da arxa plana çəkilmiş məlumatları indeksləşdirir;

DM-lər təklifi əlaqələri indeksləşdirir [25, s.103];

Krauçerə görə, DM-lər formal və qeyri-formal funksiyaları yerinə yetirir.

DM-lərin formal funksiyaları bunlardır [10, s. 2];

Söhbətdə bir növbəni göstərmək (weißt du , also);

Müzakirə edilən mövzudan uzaqlaşmağı müəyyən etmək (oh, by the way);

Danışanın münasibətini/hissini bölüşmək (like);

Ümumi söhbəti çərçivələmək;

DM-lərin qeyri-formal funksiyaları bunlardır:

Söhbətdəki fasilələri doldurmaq;

Nitqdəki əsəbi pozuntular kimi çıxış etmək;

Kollektiv leksikonumuzun bir hissəsi kimi çıxış etmək;

Andersen [3, s.147] təklif edir ki, DM-lər mətn daxilində ardıcıllıq əlaqələrini qeyd etmək, dinləyiciyə mümkün şərhlər barədə qəbul təlimatları vermək, təklifi/illokutiv qüvvəni qeyd etmək və şəxslərarası əlaqələri qeyd etmək üçün istifadə

olunur. Trauqot [27, s.6] DM-lərin yerinə yetirdiyi "metamətn işinə" diqqət çəkir ki, bu da danışanlara deyilənlərin məzmunu deyil, onun necə bir araya gətirilməsi haqqında öz qiymətləndirmələrini göstərməyə imkan verir. Fischer [12, s.26] DM-lərə aid edilən bir sıra funksiyalara istinad edir, bunlar daxildir: növbə götürmə sistemi ilə əlaqəli funksiyalar, diskurs əlaqələrinin göstəricisi kimi, diskurs strukturlaşdırma vasitələri kimi, danışığı idarə etmək, şəxslərarası münasibətləri tənzimləmək və nəzakəti göstərmək üçün vasitələrlə çıxış etmək. Alman və digər dillərdə DM-lər üçün müəyyən edilmiş funksiyaların (əsas funksiya və ya periferik funksiya) nəzərdən keçirilməsi, DM funksiyalarını müzakirə etmək üçün əsas kimi istifadə edilə bilər. Danışığın axıcılığını davam etdirmək üçün, qarşılıqlı əlaqədə olan tərəflər həm şəxslərarası, həm də mətn səviyyələrində qarşılıqlı anlaşmaya gəlmək üçün müxtəlif strategiyalardan istifadə edir və müxtəlif növ numunələr istifadə edirlər. DM-lər diskurs hissələrini bir-birinə bağlamaq, diskurs ardıcıllığını qeyd etmək, dinləyicinin diskurs şərhinin əhatə dairəsini məhdudlaşdırmaq [5, s.11] eləcə də danışanla dinləyici arasındakı əlaqəni və diskursun müxtəlif hissələri arasındakı əlaqələri siqnalizasiya etmək üçün istifadə olunan strategiyalar sırasındadır. Müxtəlif söz sinfindən olan linqvistik elementlər DM kimi funksiya yerinə yetirə bilər (məsələn: bağlayıcılar, zərflər, feil birləşmələri). Ümumi qayda olaraq, DM bir bağlayıcı, zərf və/və ya feil birləşməsi deyil, eyni zamanda, onların bəzi xüsusiyyətlərini bölüşə bilər.

Nəticə: Bu markerlər canlı, təbii, axıcı danışığın vacib hissəsidir. Onlar həm məntiqi əlaqə, həm də emosional ton yaradır. Diskursiv markerlər istifadələri yumuşaldır, fikri əlaqələndirir və yeni mövzuya keçid yaradır.

Ədəbiyyat:

1. Abraham, W. (Ed.). Discourse Particles in German: How does their illocutive force come about? Amsterdam: John Benjamins. 1991.2001
2. Andersen, G. The pragmatic marker like from a Relevance- theoretic perspective. In Jucker, A. and Ziv, Y. (1998). Discourse Markers: Descriptions and Theory. Amsterdam/ Philadelphia: John Benjamins. 1998.
3. Andersen, G. Pragmatic Markers of Sociolinguistic Variation: A Relevance -theoretical approach to the language of adolescent. Amsterdam: John Benjamins. 2001.
4. Bazanella, C. Phatic connectives as intonational cues in contemporary spoken Italian. Journal of Pragmatics. 14(4), 629-647. 1990.
5. Blakemore, D. Denial and contrast: A relevance theoretical analysis of 'but'. Linguistics and Philosophy. 12, 15-37. 1988.p221
6. Blakemore, D. Relevance and Linguistic Meaning: The Semantics and Pragmatics of Discourse Markers. Cambridge: CUP. 2002.p240
7. Bolden, G.B. Reopening Russian conversations: The discourse particle-to and the negotiation of interpersonal accountability in closings. Human Communication Research. 34, 99-136 .2008.p136
8. Brinton, L. Pragmatic Markers in English: Grammaticalization and Discourse Functions. Berling and New York: Mouto de Gruyter. 1996 .p213
9. Brinton, L . The Comment Clause in English Syntactic Origins and Pragmatic Developments (Studies in English Language). Cambridge: CUP. 2008.p218
10. Croucher, S.M. Like, you know, what I'm saying: A Study of discourse marker frequency in extemporaneous and impromptu speaking. National Forensic Journal, 22(2-3), 38-47. 2004 .

11. Erman, B. Pragmatic Expressions in English: A study of 'you know', 'you see' and 'I mean' in face-to-face conversation. Stockholm: Almqvist and wiksell. 1987.
12. Fischer, K. Approaches to Discourse Particles. Netherland: Elsevier. 2006.
13. Fraser, B. An approach to discourse marker. Journal of Pragmatics. 14, 383-395. 1990.p403
14. Fraser, B. Pragmatic markers. Pragmatics. 6(2), 167-190. 1996.
15. Fraser, B. What are discourse markers? Journal of Pragmatics. 31(7), 931-952. 1999.
16. Fujita, Y.Functions of discourse markers 'ano' and 'sono' in written dialogue. Retrieved from:http//www. eric.ed. gov. 2001.
17. Fujita, Y. Functions of discourse markers in Japanese. Texas Papers in Foreign Language Education. 6 (1), 147-162. 2001.
18. Goddard, A. and Meanpatterson, L. Language and Gender. London: Rutledge. 2000. P 300
19. Knott, A. Using cue phrases to determine a set of rhetorical relations. In O. Rambow, (Eds.) Internationality and Structure in Discourse Relations: Proceedings of the ACL SIGGEN workshop .1993.p46
20. Kroon, C. Discourse particles in Latin: A study of 'nam' 'enim' 'qutem', 'vero'. Amsterdam studies in classical philology. 4. 1995.p204
21. Lam, Ph.W-Y. Discourse Particles in an Intercultural Corpus of Spoken English. PhD Thesis. The Hong Kong Polytechnic University. 2008.p301
22. Lenk, U. Marking Discourse Coherence: Functions of Discourse Markers in English. Tubingen: Gunter Narr. 1997.p218
23. Lenk, U. Discourse markers and global coherence in conversation. Journal of Pragmatics. 30(2), 245-257. 1998.
24. Muller, S. Discourse Markers in Native and Non-native English Discourse. Amsterdam: John Benjamins. 2005.p205
25. Ostman, J.O. You Know: A Discourse Functional Approach Amsterdam: John Benjamins. 1983.
26. Redeker, G. Review article: Linguistic markers of discourse structure. Linguistics. 29(6), 1139-1172. 1991.p348
27. Schiffrin, D. Discourse Markers. Cambridge: CUP.1987.p315
28. Schiffrin, D. Tannen, D. and Hamilton, H.E. (2003). The Handbook of Discourse Analysis. London: Blackwell.2003.p338
29. Schourup, L. Common Discourse Particle in English Conversation like, well, y'know. Birmingham: Garland.1985.p296
30. Traugott, E. C. The role of the development of DMs in a theory of grammaticalization.1995.p304
31. Paper presented at ICHL , XII Manchester , Version of 11/97 .1995.
32. Yilmaz, E. A Practical Analysis of Turkish Discourse Markers yani, iste andsey. PhD. 2004.

Шамсинур Асланова

Резюме

ИЗУЧЕНИЕ ДИСКУРСИВНЫХ МАРКЕРОВ С ПРАГМАТИЧЕСКОЙ ТОЧКИ ЗРЕНИЯ

Дискурсивный анализ имеет философские корни в прагматическом исследовании. Каждая структура морфем, которые отличают текст, получает своё решение в методах анализа. Поскольку дискурсивный анализ является очень широкой областью, используемые в нём термины и понятия тесно взаимосвязаны. При фор-

мировании дискурсов основная идея заключается в выборе дискурсивных маркеров. Эти маркеры должны быть подобраны таким образом, чтобы они могли дополнять прагматический аспект с использованием различных терминов.

Изучение языковых единиц в прагматическом аспекте внутри дискурса является серьёзной моделью для дискурсивного обучения. Так как дискурсивные маркеры считаются факторами, облегчающими понимание речи. Дискурсивные маркеры являются одним из важных средств воздействия в речи. Дискурсивные маркеры также называются прагматическими маркерами и, таким образом, направлены на грамматикализированные языковые единицы, служащие прагматике.

Shamsinur Aslanova

Summary

THE STUDY OF DISCOURSE MARKERS FROM PRAGMATIC ASPECTS

Discourse analysis has philosophical roots in pragmatic research. Every structure of morphemes that distinguishes a text finds its explanation within analytical methods. Since discourse analysis is a very broad field, the terms and concepts used within it are closely interconnected. In the formation of discourses, the main idea lies in the selection of discourse markers. These markers must be chosen in such a way that they can complement the pragmatic aspect through the use of various terms.

The study of linguistic units from a pragmatic perspective within discourse represents a significant model for discourse-oriented learning, as discourse markers are considered factors that facilitate the comprehension of speech. Discourse markers are among the important means of influence in communication. They are also referred to as pragmatic markers and, thus, denote grammaticalized linguistic units that serve pragmatic functions.

Rəyçi: prof.A.Məmmədov

ƏDƏBİYYAT

Mehri Hənifəyeva
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1046

POSTHUMAN KONTEKSTİNDƏ K.İŞİQURONUN "KLARA VƏ GÜNƏŞ" ROMANINDA SÜNİ İNTELLEKT PROBLEMİ

Açar sözlər: *texnologiya, süni intellekt, posthumanizm, distopiya, Klara*
Keywords: *technology, artificial intelligence, posthumanism, dystopia, Klara*
Ключевые слова: *технология, искусственный интеллект, постгуманизм, антиутопия, Клара*

Giriş. Texnologiyanın cəmiyyətə təsiri tarixin müxtəlif dövrlərində mövcud olmuşdur. Lakin Birinci Dünya Müharibəsi, texnoloji inkişafın miqyasının daha da genişləndiyi və insanların texnologiyaya baxışını köklü şəkildə dəyişdirdiyi bir dövr kimi fərqlənir. Bu müharibə təkcə döyüş meydanlarında deyil, həm də cəmiyyətin müxtəlif sahələrində texnologiyanın həlledici rol oynamağa başladığı tarixi mərhələlərdən biri kimi yadda qalmışdır [9, s. 296]. Müasir dövrdə həm texnologiyanın yaradıcısı, həm də onun əsirinə çevrilmək təhlükəsi ilə üz-üzə qalan insan öz tarixi inkişafının ən paradoksal mərhələlərindən birini yaşayır. Rəqəmsal sistemlər, biotexnoloji müdaxilələr, süni intellekt və alqoritmik idarəetmə mexanizmləri insanın təkcə həyatını deyil, düşüncə tərzini, emosional münasibətlərini və özünüdərkini də yenidən formalaşdırır. Bu kontekstdə texno-insan anlayışı artıq metaforik ifadə olmaqdan çıxaraq insanın texnoloji mühitlə simbioz halında mövcudluğunu təsvir edən real anlayışa çevrilir, insan öz təbii sərhədlərini aşmaq üçün yaratdığı mexanizmlərin təsir dairəsində yeni bir varlıq modelinə doğru istiqamətlənir.

Süni intellekt erasının başlanğıcı ilə birlikdə insan nədir, onun şüuru və duyğuları nə dərəcədə unikal və təkrarsızdır kimi ənənəvi suallar yenidən aktuallaşdı. Artıq məsələ təkcə maşınların insan əməyini əvəz etməsi deyil, insanın özünü necə dərk etməsi, "insanilik" meyarının hansı əsaslarla müəyyənləşməsi və texnoloji vasitələrin bu meyarı necə dəyişdirməsidir. Əgər şüur, empatiya və seçim qabiliyyəti alqoritmik modelləşdirməyə açıqdırsa, onda insanın metafizik üstünlüyü hansı səviyyədə qorunur? Bu suallar şübhəsiz ki, ədəbiyyatda da yeni estetik diskursun formalaşmasına səbəb olur.

Martin Haydeggerin "texnikanın fəlsəfəsi" [5] konsepsiyasından başlayaraq müasir dövrdə Jak Elyulun "texnoloji determinizm" [2], Yurgen Habermasın "kommunikativ fəaliyyət" [4] nəzəriyyələri texnologiyanın insan həyatına təsiri-

nin kompleks və çoxşaxəli təbiətini göstərir. Texnika artıq sadəcə vasitə və ya alət kimi deyil, həm də insan şüurunun və sosial strukturların formalaşmasında mühüm rol oynayan faktor kimi çıxış edir.

Texnoloji vasitələr gündəlik həyatın ayrılmaz hissəsinə çevrildikcə insanın gerçəkliyə münasibəti də dəyişir. İnsan artıq təbiəti və sosial reallığı texnoloji sistemlərin təqdim etdiyi süzgəcdən keçirərək qəbul edir. Bu isə tədricən təcrübənin mexanikləşməsi adlandırılan yeni mədəni vəziyyət yaradır. Belə bir şəraitdə insanın azad iradəsi, qərarvermə bacarığı və etik məsuliyyəti də yenidən formalaşır.

Əsas hissə. XX-XXI əsrlərdə elmin sürətli inkişafı texnologiyanın da ağılasığmaz dərəcədə inkişafına səbəb oldu və bu da yeni sosial problemlərin yaranmasına, insanların təfəkküründən dəyişməsinə gətirib çıxardı. Texnologiyanın inkişafı insanın həyat fəaliyyətini nəzərə çarpacaq dərəcədə asanlaşdırmaqla yanaşı, ondakı özünü qorumaq instiktini demək olar ki, məhv etdi. Fərdi düşüncələrin yerini kütləvi düşüncələr əvəz etdikcə, təkcə texnokratik yox, həmçinin totalitar cəmiyyətlərdə yaşaya bilmək üçün insanlar "sürü psixologiyasına" meyl etməyə başladılar. Hər şeydən əvvəl bu, insanın mənəvi və psixoemosional duyğularına təsir göstərdi. Artıq mədəniyyətdən və təbiətdən uzaqlaşan insan əqli və ruhi qidasını tele-illuziyalardan əldə etməyə başladı [8, s. 248].

Texnoloji tərəqqi insanın gündəlik fəaliyyətini asanlaşdırmaqla bərabər onun həyat ritmini də sürətləndirir. İnformasiya axınının artması insanın diqqət və yaddaşına təsir göstərir və beləliklə düşüncə prosesi daha fraqmentar xarakter almağa başlayır. Bəzi tədqiqatçılar bu prosesi rəqəmsal şüur anlayışı ilə əlaqələndirirlər. Bu şüur modeli məlumatın sürətli emalı və dərhal qərarvermə xüsusiyyəti ilə seçilsə də, emosional baxımından kövrək hesab olunur. Bu baxımdan texnologiyanın inkişafının insan psixologiyasına da təsir etdiyi faktı təsdiqlənir.

Bu baxımdan, müasir ədəbiyyat texno-insan münasibətlərini dərin fəlsəfi və psixoloji aspektlərdən araşdırmağı hədəf alır. Xüsusilə elmi-fantastik və distopik janrlar, gələcəyin texnoloji ssenarilərini təsvir edərək oxucunu müasir qərarların potensial nəticələri haqqında düşünməyə vadar edir. Bu mənada, 1989-cu ildə Buker, 2017-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülən yapon əsilli ingilis yazıçısı Kazuo İşiquronun əsərləri xüsusi əhəmiyyət kəsb edir. Müəllifin yaradıcılığı insan olmağın mahiyyətini dərk edən, gündəlik həyatın çətinlikləri ilə mübarizə aparan unikal obrazlarla zəngindir. Özünü məhsuldar yazıçı hesab etməyən İşiquro müsahibələrində bildirir ki, onu yazmağa sövq edən əsas motiv oxucuları ilə həyatın dəyərini müəyyən edən amillər barədə dərin dialoqa girmək istəyidir [7, s. 116]. Bu baxımdan, İşiquronun yaradıcılığı düşündürücü olması və müxtəlif təsiredici məqamları əks etdirməsi ilə seçilir. Onun yaradıcılığı insan kimliyinin çoxqatlı və həssas mahiyyətini sistemli şəkildə təhlil edir, eyni zamanda yaddaş, mənsubluq hissi və texnoloji inkişafın doğurduğu mürəkkəb etik problemləri nəzəri və bədii müstəvidə araşdırır.

K. İşiquro texnoloji tərəqqinin yaxın gələcəkdə ictimai və fərdi həyatın əsas müəyyənedici qüvvəsinə çevriləcəyi fikrini müdafiə edir. Müəllifə görə, tezliklə hər şey texnologiya tərəfindən idarə olunacaq. Xüsusilə, o, texnologiyanın və süni intellektin futuristik dünyada insanları necə idarə etdiyini təsvir edərkən distopiya, fantaziya və elmi fantastikanı çulğalaşdırır. Onun futuristik məkanlarda qurulan

əsərlərində texnologiya və süni intellektin insan üzərində artan təsiri distopik, mistik və elmi-fantastik elementlərin sintezi vasitəsilə təqdim olunur.

Müəllifin 2021-ci ildə nəşr etdirdiyi, hadisələrin "posthuman" kontekstdə təqdim edildiyi "Klara and Günəş" romanında hadisələr Süni Dost (Artificial Friend) Klaranın perspektivindən nəql edilir. Klaranın proqramlaşdırılmış ünsiyyət forması və dünyanı qavrayışındakı sadəlövh müşahidəçiliyi insan və qeyri-insan şüuru arasındakı sərhədlərin nə dərəcədə incə və mübahisəli olduğunu üzə çıxarır. Süni intellekt, gen mühəndisliyi və maşın öyrənməsinin sürətlə dominantlaşdığı zaman çərçivəsində qurulan bu bədii kainat modeli texnologiyanın insanlıq anlayışının mərkəzi metaforasına çevrilməsi ehtimalı ilə bağlı müasir narahatlıqları əks etdirir.

Klara distopik Amerikada uşaqların yoldaşı rolunu oynayan texnoloji varlıqdır. Təhkiyə Klaranın mağazada olduğu vaxtdan başlayır və insan münasibətlərini, həmçinin texnologiyanın məhdudiyyətlərini göstərir. Klara günəş enerjisi ilə işlədiyi üçün günəş onun üçün həm həyat mənbəyi, həm də müalicəvi qüvvə kimi müqəddəs bir simvola çevrilir.

Klaranın Cosi adlı bir qız tərəfindən alınması hadisələrin istiqamətini insan-texnika münasibəti fonunda dəyişir. Cosi "liftinq" adlı genetik inkişaf prosesinə məruz qalır, onun intellektini artırmaq üçün nəzərdə tutulan bu üsul bacısı Seylin ölümünə səbəb olur. Klara Cosi öləcəyi təqdirdə anasının onu robot replikası ilə əvəz etmək planı haqqında məlumat əldə edir və qızın həyatını xilas etmək üçün onun davranışlarını təqlid etməyə başlayır, qızın sağalması üçün günəşə müraciət edir. Klara günəşdən kömək istəyərək çirkləndirici "Cootings" maşınını məhv etməyə çalışır. Daha sonra Cosinin səhhəti gözlənilmədən yaxşılaşır və bununla da texnologiyaya və süni intellektə inam mövzuları ön plana çıxır. Cosi sağaldıqca akademik, sosial həyata yönəlir və Klaradan asılılığını azaldır, nəhayət, kollecə gedəndə Klara ilə yolları ayrılır. Roman Klaranın Süni Dostlar üçün istirahət yeri olan "Yard"a getməsi ilə başa çatır. Orada o, təcrübələrini, günəşin səxavətini düşünür və səbəb olduğu xeyirxahlıqda təsəlli tapır.

Klaranın Cosinin davranışlarını təqlid etməyə başlaması və günəşə yönəlməsi süni intellektdə şüur, məqsəd yönümlülük və insana bənzər digər xüsusiyyətləri ortaya çıxarır. Bu xüsusiyyətlər Klaranı adi proqramlaşdırılmış robotdan fərqləndirir, Nik Bostromun süni intellekt nəzəriyyəsində qeyd etdiyi kimi "yüksək inkişaf etmiş alətlərin məqsəd yönümlü və davranış yönümlü ola biləcəyinə" [1, s. 46] dair fikirləri təsdiq edir.

Mətn boyunca dəfələrlə istifadə edilən Süni Dost sözü təkcə Klaranın adı deyil, həm də İşiquronun insan və texnika arasındakı incə sərhədi sorğuladığı əsərin təhkiyə üsuludur. P.Slouna fikrincə, İşiquro süni, emosional və mürəkkəb varlıqları təqdim etməklə insan müstəsnalığına meydan oxuyur [10, s. 151].

Romanın əvvəlində Klara belə düşünür: "Bəzən onlar mənim daxilimdə gizli qalsa da inanıram ki, mən də insanlar kimi bir çox hisslərə sahibəm" [6, s. 27]. Bu fikir Klaranın özünüdərkini əks etdirir. Klara ətraf mühiti insan qavrayışından fərqli şəkildə, daha çox analitik müşahidə və parçalanmış təsvirlər vasitəsilə qəbul edir. Bu xüsusiyyət romanın quruluşunda da hiss olunur, İşiquro əsərdəki nəsnələri ayrı-ayrı hissələr şəklində təqdim edir.

P. Qenadevna və S. Qriqoryevna Klara kimi Süni Dostların rolunun paradoksal olaraq "xidmətində olduğu insanların tənhalığını yüngülləşdirmək əvəzinə artırdığını" [3, s. 148] iddia edirlər. Klaranın düşüncələrində "tək" sözünün təkrarlanması onun həm də özünün hissi varlıq kimi təcrid olunmasının fərqində olduğunu göstərir. Klara bunu belə təsvir edir: "Mağazanın vitrinində olanda insanların günəşin altında tək-tək yanımdan keçdiyini görürdüm" [6, s. 45]. Deməli, cəmiyyət həqiqi münasibətlərə üstünlük verməkdə emosionallığı da süni dostlara həvalə edir.

Romanda diqqətəlayiq məqamlardan biri də texnologiyanın insan münasibətlərində yaratdığı fərqliliklərdir. Valideynlərin övladlarını genetik müdaxilələrə məruz qoyması, insanın texniki alətlərlə əvəz edilməsi ehtimalı, kiborqların yaranması müasir tədqiqatların əsas mübahisə mövzuları kimi təqdim olunur.

Nəticə. Ümumilikdə, K.İşiquro müasir dövrdə özgələşmə, yadlaşma problemini süni intellekt prizmasından təqdim edir. "Klara və Günəş" romanı məhz keçid dövrünün bədii refleksiyası kimi təqdim olunur. Müəllif Süni Dost obrazı vasitəsilə texnoloji sivilizasiyanın insan münasibətlərinə, valideyn-övlad əlaqəsinə, xəstəlik və ölüm anlayışına, eyni zamanda sevgi və fədakarlıq kimi dəyərlərə təsirini ifadə edir. Roman texnologiyanın insanın öz yaratdığı sistemlər fonunda mənəvi boşluq və narahatlıqla üzləşməsinə səbəb olduğunu göstərir. Beləliklə, əsər süni intellekt erasının sərhədlərini və insan qalmaq dilemmasını ədəbi-fəlsəfi müstəvidə təhlil edir.

Ədəbiyyat:

1. Bostrom, N. (2014). Superintelligence: Paths, dangers, strategies. Oxford University Press.
2. Ellul, J. (1964). The technological society. Vintage Books. https://ia803209.us.archive.org/2/items/JacquesEllulTheTechnologicalSociety/Jacques%20Ellul%20-%20The%20Technological%20Society.pdf
3. Gennadievna, P. I., & Grigorievna, S. O. (2024). The theme of surrogacy in contemporary novel. Филологический класс, 29(3), 144–152. https://cyberleninka.ru/article/n/the-theme-of-surrogacy-in-contemporary-novel/viewer
4. Habermas, J. (1984). The theory of communicative action. Beacon Press.
5. Heidegger, M. (1977). The question concerning technology, and other essays. Garland Publishing. https://monoskop.org/images/4/44/Heidegger_Martin_The_Question_Concerning_Technology_and_Other_Essays.pdf
6. Ishiguro, K. (2021). Klara and the sun. Faber and Faber.
7. Matthews, S., Groes, S., Baxter, J., Childs, P., Mitchell, K. (Eds.). (2010). Kazuo Ishiguro: Contemporary critical perspectives. Continuum.
8. Məcidova, İ. (2018). Posttexnokratik erada insan və texnikanın toqquşması (Rey Bredberinin əsərləri əsasında). Doktorant və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları (II cild, s. 248–250). ADPU.
9. Mustafayev, A. (2025). Birinci dünya müharibəsindən (1914–1918) müasir bilik cəmiyyətinə: Texnoloji və informasiya determinizminin təkamülü. Akademik Tarih ve Düşünce Dergisi, 12(5), 296–306. https://dergipark.org.tr/tr/download/article-file/5317383
10. Sloane, P. (2023). Empathy and the ethics of posthuman reading in Never Let Me Go. Manchester: Manchester University Press, 146–169.

Mehri Hanifayeva

Summary

THE PROBLEM OF ARTIFICIAL INTELLIGENCE IN K. ISHIGURO'S NOVEL "CLARA AND THE SUN" IN THE CONTEXT OF POSTHUMANISM

The article examines the philosophical and literary aspects of the relationship between humans and technology in the era of artificial intelligence against the background of the historical development of the impact of technology on society. The acceleration of technological progress after the First World War had a serious impact on human thinking and social relations, as a result of which the concept of "techno-human" was formed. The study analyzes the role of technology on human consciousness and social structures, referring to the approaches of theorists such as Martin Heidegger, Jacques Ellul and Jurgen Habermas to technology. The events presented from the perspective of Klara, the Artificial Friend, in K. Ishiguro's novel "Klara and the Sun" bring to the fore the issues of artificial intelligence, genetic intervention and human identity.

Мехри Ганифаева

Резюме

ПРОБЛЕМА ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В РОМАНЕ К. ИСИГУРО «КЛАРА И СОЛНЦЕ» В КОНТЕКСТЕ ПОСТГУМАНИЗМА

В статье рассматриваются философские и литературные аспекты взаимоотношений человека и технологий в эпоху искусственного интеллекта на фоне исторического развития влияния технологий на общество. Ускорение технологического прогресса после первой мировой войны оказало серьезное влияние на человеческое мышление и социальные отношения, в результате чего сформировалось понятие «техночеловек». В исследовании анализируется роль технологии в человеческом сознании и социальных структурах, обращаясь к подходам к технологии таких теоретиков, как Мартин Хайдеггер, Жак Эллюль и Юрген Хабермас. События, представленные с точки зрения Клары, искусственной подруги, в романе К. Исигуро «Клара и Солнце», выдвигают на первый план вопросы искусственного интеллекта, генетического вмешательства и человеческой идентичности.

Rəyçi: fil.f.d., dos. G.M.Hüseynli

Ruzanə Süleymanova
Azərbaycan Dövlət Aqrar Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1051

YUNUS ƏMRƏ ƏDƏBİ İRSİ İNGİLİS TƏDQİQATINDA

Açar sözlər: *ədəbiyyat, poeziya, şair, şərqşünas, Səmavi Eşq*
Keywords: *literature, poetry, poet, orientalist, Divine Love*
Ключевые слова: *литература, поэзия, поэт, востоковед, божественная любовь*

Giriş. Zaman-zaman türk xalqlarının olduqca zəngin olan ədəbiyyatı dünya şərqşünaslarının, istər Yaxın və orta Şərq, istərsə də Avropa şərqşünaslarının nəzər-diqqətini cəlb etmişdir. Bu ədəbiyyat mütamadi olaraq tədqiqat obyekti olmuş, klassiklərin əsərləri müxtəlif xalqların dillərinə tərcümə edilərək dünyaya yayılmışdır. Bu baximdan türk klassiklərinin ədəbi irsinin ingilisdilli ədəbiyyatşünaslıqda öyrənilməsi və tərcümə edilməsi böyük əhəmiyyət kəsb edir. "Xüsusən tərcümə ədəbiyyatı bu və ya digər xalqın adət-ənənəsi, mədəniyyəti, dünyagörüşü və ictimai-siyasi həyatı ilə yaxından təmas üçün böyük imkanlar açır" [1, s.3].

Türk dünyasının böyük simalarından sayılan Yunus Əmrə XIII yüzilliyin ən qüdrətli şairlərindəndir. Onun zəngin ədəbi yaradıcılığı dünyanın bir çox şərqşünasları tərəfindən araşdırılmış, poetik inciləri qərb dillərinə tərcümə edilmişdir.

Böyük şair haqqında ilkin olaraq ingilis şərqşünaslığında tədqiqatçı-alim Çarz Riyonun kataloqlarında rast gəlinsə də, bunlar şair haqqında qısa məlumat xarakteri daşıyır. XIX yüzilliyin ilkin çağlarından ingilis şərqşünaslığında ədəbi irsi öyrənilən Yunus Əmrə ilə bağlı biz daha çox şotland əsilli şərqşünas Elyas Con Vilkonson Gibbin altı cildlik "Osmanlı poeziyasının tarixi" [2, s.164-175] əsərinin birinci cildində rast gəlirik. Onu da qeyd edək ki, türk dilinin, türk ədəbiyyatının, eləcə də klassik Azərbaycan ədəbiyyatının görkəmli şairlərindən Qazı Bürhanəddin, İmadəddin Nəsimi və Məhəmməd Füzuli kimi dünya şöhrətli şairlərimizlə də bağlı Gibbin cox dəyərli tədqiqatları var. Elyas Con Vilkonson Gibb Yunus Əmrə dünyasına bələd olan arasdırıcıdır. Şairin həyatı, yaradıcılığı, ədəbi irsi ilə bağlı geniş məlumat verən Gibb onun yaşadığı dövrü xarakterizə edərnən yazır: "Səlcuq imperiyasının tələtümlü çağlarında bəylərin öz kiçik dövltlərini yaratmağa çalışdıqları bir vaxtda Anadoluda Yunus Əmrə adlı bir müqəddəs övliya yaşayırdı. Deyilənə görə təhsil almayan, az miqdarda oxumağı bacaran bu şəxs Qərb Türklərin ilk doğma şairi kimi tanınmışdır" [2, s.164]. Şərqşünas eyni zamanda Taşköprizadənin "Şakaikun-Numaniyye" əsərində Yunus Əmrə ilə bağlı qısaca məlumat verdiyini qeyd etsə də, təzkirəsində dövrünün şairləri ilə bağlı olduqca maraqlı və qiymətli məlumat verən Aşıq Çələbini Yunus Əmrədən bəhs edən ilk təzkirəçi adlandırır. Gibb daha sonra "yüzillər boyu saysız türk şairləri arasında adı sonsuz ehtiramla çəkilən Yunus Əmrə" [3, s.4] haqqında bir çox soltanların hökmdarlıq dövrlərindən bəhs edən dindar və elm sahibləri olan Sadəddin və Əlinin tarixi əsərlərində məlumat verildiyini də vurğulayır. Şərqşünas bütün bu

qaynaqlara əsasən Yunus Əmrənin XIII yüzilliyin sonlarında, hazırda Kastamonun Qızıl Əhmədli adlı bir bölgəsində, Bolu deyilən bir kənddən olduğunu da xatırladır və eyni zamanda onun Tapdıq Əmrə adında bir şeyxin müridi-tələbəsi olduğunu da göstərilir. Onu da qeyd edək ki, təzkirəçilər Yunus Əmrənin yazıb-oxumaq bacarığı olmadığını söyləsələr də, onda olan qabiliyyətin Allah vergisi olduğunu da demişlər. Şərqşünas Gibb Aşıq Çələbiyə istinadən qeyd edir ki, Yunus Əmrə elə bir kamil insanlardandır ki, o, oxumuş olmasa da, Allahın lütfü ilə elm sahibi olmuşdur. Şair dünyəvi dili qəlb dilinə çevirən, qeyb dünyasının dilinin səsiylə sirlər söyləyən vəlilərdəndir. Onun qeyri-adi savada sahib olduğunu təsdiqləyən "Şakaikun-Numaniyye" əsərinə əsasən şərqşünas yazır: "Türk dilinin incəliyini, gözəlliyini, kinayə və mükəmməlliyini ehtiva edən varsağı formasında yazılan şeirlərindən aydın və dəqiq görünür ki, Yunus Əmrə Tövhid elminin ilahi sirlərinə vaqif olan, fövqaladə bir bilik sahibidir. Digər bir tarixçi Əli onun savadı barədə heç nə deməmiş, lakin şairin türk dilində sirlərlə dolu gözəl şeirlər yazdığını söyləmişdir" [2, s.167].

Şairin əldə olan daşbasma şeirlərinə əsasən onun təxminən altı yüz beyt məsnəvi formasında yazılmış bir əsəri, üç yüz və ya dörd yüz qəzəldən ibarət Divanı olduğunu söyləmək olar. Şərqşünas bütün bu şeirlərin heca vəznində yazıldığını, Taşköprüzadənin yazdığına əsasən bu şeirlərin varsağı formasına uyğun gəldiyini söyləyir. Həqiqətən də "XIII əsrdə milli ənənəyə söykənən, heca vəznli türk sufi poeziyası artıq yaranıb inkişaf edirdi. XIII əsrin təsəvvüf şeirinin ən böyük nümayəndəsi də Yunus Əmrə idi" [4, s.126]. Bir çox qəzəllərində isə şair türk dilində daha çox işlədilən və sevilən müsəmmət formasından istifadə etmişdir. "Qəzəllərinin əksəriyyəti müsəmmət qafiyəlidir və bu, şeirə bir musiqi rövnəqi verməklə onun məna və məzmununa da dolğunluq, zənginlik bəxş edir" [5, s.355]. Böyük şairin daşbasma Divaninda olan şeirlərindən danışarkən Gibb bu qəzəllərin heç də hamısının orijinal bir biçimdə saxlanılmadığını, tam mühafizə olunmadığını söyləsə də, buna səbəb heç də yüzilliklər boyu edilən dəyişikliklərin nəticəsi kimi baxmır. Şərqşünasın fikrincə şairin fövqəladə türk xarakteri onun yazdığı şeirlərin hər bir mistasında görünür: "Sonda və içdə işlədilən qafiyələr qüsurludur. Yunus Əmrə şeirlərində bəlağət olmasa da, hər hansı bir süni bənzətmə yoxdur. Özünə xas olmayan, kəlmə və ibarələr işlədən Yunus Əmrənin dili "Rebab-namə"nin dili yox, daha çox Osmanlı dilidir. Əlbəttə, bir çox hallarda onun şeirlərinə düzəliş edilmişsə də, bu bir danılmaz faktdır ki, şairimiz məhz şimali türklərindəndir" [2, s.167].

Yunus Əmrə şeirlərini birər-birər təhlil edən şərqşünas onun qəzəllərinin əsasən axirət aləminə həsr edildiyini qeyd edir. Şairin diyar-diyar gəzən bir dərviş, mütəsəvvüf olduğunu, qəlbində təsəvvüf düşüncəsindən başqa heç bir şeyin onu maraqlandırmadığını söyləyən Gibb eyni zamanda şairi bütün türk ədəbiyyatında ən səmimi şair kimi səciyyələndirir belə ki, şairin təsəvvüf düşüncəsində hər şeyin böyük eşqlə vəhdətə işarət etdiyi göstərilir. Şair bunu belə təsvir edir: "Başlanğıcda hər şey Alllahla birlikdədir, o da Ondan bir parçadır, bir kəs Sina dağında Musa ilədir, kimi İbrahimdir, oğlunun yerinə qurban edilən qoçdur, Yusifdir, Yusifi satın alan Kuteyfədir, Mənsurdur, Mənsuru dara çəkən cəlladdır, yer altındakı ilandır, səma boyu gəzişən buluddur, yer üzünə tökülən yağışdır. Yunus daha da irəli gedərək açıq-aşkar israr edir ki, o, insanı toxumdan, quşu yumurtadan yara-

dan Allahdan qeyri bir şey deyildir. Yunusun bu panteizmi açıq və səmimidir, bir çox şairlər kimi özünü məcaz və alleqoriya pərdəsi altında gizlətmir. Bi qoca dərviş nə söyləmək istəyirsə, onu açıq bir formada izhar edir" [2, s.168].

Şərqşünasın fikrincə Yunus Əmrə poeziyası forma baxımından heç bir şairin poeziyasına bənzəmir, fərqli bir vəzndə yazılmışdır: "Gördüyümüz kimi Sultan Vələd, Yunus Əmrənin müasirləri və ondan sonra gələn davamçıları davamlı olaraq İran əruzundan istifadə etməsələr də, onlar İran şeir vəznində, İran şeir üslubunda yazmışdılar və bu mədəniyyətin abı-havası onların əsərlərinə hopmuşdur" [2, s.168]. Gibbə görə bu təsir nadir olsa da, şairin əsərlərində asçıq-aydın dövrünün ruhuna hakim olan Mövlana Cəlaləddinin təsiri görünür. Şərqşünas Yunus Əmrənin digər türk şairlərlərindən fərqli olaraq lirik şair oldüğunu, ilhamını daha çox Mövlananın Divanından yox, Məsnəvisindən aldığını söyləyir.

Gibb haqlı olaraq Yunus Əmrənin poeziya aləmində öz yolu olduğunu qeyd edərək göstərir ki, şair Mövlanadan ilham alsa da, fars ustadlarını təqlid edən digər ilk məsnəvi yazarlarından fərqli olaraq o, fars şairlərini təqlid etməmişdir. Yunus Əmrəni yüksək dəyərləndirən Gibb onun kimi qərbi Türkiyədə lirik şair olmadığını bir daha vurğulayır. Şairin poetik incilrinin hər bir halda gözəl bir biçimdə yazıldığını qeyd edən şərqşünas "yazıb-oxumağı bacarmayan" bir şair adlandırılan Yunus Əmrənin şeirlərinə heyrandır. Gibb Yunus Əmrə Divanından üç qəzəl və bir məsnəvini ingilis dilinə tərcümə etmişdir. Onun Yunus Əmrədən etdiyi ilk tərcümə "Kə'bə vü büt iman bənəm, çərx uruban dönən bənəm" misrası ilə başlanan qəzəldir. Qərb poeziyasından tam fərqli olan Şərq poeziyası forma, üslub və dil cəhətdən fərqlənsə də, Gibb bu çətinliyin öhdəsindən məharətlə gəlmiş, Yunus Əmrə poeziyasının gözəlliyini, forma və məzmununu saxlamışdır. Onu da qeyd edək ki, Gibbin özünün də qeyd etdiyi kimi "rədif" ingilis poeziyasına xas olmayan bir formadır. Lakin bu incə və vacib məqam Gibbin nəzərindən qaçmamış, türk poeziyasının vurğunu olan şərqşünas tərcümədə bunu saxlamışdır. Biz Yunus Əmrə qəzəlinə və Gibbin ingilis dilinə tərcüməsinə baxaq:

Kə'bə vü büt iman bənəm, çərx uruban dönən bənəm,
Bulut olub həvaya ağub, yağmur olup yağan bənəm.

Yıldırım olup çakıyan şakıyup nəfsin doqiyan,
Ol yer karında bərkiyən şol agılu ılan bənəm.

Həmzəyı Qafdan aşu,ran əlin- ayağın şeşüren,
Çokları tahtdan aşıran hikmet issi sultan bənəm.

Bulut olup göge agan yağmur olup yerə yagan,
Göz süzlerin gözündeki boz pusarık duman bənəm.

Dertli kişi gəlsün bəri göstərin ana yeri,
Könlüm evin gözin sehri devr içində zaman bənəm

Yunus degil bunu deyən, kudret dilidir söyləyən,
Kafir olsa inanmıyan əvvəl ahır həmən bənəm [2, s,116].

Bu misralar Gibbin tərcüməsində belə səslənir:

Faith, idol, Kaba-fane am I; who smites the sphere a-spin am I;
The cloud upon the heavens' face, likewise the rains that rain am I.

The thunderbolt that flasheth forth, that, flashing, weaves itself in birth;
The poison-snake that deep in earth to creep and cower is fain am I.

The one who Hamza drew o'ver Qaf, who swelled his hands and feet therwith;
Who many from their throne drave off, the King of Wisdom's Rayne am I.

The cloud that doth to heaven ascend, the rain that doth to earth descend,
The haze and mist that doth before the sightless eyes remain am I…

Let him come here who suffers woe that I to him a place may show;
My heart his home, mine eye his town; Time in the Cycle-train am I.

It is not Yunus sayeth this, 'tis Power's Tongue that speaketh thus;
Who credits not a paynim is, the First and Latest e'en am I [2, s.171].

Gibb Şərq ədəbiyyatının, türkdilli poeziyanın bütün incəliklərinə bələd olduğundan Yunus Əmrə dünyasına daxil olmuş, şairin şeirində ən incə məqamları belə nəzərdən qaçırmamışdır. Qəzəldə olan "Bənəm" rədifi də ingilis dilinə edilən poetic tərcümədə olduğu kimi "am I" qalmışdır.

Gibbin Yunus Əmrədən etdiyi digər qəzəl "Yoldaş olalım ikimiz gel dosta gedəlim gel" misrası ilə başlayan qəzəldir. Qəzəldən bir neçə beytin tərcüməsinə baxaq:

Bu dünya kalmayalım fanidir aldanmıyalım,
İkimiz ayrılmiyalım gel dosta gidelim gel…

Ölüm haberi gelmedi ecel yakamız almadın,
Azrail hamle kılmadın gel dosta gidelim gel.

Gerçek Aşiki görelim hakkın haberin alalım,
Aşik Yunusu bulalım gel dosta gedelim gel [2, s.118].

Bu beytlərin ingilis dilinə tərcüməsinə baxaq:

Let us quit the world together, cheated not, for it doth wither;
Let us two be parted never, come and let us seek the Loved one.

Ere the clutch of Fate impel us, ere the voice of Death do hail us,
Ere that Azrail assail us, come and let us seek the Loved one.

Let us see the loyal lover tidings of The Truth to gather;
Let us find the lover, come and let us seek the Loved One [2, s.173].

Burada böyük sənətkar Allaha olan sevgisini, ona qovuşmaq arzusunu və beləliklə eşqin ən uca məqamını məhz bunda görür. Tərcümədə şairin fikri, yaratdığı lövhə, Allaha eşqinin təzahürü olduğu kimi əks olunmuşdur. Bu, bir daha Gibbin tərcüməçilik bacarığından xəbər verir. Onun tərcüməsi orijinalla tam eyniyyət təşkil edir.

Yunus Əmrənin ədəbi irsini tədqiq edən qərb şərqşünasları arasında müasir tədqiqatçılardan Paul Smitin xüsusi mövqeyi vardır. Paul Smit həm də bir şair, dramaturq kimi yazıb-yaradır və eləcə də 80-dən çox şairlərin, o cümlədən Şərqin nəhəng simalarından olan Sədi, Hafiz, Rudəki, Ömər Xəyyam, həmçinin Nizami, Nəsimi, Füzüli və digər sənətkarların sənət incilərini ingilis dilinə tərcümə etmişdir. 1945-ci ildə Avstraliyada dünyaya gələn Paul Smit hələ səkkiz yaşında olarkən klassik üslubda şeir yazmağa başlamış, dünyanın fani olduğunu hələ erkən yaşlarından dərk etmiş və orta məktəbi bitirən kimi dünya səyahətinə çıxmışdır. Həqiqət axtarışına çıxan gələcək şair-tərcüməçi müxtəlif işlərdə çalışmış və bu, onun zəngin həyat təcrübəsinə malik olmasına zəmin yaratmışdır. Paul Smitin tədqiq etdiyi şairlərdən biri özünün də qeyd etdiyi kimi ilk şeirlərindən heyran olduğu və bütün Şərq ölkələrində şöhrət qazanmış Yunus Əmrədir. Tədqiqatçı Yunus Əmrəni dövrünün ən qüdrətli şairi kimi xarakterizə edir və özündən sonrakı şairlərə böyük təsir göstərdiyini vurğulayır. Şairin həyatı haqqında digər şairlərdən fərqli olaraq çox az məlumat olduğunu diqqətə çəkən tədqiqatçı yazır: "Təsəvvüf şairi kimi Yunus Əmrənin təsvir etdiyi ilahi eşq dünyavi eşq ilə vəhdət təşkil edir və onun bütün şeirlərində bəşəri dəyərlər, bərabərlik, haqq və ədalət, kamil insan, sevgili, dost, ləyaqət kimi ülvi hisslər başlıca yer tutur". Şairin müasiri olan Mövlana Cəlaləddin Rumi ilə görüşməsindən söz açan Paul Smit hər iki aşiqi iki böyük qəlb şairi adlandırır.

Yunus Əmrənin divanından seçilmiş şeirləri ingilis dilinə tərcümə edərkən Paul Smit çalışmışdır ki, şairin sənətkarlıq baxımından zəngin olan şeirlərinin üslub və dil cəhətdən orijinala yaxın bir formada tərcümə etsin. Məhz bu baxımdan şairin şeirlərini qərb oxucularına çatdırmaq üçün şeirin ritm və quruluşunu, ölçü və ahəngini, məzmununu, intonasiyasını saxlamış, qərb şeir fopmasından fərqli olsa da, Yunus Əmrə dünyasına bələd bir mütərcim kimi bu mistik şeirlərdə olan gözəllik və mənanı saxlayaraq şərəfli və çətin işin öhdəsindən ləyaqətlə gəlmişdir.

Yunus Əmrənin yaşadığı dövrü xatakterizə edən, həyatı haqqında olan məlumatların ancaq rəvayətlərdən əldə edildiyini söyləyən mütərcim eləcə də bir çox tarixçilərin və alimlərin fikirlərinə əsasən şairin 1260-cı ildə Anadoluda anadan olduğu qənaətinə gəlir. Paul Smit şair haqqında ilkin məlumatların daha çox Hacı Bektaşi Vəlinin "Vilayətnaməsində" olduğu fikrini də diqqətə çəkir. Onun müxtəlif diyarlara səfərindən, eləcə də Suriya və Azərbaycana getdiyini söyləyən mütərcim şairin səfər zamanı miskin adamların məşəqqətli həyatı ilə tanış olan, yol boyu sadə adamların danışdığı Türk dilində öz şeirlərini oxuyan və dövründə şeirlərini türk dilində yazan ilk şair kimi dəyərləndirir, dilinin xalq dilinə çıx yaxın olduğunu, poetik dünyasının başdan-başa Allaha sevgi, təsəvvüf və humanizm ideyaları ilə zəngin olduğunu qeyd edir. Şairin fikir dünyasına daha dərindən bələd olmaq əzmilə Paul Smit onun 416 şeirdən ibarət olan Divanı və "Risalətün Nüshiyyə" adlı didaktik məsnəvisindən də söz açır. O, şairin bu əsərini təsvir edərkən onun əsasən kainatın, Adəmin yaradılışını, Əzab, Ruh, Qəzəb, Nifrət kimi hiss və

duyğuları rəmz və simvollarla əks edən bir əsər adlandırır. Yunus Əmrənin "türk dilində qələmə aldığı "Risalətün-Nüshiyyə" didaktik məsnəvisi türkdilli poeziyada ilk didaktik məsnəvidir. Əsərdə fars-ərəb tərkibli izafətlərə rast gəlmirik. Risalə aydın qədim türk söz və ifadələri ilə yanaşı müasir oxucunun başa düşəcəyi bir türkcədə yazılıb...Yunus Əmrə "Risalətün- Nüshiyyə" əsərini insan varlığının dərkinə həsr etmişdir. O, bu risaləsi ilə insan xislətini tanımaq, islami qaydalar əsasında onu tərbiyələndirməyi qarşısına məqsəd qoymuş və onun yollarını göstərmişdir" [4, s.16;18]. Paul Smit qeyd edir hər iki əsər daha çox Allaha olan Eşqə, islam dünyasının müqəddəs kitabı Quran-i Kərim, Peyğəmbər və onun əhli-beytinə yönələn əsərlərdir.

İstedadlı mütərcim Paul Smit "Türk dərviş Yunus Əmrənin seçilmiş şeirləri" adlı əsərində türk dili, qəzəl və türk poeziyası, sufilər və dərvişlər: onların sənətkarlığı və poeziyası haqqında müfəssəl məlumat verir. O, Yunus Əmrə ədəbi irsindən ingilis dilinə bir məsnəvi və yüz otuz iki qəzəl tərcümə etmişdir.

Nəticə. Buradan belə bir nəticəyə gəlirik ki, Türk ədəbiyyatı xəzinəsini ölməz əsərləri ilə zənginləşdirən böyük təsəvvüf şairi Yunus Əmrənin ingilis şərqşünaslığında öyrənilməsi ən vacib və gərəklidir. Şair haqqında ingilis dilində olan qaynaqlar bir daha göstərir ki, XIX yüzillikdən etibarən ingilis şərqşünasları şairin ədəbi irsinə maraq göstərmiş, yeri gəldikcə poetik incilərini ingilis dilinə tərcümə etmişlər. Əlbəttə, bir məqalədə böyük şairin bütövlükdə zəngin ədəbi irsini əhatə etmək mümkün deyil.Yunus Əmrə tədqiqatçıları arasında fərqli bir mövqe tutan Elyas Con Vilkinson Gibb bir örnək olaraq çair haqqında geniş tədqiqat aparmağa zəminyaradır.

Ədəbiyyat:

1. Əliyeva, L. (1997). Füzuli və ingilis şərqşünaslığı. Bakı: "Ozan".
2. Gibb, E. J. W. (1900). A history of Ottoman poetry (Vol. 1). London.
3. Bəydili, C. (Məmmədov). (2004). Həqq didarın görən şair. Yunus Əmrə. Əsərləri. "Öndər nəşriyyat".
4. Hümmətova, X. (2006). Yunus Əmrə. Bakı: "Elm".
5. Azadə, R. (2011). Yunus İmrə cazibəsi. In Mənəvi dünənimiz bu günün işığında (pp. xx–xx). Bakı: "Elm" nəşriyyatı.
6. Gibb, E. J. W. (1900). A history of Ottoman poetry (Vol. 1). London.
7. Gibb, E. J. W. (1998). Osmanlı Şiir tarixi (Vol. I-II) (A. Çavuşoğlu, Trans.). Akçağ Yayınları.
8. Smith, P. (Translation & introduction). (n.d.). Yunus Emre: The Turkish selected poems. New Humanity Books.
9. Hümmətova, B. (2013). Yunus Əmrənin dövrü, həyatı və Risalətün-Nüshiyyə məsnəvisində əxlaqi təlqin. Elm və Təhsil. Bakı.

Ruzana Suleymanova

Summary

YUNUS EMRE'S LITERARY HERITAGE IN ENGLISH RESEARCH

The article discusses the study of the literary heritage of Yunus Emre, the great Sufi poet of Turkish literature, in English oriental studies and the translation of his poetic pearls into English. Here, the research of Scottish-born Elias John Wilkinson Gibb, a wonderful researcher of the poet's literary heritage, and Paul Smith, who played a great

role in the recognition of the Eastern world in the world, are discussed here. The opinions and thoughts of these orientalists, who have an invaluable role in the recognition of the literary heritage of Turkish literature, as well as the literary heritage of the classical poets of Azerbaijani literature in the Western world, are reflected in the article. Gibb and Paul Smith, who are deeply familiar with Yunus Emre's works, have translated the poet's poetry into English.

The article also provides information about Yunus Emre's life, the period he lived in, the poets he communicated with, the people he was influenced by, and the thinkers of the time. In particular, the influence of this great poet on Maulana Jalaladdin Rumi and his meetings with prominent personalities of his time are also discussed.

In the article, Yunus Emre's ghazals translated into English are compared with the original, and their similarities and differences are shown and evaluated.

Рузана Сулейманова

Резюме

ЛИТЕРАТУРНОЕ НАСЛЕДИЕ ЮНУСА ЭМРЕ В АНГЛОЯЗЫЧНЫХ ИССЛЕДОВАНИЯХ

В статье рассматривается изучение литературного наследия великого суфийского поэта турецкой литературы Юнуса Эмре в англоязычном востоковедении, а также перевод его поэтических произведений на английский язык.Особое внимание уделяется исследованиям шотландского учёного Элиаса Джона Уилкинсона Гибба, внёсшего значительный вклад в изучение творчества поэта, а также Пола Смита, сыгравшего важную роль в популяризации восточной культуры в мире.

В статье отражены взгляды и научные подходы вышеперечисленных востоковедов, которые внесли неоценимый вклад в популяризацию литературного наследия турецкой литературы, а также классической азербайджанской поэтической литературы в западном мире. Гибб и Пол Смит, глубоко знакомые с творчеством Юнуса Эмре, осуществили переводы его стихотворений на английский язык.

Также в статье представлена информация о жизни Юнуса Эмре, историческом периоде, в котором он жил, его литературных связях, круге общения и влияниях, оказанных на него мыслителями того времени. Особое внимание уделяется влиянию поэта на Джалаладдина Руми, а также его взаимодействию с выдающимися личностями эпохи.

В статье проводится сравнительный анализ газелей Юнуса Эмре, переведённых на английский язык, с оригинальными текстами, выявляются их сходства и различия, а также даётся их научная оценка.

Rəyçi: dos. R.Mürşüdova

METODİKA

Nərminə Rəcəbova
Bakı Dövlət Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1054

İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ QRAMMATİKANIN ƏHƏMİYYƏTİ

***Açar sözlər**: dil bacarıqları, qrammatik çətinliklər, açıq və gizli metod*
***Keywords:** language skills, grammatical difficulties, overt and covert method*
***Ключевые слова:** языковые навыки, грамматические трудности, открытый и скрытый метод*

Giriş. Dil mürəkkəb bir sistemdir. O, makro və mikro bacarıqları özündə ehtiva edir. Makro dil bacarıqlarına oxuma, dinləmə, yazma və danışma, mikro dil bacarıqlarına isə fonoloji, morfoloji, lüğət ehtiyatı və ya semantika, sintaksis, praqmatika və diskurs bacarıqlar aiddir. Makro dil bacarıqlarını mənimsəyən və ondan doğru istifadə edən tələbə öz fikrini səlis ifadə edə bilər.

Makro və mikro dil bacarıqlarını həm şifahi, həm də yazılı yolla tədris prosesində inkişaf etdirmək olar. Eyni zamanda müəllim tərəfindən tapşırığın yerinə yetirilməsi həm şifahi, həm də yazılı olmaqla, iki formada verilir. Bu zaman tələbələr həm fərdi, həm cüt, həm də qrup formasında işləyir.

Makro və mikro dil bacarıqları. Mikro dil bacarıqlarına daxil olan ilk bölmə fonologiyadır. Fonoloji sistemi tədris edərkən bəzən bütün səsləri ayrı-ayrı təqdim etməyə ehtiyac olmur. Müəllim əsasən tələbələrin tələffüz etməsində çətinlik çəkdiyi səslərə diqqət yetirməlidir, bu səslərin sözün daxilində necə işləndiyini, digərləri ilə qoşulduqda dəyişdiyini tələbələrə əyani göstərməlidir.

Növbəti mikro dil bacarığı olan morfoloji bacarıqlar isə sözdə morfemlərin mövcudluğunun tanınması qabiliyyətidir. Tədqiqatlar göstərir ki, morfoloji biliklərə malik olmaq tələbələrin oxuyarkən daha yaxşı başa düşmələrinə, söz ehtiyatının zənginləşməsinə kömək edir. Buna görə də morfoloji texnikaları bilmək və ondan istifadə etmək müstəsna əhəmiyyətə malikdir. Müəllimin tədris təlimatları və texnikası tələbələrin oxuyub anlama zamanı üzləşdiyi problemlərin öhdəsindən gəlməyə kömək edir.

Xarici dili öyrənməkdə əsas məqsəd müxtəlif situasiyalarda qarşı tərəflə təbii və dəqiq danışmaqdır. Buna görə də ingilis dili müəllimləri müxtəlif çalışmalarla dil funksiyalarını tələbələrə aşılamalıdır. Qarşılıqlı əlaqə zamanı dildən necə istifadəni öyrənən sahə olan praqmatika vasitəsilə tələbələr nitqdəki linqvistik və strateji seçimləri mənimsəyir. Danışıq təcrübəsi, qarşıya qoyulan məqsəd, düzgün

strategiyanın seçilməsi və doğru ifadələrdən istifadə praqmatik səriştənin göstəricisidir. Situasiyada düzgün ifadələrdən istifadə etmək üçün nitq aktı dəstini formalaşdırmaq lazımdır. Məs. dəvət etmək üçün ilk növbədə diqqəti cəlb etməli, sonra əsas fikir bildirilməli, yəni dəvət aktı yerinə yetirilməli və nəhayət fikir tamamlanmalıdır. Qarşı tərəf isə diqqətli olduğunu göstərməli, dəvətə münasibətini bildirməlidir.

Bir söz bəzən özlüyündə heç bir məna kəsb etmir, bəzən isə bir neçə mənası olur, bəzən isə kontekstə görə mənası dəyişir. İnsanların həyatı, təcrübələri, yaşadıqları mühit onların ətrafı anlama bacarıqlarını formalaşdırır. Məsələn, ingilis üçün "bir günün normal havası" dedikdə həm günəşli, həm yağışlı, həm dumanlı gün, sibirli vətəndaş üçün isə soyuq və qarlı hava şəraitidir. Bu da insanlar arasında yalnış anlaşılma ilə nəticələnə bilər. Lakin, bəzi hallarda fikirlər bütün dünya xalqlarında eyni olur. Bu da semantikanın necə əhəmiyyətli olduğunu göstərir. Semantika müxtəlif kontekstlərdə söz və onlar arasındakı əlaqəni başa düşməyi özündə ehtiva edir.

Dil tədrisində qrammatikanın əhəmiyyəti. Mikro dil bacarıqlarının tərkibinə daxil olan ən vacib sistem – qrammatikanın tədrisi və qrammatik bilik və bacarıqların inkişaf etdirilməsi hər bir müəllimin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Qrammatika aydın, səlis və mənalı kommunikasiyanın əsas sütunudur [3].

Qrammatikanın tədris edilib – edilməməsi çox saylı müzakirələrə səbəb olmuşdur. Belə ki, bir çox alim və metodistlər dil tədrisinin əsas məqsədinin kommunikasiya olduğunu, tələbələrin bu qaydaları mənimsəmək üçün həvəssiz olduğunu əsas gətirərək qrammatikanın tədrisinə ehtiyac olmadığını bildirir. Lakin aşağıdakı sxem qrammatikanın dil tədrisində vacib əhəmiyyətə malik olduğunu göstərir:



P. Ur [5, s. 76] qeyd edir ki, qrammatika düzgün cümlə qurmaq üçün sözləri bir yerə gətirən bir yoldur. J.Burns isə qrammatikaya tərif verməsə də, onu dilin "qidalandırıcı mənbəyi" adlandırır [2, s.76].

Müxtəlif metod və yanaşmalarda qrammatikanın tədrisi. XIX əsrdə ingilis dilinin qrammatikasının tədrisi istiqamətində ilk addımlar atılmışdır. İngilis qrammatikasının atası hesab edilən L. Murrey 1795-ci ildə "Murray's Grammar" adlı kitabını nəşr etdirdi. Burada o, ingilis dilinin qrammatik qaydaları haqqında məlumat vermişdir.

İngilis dilinin tədrisində istifadə olunan bütün metod və yanaşmalar arasında qrammatikanın tədrisinə ən çox önəm verən metod Qrammatika – Tərcümə metodu olmuşdur. Alman məktəbinin nümayəndələri C. Seidenstüker, K. Plötz, H.S. Ollendorf və C. Meidinqer tərəfindən əsası qoyulmuş bu metod yüz illərlə ən çox istifadə edilən metod olaraq öz aktuallığını saxlamışdır. Metodun əsas məqsədi oxu və yazı bacarıqlarını inkişaf etdirmək idi. Qrammatika - tərcümə metodundan istifadə zamanı müəllim qrammatik qaydaları deduktiv yolla izah edir: müəllim qrammatik qaydaları izah edir, uzun və hərtərəfli izahat verir və nümunələr göstərir (adətən ayrı-ayrı cümlələrin siyahısın tələbələrə təqdim edirdi), sonra tələbələr tədris edilən dildə cümlənin qrammatikasını öyrənir, onlar bu cümlələri ana dillərinə və əksinə tərcümə edir, məsələn:

Müəllim "like/dislike + Gerund" qaydasını tələbələrə ana dilində izah edir, sonra isə lövhəyə yazır: Velosiped sürməyi sevirsən? Sonra tələbəyə ana dilində deyir: Bu cümləni İngilis dilinə tərcümə et və sonra lövhəyə yazır: Do you like riding a bicycle?

İzah edildikdən sonra çalışmalar yerinə yetirilir və yoxlanılır.

S 1: Do you like playing volleyball?

S 2: Do you like read a book?

Teacher: No, it should be : Do you like reading a book?

Tipik qrammatika-tərcümə metodunda müəllim əksər vaxt ana dilindən istifadə edir. Danışıq bacarığından istifadə bu metodla mümkün deyil, çünki yalnız cümlələri tamamlayarkən bir neçə sözdən istifadə edilir. Sözlər isə ayrılıqda əzbərdən öyrənilir. Bu metoddan istifadə zamanı sinifdə aparıcı qüvvə müəllimdir, tələbələr arasında ünsiyyət zəif olur. Metodun əsas məqsədi dəqiqlik, başqa sözlə qrammatik cəhətdən doğru cümlələr qurmaqdır. O zamanlarda bu metoddan istifadəni labüd edən Latın, Sanskrit dilində olan hər hansı bir məlumatı əldə etmək idi. Belə ki, bu məlumatları yalnız oxuyub tərcümə etməklə əldə etmək mümkün idi, çünki həmin dil daşıyıcıları artıq mövcud deyil.

Tələbələrin cümlələri yazılı tərcümə etməsi, qaydaları mənimsəməsinə baxmayaraq, həmin dildə ünsiyyət saxlaya bilməməsi səbəbindən XIX əsrin ortalarından başlayaraq alimlər bu metoda qarşı çıxmışlar. Bununla belə, tələbələrin tərcümə zamanı hər iki dil arasındakı oxşar və fərqli xüsusiyyətləri müəyyən etməsi də onların müəyyən bilik əldə etməsi deməkdir.

Qrammatika – Tərcümə metodunun əksinə olaraq Birbaşa metod və Audiolinqual metod tərəfdarları qrammatikanın tədrisinin əleyhinə idilər. Son zamanlarda daha çox istifadə edilən Kommunikativ Dil Tədrisinin tərəfdarları isə bildirir ki, ehtiyac olduqda qrammatika tədris edilməlidir. Lakin Qrammatika – Tərcümə metodunda olduğu kimi açıq deyil, gizli metodla tədris edilməlidir. Yəni müəllimin tələbələrə izah etməsi əvəzinə tələbələr müxtəlif mətnlər, tapşırıqlar vasitəsilə qaydanı özləri "kəşf etməlidir". Gizli metoddan istifadə zamanı yeni qrammatik məlumat tələbəyə birbaşa göstərilmir. Onlara mətn verilir və qrammatik qayda

mətnin içində təqdim edilir. Tələbənin əsas diqqəti qrammatik qaydaya deyil mətnə yönəlir. Açıq metod isə gizli metodun əksidir. Bu zaman qrammatik qayda tələbəyə aydın göstərilir. Məsələn, Gələcək sadə zaman:

Açıq metod vasitəsilə:

Gələcəksadə zamanın forması – "will/ shall + verb". Sonra müəllim bir neçə söz deyir və tələbələr onu gələcək zamanda işlədir:

Ring –will ring

Write – will write

Sleep – will sleep, etc.

Gizli metod vasitəsilə:

Müəllim tələbələrə aşağıdakı mətni təqdim edir və tələbələrdən gələcək zamanda işlənən feilləri tapmağı tələb edir.

Next year, I will travel to Japan with my friends. We will visit Tokyo and Kyoto to see the beautiful temples. I think it will be a fantastic trip! We will try all the local food, and I am sure we will take many photos. I will not forget to buy souvenirs for my family. The trip will be amazing.

Qrammatikanın tədrisi zamanı qarşıya çıxan çətinliklər. İlk öncə müəyyən etmək lazımdır ki, hansı qrammatik qaydalar tədris edilsin. Belə ki, ingilis dilinin qrammatikasını isimlərin cəmi, feillərin zamanları, sifətin dərəcələri, artikl, modal feillər, cümlə üzvləri, mübtəda xəbər uzlaşması olmadan təsəvvür etmək mümkün deyil.

Qrammatikanın tədrisi zamanı meydana çıxan əsas problemləri üç qrupa ayırmaq olar [4]:

- Funksiya və forma;
- Ana dil ilə tədris olunan xarici dil arasındakı oxşarlıqlar və fərqliliklər;
- İstisnalar.

Feilin dörd zamanının və hər zamanın da dörd forması var. Tələbələr əsasən keçmiş zamanda qaydalı və qaydasız feillər öyrənərkən səhvlərə yol verir. Belə ki, ümumi qaydaya əsasən keçmiş zaman "- ed" hissəciyi vasitəsilə düzəlir. Lakin "go – went, stand – stood, wake – woke, fall – fell" kimi feillərdən istifadə edərək bəzən yenə "- ed" hissəciyi artırılır – "go – goed, stand – standed, wake – waked, fall – falled".

Bəzən qrammatik qaydanın funksiya və forması arasında uyğunsuzluq olur [1]. Məsələn, gələcək zamanı ifadə etmək üçün yalnız "shall" və "will"- dən istifadə edilmir. Formaca digər zamanları əks etdirən qrammatik formalardan da istifadə edilir, lakin bu zaman həmin qaydalar da gələcək zamanı ifadə edir. Aşağıdakı nümunələrə diqqət edək:

He'll come tomorrow.

He'll be coming tomorrow.

He's coming tomorrow.

He's going to come tomorrow.

He's to come tomorrow.

He comes tomorrow.

Formaca birinci cümlə sadə gələcək, ikinci gələcək davamedici, üçüncü cümlə indiki davamedici, dördüncü cümlə "to be going to" birləşməsi, beçinci

modal fel, sonuncu isə indiki qeyri-müəyyən zamandır. Bununla belə bütün cümlələr gələcək zamanı ifadə edir, lakin hər bir cümlənin mənasında da fərqliliklər var. Belə ki, "He'll come tomorrow" qəfil qərarı, "He'll be coming tomorrow" hərəkətin dəqiq təşkilini, "He's coming tomorrow" planlaşdırıldığını, lakin dəqiq təşkil edilmədiyini, "He's going to come tomorrow" niyyətin olduğunu, "He's to come tomorrow" məcburiyyəti və sonuncusu isə "He comes tomorrow" rəsmi olduğunu ifadə edir.

Qrammatikanın tədrisi zamanı qarşılaşılan ikinci problem ana dili və xarici dil arasındakı oxşarlıqlar və ziddiyyətlərdir . Məsələn, həm azərbaycan, həm də ingilis dilində sifət isimdən əvvəl gəlir, qırmızı qələm – red pen. Hər iki dildə isim cəmləşsə də sifət olduğu kimi qalır: qırmızı qələmlər – red pens. Lakin, say ilə uzlaşma müxtəlifdir: on qələm-ten pens. Nümunədən də göründüyü kimi, azərbaycan dilində isim cəm şəkilçisi qəbul etmədiyi halda, ingilis dilində "pen" sözü cəmləşərək "pens" oldu.

Digər bir nümunə isə söz sırası ilə bağlıdır. Belə ki, ingilis dilində söz sırası "mübtəda+xəbər+tamamlıq+zərflik" kimidir. Azərbaycan dilində isə "mübtəda+(zərflik+) tamamlıq+xəbər" kimidir. Hər iki dildə "təyin" təyin etdiyi sözün qarşısında işlənir.

He wanted to be a military doctor at the hospital.

O, xəstəxanada hərbi həkim olmaq istəyirdi.

Bu cür çətinliklər öyrənmə prosesinə maneə olsa, onlar dilin ayrılmaz hissəsidir və tədrisi və öyrənilməsi vacibdir.

Nəticə. Qrammatika yalnız qaydalardan ibarət deyil, əksinə o, ingilis dilinə yiyələnmə prosesini sürətləndirən bir sistemdir. Təəssüf ki, bugün hələ də ənənəvi metod tərəfdarları yalnız qrammatikanın tədrisini əsas götürdüyü kimi, dilin yalnız kommunikasiyadan ibarət olduğunu düşünənlər isə qrammatikanın tədrisindən imtina edirlər. Yuxarıda da qeyd edildiyi kimi, qrammatika dilin onurğa sütunudur. Qrammatikasız nə səlis nitq, nə oxuyub – anlama bacarığı, nə doğru yazı, nə də özünə əminlik mümkün deyil. Eyni zamanda qarşı tərəfin bizi düzgün anlamasını da təmin edir. Feillərin zamanı, mübtəda – xəbər uzlaşması, durğu işarələri kimi əsas qrammatik qaydalara yiyələnmək yazılı və şifahi İngilis dili bacarığımızı inkişaf etdirir. Buna görə də dilin ayrılmaz hissəsi olan qrammatika tədris edilməlidir. Lakin o, yalnız qaydalar sistemi kimi deyil, maraqlı, tələbələrdə motivasiya yarada biləcək metodlarla tədris edilməlidir. Belə ki, müəllim qrammatik qaydaları kommunikativ situasiyalarda təqdim etməlidir. Bu zaman həm müəllim bu qaydaları tədris etməyə, həm də tələbələr daha dərindən öyrənməyə səy göstərəcək.

Ədəbiyyat:

1. Ali A.Kh., Farhad P. Place of Grammar in English Language Teaching, // Language in India, Vol. 16:2, - 2016. - p. 140-149.
2. Burns, A. Grammar and communicative language teaching: Why, when and how to teach it? // In CamTESOL Conference on English Language Teaching: Selected Papers, Vol. 5, - 2018, p. 9-15.
3. Harmer, J. The Practice of English Language Teaching (5th ed.) / J. Harmer. - Essex, England: Pearson Education. – 2015, - 459 p.

4. Rajabova N.N. Ways of acquiring grammatical knowledge. // Иностранные Языки В Современном Мире, Сборник материалов XVIII Международной научно-практической конференции. - Казань, Россия, - 2025. - с. 261-265.
5. Ur, P. A Course in English Language Teaching (2nd ed.) / P. Ur. - Cambridge: Cambridge University Press, - 2012, p. 72-76

Narmina Rajabova

Summary

THE IMPORTANCE OF GRAMMAR IN THE PROCESS OF TEACHING THE ENGLISH LANGUAGE

The article discusses language teaching that encompasses both macro and micro skills, particularly grammar, which is considered its "backbone." Without grammar, it is possible to express only simple ideas, such as "Perfect!" or "Read!", but fluent speaking and writing are not achievable. P. Ur defines grammar as a way of putting words together to form correct sentences, while J. Burns describes it as the "nourishing source" of language.

The article examines the importance of grammar teaching. It highlights the attention given to grammar in the methodologies and approaches that have existed throughout the history of language teaching, including the Grammar-Translation Method, the Direct Method, the Audiolingual Method, and Communicative Language Teaching.

The article also identifies difficulties encountered in teaching grammar, such as the relationship between function and form, the similarities and differences between the native language and the target foreign language, and grammatical exceptions. Furthermore, it emphasizes that teaching grammatical rules within communicative situations leads to a deeper understanding and mastery of grammar.

Нармина Раджабова

Резюме

ЗНАЧЕНИЕ ГРАММАТИКИ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

Статья посвящена обучению языку, включающему макро- и микрокомпетенции, в особенности грамматике, которая считается его «позвоночником». Без грамматики возможно выразить лишь элементарную мысль, например: «Perfect!», «Read!», однако свободная устная и письменная речь невозможна. П. Ур определяет грамматику как способ объединения слов для построения правильных предложений, тогда как Дж. Бёрнс называет её «питательным источником» языка.

В статье исследуется важность преподавания грамматики. Показано внимание, уделяемое грамматике в существовавших в истории преподавания языков методах и подходах – грамматико-переводном методе, прямом методе, аудиолингвальном методе и коммуникативном обучении языку.

Здесь также определены трудности, возникающие в процессе преподавания грамматики: функция и форма; сходства и различия между родным языком и изучаемым иностранным языком; исключения. В статье отмечается, что преподавание грамматических правил в коммуникативных ситуациях способствует их более глубокому усвоению.

Rəyçi: p.f.d. A.Kazımova

PEDAQOGİKA

Afət İsrayılova
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1057

İNKLÜZİV TƏHSİLİN MÜASİR PROBLEMLƏRİ

Açar sözlər: *inklüziv, təhsil, problem, sağlamlıq, məktəb*
Keywords: *inclusive, education, problem, health, school*
Ключевые слова: *инклюзив, образование, проблема, здоровье, школа*

Giriş: Fransız dilindən tərcümədə "inclure" "daxil etmək" deməkdir. İnklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqlara sağlam həmyaşıdlar qrupunda ümumtəhsil məktəbi kurikulumunu mənimsəmələrini təklif edən təhsildir. İnklüzivliyin əsas prinsipi diaqnoz qoyulmuş əlilliklərdən və sağlamlıq vəziyyətindən asılı olmayaraq tələbələrin bərabər dəyəri və bərabərliyidir.

İnklüziv məktəbin şərtləri kompleks pozğunluqlardan, inkişaf geriliyindən və davranış, görmə, eşitmə, nitq, intellekt və dayaq-hərəkət sistemi disfunksiyalarından əziyyət çəkən uşaqlara imkan verir:

– sağlam uşaqlarla məktəbə getmək;
– həmyaşıdları ilə sinifdə olmaq;
– sağlamlıq ehtiyacları və imkanlarına uyğun fərdi öyrənmə məqsədlərinin mövcudluğu.

Sağlamlıq imkanları məhdud uşaqlar uşaq bağçası qruplarına, ümumtəhsil məktəbi siniflərinə, inklüziv prinsipə əməl etməyə qadir olan peşə və ali təhsil müəssisələrinə daxil edilirlər. Bu, böyük nailiyyətdir, çünki inklüzivlik belə uşaqların təhsil və peşə hazırlığı üçün yeganə imkandır.

İnklüziv sinifdə uşaqlar təkcə birlikdə öyrənmir, həm də işləyir, ünsiyyət qurur və əylənirlər. Bu yanaşma ilə dərslər uşağın bacarıqlarından, proqramı mənimsəməyə və sağlam həmyaşıdları ilə birlikdə olmağa hazırlığından asılı olaraq həyata keçirilir. Bəzən uşaqlar bütün günü birlikdə keçirirlər, bəzən isə yalnız birgə dərslər, tədbirlər zamanı ünsiyyət qururlar [2, s. 94].

Ölkəmizdə təhsil sistemi çoxdan uşaqları xəstə və sağlamlara bölüb. Əlillər əmək qabiliyyətli insanlarla bərabər təhsil almaq və işləmək istəklərini həyata keçirə bilmir, ayrı-seçkilik və təcriddən əziyyət çəkirdilər. İnklüziv təhsilin əsas məqsədi bütün uşaqların təhsilə və peşəyə bərabər çıxışını təmin etmək, bunun üçün lazımi şərait və mehriban mühit yaratmaqdır.

Təhsilə inklüziv yanaşma aşağıdakı prinsiplərə əsaslanır.

– insan qabiliyyətindən, uğurundan asılı olmayaraq dəyərlidir;
– hər birimiz düşünə və hiss edə bilərik;
– bütün insanların bir-birinə ehtiyacı var;
– yüksək keyfiyyətli təhsili ancaq real ünsiyyətlə əldə etmək olar;
– hər birimizin ünsiyyət qurmaq və başqaları tərəfindən eşitmək hüququmuz olmalıdır;
– hər birimizin həmyaşıdlarımızla köməyə və dostluğa ehtiyacı var;
– şagirdlər edə bilmədiklərindən daha çox bacardıqlarında irəliləyirlər;
– müxtəliflik insanın həyatının bütün sahələrini yaxşılaşdırır.

Bu prinsiplərdən belə nəticə çıxır ki, təhsil əsas insan hüququdur və onun hər birimiz üçün əlçatan olması ədalətli cəmiyyət yaradır.

Bu təhsil forması olan xüsusi uşaqlar ciddi üstünlüklər əldə edirlər:

– təbii şəraitdə ünsiyyət bacarıqlarını inkişaf etdirmək;
– müxtəlif vəziyyətlərdə sağlam insanların davranışlarını izləyə bilmək;
– oyun fəaliyyətinin daha inkişaf etmiş səviyyələrində bacarıqlarını sınamaq;
– yetkinlik dövründə cəmiyyətdə gələcək inkişaf üçün yaxşı hazırlıq almaq.

Normal inkişafı olan tələbələr üçün inklüzivliyin üstünlükləri aşağıdakılardır:

– sağlam uşaqlar qarışıq qruplarda yalnız normal inkişaf edən həmyaşıdlarından ibarət qruplara nisbətən daha aktivdirlər;
– uşaqlar əlilliyin nə olduğunu başa düşür, müxtəlif insanlarla ünsiyyət qurmağı, həssas və dözümlü olmağı öyrənirlər;
– kurikulum daha sıxdır və tələbələrə qoyulan tələblər adi məktəbə nisbətən daha sərtdir.

Bir sözlə, uşaqlar birlikdə oxuyaraq bir-birinə dəstək verməklə müstəqilliyi öyrənir, onlarda səbir və insanlıq formalaşır, xəstəliklə norma arasındakı sərhədlər silinir və buna görə də sağlam məktəblilərdə üstünlük hissi olmur, xüsusi qayğıya ehtiyacı olan uşaqlarda üstünlük hissi yaranır [4].

İndiki vaxtda bütün uşaqların tam və rahat təhsilini təşkil etmək üçün həll edilməmiş çoxlu problemlər və çətinliklər var ki, onları aradan qaldırmaq lazımdır. Müasir inklüziv təhsil sistemində xüsusilə aktual olan əsas məsələlər aşağıdakılardır:

1. İnklüziv təhsil müəssisələri yalnız böyük şəhərlərdə mövcuddur. Ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil xidmətləri az olduğu halda, bəzi qəsəbələrdə kiçik əlillər iqtisadi səbəblərdən tam təhsil almağa ümid edə bilmirlər. Ona görə də onlar yalnız islah məktəblərində təhsil alırlar.

2. Təhsil sisteminin mükəmməl olmaması. Xüsusi qayğıya ehtiyacı olan uşaqların normal inkişaf edən həmyaşıdları ilə birlikdə təhsil almasına mane olan bir sıra çətinliklər var: məsələn, sosial dəstək sistemi yaxşı inkişaf etdirilməyib, inklüziv təhsili tənzimləyən normativ hüquqi aktlar yoxdur.

3. Korreksiya pedaqogikası sahəsində ixtisaslı mütəxəssislərin kəskin çatışmazlığı. Bu gün əsasən korreksiya məktəblərində işləmək üçün psixoloqlar, müəllimlər, loqopedlər, defektoloqlar hazırlayan kadr hazırlığı sistemini təkmilləşdirmək lazımdır. Xüsusi müəllimlər olmadan isə inklüziv məktəbdə sağlamlıq imkanları məhdud uşağa daimi dəstək göstərmək mümkün deyil.

4. Cəmiyyətin əlil uşaqları qəbul etməyə hazır olmaması. Cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara qarşı mənfi münasibət hələ də güclüdür. Məsələn, sağlam uşaq sahibi olan valideynlər çox vaxt övladlarının əlillərlə birgə oxumasını istəmirlər, bu təhsil formasının bilik keyfiyyətinin aşağı düşəcəyindən qorxurlar. Bu stereotipləri dəyişmək üçün əhali ilə maarifləndirmə işi aparmaq lazımdır.

5. Kurikulumların uyğunsuzluğu. Xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusi və ümumtəhsil məktəblərində təhsil alması üçün kurrikulumda dəyişikliklər etmək lazımdır.

6. İnklüziv təhsil müəssisələri üçün kifayət qədər maliyyə vəsaitinin olmaması. Bu təhsil formasını inkişaf etdirmək üçün məktəbləri xüsusi texniki vasitə və avadanlıqlarla təmin etmək, korreksiya sinifləri üçün otaqlar, loqopedik və tibb kabinetləri, məşq terapiyası kabinetləri, sensor otaqlar təchiz etmək lazımdır.

– kar və zəif eşitmə qabiliyyəti olan insanlar üçün yüksək keyfiyyətli akustik cihazlar;

– dayaq-hərəkət sistemi pozğunluğu olan uşaqlar üçün panduslar, liftlər və əlil arabaları;

– kor və zəif görənlər üçün innovativ vasitələr.

7. Ölkədə erkən yaşlarda inkişaf pozuntularının vaxtında aşkar edilməsi üçün vahid sistem yoxdur. Gənc uşaqlarla iş təcrübəsi hazırda Rusiyanın yalnız bir neçə regionunda mövcuddur.

8. Müəllimlər əlil uşaqların bir çox problemlərini bilmirlər və onları adi məktəbdə tədris prosesinə daxil etməyə hazır deyillər.

9. İnklüzivliyin effektivliyinə dair sənədləşdirilmiş tədqiqatın çatışmazlığı var. Məsələn, aşağıdakı suallar cavabsız qalır:

– hansı meyarlara görə məktəb inklüziv sayıla bilər;

– sağlam həmyaşıdları ilə eyni qrupda təhsil alan sağlamlıq imkanları məhdud uşaqların inkişafındakı dəyişiklikləri necə qeyd etmək olar;

– xüsusi ehtiyacları və əlilliyi olan uşaqların müxtəlif populyasiyalarını əhatə edən empirik tədqiqatların nəticələrini necə düzgün təhlil etmək olar.

10. Dövlətin maddi dəstəyi çox vaxt tələbəyə deyil, müəssisənin növünə yönəldilir.

11. Əlilliyi olan məktəblilər üçün Vahid Dövlət İmtahanının keçirilməsi üçün normativ-metodiki əsas yoxdur. Vahid Dövlət İmtahanından keçə bilməmək əlil uşaqları digər məzunlarla qeyri-bərabər vəziyyətdə qoyur.

12. Müəllimlər psixoloji problemlər yaşayır, öz güclü və bacarıqlarına arxayın deyillər və öz hərəkətlərinə görə də məsuliyyət daşımaqdan qorxurlar.

13. Sağlam uşaqlar və onların valideynləri əlillərlə birgə təhsilin əleyhinədirlər. Valideynlər sinifdə xüsusi dəstəyə ehtiyacı olan uşaqların olmasından narahatdırlar, bir çox ana və ata bunun uşağının inkişafına və xarakterinə mənfi təsir göstərə biləcəyinə inanır. Adi uşaqların özləri də sağlamlıq imkanları məhdud yaşıdlarına heç də həmişə müsbət münasibət bəsləmir, onlara yazığı gəlir, onlarla necə ünsiyyət quracağını bilmir, hətta laqeyd yanaşırlar.

İnklüziv təhsilin səmərəli inkişafını təmin etmək üçün aşağıdakılar lazımdır:

– əlilliyi olan məktəbəqədər uşaqlara erkən düzəliş yardımı göstərmək;

– bütün tələbələrin ehtiyaclarını ödəmək üçün kurrikulumun müxtəlif təhsil metodları ilə zənginləşdirilmək;

– bütün uşaqlar üçün adi məktəbə getmək hüququnu və onlara çıxışı təmin etmək;

– zəruri islahatların aparılması, çatışmayan qanunların qəbul etmək;

– uşaqları onlar üçün əlçatan və maraqlı olan fəaliyyətlərə cəlb etməklə şagirdlərdə öyrənməyə müsbət münasibət formalaşdırmaq;

– hər bir şagirdin yaşını, şəxsiyyətini, sağlamlığını, fərdi xüsusiyyətlərini, qabiliyyətlərini və istəklərini nəzərə almaq;

– təhsil prosesinə effektiv psixoloji və pedaqoji dəstəyi tətbiq etmək (uşaq bağçasından başlayaraq);

– təhsil prosesinin bütün iştirakçıları üçün rahat və rahat bir yer yaratmaq;

– uşaqlarda, valideynlərdə, müəllimlərdə tolerantlıq və empatiya inkişaf etdirmək;

– müxtəlif uşaqlarla işləmək üçün ixtisaslı mütəxəssisləri cəlb etmək;

– professor-müəllim heyətinin ixtisasının vaxtında artırılmasına nəzarət etmək;

– hər bir tələbənin nəticələrini təhlil etmək;

– bütün tələbələrin cəmiyyət üçün bərabər dəyərini tanımaq;

– məktəbdənkənar tədbirlər və asudə vaxt keçirmək;

– bütün tələbələrin sağlamlığının qorunması və yaxşılaşdırılması üçün tədbirlər həyata keçirmək;

– onlayn təhsil sistemini inkişaf etdirmək.

Ölkəmizdə inklüzivliyin inkişafı ilə bağlı müəyyən edilmiş problemlər vahid kompleks proqramın qəbulunu, normativ hüquqi aktların təkmilləşdirilməsini, maliyyə təminatını, maddi-texniki və kadr təminatını, habelə ixtisaslı mütəxəssislərin yardımını tələb edir [3].

Nəticə: İnklüziv təhsil konsepsiyası hər bir uşağın, o cümlədən sağlamlıq imkanları məhdud olanların bərabər hüquq və imkanlara malik olmasını, onların cəmiyyətin tamhüquqlu üzvü kimi formalaşmasını təmin etməyi qarşıya məqsəd qoyur. Aparılan təhlillər göstərir ki, ölkəmizdə inklüziv təhsilin tətbiqində müəyyən nailiyyətlər əldə edilsə də, bu sahədə ciddi struktur, pedaqoji və sosial problemlər qalmaqdadır. Əsas maneələr sırasında ixtisaslı kadr çatışmazlığı, maddi-texniki bazanın yetərsizliyi, ictimai şüurda mövcud olan stereotiplər və hüquqi-normativ boşluqlar xüsusi vurğulanmalıdır.

Bu sahədə davamlı inkişaf və effektiv nəticə əldə etmək üçün inklüziv təhsilin təşkilinə sistemli və kompleks yanaşma zəruridir. Bu isə yalnız dövlət qurumlarının, təhsil müəssisələrinin, pedaqoqların və valideynlərin birgə əməkdaşlığı və koordinasiyalı fəaliyyəti nəticəsində mümkündür. İnklüzivliyin effektiv tətbiqi, həmçinin cəmiyyətdə tolerantlıq, empatiya və sosial məsuliyyət kimi dəyərlərin formalaşmasına xidmət edir və uzunmüddətli perspektivdə daha ədalətli və humanist təhsil sisteminin qurulmasına imkan yaradır [1, s. 45].

Elmi yeniliyi: Bu məqalənin elmi yeniliyi inklüziv təhsilin müasir problemlərinin Azərbaycanda spesifik kontekstdə sistemli şəkildə təhlil olunmasından və beynəlxalq yanaşmalarla müqayisəli aspektdə araşdırılmasından ibarətdir. Tədqiqatda ilk dəfə olaraq, inklüziv təhsilin həyata keçirilməsinə mane olan institusional, sosial-psixoloji və pedaqoji faktorlar birgə təhlil edilmiş, həmçinin, mövcud qanunvericilik, kadr hazırlığı, cəmiyyətin münasibəti və infrastrukturla bağlı çə-

tinliklər kompleks şəkildə qiymətləndirilmişdir. Bununla yanaşı, müəllif inklüziv təhsilin səmərəli təşkili üçün praktik yönümlü təkliflər təqdim edir, bu da nəzəri yanaşmalarla praktiki problemlərin uzlaşdırılmasına xidmət edir. Məqalə Azərbaycanda inklüziv təhsilin inkişafı istiqamətində vahid yanaşma və fəaliyyət strategiyasının zəruriliyini elmi əsaslarla ortaya qoyur.

Praktik əhəmiyyəti: Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, inklüziv təhsilin tətbiqində mövcud olan real problemlər və çətinliklər konkret şəkildə müəyyənləşdirilərək, onların aradan qaldırılması üçün məqsədyönlü təkliflər irəli sürülmüşdür. Araşdırmanın nəticələri inklüziv təhsilin təşkili ilə məşğul olan təhsil müəssisələri, pedaqoji heyət, dövlət orqanları və sosial xidmət qurumları üçün praktik yol xəritəsi rolunu oynaya bilər. Təklif olunan tədbirlər – kadr hazırlığının təkmilləşdirilməsi, kurikulum uyğunlaşdırılması, infrastrukturun inkişafı və ictimai maarifləndirmə işləri – inklüziv mühitin yaradılmasında və təhsil prosesində sağlamlıq imkanları məhdud uşaqların daha səmərəli iştirakını təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, məqalədə yer alan yanaşmalar müəllimlərin və valideynlərin inklüzivliyə münasibətinin formalaşdırılması və onların bu prosesə daha fəal cəlb olunması üçün də faydalı ola bilər.

Ədəbiyyat:

1. Nuriyev, Ə. X. (2017). Davamlı və tarazlı regional inkişaf. Bakı: Avropa.
2. Малофеев, Н. Н. (2003). Специальное образование в России и за рубежом. Москва: Издательство.
3. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası, 2019-2030. (2018). Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
4. NCRDO. (n.d.). Современные проблемы инклюзивного образования. Retrieved from https://ncrdo.ru/center/blog/sovremennye-problemy-inklyuzivnogo-obrazovaniya/

Afet Israyılova

Summary

MODERN PROBLEMS OF INCLUSIVE EDUCATION

Inclusion is the full involvement of children with different mental and physical abilities in all aspects of school life, in which other children are happy to participate. This process requires real adaptation of school conditions to meet the needs of all children, without exception, to distinguish diversity. In Azerbaijan, there are still serious problems related to providing children with limited opportunities with inclusive education. The article examines the modern problems of inclusive education.

Афет Исраилова

Резюме

СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

Инклюзия – это полное вовлечение детей с разными умственными и физическими способностями во все аспекты школьной жизни, в котором с удовольствием участвуют и другие дети. Этот процесс требует реальной адаптации школьных условий для удовлетворения потребностей всех без исключения детей, выделения разнообразия. В Азербайджане по-прежнему существуют серьезные проблемы, связанные с обеспечением детей с ограниченными возможностями инклюзивным образованием. В статье рассматриваются современные проблемы инклюзивного образования.

Rəyçi: dos.V.Bəşirov

Oyuga Norman Anyinyo
Baku State University
https://orcid.org/0009-0004-3864-7712

https://doi.org/10.30546/2518-752X.02.101.1059

ARTIFICIAL INTELLIGENCE AS A PREDICTOR OF EMERGING SOCIAL STRATIFICATION IN HIGHER EDUCATION

Keywords: *Social Stratification, Artificial Intelligence, Digital Literacy, Motivation, Algorithmic Bias*
Açar sözlər: *Sosial təbəqələşmə, Süni intellekt, Rəqəmsal Savadlılıq, Motivasiya, Alqoritmik Bias*
Ключевые слова: *социальная стратификация, искусственный интеллект, цифровая грамотность, мотивация, алгоритмическая предвзятость*

Introduction

Conventionally, inequalities in societies have contributed to a hierarchical organisation of groups and individuals based on aspects such as prestige, wealth, power, education levels, ethnicity and gender. This is known as social stratification. These social biases have increased even more in the era of technological advancement since artificial intelligence (AI) has infiltrated every sector of society by employing algorithmic systems as impartial arbiters. A case in point is the artificial intelligence use of algorithms to determine applicants' job suitability and credit scores for loan suitability [6].

According to [6], algorithmic bias is not just a technical problem but can be classified as a social phenomenon that reveals societal hierarchies. This is because social conditions that lead to prejudices cannot be sufficiently addressed by employing technical solutions. Hence, biased algorithms are a direct byproduct of biased design choices, biased data entry and biased social systems. With this understanding, algorithmic bias must not be seen solely as a side effect of technological advancement, but rather as a technological phenomenon that can be mitigated by implementing proper engineering solutions. Alternatively, proponents of algorithmic objectivity argue that a high level of fairness and objectivity is realised when using automated systems rather than human decision makers who are prone to emotional manipulation and conscious prejudice [1].

As modernity continues to impact social and economic dimensions of life, AI systems are increasingly becoming part and parcel of technological systems. Algorithmic bias needs to be kept under deliberate check lest a digital caste system emerge, favouring specific groups while disadvantaging others [1]. As important as digital technology is, its development can encounter shortcomings. The rapid technological revolution has proven the need to continue improving tools and platforms to adapt to new systems [5]. There are various complexities associated

with the use of digital tools. These include ethical complexities; data privacy, misinformation and misuse and disparities in access which affect development [3].

To integrate AI successfully, teachers need adequate training, adequate infrastructural investments done and implementation that complies with pedagogical standards and ethics adhered to [1, p.10]. He describes in his study how AI systems shape inequality and the mitigation measures of ensuring fairer algorithmic systems, and that algorithmic bias is a key medium of propagating social stratification through digital spaces. Citing other studies from non-educational contexts, [1,p.3] echoes evidence of how algorithmic tools have contributed to racial bias in the criminal justice system in several US states. Secondly, this study highlighted how the use of an AI recruitment tool by Amazon led to gender discrimination against women in favour of men in the hiring process. Finally, the study pointed to a racial bias against black patients, whose health needs are underestimated compared to white patients having similar conditions in the State of California, USA health care provision.

Methods and Materials

A qualitative research approach was used for this paper. This involved a qualitative content analysis (QCA) of scientific works that address the issue of artificial intelligence as a predictor of social stratification, whether among the higher education administrators, faculty, staff and students. By mingling the results and perspectives of numerous studies, a qualitative literature review can potentially elaborate on phenomena more intensely than a single study. This technique enables scholars to see social reality in a subjective yet scientific style, hence placing prominence on both the content and text [8]. Both full papers and abstracts of peer-reviewed published articles were sampled, and the findings about the influence of Artificial Intelligence (AI) on the various social groups in educational institutions are discussed in the results section. To provide a background insight into artificial media influence on social stratification in education, and also offer a summary of previous results on similar studies, the abstracts were scanned to determine relevance. The full articles published were reviewed to assess the impact of artificial intelligence on various actors in education. The main search engine used for retrieving resources was Google Scholar.

Results and Discussion

Scholars classify motivation as either intrinsic or extrinsic. By definition, intrinsic motivation entails partaking of an activity basically because it is inherently enjoyable or interesting, while extrinsic motivation entails partaking of an activity to get a reward or escape an external punishment. As indicated by [11], AI tools, particularly ChatGPT, affect both intrinsic and extrinsic motivation of the learners. It asserts the key role of digital literacy in enabling effective and advantageous engagement with AI-assisted learning environments, highlighting the connection between digital competence, improved learning outcomes and motivation. Students feel motivated and engaged as they use ChatGPT because of its features, like offering real-time interaction, personalised feedback. Significantly higher motivation levels have been reported among students who use these tools than those in traditional settings, with a strong affinity to language skills, for example, reading, speaking, listening and also the use of chatbots.

The effectiveness of AI tools as a determinant of the digital literacy of students cannot be understated. A study by [11] states that to engage with AI tools such as ChatGPT, students with higher literacy levels proved to be better furnished, hence their learning potential was maximised. Digital competence equips these students with the requisite skills for navigating AI interfaces more effectively, handling digital tools and employing critical thinking skills in feedback analysis. Otherwise, students who are lacking in digital competence occasionally find difficulties interacting with digital tools, and this may result in demotivation and poor performance [1]. In fact, [9]cautions that digital literacy should be taught early to give room for students to critique the source of the information they interact with.

The real-time and individualised feedback that always characterises successful AI-assisted learning processes leads the students to change their approach to how they study. Student motivation is maintained when the feedback is instantly received, as the students can decipher the magnitude of their hard work and make instantaneous improvements. Furthermore, [11] explains that ChatGPT supports the students' self-directed learning, where the students are not only able to initiate their learning but also internalise the learned content. In consonance with this, [7] reiterates that AI chatbots are useful pedagogical tools which create interactive experiences for the students by helping them to deeply understand course content, give personal feedback and help researchers in data collection and analysis.

Despite its merits, Artificial Intelligence in educational institutions can occasionally be counterproductive. One such challenge is that it can lead to digital fatigue as well as task monotony if the process of integrating the tools is not carefully analysed. Due to the boring nature of repetitive tasks, the learning process can degenerate into disengagement and passivity, and as a result, the motivational impact of the tools is diminished. In addition, despite the effective feedback provided by ChatGPT, various actors have held reservations with regard to the deficiency in emotional details in AI-driven interactions [11]. Also, the launch of AI chatbots like Grok.com and ChatGPT has been confronted by academic integrity challenges. For example, [4] elaborates that the lack of plagiarism verification leads to misuse of these tools, hence the heightened cases of plagiarism and malpractices. Therefore, among the reasons why we still have people who are hesitant to fully embrace AI is its capacity to reproduce academic achievements that would take so long and lots of effort and resources within seconds.

According to [7], multiple social risks result from integrating AI chatbots in Higher education institutions. These include stereotyping, dissemination of inaccurate information, contracted human interaction, unpredictable answers, unethical data collection, violation of data privacy and accessibility barriers. This aligns with another view by [2] that identifies the disadvantages of these tools, such as compromising user privacy, misinformation and data training biases. These drawbacks, as listed before, support the view by [3, p.6] about the problem of hallucination that AI tools experience. They end up giving unexpected data because of data beyond the training set of the AI tool.

In higher education institutions, the adoption of AI chatbots, for example, ChatGPT, can positively impact various activities like admission, in which individual students' needs are taken into consideration. There are student services that apply AI chatbots, for instance, guidance and financing scheduling [7]. Students who are joining a university for the first time can leverage AI chatbots to check the pre-enrollment requirements and register for enrollment within the specified time. Still later, they can access other services like the exam timetable, class schedules and university-related communication. Other benefits enhanced by the adoption of AI chatbots, as outlined in various studies [3, p. 7], include teaching assistance, improved communication, increased productivity, and reduced interaction ambiguity. Without proper guidance, psychosocial, financial and academic support, university students get exposed to the risk of dropping out of college. To mitigate this problem, AI chatbots can be used to provide customised support and assistance, thereby boosting student retention [7].

Finally, [10] affirms that AI technology's apparent influence on social inequality is exhibited in the contradictions found between social classes, thereby creating unrelated thresholds for technological access. Low-income and technologically illiterate groups are disadvantaged in terms of the acquisition of resources and application of technology. This results in social class solidification or inequality. Students and faculty members from well-endowed backgrounds have the benefit of obtaining more social resources to overcome technological barriers, consequently boosting access, unlike those from needy backgrounds.

Conclusions

Artificial Intelligence applications such as ChatGPT have gained popularity among students for reasons ranging from the provision of immediate feedback, instant corrections, individualised content critical for enhancing learner autonomy and effectiveness in language development, improving participation and fostering student-paced learning. Notwithstanding the merits that arise from the use of these technologies, the drawbacks are that they can still contribute to social inequality by depriving the underprivileged of technological access, promote stereotypes, violate data privacy concerns, disseminate inaccurate information and unethically collect data. This study also found that algorithmic biases can exacerbate discrimination along ethnic, racial, and gender lines. As a way forward, it is not enough to fix algorithmic biases. AI systems need to be re-engineered so that, upon use, they can help promote social equality and not otherwise. Based on this, historical patterns of exclusion and discrimination should not form the basis for creating digital systems that relay societal aspirations for justice and fairness, but a blend of technical challenges and social opportunity.

References:

1. Ahluwalia, P. S. (2025). Algorithmic bias and social stratification: How AI shapes inequality in digital societies. Siddhanta’s International Journal of Advanced Research in Arts & Humanities, 28–37. https://orcid.org/0000-0002-6086-8616
2. Baidoo-Anu, D., & Ansah, L. (2023). Education in the era of generative artificial intelligence (AI): Understanding the potential benefits of ChatGPT in promoting teaching and learning. SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.4337484

3. Dempere, J., Oyewole, K., Ghaithan, A., Ashammari, A., & Lilly, M. (2023). The impact of ChatGPT on higher education. Frontiers in Education, Article 1206936. https://doi.org/10.3389/feduc.2023.1206936
4. Ghosal, S. (2023). ChatGPT on characteristic mode analysis. TechRxiv. https://doi.org/10.36227/techrxiv.22994528.v1
5. Johinke, R., Cummings, R., & Di Lauro, F. (2023). Reclaiming the technology of higher education for teaching digital writing in a post-pandemic world. Journal of University Teaching & Learning Practice, 20(2), Article 01. https://doi.org/10.53761/1.20.02.01
6. O'Neil, C. (2016). Weapons of math destruction: How big data increases inequality and threatens democracy. Crown.
7. OpenAI. (n.d.). OpenAI Playground. Retrieved December 2, 2025, from https://www.openai.com
8. Roller, M. R. (2019). A quality approach to qualitative content analysis: Similarities and differences compared to other qualitative methods. Forum Qualitative Sozialforschung / Forum: Qualitative Social Research, 20(3), Article 11. https://doi.org/10.17169/fqs-20.3.3385
9. Shrivastava, R. (2022, December 12). Teachers fear ChatGPT will make cheating easier than ever. Forbes. https://www.forbes.com/sites/rashishrivastava/2022/12/12/teachers-fear-chatgpt-will-make-cheating-easier-than-ever/
10. Wang, Z. (2025). Algorithmic bias and social inequality: The role of artificial intelligence in social stratification. Proceedings of the 2025 International Conference on Big Data and Informatization Education, 458–463.
11. Xu, C. (2024). A systematic review of the potential influencing factors for ChatGPT-assisted education. International Journal of Technology-Enhanced Education, 23(1), 1–19. https://doi.org/10.4018/IJTEE.339189

Oyuga Norman Anyinyo

Xülasə

ALİ TƏHSİLDƏ SOSİAL STRAFİKASYONUN BAŞLANMASINI TƏQDİM DƏRƏCƏSİ KİMİ SÜNİ İNTELLEKT

Süni intellekt (Sİ) alətləri ali təhsili misli görünməmiş sürətlə dəyişdirir və bu texnologiyanın müxtəlif sosial qruplara göstərdiyi təsir sosial təbəqələşmə meylini həm qoruyub saxlamaq, həm də daha da gücləndirmək təhlükəsi yaradır. Google Scholar verilənlər bazasından əldə edilmiş, ekspert rəyi ilə təsdiqlənmiş elmi məqalələr üzərində keyfiyyətli məzmun analizi aparılıb. Bu tədqiqat ali təhsil müəssisələrində süni intellektin tətbiqinin tələbələrə və müəllimlərə ümumi təsirini rəqəmsal savadlılıq səviyyəsi, alqoritmlərdəki qərəzlik, motivasiya və resurslara çıxış bərabərsizliyi kimi amillər baxımından araşdırıb. Əldə olunan nəticələr göstərir ki, süni intellekt motivasiyanı və öyrənmə nəticələrini əsasən rəqəmsal bacarıqları yüksək olan tələbələrdə artırır; rəqəmsal kompetensiyası zəif olan tələbələr isə motivasiyanın azalması, öyrənmədə müstəqilliyin itirilməsi və akademik göstəricilərin pisləşməsi ilə üzləşir. Beləliklə, yeni bir rəqəmsal-akademik uçurum ortaya çıxır. Alqoritmlərdəki qərəzlər, məxfilik riskləri və təhsil müəssisələrinin süni intellekti yanlış istiqamətdə istifadə etməsi bu bərabərsizliyi daha da dərinləşdirir. Bu araşdırma aşağıdakıları tövsiyə edir: bütün tələbələri əhatə edən inklüziv rəqəmsal savadlılıq proqramlarına üstünlük verilməli, şəffaf və qərəzsiz süni intellekt sistemləri yaradılmalı, həmçinin ədalətli çıxış imkanları təmin edən siyasətlər həyata keçirilməlidir. Bütün bunlar ona görə vacibdir ki, süni intellekt sosial təbəqələşməni proqnozlaşdıran və sürətləndirən bir vasitəyə çevrilməsin.

Ойуга Норман Аньиньо

Резюме

ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ КАК ПРЕДИКТОР ФОРМИРУЮЩЕЙСЯ СОЦИАЛЬНОЙ СТРАТИФИКАЦИИ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

Искусственный интеллект (ИИ) стремительно трансформирует высшее образование, и его влияние на различные социальные группы угрожает закрепить и усилить тенденцию социальной стратификации. Был проведён качественный анализ содержания рецензируемой литературы, полученной из базы данных Google Scholar, с целью изучения чистого эффекта внедрения ИИ в высшие учебные заведения на студентов и преподавателей с учётом уровня цифровой грамотности, алгоритмических предубеждений, мотивации и неравенства в доступе. Результаты показывают, что ИИ повышает мотивацию и учебные результаты преимущественно у студентов с высоким уровнем цифровой грамотности, тогда как студенты с низкой цифровой компетентностью испытывают демотивацию, снижение автономности и ухудшение успеваемости – тем самым формируется новый цифровой академический разрыв. Алгоритмические предубеждения, риски нарушения конфиденциальности и неправильное использование ИИ учебными заведениями дополнительно усиливают неравенство. Настоящий обзор рекомендует приоритетное развитие инклюзивного обучения цифровой грамотности, создание прозрачных и свободных от предубеждений систем ИИ, а также внедрение политики равного доступа – с тем, чтобы предотвратить превращение искусственного интеллекта в предсказатель и ускоритель социальной стратификации.

Вэфа Тагизаде
Бакинский славянский университет
https://orcid.org/0009-0007-5676-691X

https://doi.org/10.30546/2518-752X.02.101.1062

СТРАТЕГИЯ ИНТЕГРАЦИИ МУЛЬТИМЕДИА ТЕХНОЛОГИЙ В СИСТЕМУ ЯЗЫКОВОГО ОБРАЗОВАНИЯ (НА ПРИМЕРЕ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ)

Ключевые слова: *мультимедийные технологии, русский язык как иностранный, межкультурная компетенция, цифровая трансформация, мотивация, дифференциация обучения*

Açar sözlər: *multimediya texnologiyaları, rus dili xarici dil kimi, mədəniyyətlərarası kompetensiya, rəqəmsal transformasiya, motivasiya, diferensial təlim*

Keywords: *multimedia technologies, Russian as a foreign language, intercultural competence, digital transformation, motivation, differentiation of learning*

Введение. Современное образование невозможно представить без активного внедрения информационно-коммуникационных технологий, в особенности мультимедийных ресурсов, которые значительно повышают качество и результативность обучения. В условиях цифровой трансформации общества особую актуальность приобретает адаптация традиционных методик преподавания к новым технологическим реалиям. Это в полной мере относится и к процессу обучения русскому языку – как родному, так и иностранному, включая азербайджанскую образовательную среду, где русский язык играет важную роль в многоязычном и межкультурном пространстве.

Актуальность исследования обусловлена необходимостью поиска эффективных путей интеграции мультимедийных технологий в образовательный процесс, что особенно важно в условиях глобализации и цифровизации образования. В Азербайджане использование мультимедиа становится ключевым фактором при обучении русскому языку как иностранному, так как оно позволяет компенсировать отсутствие естественной языковой среды, создавать условия для межкультурного диалога и повышать мотивацию обучающихся.

Основная часть. Ключевое преимущество мультимедийных технологий заключается в их способности обеспечивать дифференциацию обучения. Каждый учащийся может работать в индивидуальном темпе, что особенно ценно в аудитории с разным уровнем подготовки. Использование мультимедиа позволяет педагогу развивать у студентов критическое мышление, творческий подход к решению задач, а также формировать умение связывать

теорию с практикой – будь то выполнение проектов или участие в исследовательской деятельности.

Мультимедийные ресурсы делают процесс обучения более доступным и динамичным: они предоставляют возможность видеть и слышать язык в действии, погружаться в аутентичный контекст, что способствует лучшему пониманию и долговременному усвоению материала по сравнению с традиционными методами. Эксперты отмечают, что такие технологии не только повышают качество знаний, но и значительно усиливают мотивацию и вовлечённость обучающихся.

Внедрение информационно-коммуникационных технологий в обучение русскому языку как иностранному подробно рассматривается в работах Э.Г. Азимова, И.М. Алиевой, М.Б. Ахундовой, А.Н. Богомолова, О.И. Руденко-Моргун, С. М. Рахмановой, М. В. Гусейновой и других исследователей. Современные исследования показывают, что процесс цифровизации преподавания РКИ определяется рядом ключевых тенденций: ростом интерактивности и дистанционных форм обучения, активным использованием мультимедийных и мобильных технологий, а также персонализацией, индивидуализацией, внедрением игровых и развлекательных элементов [3, с. 6].

Большинство специалистов подчёркивают, что применение компьютерных технологий при обучении иностранных студентов значительно повышает эффективность усвоения русского языка за счёт интенсификации и индивидуализации учебного процесса, а также более рационального использования учебного времени. В методике РКИ используются как специально разработанные, так и аутентичные цифровые инструменты: электронные учебники и учебные комплексы, веб-приложения к печатным пособиям, электронные базы тестовых заданий, мультимедийные презентации, онлайн-курсы, справочные ресурсы (электронные словари, переводчики), культурно-просветительские материалы (электронные газеты, журналы, телеканалы, сайты музеев, театров, библиотек), а также коллекции аудио-, фото- и видеоматериалов, методические порталы для преподавателей, социальные сети и другие коммуникационные платформы [1; 3; 5].

К основным преимуществам электронных средств обучения по сравнению с традиционными относят: ускорение и оптимизацию учебного процесса, возможность построения индивидуальных образовательных траекторий, раскрытие интеллектуального и творческого потенциала учащихся, развитие самостоятельности, повышение учебной мотивации, а также гибкость в организации и структурировании материала. Кроме того, мультимедийные технологии обеспечивают хранение больших массивов информации, регулярное обновление контента, вариативные способы подачи материала, высокий уровень наглядности и использование звукового сопровождения, вводят аутентичные ресурсы в образовательный процесс и позволяют эффективно контролировать знания посредством тестов и интерактивных заданий.

Как отмечает Сафарли Л. Ш., «в Азербайджане особую эффективность показывают мобильные приложения, специально адаптированные под родной язык учащихся. Среди них можно выделить *Rus dili kursu, Rus dilini tez*

öyrənin и *Salam! Rus dili*. Эти ресурсы отличаются доступностью, возможностью работы в офлайн-режиме и ориентацией на игровые методы обучения, что делает их востребованными у начинающих и позволяет компенсировать отсутствие естественной языковой среды» [4, с. 96].

Успешное внедрение мультимедийного подхода в преподавание требует от педагога комплексной подготовки: знаний о доступных ресурсах, умения их эффективно интегрировать в урок, планировать и креативно представлять материал. В этом процессе важную роль играет совместная работа педагога и студентов, например, при создании медиа-контента или реализации учебных проектов, что укрепляет взаимосвязь участников образовательного процесса.

Кроме того, мультимедийные технологии формируют у студентов навыки работы с информацией, включая умение пользоваться электронными словарями и справочниками, критически оценивать источники и выбирать достоверные данные. Такой опыт особенно важен в условиях информационного изобилия и способствует развитию аналитического мышления.

По словам Рахмановой С. М., использование мультфильма в сочетании с интерактивной доской и компьютерными технологиями способствует развитию спонтанной речи и активизации внимания студентов. Короткие чёткие задания, звуковые сигналы и визуальные материалы создают положительный эмоциональный настрой и обеспечивают более полное усвоение новой лексики [6, с.136].

Грамотная интеграция мультимедийных технологий в образовательную практику позволяет формировать у студентов навыки критического мышления, самостоятельного поиска и анализа информации, коммуникативной активности и межкультурной компетенции. Всё это делает преподавание русского языка – особенно в азербайджанской аудитории – более гибким, глубоким и результативным.

Таким образом, анализ научной литературы и педагогического опыта подтверждает, что мультимедийные технологии становятся важным инструментом повышения эффективности обучения русскому языку как иностранному. Однако практическая реализация их потенциала возможна только при создании методически обоснованных моделей урока, которые учитывают психолого-педагогические особенности обучающихся, уровень их языковой подготовки и специфику учебной аудитории.

Следующим шагом является рассмотрение практического аспекта использования мультимедиа в образовательном процессе. Разработка урока с применением мультимедийных средств позволяет продемонстрировать, каким образом современные технологии могут органично интегрироваться в структуру занятия, обеспечивать наглядность и интерактивность, стимулировать познавательную активность студентов и способствовать формированию коммуникативной компетенции.

Методическая разработка занятия по теме **«Интернет в нашей жизни».**



1. **Просмотрите видеоролик «Значение интернета в нашей жизни»** https://www.youtube.com/watch?v=SHG6l5ytQc8
2. **Ответьте на вопросы по видеоролику:**
   1. Какая привычка стала характерной даже для встреч с друзьями?
   2. Сколько процентов опрошенных находятся онлайн постоянно?
   3. Какие три развлечения в интернете наиболее популярны?
   4. Какую проблему подчёркивает компания Pilsner?
3. **Выберите правильное утверждение (Да/Нет):**
   1. Люди в основном используют интернет только для работы.
   2. Интернет вытесняет живое общение.
   3. Смартфон помогает людям чаще ходить в кино и спортзал.
4. Найдите в тексте выражения, связанные с **живым общением** и **виртуальным общением**. Составьте два списка.
5. **Подберите синонимы к словам**: *досуг, переписка, компания, дискомфорт*.
6. **Обсудите в парах:**
   1. Что вы чаще выбираете – интернет или встречу с друзьями?
   2. Можно ли назвать интернет «заменителем жизни»?
7. **Напишите короткий пост (3–4 предложения) в соцсетях по мотивам видео:**
   1. Тема: «Может, пора отложить смартфон?»
   2. Используйте эмодзи.
8. **Обсудите:**
   1. Почему люди чувствуют дискомфорт без интернета?
   2. Как можно уменьшить время в сети?
9. **Придумайте слоган для кампании по призыву к живому общению.**

10. Прочитайте новые слова и запомните.

Русский язык	Азербайджанский язык
онлайн сервис	onlayn xidmət
база данных	verilənlər bazası
сеть	şəbəkə
необходимые	zəruri
преимущество	üstünlük
онлайн-конкурсы	onlayn müsabiqələr
безопасный	təhlükəsiz
ссылки	istinadlar
программное обеспечение	proqram təminatı
вредоносные программы	zərərli proqramlar
взлом	qırma, sındırma (hacking)
защита	qorunma. müdafiə
вирусы	viruslar

11. Составьте предложения с новыми словами.

12. Прослушайте текст «Роль интернета в нашей жизни».

Миллионы людей ежедневно используют интернет. Интернет очень полезен, так как здесь можно найти любую важную и нужную информацию: книги, учебники, словари, фильмы, музыку, песни, газеты, журналы и т.д. Интернет помогает нам учиться. Для этого мы используем на занятиях компьютер или телефон. Через интернет мы можем найти дополнительную информацию по изучаемой теме. Сегодня студены имеют возможность принимать участие на онлайн- консультациях, занятиях, международных онлайн-конференциях, конкурсах.

Одним из преимуществ интернета является электронная почта. Этот онлайн сервис работает намного быстрее, чем обычная почта. Существуют социальные сети, через которые мы можем общаться с друзьями из других городов и стран.

Вот какие возможности имеет Интернет в нашей жизни!

13. Прочитайте текст «Роль интернета в нашей жизни».

14. Определите род существительных и подберите к ним прилагательные: **интернет- безопасный интернет.**

Сеть, почта, информация, адрес, файл, ресурс, программа.

15. Продолжите предложения.

1. Интернет очень полезен, так как здесь можно …. 2. Через интернет мы можем … по изучаемой теме. 3… имеют возможность принимать участие на онлайн- консультациях, занятиях, международных онлайн- конференциях, конкурсах. 4.Одним из преимуществ интернета является … 5…, через которые мы можем общаться с друзьями из других городов и стран.

16. Задайте вопросы к тексту «Роль интернета в нашей жизни» (письменно).

17. Скажите да\нет по тексту «Роль интернета в нашей жизни»:

Интернет очень полезен, так как здесь можно найти любую важную и нужную информацию: книги, учебники, словари, фильмы, музыку, песни, газеты, журналы и т.д.		
Сегодня студены не имеют возможность принимать участие на онлайн- консультациях, занятиях, международных онлайн-конференциях, конкурсах.		
Через интернет мы не можем найти дополнительную информацию по изучаемой теме.		
Одним из преимуществ интернета является электронная почта.		
Этот онлайн сервис работает медленнее, чем обычная почта.		
Существуют социальные сети, через которые мы можем общаться с друзьями из других городов и стран.		
Интернет помогает нам учиться.		

18. Просмотрите видеоролик. О чём он? (16) Значение интернета в нашей жизни – YouTube

19. Выберите нужный вариант (тестирование).

1. Есть ли у вас компьютер?

А) да;

Б) нет;

2. Есть ли у вас доступ к сети Интернет? (Мобильный телефон, компьютер)

А) да;

Б) нет;

3. Сколько времени вы проводите в сети Интернет?

А) не бываю в сети;

Б) менее 1 часа;

В) 1-2 часа;

Г) Более 2 часов;

4. Как вы считаете – опасен Интернет или нет?

А) да;

Б) нет;

5. Чем вы занимаетесь в Интернете?

А) учусь;

Б) общаюсь в социальных сетях;

В) скачиваю программы;

Г) пользуюсь e-mail;

Д) играю в игры on-line;

Е) смотрю ТВ, фильмы;

6. Как родители относятся к вашей работе в сети Интернет?

А) разрешают свободно;

Б) устанавливают временной режим;

В) разрешают заходить в своём присутствии;

Г) запрещают пользоваться;

Д) не знают о том, что я выхожу в Интернет.

7. Выберите правильные ответы на вопрос «Чем полезен Интернет?»:

А) можно найти массу полезной информации

Б) воздействием на психику человека

В) возможностью общаться по электронной почте

Г) возможностью заказать необходимые вещи, не выходя из дома

Д) возможностью принимать участие на онлайн – консультациях, занятиях, международных онлайн- конференциях, конкурсах.

8. Выберите правильные ответы на вопрос «Чем опасен Интернет?»:

А) возможностью возникновения Интернет-зависимости

Б) доступом к Вашим личным данным

В) заражение вредоносными программами

Г) контактами с незнакомыми людьми с помощью чатов или электронной почты

Д) возможностью заказать необходимые вещи, не выходя из дома

9. Как преодолеть Интернет-зависимость?

А) вести здоровый образ жизни

Б) переключиться на игры в телефоне

В) выходить на природу

Г) заниматься творчеством

Д) больше смотреть телевизор

Домашнее задание.

1. Заполните таблицу, используя интернет-ресурсы.

Слова	Правописание слова, ударение	Значение слова	Синоним к слову	Пример использования слова в предложении
Интернет				
Видеосвязь				
Информация				
Виртуальность				

2. Заполните таблицу правил поведения в Интернете.

1. Как избежать опасностей, подстерегающих нас в сети Интернет?

2. Подумайте о важных правилах безопасности поведения детей и подростков в сети Интернет.

3. Посмотрите видеоролик «Безопасность в интернете». **(16) Правила поведения в сети Интернет - YouTube**

Никогда	Всегда

3. Подготовьте презентацию о роли интернета в нашей жизни.

Предметом исследования является процесс интеграции мультимедийных технологий в систему языкового образования, в частности – в обучение русскому языку как иностранному в азербайджанской образовательной среде. В центре внимания находятся методические и психолого-педагогические аспекты использования мультимедийных ресурсов (мобильных приложений, электронных учебников, онлайн-курсов, аутентичных цифровых материалов и др.) для формирования коммуникативной и межкультурной компетенции студентов, повышения их мотивации и обеспечения дифференциации обучения.

Научная новизна статьи состоит в комплексном рассмотрении стратегии интеграции мультимедийных технологий в обучение русскому языку как иностранному в азербайджанской образовательной среде, где отсутствует естественная языковая среда. В работе обоснована роль мультимедийных ресурсов не только как инструмента повышения наглядности и мотивации, но и как средства формирования критического мышления, самостоятельности и межкультурной компетенции студентов. Впервые представлена методическая разработка мультимедийного занятия как практическая модель внедрения цифровых технологий в образовательный процесс. Кроме того, акцент сделан на значимости мобильных приложений и аутентичных цифровых материалов, адаптированных под родной язык учащихся, что позволяет соединить теоретические выводы с практическими рекомендациями и соотнести педагогический опыт с современными тенденциями цифровизации образования.

В заключение следует подчеркнуть, что использование мультимедийных технологий в обучении русскому языку как иностранному придаёт занятиям не только большую наглядность, но и делает их более динамичными и проблемно-ориентированными. Постановка ключевого вопроса в начале занятия, коммуникативная подача материала, а также акцент на неразрывной связи языка и культуры превращают мультимедиа-занятие в эффективный инструмент современного образования.

Именно эти особенности позволяют не только объединить полиэтническую аудиторию в едином образовательном пространстве и предоставить доступный материал учащимся с разным уровнем владения языком, но и формировать условия для межкультурного диалога, взаимопонимания и культурного обмена. Таким образом, мультимедиа-занятия можно рассматривать как перспективное направление развития методики преподавания РКИ, ориентированное на повышение качества образования и расширение социокультурного горизонта обучающихся.

Литература:

1. Азимов, Э. Г. (2012). Информационно-коммуникационные технологии в преподавании русского языка как иностранного. М.: Русский язык.
2. Алиева, И. М. (2008). Педагогические основы обучения иностранным языкам вне языковой среды. Русский язык и литература в Азербайджане, 2, 36–38.

3. Дунаева, Л. А., Левина, Г. М., Богомолов, А. Н., & Васильева, Т. В. (2020). Цифровизация области преподавания РКИ: первые итоги и перспективы. Русский язык за рубежом, 5, 4–9.
4. Сафарли, Л. Ш. (n.d.). Использование мобильных языковых приложений в обучении русскому языку как иностранному. In 34-a Aniversare a Universității de Stat din Comrat: Culegere de articole, Volumul III (pp. 94–98). Retrieved from 34-a-aniversare-a-universitatii-de-stat-din-comrat-culegere-de-articole-3.pdf
5. (accessed on 10.09.2025).
6. Низовая, И. Ю. (2015). Основные направления развития электронных образовательных ресурсов по русскому языку как иностранному. Преподаватель. XXI век, 4, 134–140.
7. Рахманова, С. М. (2016). Реализация элементов мультисенсорной технологии в обучении русскому языку как иностранному. Journal of Educational Sciences, 35(1), 134–137. Retrieved from https://bulletin-pedagogicsc.kaznu.kz/index.php/1ped/article/view/230 (accessed on 11.09.2025).

Vəfa Tağızadə

Xülasə

MULTİMEDİA TEXNOLOGİYALARININ DİL TƏHSİLİ SİSTEMİNƏ İNTEQRASİYASI STRATEGİYASI (RUS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİ NÜMUNƏSİNDƏ)

Müasir təhsili informasiya-kommunikasiya texnologiyalarının, xüsusən də multimediya resurslarının fəal tətbiqi olmadan təsəvvür etmək mümkün deyil. Bu resurslar tədrisin keyfiyyətini və səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Cəmiyyətin rəqəmsal transformasiyası şəraitində ənənəvi tədris metodlarının yeni texnoloji reallıqlara uyğunlaşdırılması xüsusi aktuallıq kəsb edir. Bu xüsusilə də Azərbaycan təhsil mühitində xarici dil kimi rus dilinin tədrisi üçün mühüm əhəmiyyət daşıyır, çünki rus dili çoxdilli və çoxmədəniyyətli məkanın vacib bir hissəsidir.

Məqalədə multimediya texnologiyalarının təlimdə diferensiasiya, tələbələrin tənqidi düşüncə bacarığının, motivasiyasının və yaradıcılığının inkişafı baxımından üstünlükləri təhlil olunur. Eyni zamanda, multimediya vasitələrinin nəzəri biliklə praktikanın vəhdətini təmin etməsi – layihə işləri, interaktiv tapşırıqlar və müstəqil fəaliyyət vasitəsilə – xüsusi vurğulanır. Tədqiqatın nəzəri əhəmiyyəti multimediya öyrənməsinin psixoloji və pedaqoji əsaslarının təhlili ilə bağlıdır, praktik əhəmiyyəti isə müəllimlər üçün sinifdə effektiv tətbiq strategiyalarının təqdim olunmasında özünü göstərir. Nəticələr göstərir ki, multimediya texnologiyalarının sistemli və pedaqoji cəhətdən əsaslandırılmış istifadəsi rus dilinin xarici dil kimi tədrisində səmərəliliyi artırır, mədəniyyətlərarası dialoqa şərait yaradır və müxtəlif səviyyəli tələbələr üçün uyğunlaşdırılmış dinamik təhsil mühitinin qurulmasına xidmət edir.

Vafa Taghizade

Summary

STRATEGY FOR INTEGRATING MULTIMEDIA TECHNOLOGIES INTO THE LANGUAGE EDUCATION SYSTEM (ON THE EXAMPLE OF TEACHING RUSSIAN AS A FOREIGN LANGUAGE)

Modern education cannot be imagined without the active use of information and communication technologies, particularly multimedia resources, which significantly increase the quality and effectiveness of learning. In the context of digital transformation,

the adaptation of traditional teaching methods to technological innovations is becoming highly relevant. This is especially important for teaching Russian as a foreign language in Azerbaijan, where the Russian language occupies a special place in the multilingual and multicultural educational space.

The article highlights the advantages of multimedia technologies in differentiation of learning, activation of students' critical thinking, motivation, and creativity. It also discusses the role of multimedia in linking theoretical knowledge with practical application through project work, interactive assignments, and independent study. Special attention is paid to the integration of authentic digital resources into the educational process, the development of intercultural competence, and the methodological requirements for designing multimedia-based lessons. The theoretical significance of the research lies in analyzing psychological and pedagogical foundations of multimedia learning, while its practical value is related to providing teachers with effective strategies for classroom implementation. The findings confirm that systematic and pedagogically justified use of multimedia technologies in teaching Russian as a foreign language contributes to the effectiveness of training, fosters intercultural dialogue, and creates a dynamic learning environment adapted to the needs of diverse student groups.

Rəyçi: prof., ped.e.d. İ.M.Əliyeva

PSİXOLOGİYA

Şəlalə Babayeva
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1065

SOSİAL TƏSİR MƏDƏNİ KONTEKSTDƏ

Açar sözlər: *sosial təsir, sosial norma, itaətkarlıq*
Ключевые слова: *социальное влияние, социальная норма, повиновение*
Keywords: *social influence, sosial norms, obedience*

Giriş. Sosial təsir və sosial normalar insan davranışlarının formalaşmasında əsas psixoloji mexanizmlərdən biri hesab olunur. Sosial təsir fərdlərin düşüncə, münasibət və davranışlarının digər insanların real və ya xəyali mövcudluğu nəticəsində dəyişməsini ifadə edir. Bu təsir əsasən normativ və informativ sosial təsir formalarında təzahür edir. Sosial normalar isə cəmiyyət və ya qrup tərəfindən qəbul edilən, davranışları tənzimləyən yazılmamış qayda və gözləntilər sistemidir. Normalar sosial nizamın qorunmasında, fərdlərin qrupla uyğunlaşmasında və sosial davranışların proqnozlaşdırılmasında mühüm rol oynayır. Tədqiqatlar göstərir ki, sosial təsir mexanizmləri vasitəsilə sosial normalar mənimsənilir və öz daxili aləminin bir parçasına çevrilir, nəticədə konformizm, uyğunlaşma və sosial itaət kimi davranış formaları meydana çıxır. Bu anlayışların öyrənilməsi sosial psixologiya, təhsil, səhiyyə və idarəetmə sahələrində praktik əhəmiyyət kəsb edir.

Sosial psixologiyada sosial təsir və sosial norma anlayışları geniş araşdırılmışdır və məqalədə meta-analizdən istifadə olunmuşdur. Prof.Ə.Əlizadə bu haqda demişdir: "Hər bir adam min bir görünməz tellə başqa adamlarla əlaqədardır" [1, s.8]. İnsanlar bir-birləri ilə bilavasitə qarşılıqlı əlaqədə olmasa da, hər bir yaş dövründə onların bir-birləri üzərində buraxdıqları izləri düşüncə, hiss və davranışa təsir edir.

Hər bir şəxs uşaq ikən məktəb illərində dərsdə müəllimin izah etdiklərini tam anlamadığı zamanlar olmuşdur. Müəllim "sualı olan varmı?" deyə soruşduqda isə əksəriyyəti heç bir sual verməmişdir. Dale Miller və Cathy McFarland (1987) məhz bu məsələni araşdırmaq məqsədilə bir tədqiqat aparmışlar. Bir qrup tələbələrə dili çətin olan bir məqaləni oxumaq tapşırığı verildi və onlara anlamadıqları məqamda sual vermələri təklif olundu. Lakin tələbələr heç bir sual vermirlər. Daha sonra isə onların yanında başqa bir qrup tələbəyə həmin məqaləni oxuyub, anlamadıqları təqdirdə sual verməkləri təklif olundu. Birinci qrupda olan tələbələri başqa otağa keçirdib, sorğu blankı payladılar. Bu sorğuda belə bir sual verildi: "Sizcə tələbələr anlamadıqları təqdirdə sual verəcəklər?". Baxmayaraq ki, ikinci

qrupda da heç kəs sual verməsə də, tələbələrin 37%-i onların sual verəcəklərini zənn edirdi. Sonda onların və başqalarının sual verməməklərinin səbəbi soruşuldu. İştirakçılar sual verməmələrinin səbəbini utanc hissini yaşamaq qorxusu ilə əlaqələndirirdilər. Amma başqalarının sual verməməsini səbəbini mövzunu yaxşı başa düşmələri ilə izah edirdilər. Bu tədqiqat sosial dünyanı qavrayarkən edilən səhvlərdən birinə nümunədir, yəni insanlar çox vaxt öz davranışlarını başqalarının davranışından fərqli hesab edir və onu fərqli səbəblərlə izah edirlər. Beləliklə, fərdlər öz davranışlarını daxili hisslər və narahatlıqlarla, başqalarının davranışını isə rasional və obyektiv səbəblərlə izah edirlər [7].

Sosial normalar müəyyən bir qrupda yazılmamış, amma hamı tərəfindən qəbul edilən davranış qaydalarıdır. Yeni bir mühitə (məsələn, universitetə) daxil olduqda insanlar orada olan normalardan təsirlənir və öz davranışlarını həmin mühitə uyğunlaşdırırlar. Bu normalar adətən davranışı tənzimləyən və sosial nizamı qoruyan faydalı bələdçilərdir. Məsələn, asqırarkən ağzını tutmaq, qonaq gedərkən ev sahibinə kiçik hədiyyə aparmaq və dərsdə və ya iclasda başqası danışarkən sözünü kəsməmək sosial cəhətdən qəbul olunan davranış nümunələridir.

Sosial psixologiyada sosial normaların 2 növünü fərqləndirirlər:

1) Təsviredici normalar – bu normalar insanların real həyatda adətən necə davrandığını göstərir. Məsələn, tələbələrin əksəriyyəti imtahana 2 gün qalmış dərs oxumağa başlayırlar.

2) Təyinedici normalar – insanların necə davranmalı olduqlarını, yəni cəmiyyətin bəyənib-bəyənmədiyini göstərir. Məsələn, imtahanda köçürmək olmaz və bu qaydanı tələbələrin hamısı bilirlər.

İnsanlar başqalarının davranışları barədə məlumat aldıqda, öz seçimlərini həmin normalara uyğunlaşdırmağa meyllidirlər. Salqanik və əməkdaşları (2006) apardıqları araşdırmada qeyd edirlər ki, sosial şəbəkədə mahnının neçə dəfə yüklədiyini görmək, yeniyetmələrin həmin mahnını seçmə ehtimalını artırır. Bu, bir daha sosial normaların seçimlərə necə güclü təsir etdiyini göstərir.

İnsanlar yeni mühitə daxil olduqda normaları tez mənimsəyirlər. Yeni vəziyyətlərdə insanlar daha çox yaşlı və təcrübəli qrup üzvlərinə baxaraq davranışlarını formalaşdırır. Tələbə yataqxanasında bir otaqda qalan tələbələr xarakter cəhətdən müəyyən müddətdən sonra bir-birlərinə uyğunlaşır.

Beləliklə, sosial norma cəmiyyətdə və ya qrupda qəbul olunmuş davranış qaydalarıdır. Sosial təsir isə bu normaların fərdin davranışına ötürülmə mexanizmidir. Norma səhv qavranıldıqda sosial təsir mənfi nəticələrə (susqunluq, riskli davranışlar, yanlış qərarlar) gətirib çıxara bilər. İnsanlar çox vaxt sosial normaya uyğun davranırlar, lakin bunu öz seçimləri kimi dərk edir, sosial təsirin rolunu isə fərq etmirlər. Sosial normalara uyğunlaşmaq üçün olan təzyiq çox vaxt olduqca güclü olur. Kruglanski & Webster (1991) qeyd edirlər ki, bunun səbəblərindən biri odur ki, normadan kənara çıxan insanlar tez-tez utanc, narahatlıq və hətta başqalarından gələn düşməncəsinə davranışlar kimi mənfi nəticələrlə üzləşirlər. Normadan kənara çıxmağın doğurduğu bu xoşagəlməz nəticələrə görə, insanlar öz qruplarının normalarını öyrənməyə və onlara əməl etməyə motivasiya olunurlar. Məsələn, yeniyetmələr oğurluq edən dost qrupunun içində olduqda mağazadan oğurluq etmək təzyiqini hiss edə bilərlər. Hətta tutularsa hüquqi nəticələrdən narahat olsa belə, qrupla razılaşmamağın doğuracağı sosial nəticələr onları daha çox narahat edə bilər [6].

Qrup normalarını rədd etməyin nəticələrini araşdıran klassik tədqiqatlardan birində Stanley Schachter (1951) tərəfindən aparılmışdır. O, tələbə qruplarından qrup şəklində qərarvermə tapşırığını yerinə yetirmələrini xahiş etmişdir. Lakin hər qrupa 3 nəfər eksperimentin əməkdaşını daxil etmişdir. Onlardan biri tələbələrin qərarları ilə dərhal razılaşır, digəri çətinliklə də olsa axırda razılaşır, üçüncüsü isə tamamilə razılaşmır. Sonra tədqiqatçı tələbələrdən kimləri qrupa daxil etməmələrini soruşduqda əksəriyyəti etiraz edən iştirakçını qeyd edir. Bu tədqiqat göstərir ki, normadan kənara çıxma real mənfi sosial nəticələrə səbəb ola bilər. Hətta başqasının rədd edilməsinə şahid olmaq belə insanlarda daha güclü konformizm yarada bilər [9].

Qrupdan kənarlaşdırılma qorxusu həm real, həm də virtual həyatda da özünü göstərir. Williams, Cheung və Choi (2000) birlikdə kibertəcrid, yəni internet qruplarından çıxarılmaq, qovulmaq haqqında tədqiqat aparmışlar. İştirakçılar kompüter oyunu (Cyberball) vasitəsilə başqasının qrupdan kənarlaşdırıldığını (təcrid edildiyini) müşahidə etdilər. Bunu sadəcə kənardan müşahidə etməklə qrup üzvləri qrupa daha çox uyğunlaşmağa (konformizmə), öz şəxsi fikirlərini gizlətməyə və qrup normalarını daha az sorğulamağa başladılar [10].

Bob Cialdini və həmkarları qrupun sadəcə varlığını bildirməklə insanların davranışlarında özünü göstərən dəyişiklikləri qeyd etdilər. Onlar oteldə qonaqları dəsmallarını yenidən istifadə etməyə təşviq etmək üçün verilən müxtəlif mesaj növlərini müqayisə etmişlər. Bunun üçün maarifləndirmə kampaniyalarından istifadə etdilər. Oteldə bir qrup qonaqların otaqlarında belə bir yazı qoyulmuşdu: "Ətraf mühiti qorumağa kömək edin: Qaldığınız müddətdə dəsmallarınızı yenidən istifadə edərək təbiətə hörmətinizi göstərə və ətraf mühitin qorunmasına töhfə verə bilərsiniz". Digər qonların otağında başqa cür yazı qoyulmuşdu: "Ətraf mühiti qorumaqda digər qonaqlara qoşulun: Yeni resurslara qənaət proqramımızda iştirak etmələri xahiş olunan qonaqların təxminən 75%-i dəsmallarını bir dəfədən çox istifadə edərək kömək edir. Siz də qaldığınız müddətdə dəsmallarınızı yenidən istifadə etməklə digər qonaqlara qoşula bilərsiniz". Baxmayaraq ki, hər iki yazı öz effektini göstərmişdi, ikinci yazı nisbətən daha üstün olmuşdu. Buna bənzər maarifləndirmə kampaniyaları aparılmış və hər biri müsbət dəyişiklilərlə nəticələnmişdir [2].

Sosial təsirin nəticələri cinsi fərqlər üzərində də aparılmışdır. Tədqiqatlar göstərir ki, qadınlar kişilərlə müqayisədə daha yüksək konformizm səviyyəsi nümayiş etdirməyə meyllidirlər. Xüsusilə, qadınlar qrup şəraitində qəbul edilən qərarlarla razılaşmağa kişilərdən daha çox meyil göstərir və qrupun mövqeyinə qarşı çıxma ehtimalları daha aşağı olur. Bununla belə, konformizmdə müşahidə olunan bu cinsi fərqlərin ölçüsü vəziyyətin növündən asılı olaraq dəyişir.

Eagly və həmkarları (1981) qeyd edirlər ki, qadınlar onlara tanış olmayan situasiyalarda konformizmə daha çox meyl göstərirlər. Məsələn, qadınlar futbol mövzusunda aparılan söhbətlərdə daha çox uyğunlaşa bildikləri halda, kişilər uşaq tərbiyəsi ilə bağlı müzakirələrdə daha çox konformizm göstərə bilərlər [3].

Bundan əlavə, qadınlar ictimai situasiyalarda və səlahiyyətli şəxsin birbaşa nəzarətinin mövcud olduğu vəziyyətlərdə kişilərdən daha çox konformizm nümayiş etdirirlər. İctimai situasiyalarda qadınlar qadın roluna dair gender stereotiplərinə (məsələn, nəzakətli, razılaşan və dəstəkləyici olmaq) uyğun davranmaq ehtiyacı hiss edə bilərlər və bu səbəbdən daha yüksək konformizm göstərə bilərlər. Bu fikirlərə uyğun olaraq, cinsi mənsubiyyətindən asılı olmayaraq, daha çox maskulin

gender rollarına malik olan insanlar, daha çox feminin gender rollarına malik olan insanlarla müqayisədə daha az konformizm nümayiş etdirirlər.

Kim və Markus mədəni fərqlərin unikal olma istəyinə təsirini araşdırmaq üçün hava limanında təbii şəraitdə bir tədqiqat aparmışlar. Avropa mənşəli amerikalılar və çin əsilli amerikalılardan sorğunu doldurmaları xahiş olunmuş və qarşılığında onlara qələm seçmək imkanı verilmişdir. Qələmlərdən bəziləri sadə rənglərdən, biri isə nadir rəngdə olmuşdur. Tədqiqatçılar iştirakçıların hansı rəngi seçdiklərini müşahidə etmişlər. Avropa mənşəli amerikalılar 74% hallarda nadir rəngi seçmişlər. Çin əsilli amerikalılar isə yalnız 24% hallarda unikal rəngi seçmişlər. Bu nəticələr göstərir ki, fərdiyyətçi mədəniyyətlərdə (məsələn, Avropa mənşəli amerikalılar) insanlar fərqlənməyə daha çox meyl edirlər. Kollektivist mədəniyyətlərdə (məsələn, Çin mədəniyyəti) insanlar qrup normlarına uyğunlaşmağa, yəni konformizmə, daha çox üstünlük verirlər. Mədəniyyət insanların sosial təzyiqə necə reaksiya verdiyini və başqalarına uyğunlaşma (konformizm) səviyyəsini əhəmiyyətli dərəcədə formalaşdırır [5].

Ji və əməkdaşlarının (2000) apardıqları tədqiqata əsasən kollektivist mədəniyyətlərdə insanlar qrup normalarına uyğunluğu təmin etmək üçün öz davranışlarını və başqalarının davranışlarını daha diqqətlə izləyirlər. Buna görə də onlar sualın necə formalaşdırılmasından (məsələn, cavab şkalasının az və ya çox olmasından) individualist mədəniyyətlərdə olan insanlara nisbətən daha az təsirlənirlər [4].

Bu tədqiqatda amerikalı və çinli tələbələrdən kitabxanaya getmək, soyuqdəymə və kabus görmək kimi davranışları nə qədər tez-tez etdiklərini demələri istənilmişdir. Bəzi hallarda suallar sərbəst (açıq) şəkildə verilmişdir. Digər hallarda isə aşağı və ya yüksək tezlik şkalası təqdim olunmuşdur. Amerikalı tələbələrin cavabları istifadə olunan şkaladan xeyli dərəcədə təsirlənmişdir. Çinli tələbələrin cavabları isə şkalanın növündən daha az asılı olmuşdur. Bu fərqin səbəbi ondan ibarətdir ki, kollektivist mədəniyyətlərdə insanlar öz davranışlarını daim izləməyə və yadda saxlamağa daha çox önəm verirlər. Buna görə də çinli tələbələr davranışlarını daha dəqiq xatırlayır, avtobioqrafik yaddaşları daha dəqiq formalaşır. Beləliklə, kollektivist mədəniyyətlərdə sosial normaya uyğunluq tələbi insanların davranışa diqqətini artırır və bu da daha dəqiq özünüqiymətləndirmə və yaddaş ilə nəticələnir.

İşin aktuallığı. Sosial təsir və sosial normalar müasir cəmiyyətlərdə fərdlərin davranış və qərarvermə proseslərinin formalaşmasında mühüm rol oynayır. Qloballaşma və mədəniyyətlərarası təmasların artması sosial normaların fərqli kontekstlərdə necə dəyişdiyini öyrənməyi daha da aktuallaşdırır. Rəqəmsal media və sosial şəbəkələr sosial təsirin yeni formalarını yaradaraq normaya uyğunlaşma mexanizmlərini gücləndirir. Müxtəlif mədəniyyətlərdə konformizm səviyyələrinin fərqli olması sosial davranışların universal və mədəni-spesifik tərəflərinin araşdırılmasını zəruri edir. Sosial normaların ictimai sağlamlıq, təhsil və təşkilati davranış sahələrinə təsiri bu mövzunun praktik əhəmiyyətini artırır. Gender rolları və mədəni gözləntilər sosial təsirin fərdlər üzərindəki təsir gücünü daha mürəkkəb hala gətirir. Bu baxımdan sosial təsir, sosial norma və mədəni aspektlərin öyrənilməsi müasir sosial psixologiyanın prioritet tədqiqat istiqamətlərindən biri hesab olunur.

Elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi sosial təsir və sosial normaların mədəni kontekstdə fəaliyyət mexanizmlərinin müqayisəli şəkildə təhlil edilməsindədir. Araşdırmada fərdiyyətçi və kollektivist mədəniyyətlərdə konformizmin for-

malaşmasına təsir edən normativ və informativ faktorların rolu yeni yanaşma ilə izah olunur. Eyni zamanda gender rolları və sosial müşahidə şəraitinin sosial normaya uyğunlaşmaya təsiri sistemli şəkildə ortaya qoyulur

Nəticə. Sosial təsir insanların davranış, düşüncə və münasibətlərinin başqalarının mövcudluğu, gözləntiləri və davranışları nəticəsində dəyişməsidir. Bu təsir əsasən konformizm, itaət və uyğunluq (compliance) vasitəsilə özünü göstərir. İnsanlar sosial qəbul olunmaq, rədd edilməkdən qaçmaq və ya düzgün davranışı müəyyən etmək məqsədilə sosial təsirə məruz qalırlar.

Sosial normalar cəmiyyətdə qəbul edilmiş və davranışı istiqamətləndirən yazılmamış qaydalardır. Bu normalar fərdin nəyi etməli, nəyi etməməli olduğunu müəyyən edir və sosial nizamın qorunmasına xidmət edir. Sosial normalar normativ sosial təsir vasitəsilə fərdlərin qrupa uyğunlaşmasına səbəb olur; yəni insanlar sosial sanksiyalardan qaçmaq və aidiyyət hissini qorumaq üçün normalara tabe olurlar.

Mədəni aspekt sosial təsirin və sosial normaların necə qavranıldığını və necə işlədiyini əhəmiyyətli dərəcədə formalaşdırır. Fərdiyyətçi mədəniyyətlərdə (məsələn, Qərb cəmiyyətləri) müstəqillik, fərqlilik və şəxsi seçimlər ön plandadır; bu səbəbdən insanlar sosial təsirə daha seçici yanaşır və unikallığı qorumağa çalışırlar. Kollektivist mədəniyyətlərdə isə qrup harmoniyası, sosial uyğunluq və normaya tabeçilik daha yüksək qiymətləndirilir, nəticədə konformizm daha geniş yayılmış olur.

Nəticə etibarilə, sosial təsir və sosial normalar universal mexanizmlər olsa da, onların gücü, forması və nəticələri mədəni kontekstdən asılı olaraq dəyişir. Mədəniyyət fərdlərin sosial təzyiqə necə reaksiya verdiyini, normaya nə dərəcədə uyğunlaşdığını və fərqliliyi necə qiymətləndirdiyini müəyyən edən əsas faktorlardan biridir.

Ədəbiyyat:

1. Bayramov, Ə. S., & Əlizadə, Ə. Ə. (2003). Sosial psixologiya. Bakı: Nəşriyyat.
2. Cialdini, R. B., Reno, R. R., & Kallgren, C. A. (1990). A focus theory of normative conduct: Recycling the concept of norms to reduce littering in public places. Journal of Personality and Social Psychology, 58(6), 1015–1026. https://doi.org/10.1037/0022-3514.58.6.1015
3. Eagly, A. H., Wood, W., & Fishbaugh, L. (1981). Sex differences in conformity: Surveillance by the group as a determinant of male nonconformity. Journal of Personality and Social Psychology, 40(2), 384–394. https://doi.org/10.1037/0022-3514.40.2.384
4. Ji, L., Peng, K., & Nisbett, R. (2000). Culture, control, and perception of relationships in the environment. Journal of Personality and Social Psychology, 78(5), 943–955. https://doi.org/10.1037/0022-3514.78.5.943
5. Kim, H. S., & Markus, H. R. (1999). Deviance or uniqueness, harmony or conformity? A cultural analysis. Journal of Personality and Social Psychology, 77(4), 785–800. https://doi.org/10.1037/0022-3514.77.4.785
6. Kruglanski, A. W., & Webster, D. M. (1991). Group members' reactions to opinion deviates and conformists at varying degrees of proximity to decision deadline and of environmental noise. Journal of Personality and Social Psychology, 61(2), 212–225. https://doi.org/10.1037/0022-3514.61.2.212
7. Miller, D. T., & McFarland, C. (1987). Pluralistic ignorance: When similarity is interpreted as dissimilarity. Journal of Personality and Social Psychology, 53(2), 298–305. https://doi.org/10.1037/0022-3514.53.2.298

8. Salganik, M. J., Dodds, P. S., & Watts, D. J. (2006). Experimental study of inequality and unpredictability in an artificial cultural market. Science, 311(5762), 854–856. https://doi.org/10.1126/science.1121066
9. Schachter, S. (1951). Deviation, rejection and communication. Journal of Abnormal and Social Psychology, 46(2), 190–207. https://doi.org/10.1037/h0056195
10. Williams, K. D., Cheung, C. K. T., & Choi, W. (2000). Cyberostracism: Effects of being ignored over the Internet. Journal of Personality and Social Psychology, 79(5), 748–762. https://doi.org/10.1037/0022-3514.79.5.748

Shelale Babayeva

Summary

SOCIAL IMPACT IN CULTURAL CONTEXT

Social influence refers to the ways in which individuals' behaviors, thoughts, and attitudes are shaped by the presence, expectations, and actions of others. This influence is commonly expressed through conformity, compliance, and obedience. People are subject to social influence in order to gain social acceptance, avoid rejection, or determine appropriate behavior in uncertain situations.

Cultural aspects play a crucial role in shaping how social influence and social norms are perceived and enacted. In individualistic cultures, which emphasize independence, personal choice, and uniqueness, individuals tend to be more selective in responding to social influence and place greater value on maintaining individuality. In contrast, collectivistic cultures prioritize group harmony, social cohesion, and adherence to shared norms, resulting in higher levels of conformity.

In conclusion, while social influence and social norms are universal phenomena, their strength, expression, and consequences vary across cultural contexts. Culture is a key factor that determines how individuals respond to social pressure, the extent to which they conform to norms, and how they evaluate individuality versus group conformity.

Шелале Бабаева

Резюме

СОЦИАЛЬНОЕ ВОЗДЕЙСТВИЕ В КУЛЬТУРНОМ КОНТЕКСТЕ

Социальное влияние обозначает процессы, посредством которых поведение, мысли и установки индивидов формируются под воздействием присутствия, ожиданий и действий других людей. Данное влияние обычно проявляется в форме конформизма, подчинения (compliance) и послушания (obedience). Люди подвержены социальному влиянию с целью получения социального одобрения, избегания отвержения или определения надлежащего поведения в условиях неопределённости.

Культурные аспекты играют ключевую роль в формировании того, как социальное влияние и социальные нормы воспринимаются и реализуются. В индивидуалистических культурах, где акцент делается на независимость, личный выбор и уникальность, люди, как правило, более избирательно реагируют на социальное влияние и придают большее значение сохранению индивидуальности. Напротив, в коллективистских культурах приоритет отдается групповой гармонии, социальной сплоченности и соблюдению общих норм, что приводит к более высоким уровням конформизма.

В заключение следует отметить, что, хотя социальное влияние и социальные нормы являются универсальными явлениями, их сила, формы проявления и последствия варьируются в зависимости от культурного контекста. Культура является важнейшим фактором, определяющим реакцию индивидов на социальное давление, степень их конформности и оценку соотношения индивидуальности и группового согласия.

Rəyçi: dos. G.O.Abbasova

Джейхун Алыев
Азербайджанский университет языков

Жасур Гуламов
Узбекский государственный университет мировых языков

https://doi.org/10.30546/2518-752X.02.101.1068

ЦИФРОВЫЕ ТЕХНОЛОГИИ КАК СРЕДСТВО РАЗВИТИЯ ОТВЕТСТВЕННОСТИ ЛИЧНОСТИ ОБУЧАЮЩЕГОСЯ

Ключевые слова: *цифровая педагогика, личностная ответственность, цифровая ответственность, автономия обучающегося, саморегуляция, геймификация, образовательные технологии, цифровая грамотность*

Açar sözlər: *rəqəmsal pedaqogika, şəxsi məsuliyyət, rəqəmsal məsuliyyət, öyrənən avtonomluğu, özünütənzimləmə, qamifikasiya, təhsil texnologiyaları, rəqəmsal savadlılıq*

Keywords: *digital pedagogy, personal responsibility, digital responsibility, learner autonomy, self-regulation, gamification, educational technologies, digital literacy*

Современное образование находится в эпицентре глубокой трансформации, движимой стремительной цифровизацией всех сфер жизни. Если изначально цифровые инструменты воспринимались преимущественно как удобный способ доставки контента или автоматизации рутинных процессов, то сегодня на первый план выходит их фундаментальный потенциал в формировании метапредметных и личностных результатов обучения. В контексте прогрессивных образовательных программ, акцент смещается с пассивного усвоения информации на активное, осознанное и ответственное конструирование обучающимся своей индивидуальной образовательной траектории. В этом ключе одним из центральных качеств личности, определяющих успешность и устойчивость человека в XXI веке, становится ответственность.

Однако это понятие требует переосмысления: ответственность сегодня – это не просто дисциплинарная исполнительность, а комплексная способность к самоуправлению, осознанному выбору, прогнозированию последствий своих действий и выполнению обязательств перед собой и социумом в условиях высокой неопределенности и цифровой насыщенности среды.

Цифровая среда, с одной стороны, порождает новые вызовы для формирования этого качества (риски цифровой зависимости, инфантилизация из-за гиперопеки алгоритмов, размывание этических границ), а с другой – предлагает уникальный, ранее недоступный арсенал средств для его целенаправленного развития. Таким образом, цель современного педагога – не просто передать знания, а стать архитектором такой цифровой образовательной среды, где у обучающегося есть пространство для выбора, право на ошибку, инструменты для рефлексии и возможность ощутить последствия

своих действий, тем самым выращивая в себе ответственного цифрового гражданина и самоуправляемого ученика.

Традиционное понимание ответственности в образовании часто сводилось к своевременному выполнению домашних заданий и соблюдению правил поведения. Цифровая эпоха расширяет и трансформирует это понятие, наполняя его новыми смыслами и формируя запрос на **«цифровую ответственность»** как интегративное качество личности.

Цифровая ответственность включает в себя несколько взаимосвязанных аспектов. Во-первых, это **ответственность за собственное обучение (академическая автономия и саморегуляция)**, то есть способность самостоятельно ставить учебные цели, планировать время, выбирать ресурсы, отслеживать прогресс и адекватно оценивать результаты. Во-вторых, **информационная ответственность**, подразумевающая критическое отношение к потокам информации, умение верифицировать источники, осознание последствий распространения данных, что напрямую связано с борьбой с дезинформацией и кибербуллингом. В-третьих, **социальная и этическая ответственность в сети**, выражающаяся в соблюдении норм сетевого этикета, уважении к цифровой идентичности других, способности к конструктивному взаимодействию и сотрудничеству в виртуальных пространствах. И наконец, **техническая и медийная ответственность**, которая охватывает понимание основ цифровой гигиены, защиты персональных данных, осознанное и дозированное использование устройств без вреда для физического и психического здоровья. Именно такой многогранный подход к ответственности задает вектор для проектирования образовательного процесса с использованием цифровых инструментов.

Дидактический потенциал технологий раскрывается только при их методически грамотном встраивании в педагогический дизайн, где на первый план выходят не сами инструменты, а создаваемые ими возможности для осознанного действия и рефлексии. Ключевым элементом такой среды являются **платформы для организации обучения (LMS) и системы управления**, такие как Moodle, Google Classroom или Microsoft Teams. Их роль эволюционировала от простого хранилища материалов к пространству для персонализации. Механизм развития ответственности здесь заключается в предоставлении обучающемуся прозрачного доступа ко всему контуру курса – силлабусу, критериям оценивания, дедлайнам и массиву ресурсов – с самого начала. Это формирует целостное понимание задачи и делегирует ученику обязанность по планированию. Он сам, в рамках заданных границ, решает, в какой последовательности и темпе изучать материалы, учится распределять время для своевременного выполнения заданий. Например, в духе программы, учитель может выложить модуль «Глобальные экологические проблемы» с набором обязательных и дополнительных материалов (лекции, интерактивные карты, научные статьи, тесты для самопроверки). Задача ученика – освоить модуль к определенной дате и представить итоговый проект на выбор (исследовательское эссе, презентация, инфографика, подкаст). Таким образом, ответственность за глубину погружения и форму демонстрации понимания целенаправленно передается в руки обучающегося.

Другим мощным средством является **геймификация и системы визуализации прогресса**, уровней и рейтингов. Важно, чтобы эти механизмы служили не просто внешней мотивацией, а инструментом рефлексии и осознания собственного роста. Ответственность развивается здесь через конкретизацию и признание. Получение цифрового значка за «Систематическую работу» или «Эффективную помощь однокурснику на форуме» делает абстрактное понятие ответственности осязаемым и социально одобряемым. Рейтинговая система, отражающая не только академические успехи, но и качество взаимодействия, инициативность, стимулирует брать на себя дополнительные обязательства для достижения желаемого статуса.

Критически важно смещать акцент с внешней конкуренции на самопреодоление, проектируя персонализировании. Например, в рамках курса по основам программирования ученики могут получать значки за «Чистый и комментированный код», «Успешное отладку сложной задачи» или «Конструктивный код-ревью работы товарища». Это формирует ответственность не только за конечный результат, но и за качество процесса, за этичное и уважительное отношение к совместному цифровому продукту.

Развитие социальной ответственности наиболее эффективно происходит через **инструменты для совместной работы в облачной среде**, такие как Google Docs, Miro, Trello или GitHub. Эти платформы моделируют реальные профессиональные среды, где успех зависит от слаженности команды и надежности каждого участника.

Механизм формирования ответственности здесь основан на прозрачности и взаимозависимости. Каждый член команды получает четко определенную в цифровом пространстве роль и задачу, видимую для всех. История изменений документа или трек-листа задач фиксирует индивидуальный вклад, делая невыполнение своей части работы очевидным и ставящим под угрозу общий результат. Это воспитывает ответственность не только перед самим собой, но и перед другими, развивая умение договариваться в онлайн-дискуссиях, приходить к консенсусу, брать на себя обязательства и выполнять их в срок.

Практическим примером может служить проект по созданию виртуальной экскурсии по историческому музею. Команда распределяет в Trello задачи: исследование эпохи, написание сценария, подбор визуального ряда, техническая сборка в конструкторе. Весь процесс координируется онлайн, и каждый участник несет ответственность за свой сегмент, напрямую влияя на успех коллективного труда.

Важнейшим инструментом для развития рефлексивной составляющей ответственности служат **цифровые портфолио и образовательные блоги**. Платформы типа Mahara, Seesaw или простые сайтостроители становятся цифровым «зеркалом» и дневником развития обучающегося. Механизм воздействия заключается в необходимости постоянного осмысления и курирования своего образовательного нарратива. Формирование портфолио требует от ученика не просто архивирования работ, а их критического отбора, анализа причин успехов и неудач, формулирования выводов и постановки новых целей.

Публичный или полупубличный характер такого ресурса усиливает чувство ответственности за качество и достоверность представляемого цифрового «я». Например, ученик в течение года ведет цифровой дневник своего исследовательского проекта по биологии, последовательно загружая в него формулировку гипотезы, протоколы экспериментов, фотонаблюдений, промежуточные выводы и финальный отчет. К каждой записи он добавляет рефлексивный комментарий: «Что сработало? Почему эксперимент дал такой результат? Что я извлек из этой ошибки?». Такая практика систематически тренирует ответственность за процесс познания и за свои интеллектуальные продукты.

Особый потенциал заключают в себе технологии **адаптивного обучения и цифровые симуляторы**. Системы на основе искусственного интеллекта, подстраивающие сложность заданий под уровень конкретного ученика, и сложные симуляторы (виртуальные лаборатории по химии или физике, бизнес-игры, градостроительные симуляторы) создают уникальную безопасную среду для проб, ошибок и анализа их последствий. Механизм развития ответственности здесь прямой и наглядный.

В адаптивной среде ученик немедленно сталкивается с последствиями своего выбора: невнимательное изучение темы ведет к тому, что система предлагает вернуться на шаг назад или предлагает дополнительные разъясняющие материалы. В симуляторе его управленческие или научные решения приводят к виртуальным, но предельно реалистичным результатам – будь то банкротство виртуальной компании или успешный запуск космического аппарата. Это учит просчитывать риски, прогнозировать цепочки последствий и нести ответственность за принятые решения, что является краеугольным камнем взрослой жизни.

Для успешной интеграции этих технологий и минимизации рисков (таких как цифровое неравенство, подмена внутренней мотивации внешней, угрозы приватности и цифровая перегрузка) необходимо придерживаться ряда методических принципов. **Принцип осознанного выбора** требует предоставления обучающимся вариативности в форматах заданий, инструментах и последовательности действий. **Принцип «доверия вместо тотального контроля»** предполагает смещение функции цифровых систем с мониторинга в сторону предоставления аналитики самому ученику для самодиагностики, где учитель выступает в роли тьютора, помогающего интерпретировать данные.

Принцип прозрачности и обратной связи основан на использовании четких, заранее известных и оцифрованных критериев оценки, что формирует у обучающегося чувство справедливости и ясное понимание зоны своей ответственности. **Принцип рефлексивности** должен быть встроен в саму ткань цифровых заданий через обязательные элементы самооценки. И, наконец, **принцип связи с реальным миром** реализуется через использование технологий для решения социально значимых, проэкологических или волонтерских проектов, где ответственность ученика выходит за стены класса и приобретает реальный, осязаемый смысл.

Таким образом, цифровые технологии являются не вспомогательным инструментом, а ключевым дидактическим средством для развития личностной ответственности обучающегося в XXI веке. Они позволяют трансформировать образовательный процесс из системы внешнего регулирования и принуждения в среду для выращивания автономии, саморегуляции, критического мышления и социальной зрелости. Задача педагога, заключается в том, чтобы, оставаясь архитектором образовательной среды и наставником, целенаправленно использовать цифровые инструменты для делегирования ответственности, создания пространства для осознанного выбора и безопасного проживания последствий своих решений. Только так можно воспитать ответственного, proactive learner – человека, способного самостоятельно, этично и эффективно управлять своим образованием, карьерой и жизнью в условиях неопределенности и постоянных изменений цифрового мира.

Литература:

1. Anderson, T., & Dron, J. (2011). Three generations of distance education pedagogy. The International Review of Research in Open and Distributed Learning.
2. Dicheva, D., et al. (2015). Gamification in education: A systematic mapping study. Educational Technology & Society.
3. Dusmurod, D. (2021). The influence of foreign pedagogical school on the historical development of public education in colonial Turkestan (late 19th-early 20th century). Asian Journal of Multidimensional Research (AJMR), 10(2), 182–188.
4. Djurayev, D. U. (2025). Socio-pedagogical and economic factors that affected the weakness of Turkestan's madrasas (late 19th-early 20th centuries). TLEP–International Journal of Multidiscipline, 2(4), 224–228.
5. Ribble, M. (2015). Digital citizenship in schools: Nine elements all students should know. International Society for Technology in Education.
6. Zimmerman, B. J. (2002). Becoming a self-regulated learner: An overview. Theory Into Practice, 41(2), 64–70. https://doi.org/10.1207/s15430421tip4102_2
7. Федеральные государственные образовательные стандарты общего образования. (n.d.). Retrieved from [Link to document or source]
8. Концепция развития цифровой образовательной среды (актуальные государственные документы РФ). (n.d.). Retrieved from [Link to document or source]

Ceyhun Alıyev, Cəsur Qulamov

Xülasə

ÖYRƏNƏNİN ŞƏXSİ MƏSULİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALAR VASİTƏ KİMİ

Məqalədə rəqəmsal təhsil texnologiyalarının öyrənənlərin şəxsi məsuliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi potensialı araşdırılır. Rəqəmsal dövrdə məsuliyyət anlayışının təkamülü təhlil olunur və rəqəmsal məsuliyyətin əsas komponentləri müəyyənləşdirilir. Tədqiqatın əsas diqqət mərkəzində rəqəmsal alətlərin (əməkdaşlıq platformaları, qamifikasiya, adaptiv öyrənmə sistemləri, rəqəmsal portfellər və simulyatorlar) avtonomluğun, refleksiyanın, özünənəzarətin və sosial məsuliyyətin inkişafına xidmət edən praktik mexanizmləri və didaktik imkanları dayanır.

Ceyhun Alıev, Jasur Gulamov

Summary

DIGITAL TECHNOLOGIES AS A TOOL FOR DEVELOPING LEARNER`S PERSONAL RESPONSIBILITY

The article examines the potential of digital educational technologies in shaping and developing the personal responsibility of learners. It analyzes the evolution of the concept of responsibility in the digital age and highlights the key components of digital responsibility. The main focus is on the practical mechanisms and didactic capabilities of digital tools (collaboration platforms, gamification, adaptive learning systems, digital portfolios, and simulators) for developing autonomy, reflection, self-control, and social responsibility.

Rəyçi: dos.D.Curayev

Gülnur Abbasova
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1070

PSİXOLOGİYA ÜZRƏ ARAŞDIRMALARDA BƏZİ ÜMUMİ VƏ XÜSUSİ TƏDQİQAT METODLARINDAN İSTİFADƏ

Açar sözlər: *Tədqiqat üsulları, artıq əşya, eyni sözlə ifadə et, simvolika, simvolikanın növləri, generalizasiya*

Keywords: *Research techniques, extra thing, express in the same word, symbolism, types of symbolism, generalization*

Ключевые слова: *Методы исследования, выразить одним и тем же словом, символика, виды символики, генерализация*

Giriş. Ənənəvi düşüncədə tədqiqat metodları tədqiqatçıya, yeni kəşflər axtarışı aparanlara, alimlərə məxsus vasitə kimi qəbul edilirdi. Öyrənməyə, təhsilin məqsədinə münasibətin dəyişməsi yanaşmaya yeni baxış formalaşdırdı. Baxışın başlıca ideyası belədir: Öyrənənə biliklər hazır şəkildə verilməməli, bu biliklər tədqiqatlar aparılmaqla əldə edilməlidir. Əlbəttə, öyrənənin, şagirdin, tələbənin istifadə etdiyi metodlar məzmunca fərqlənir. Bu metodlar alimdən fərqli olaraq, şagirdə, tələbəyə elmə məlum olmayan problemləri deyil, artıq məlum məsələləri "kəşf" etməyə kömək göstərir. Son dövrdə münasibətlər daha kəskin şəkildə dəyişməyə başlamışdır. Tələbə kontekstində "hazır bilikləri araşdırıb tapmaq" ideyası da yaxşı mənada dəyişir. Tələbələrin yeniləri axtarmasına üstünlük verilir. Ali təhsildə belə yanaşma daha istedadlıların tapılması, elmə gənclərin münasibətinin dəyişdiriilməsi məqsədi ilə təhsildə daha mühüm addım kimi qiymətləndirilə bilər. Tədqiqatla bağlı problemlərin əsasında dayanan məsələ isə tədqiqat üsullarıdır. Deməli, tədqiqat üsullarından istifadədə mövcud olan məhdudiyyətlər tədricən aradan qalxmaqda, ondan istifadə edənlərin sayı, əhatə dairəsi çoxalmaqdadır. Aydındır ki, bu, problemə yanaşmaya təsirini göstərməyə bilməz. İnkişafın və uğurun əldə edilməsi mövcudluğa, hadisələrə tədqiqatçı səriştəsi ilə yanaşmaqdan ciddi şəkildə asılıdır. Söylənilənlər istər fərd, istər kollektiv, istər dövlət, istərsə də özəl sahə olsun, hər biri üçün əsas şərtdir. Təhsil prosesi də istisna deyil, bəlkə də qeyd olunanların nəzərə alınması daha zəruridir. Məktəb təhsilinin ilk günlərindən şagirdlərdə araşdırma bacarıqlarının yaradılması üzrə işlərə, dünyanın qabaqcıl təhsil təcrübəsində olduğu kimi üstünlük verilməlidir. "Şagird tədqiqat apara bilməz!?" "hökmü" təhsil sahəsindən çıxarılmalıdır. Bu isə ilk növbədə müəllim kadrları hazırlığında aparılan işlərin nəticəsi ilə bağlıdır.

Tədqiqat metodları elmi şəkildə az araşdırılmayıb. Lakin bu araşdırmalarda daha çox ümumi istiqamətlər nəzərə alınıb. Konkret problemlə bağlı tədqiqat metodlarının mahiyyəti, onların seçilməsi və istifadəsi kimi vacib məsələlər diqqəti lazımi şəkildə cəlb etməyib. Müzakirəyə təqdim olunmuş dissertasiya əsərlərində və digər yazılarda nəzmüraciət etdikdə az-az hallarda konkret problemlə bağlı təd-

qiqat metodlarına toxunulduğu görünür. Ümumiyyətlə, tədqiqat metodlarına həsr olunmuş araşdırmalarda da problem tam həll olunmamış qalır.

Bunları nəzərə alaraq qarşınzdakı məqalədə psixoloji araşdırmalarda istifadə olunan ümumi metodlar qısa şəkildə nəzərdə keçirilmiklə yanaşı, konkret mövzu üzrə istifadə olunan metodlar (bunları xüsusi metodlar kimi göstərək) da nəzərdən keçirilir. Təqdim olunan dədqiqat metodları təlimdə baş verən generalizasiya hadisələri nümunəsində izah olunur. Generalizasiya faktlarına müraciətimiz təsadüfi deyil. Onun təlim prosesinə təsiri nə qədər mürəkkəb olsa da, az öyrənilib, bütövlükdə təhsil sistemində, pedaqoji prosesdə rolu tam araşdırılmayıb. Tədqiqatlar daha çox generalizasiya hadisəsinin mahiyyəti və ayrı-ayrı fənlərin tədrisində baş vermə xüsusiyyətləri ilə bağlı olub. Laknin bunlarla yanaşı son dövrlərdə bu mürəkkəb prosesin araşdırılmasına diqqətartıb, dissertasiya əsəri müdafiə edilərək Ali Attestasiya Komissiyasında təsdiqini tapıb, məqalələr çap olunub, müxtəlif konfranslarda tədqiqatların nəticələri barədə məlumatlar verilib. Təbii ki, sadalananlar problemin tam həll olunması qənaətinə gəlməyə əsas vermir. Gələcəkdə bu sahədə tədqiqatların aparılması zərurəti özünü kəskin göstərir. Nəticə olaraq qeyd edilməlidir ki, generalizasiya hadisəsinin müxtəlif istiqamətlərinin öyrənilməsinə ehtiyac vardır. Məhz bu ehtiyacları qismən də olsa aradan qaldırmaq məqsədi ilə yazıda psixologiya elmində istifadə olunan tədqiqt metodları ilə yanaşı generalizasiya hadisəsinin öyrənilməsində tətbiqi tələb olunani zəruri olan tədqiqat metodlarının şərhini etməyi faydalı saydıq.

Digər tərəfdən, təhsil sisteminin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı dövlət səviyyəsində proqramlar qəbul edilir, islahatlar reallaşdırılır. Bu islahatların uğuru ilk növbədə onların həyata keçirilməsi prosesində psixologiya elminin uğurlarından, tədqiqatlardan əldə olunmuş nəticələrdən necə istifadə olunmasından asılıdır. Elmin, o cümlədən, psixologiyanın uğurları isə araşdırmalar zamanı tədqiqat metodlarından necə istifadə ediməsi ilə sıx bağlıdır. Konkret mövzular, öyrənilən elmi problemlər birbaşa tədqiqat metodlarının öyrənilməsi, mənimsənilməsi və tətbiqi ilə əlaqədardır. Yazılanlar bir daha göstərir ki, tədqiqat metodlarının öyrənilməsi yalnız ümumi istiqamətdə aparılmamlıdır. Konkret elmin və araşdırılan problemin səciyyəvi cəhətləri nəzərə alınmalı və daha səmərəli tədqiqat metodlarından istifadə olunmalıdır.

Tədqiqatın gedişi: "Tədqiqat", "Tədqiqat metodları" anlayışlarının tarixi nə qədər qədim olsa da, onların tam formalaşdığını düşünmək səhvdir. Təsadüfi deyil ki, istər Azərbaycanda, istərsə də dünyada həmin müstəvidə yeni araşdırmalar meydana gəlir. Məsələn, son dövrlərdə tədqiqat metodları ilə bağlı elmi məqalələrlə yanaşı, görkəmli Azərbaycan alimi Yəhya Kərimov dəyərli monoqrafiya hazırlayıb çap etdirmişdir (1). Qeyd edək ki, tədqiqat metodları ümumiləşdirici yanaşmaları ilə seçilir, konkret elm sahəsində istifadə üçün səciyyəvi olan cəhətlərə az diqqət ayrılır. Psixologiya üzrə aparılan araşdırmalarda da bu cəhət özünü göstərir. Lakin elmi reallıqda məsələnin fərqli olduğu məlumdur. Məsələn, psixologiyada ümumpsixoloji tədqiqat metodlarından nə qədər geniş istifadə olunsa da, konkret problemin tələbi ilə bağlı səciyyəvi metodlara müraciət etmək zərurəti də qaçılmazdır.

Ümumi psixologiya, onun müxtəlif sahələri ilə bağlı araşdırmalarda problemin həlli məqsədilə istfadə olunan yollar psixoloji tədqiqat metodlarıdır. Digər

elmlərdə olduğu kimi, psixologiyada da tədqiqat metodlarının nəzəri və praktik növləri göstərilir, hər növə daxil olan alt qrup qeyd edilir. Məsələn, müşahidə, xəbərdarlıqlı və xəbərdarlıqsız olmaqla iki yarımqrupa bölünür. "Bu metodların hansı daha səmərəlidir?" sualına cavab vermək çətindir. Psixoloji xüsusiyyət baxımından görünən budur ki, xəbərdarlıqsız müşahidədə öyrənilən respondentlər daha sərbəst olurlar. Xəbərdarlıqlı müşahidə şagirdi (tələbəni) nisbətən daha korrektli olmağa, fəaliyyətinə cavabdehlik daşımağa istiqamətləndirir.

Alınan nəticələrin dəqiqliyi onların qarşılıqlı təhlilindən asılıdır. Tədqiqatçının müşahidənin xəbərdarlıqlı və xəbərdarlıqsız növlərindən alınan nəticələr əsasında psixoloji korreksiya və dəqiqləşdirmələr etməsi vacib şərtlərdəndir. Müşahidə metodu digər əlamətlərinə görə də qruplaşdırılır. Məsələn, ilkin müşahidə. Bu metoddan daha çox tədqiqatın ilk mərhələsində mövcud vəziyyətin öyrənilməsi məqsədilə istifadə olunur. Odur ki, bu metodu diaqnostik müşahidə metodu kimi də ifadə etmək olar. Daha sonra, aparılan tədqiqatın nəticələrinin müəyyənləşdirilməsi məqsədilə həyata keçirilən müşahidə. Bu metodun nəticəsi yekun fikrə gəlməyə əsas vermir. Yəni ancaq müşahidə metodu ilə tədqiqatın nəticəsi barədə müsbət və ya mənfi nəticəyə gəlmək doğru deyil. Digər metodlardan istifadənin nəticələri ilə üst-üstə düşdükdə ümumiləşdirmə aparmaq mümkündür. Buna baxmayaraq psixoloji tədqiqat metodu kimi araşdırma aparılan sahədə ilkin vəziyyətin öyrənilməsi və aparılan işlərin nəticələrinin müəyyənləşdirilməsi məqsədilə həyata keçiriləm müşühidə metodlarının olduğu nəzərə alınmalıdır. Müşühidə müxtəlif elm sahələri ilə bağlı da istifadə olunan tədqiqat metodurur. Psixoloji araşdırmalarda müşahidə psixoloji hadisələrin öyrənilməsinə xidmət edir, nəticə və ümumiləşdirmələr də bu istiqamətdə həyata keçirilir.

Psixologiya elmində geniş istifadə olunan ümumi metodlardan biri sorğudur. Sorğu həm şifahi, həm də yazılı şəkildə təşkil oluna bilər. Yazılı sorğu (anket sorğusu) daha səmərəli metod hesab edilir. Problemlə bağlı daha çox respondentin fikirlərinin öyrənilməsi, cavabların qoyulan problemlə bağlılığı yazılı sorğunun üstünlüklərindəndir. Elm və texnikanın inkişfı tədqiqat metodları sırasına "onlayn (məsafədən) sorğu" adlanan bir sorğu da daxil etmişdir. Bu metoddan istifadə sorğu keçirilən adamların say məhdudiyyətini azaldır, təhlildə müxtəlifliyin (müxtəlif ölkələrdə, bölgələrdə yaşayan insanları əhatə etməsi, milli tərkibin, mədəniyyətlərin, adət-ənələrin fərqliliyi) nəzərə alınmasına kömək göstərir, psixoloji tədqiqatların nəticələrini daha inandırıcı edir.

Ümumi tədiqiqat metodları içərisində ekspermentin adı xüsusi çəkilir. Bunun səbəbi eksperimentin irəli sürülən fərziyyə ilə daha sıx bağlı olmasıdır. Həmçinin eksperiment digər tədqiqat metodlarından istifadənin səmərəliliyini yoxlamağa da imkan verir. Eksperiment tədqiqatçının fərziyyəsinə uyğyn yaratdığı psixoloji dəyişiklik və dəyişikliyin təsirini müəyənləşdirmək məqsədilə yaradılmış süni vəziyyətdir. Tətbiqinə bir sıra tələblər verilir. Eksperimentin kontrol qruplarla müqayisədə aparılması, həm kontrol, həm də eksperimental qrupların bərabər səviyyəliliyi (yaş uyğunluğu, mənimsəmə səviyyəs, ailə vəziyyəti), ölkənin müxtəlif fərqli bölgələrini əhatə etməsi və s.) gözlənilməlidir. Eksperiment metoduna belə bir nümunə vermək olar: Tədqiqatçı ekspermentator kiçik yaşlı məktəblərin təlim uğurlarına ailənin təsir xüsusiyyətlərini öyrənir. Təxminən iki yaxın səviyyəli sinif (qrup) müəyyənləşdirilir. Qrupların biri esperimental, digəri isə kontrol qrup kimi

nəzərdə tutulur. Kontrol qrupla işdə dəyişiklik edilmir. Dəyişikliyin nəticəsi öyrənilir. Dəqiqləşdirmə üçün kontrol qruplarla eksperimental qrupların yeri dəyişdirilir. Eksperimental dəyişiklik əvvəlki kontrol qruplarda təşkil olunur. Əvvəlki eksperimental qruplardan kontrol qruplar kimi istifadə olunur, onlarla ənənəvi şəkildə iş aparılır. Belə eksperimen çarpaz eksperiment adlanır. Öyrənilən nəticələrin əvvəlki nəticələrə uyğun gəlib gəlməməsindən asılı olaraq nəticə çıxarılır, ümumiləşdirmə aparılır.

Fəaliyyət məhsullarının öyrənilməsi. Bu mütoddan daha çox keçmişdə baş vermiş psixoloji faktların öyrənilməsində istifadə olunur. Fikrimizi akselerssiya hadisəsi ilə bağlı çox da uzaq olmayan zamanda baş vermiş reallıq əsasında izah edək. Ötən əsrin ortalarında belə bir ideya meydana gəldi ki, indiki, məsələn 15 yaşlı uşaqlar 50-60 il bundan əvvəlki uşaqlarda daha çox inkişaf ediblər. Bu fərziyyənin doğru və ya səhv olduğu müxtəlif tədqiqat üsullarından istifadə edilməklə araşdırıldı. Lakin əsas nəticələr yaradıcılıq məhsullsrının öyrənilməsi metodu ilə müəyyənləşdirildi. Fərziyyənin doğruluğu təsdiqləndi. Nəticə uşaqların məktəbə (təhsilə) başlanması yaşınının bir il azaldılması kimi qlobal hadisə oldu. Bəzi ümumi psixoloji tədqiqat metodları barədə fikirlərimizi tamamlayıb, təlimdə baş verən generalizasiya hadisəsinin öyrənilməsi prosesində istifadə olunan metodları izah edirik.

İlkin olaraq "*Bir sözlə adlandır*" metodu üzərində dayanırıq. Bu metod daha çox kiçik yaşlı məktəblilərlə işdə ümumiləşdirmə prosesində yol verilən generalizasiya hadisəsinin səciyyəvi xüsusiyyətlərini öyrənmək məqsədi ilə tətbiq edilir. Şagirdlərə beş sətirdə sözlər verilir, hər sətirdəki sözləri bir sözlə adlandırmaq tapşırılır. Axtarilan sözün ümumiləşdirici xarakterli olması nəzərdə tutlulur, şagirdlərin sadə ümumiləşdirmə bacarıqlarının səviyyəsini müəyyənləşdirməyə xidmət edir. Məqsəd xüsusi hallar məlum olduqda ümumiləşdirmə aparılarkən generalizasiya hadisəsinin baş verməsinə səbəb olmuş səhvləri öyrənməkdir. Tapşırığın şagirdlərə tam aydın olub-olmadığı müəyyənləşdirilir. Tapşırığın icra mexanizmi ilə bağlı sual olmadıqda şagirdlər işə başlayırlar. Tədqiqatın nəticələri təhlil edilib ümumiləşdirirlir:

Nəticələrin obyektivliyi məqsədi ilə şagirdlərin cavabları kəmiyyət və keyfiyyət baxımından təhlil edilir. Belə təhlillər eksperimentdə iştirak edən şagirdlərin hər sətirdəki sözləri bir sözlə ifadə edərkən generalizasiya ilə bağlı yol verdikləri səhvlərin müxtəlif səbəblərdən (yaş xüsusiyyətlərindən, mövcudluğun əsas xüsusiyyətlərini keçici xüsusiyyətlərindən fərqləndirə bilməmələrindən, diqqətin səviyyəsindən, informasiyanın dolğunluğundan və s.) yarandığını müəyyənləşdirməyə imkan verir.

Aşağıda anket sorğusunun nümunəsini veririk:

Oxuyun, hər sətirdəki əşya adlarını bir sözlə necə adlandırmaq olar?

1. Sağsağan, ağacdələn, sığırçın, qırqovul ,turac -
2. Xoruz, ördək, toyuq, cücə, qaz -
3. Moruq, quşüzümü, böyürtkən, çiyələk, qarağat -
4. Rəngsaz, qaynaqçı, çilingər, malakeş, xarrat -
5. Kəklikotu, gicitkən, bağayarpağı, qantəpər, nanə -
6. Bənövşə, lalə, incigülü, meşə əsməsi, çobanyastığı -

Qeyd edək ki, psixologiya elmində generalizasiya hadisəsi araşdırılarkən bu metodun "əksi" olan metoddan da istifadə edilir. Bu metodda verilmiş sözə uyğun sözləri seçib ayr-ayrı sətirlərdə yazmaq tələb olunur, şagirdlərin ümumidən xüsusiyə gəlməklə bağlı ümumişdirmə bacarıqları öyrənilir. Variant üzrə işin təşkil edilməsində məqsəd şagirdlərə verilmiş sözləri müvafiq sətirdə yazarkən generalizasiya hadisəsi ilə nəticələnən hansı səhvlərə yol verdiklərini müəyyənləşdirməkdir. Metodikanın birinci variantından fərqli olaraq bu dəfə şagirdlər verilmiş sözə uyğun gələn sözləri fikrən təhlil etməli və onların hansı ümumi sözə aid olduğunu müəyyənləşdirməli olurlar.

NÜMUNƏ:

1. Ailə -
2. Ev heyvanları -
3. Usta -
4. Dərman bitkilər i-
5. Giləmeyvə -
6. Çöl quşları -

Generalizasiya hadisəsinin öyrənilməsi zamanı istifadə olunan metodlardan biri də "*Simvollarla əvəz et*" adlanır. İbtidai sinif şagirdlərinin riyazi məfhumları mənimsəmə səviyyəsini öyrənmək, baş verən generalizasiya hadisəsnin xüsusiyyətlərini müəyyənləşdirmək məqsədi ilə istifadə olunur. Öyrənilmiş qaydaların hərfi simvollarla ifadəsi məfhumların mənimsənilməsi səviyyəsi ilə düzmütənasibdir. Şagirdin ümumi nəticəyə gəlib-gəlmədiyini müəyyənləşdirmək üçün simvollardan istifadə səmərəli metodlardandır.

Metodun tətbiqində məqsəd riyaziyyat üzrə tədris materialalrına aid məfhumların şagirdlər tərəfindən necə, hansı səviyyədə mənimsənildiyini müəyyənləşdirmək, simvollardan istifadə imkanlarını öyrənməkdir. Təbii, metodun səmərəsi əldə edilmiş tədqiqat materiallarının təhlilindən, konkret araşdırılan mövzuya uyğun olaraq işlənilməsindən asılıdır.[1]

Simvollardan iistifadə prosesində ancaq bir simvolun tətbiqindən alınan nəticələrlə gifayətlənmək olmaz. Bu halda generalizasiya hadisəsi üzrə tədqiqatlarda istifadə olunan "*Digər simvollardan istifadə*" metoduna müraciət etmək faydalıdır. Metodun mahiyyəti belədir: Şagirdlər verilmiş əməllərdə toplananların (vurulanların) yerini özlərinin "kəşf" etdikləri simvollarla dəyişirlər. Təcrübə göstərir ki, metodun tətbiqi zamanı şagirdlər daha çox hərfi simvollara müraciət etirdilər. Bu da başadüşüləndir. Çünki ibtidai siniflərdə tədris prosesində başqa məzmunda olsa da, daha çox hərfi simvollardan istifadə edilir. "Hərfi simvollardan başqa hansı simvollardan istifadə etmək olar?" sualı ilə bağlı izahdan sonra şagirdlərin şəkil-simvollardan istifadə səviyyəsini öyrənmək olur.

Məfhumun necə mənimsənilməsinin öyrənilməsi belə bir nəticəyə gəlməyə əsas verir ki, simvollarla toplananların yerinin dəyişdirilməsi üzrə iş aparılan qruplarda anlayış daha səmərəli mənimsənilib. Digər qrupda (simvollar üzrə iş aparılmayan qruplarda) gözlənildiyi kimi, mənimsəmə səviyyəsi, adtən,aşağı oldu.

[1] Materialın hazırlanmasında müəllifin çoxillik araşdırmalarının nəticələrindən, o cümlədən "Kiçik yaşlı məktəblilərin təlim fəaliyyətində generalizasiya hadisəsinin təzahürü və onun aradan qaldırılması psixoloji xüsusiyyətləri " adlı dissertasiya əsərinin nəticələrindən istifadə olunub.

Fərqli simvollarla iş metodu ilə həm də biliklərin yaddasaxlanılma müddətini öyrənmək olur. Bu metodla işin nəticələrinin təhlili göstərir ki, öyrənilmiş məfhum müəyyən müddətdən sonra, eksperimental qpuplardakı şagirdlər tərəfindən daha yaxşı yadda saxlanılır və onlar uyğun misalları daha səhvsiz həll edirlər.

A.V.Vişnevskinin elmə gətirdiyi, "*Artıq əşya*" adlanan metod generalizasiya hadisəsinin öyrənilməsi ilə bağlı tədqiqatlarda geniş istifadə olunur. Ayrı-ayrı sətirlərdə sözlərin biri istisna olmaqla eynicinsli sözlər verilir. Məqsəd eynicinsli məfhumlara aid olmayan sözü şagirdlərin müəyyənləşdirə bilib-bilmədiklərini öyrənməkdir.

1. Albalı, qoz, alça, gicitkən, zoğal -
2. Soğan, kələm, üzüm, balqabaq, turp -
3. Nar, böyürtkən, tut, moruq, yemişan -
4. Balta, mişar, çəkic, çəngəl, rəndə -
5. Tort, şəkərbura, istiot, şirinçörək, paxlava -

Aydın oldu ki, generalizasiya hadisəsinin öyrənilməsi zamanı xüsusi fərqli metodlardan istifadə, nəticələrin digər metodlar vasitəsi ilə alınmış nəticələrlə müqayisəli şəkildə təhlili tədqiqatın səmərəsinə müsbət təsir göstərir.

Nəticə. Müəllim hazrlığında psixoloji tədqiqat metodlarının öyrədilməsi kəmiyyət və keyfiyyətcə genişləndirilməli, sabahın müəllimləri ilə təkcə ümumi metodlar deyil, həm də konkret araşdırılan mövzuya uyğun metodların seçilməsi, onlardan istifadə yolları, nəticələrin təhlil edilib ümumiləşdirilməsi kimi məsələlər üzrə də iş aparılmalıdır. Bu, psixologiya elminə,onun müxtəlif problemləri ilə bağlı tədqiqatlara marağı artırar, pedaqoji işdə təlim prosesinin tədqiqatyönümlü olmasına kömək göstərər.

Ədəbiyyat:

1. Kərimov, Y. Ş. (2009). Pedaqoji tədqiqat metodları. Bakı.
2. Həmzəyev, M. Ə. (1968). Təlim materiallarının mənimsənilməsi prosesində generalizasiya hadisəsi. Azərbaycan məktəbi jurnalı, 12, 57–63.
3. Abbasova, G. O. (2002). Kiçik yaşlı məktəblilərin təlim fəaliyyətində baş verən generalizasiya hadisəsinin təzahürü və onun aradan qaldırılmasının psixoloji xüsusiyyətləri [Unpublished doctoral dissertation].
4. Abbasova, G. O. (2004). İbtidai siniflərdə generalizasiya hadisəsinin bəzi xüsusiyyətləri. Psixologiya jurnalı, 3-4, 117–120.
5. Jones, D. (2003). Generalization and learning: Theories, methods, and applications. Cambridge: Cambridge University Press.

Gulnur Abbasova

Summary

USE OF SOME GENERAL AND SPECIFIC METHODS IN PSYCHOLOGICAL RESEARCH

In the contemporary era, it is acknowledged that research methods are not solely the prerogative of researchers. The use of research methods within the educational process is rapidly expanding. The effectiveness of activity in this field is undoubtedly contingent upon the preparation of teaching personnel. The article provides a comparative analysis of both general and topic-specific research methods employed in psychology, supported by illustrative examples.

Гюльнур Аббасова

Резюме

ИСПОЛЬЗОВАНИЕ НЕКОТОРЫХ ОБЩИХ И СПЕЦИАЛЬНЫХ МЕТОДОВ В ПСИХОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

В наши дни признано, что методы исследования не являются исключительной прерогативой исследователей. Использование исследовательских методов в процессе обучения стремительно расширяется. Эффективность деятельности в данной области, безусловно, зависит от качества подготовки педагогических кадров. В статье сравниваются общие и тематически применимые методы исследования, используемые в психологии, с опорой на конкретные примеры.

Rəyçi: b/m H.M. Zeynalova

Müşviq Mustafayev
Bakı Dövlət Universiteti
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: mustafayev76@mail.ru

Şəfəq Şahməmmədova
Azərbaycan Dillər Universiteti
Psixologiya üzrə fəlsəfə doktoru
E-mail: shafaqss@mail.ru

Ramin Allahverdiyev
Qarabağ Universiteti
Psixologiya üzrə fəlsəfə doktoru
E-mail: ramin.allahverdiyev@karabakh.edu.az

Dəniz Şirəliyeva
Bakı Dövlət Universitet
E-mail: shiraliyeva333@gmail.com

Şəmsinur Hüseynova
Bakı Dövlət Universitet
E-mail: nurhuseynov004@gmail.com

https://doi.org/10.30546/2518-752X.02.101.1073

BAĞLANMA NÖVLƏRİ VƏ MADDƏ İSTİFADƏ POZUNTULARI ARASINDAKI ƏLAQƏ: PSİXOLOJİ VƏ KLİNİK YANAŞMA

Açar sözlər: *psixoaktiv maddələr, bağlanma nəzəriyyəsi, maddə istifadəsi pozuntusu,travma, psixoloji risk faktorları*

Keywords: *psychoactive substances, attachment theory, substance use disorder, trauma, psychological risk factors*

Ключевые слова: *психоактивные вещества, теория привязанности, расстройство, связанное с употреблением психоактивных веществ, травма, психологические факторы риска*

GİRİŞ

Bağlanma nəzəriyyəsi, insanın erkən yaşlardan etibarən baxıcıları ilə qurduğu emosional əlaqələrin, sonrakı dövrlərdəki sosial və emosional münasibətlərə necə təsir etdiyini izah edən psixoloji çərçivədir. Nəzəriyyə əvvəlcə John Bowlby tərəfindən tərtib edilmiş və daha sonra Meri Ainsworth tərəfindən eksperimental olaraq təsdiq edilmişdir. Bowlby-yə görə, uşağın əsas baxıcısı ilə qurduğu bağlılıq

onun gələcək stresə reaksiyasına, yaxın münasibətlərinə və emosional tənzimləməsinə dərin təsir göstərir [1, səh: 194-210]. Bağlanma tipləri əsasən dörd kateqoriyada təsnif edilir: **təhlükəsiz**, **narahat/ambivalent**, **qaçınqan** və **nizamsız** bağlanma. Bu tiplər fərdin özünə və başqalarına olan baxış tərzini, yaxınlığa reaksiyasını və qorxu tənzimləməsini müəyyən edir [3, səh: 83-115]. Bir insanın həyatı boyu inkişaf etdirdiyi əlaqələr uşaqlıqda formalaşdırdığı bağlılığın növündən təsirlənə bilər. Tədqiqatlar göstərir ki, erkən bağlanma təcrübələri insanın emosional rifahına, özünə hörmətinə və empatiya qabiliyyətinə təsir göstərir. Beləliklə, inkişaf zamanı sağlam və təhlükəsiz bağlılığın təmin edilməsi sonrakı həyatda optimal psixososial fəaliyyət üçün çox vacibdir.

Digər tərəfdən, **maddə istifadə pozuntusu (Bundan sonra: MİP)**-fərdin bir və ya bir neçə psixoaktiv maddədən kompulsiv və nəzarətsiz şəkildə istifadə etməsi, bu istifadənin gündəlik funksiyalara və sağlamlığa mənfi təsir göstərməsi ilə xarakterizə olunur. Ümumdünya Səhiyyə Təşkilatı bunu fəaliyyətin dayandırılması, tolerantlığın inkişafı, çəkilmə simptomları və sosial və gündəlik fəaliyyətlərin pozulması kimi təyin edir [4]. MİP adətən emosional tənzimləmə, travmatik təcrübələr və aşağı psixososial dəstəkdə çətinliklərlə əlaqələndirilir [5 , səh: 231-244]. MİP-in inkişafında genetik meyl və neyrobioloji mexanizmlər də mühüm rol oynayır. Araşdırmalar göstərir ki, erkən yaşda psixoaktiv maddələrə məruz qalma risk faktorlarını daha da artırır. Bundan əlavə, pozulmuş ailə münasibətləri və sosial təcrid MİP riskini artıran mühüm sosial determinantlardır. Buna görə də MİP-in qarşısının alınması və müalicəsi üçün təkcə tibbi deyil, həm də psixososial müdaxilələrdən kompleks şəkildə istifadə etmək vacibdir.

Araşdırmalar göstərir ki, bağlanma tərzi, xüsusilə **təhlükəsiz olmayan bağlanma**, maddə istifadə davranışının risk amili ola bilər. Təhlükəsiz bağlanma şəraitində yetişən şəxslər, streslə və emosional çətinliklərlə daha effektiv başa çıxarkən, təhlükəsiz olmayan bağlanma nümunələri-xüsusilə də **nizamsız** və narahat bağlanma – maddələrin emosional qaçış və özünü sakitləşdirmə vasitəsi kimi istifadəsinə səbəb ola bilər. [6, səh:700-705]

Bağlanma tərzi və MIP arasındakı əlaqə həm psixoloji elmdə, həm də klinik praktikada tədqiq edilmişdir. Maddələrdən sui-istifadə yalnız bioloji və ya davranış səbəbləri ilə izah edilə bilməz; problemin emosional tənzimləmə, şəxsiyyətlərarası münasibətlər və özünü dərketmə ilə sıx bağlı olduğu getdikcə daha aydın olur [11, səh. 423-425]. Bu kontekstdə insanın müəyyən edilmiş bağlılıq tərzi onun stress və emosional çətinliklərə reaksiyasını müəyyən edir. Tədqiqatlar göstərir ki, etibarsız bağlanma tərzi olan insanlar xüsusilə maddə asılılığına meyllidirlər. Belə insanlar emosional ehtiyaclarını ödəməkdə çətinlik çəkdikləri üçün müvəqqəti rahatlama vasitəsi kimi psixoaktiv maddələrdən istifadə oluna bilər. Buna görə də, MİP çərçivəsində terapevtik müdaxilələrdə bağlanma nümunələrinin nəzərə alınması daha effektiv nəticələr əldə etməyə kömək edə bilər.

Bir çox tədqiqat göstərir ki, təhlükəsiz olmayan bağlanma stilinə sahib olan fərdlər, xüsusilə **narahat** və **nizamsız** bağlanma stilində olanlar, **emosional tənzimləmədə çətinlik, özünə qarşı mənfi münasibət** və **streslə baş etmədə zəiflik** səbəbilə maddə istifadəsinə daha çox meyllidirlər [7, səh. 705-714].Bu baxımdan, MİP üçün risk faktoru kimi bağlanma tərzinin öyrənilməsi erkən müdaxilə, müalicənin inkişafı və psixoterapevtik yanaşmaların fərdiləşdirilməsi üçün vacib məlumatlar verir.

Bundan əlavə, klinik praktikada bu mövzunun əhəmiyyəti daha da artır. Maddə istifadəsi pozuntuları ilə mübarizə aparan şəxslər yalnız əsas maddə istifadəsinə deyil, həm də emosional və əlaqə problemlərinə diqqət yetirən terapevtik yanaşmalara ehtiyac duyurlar. Bağlanma əsaslı müdaxilələr (məsələn, *mentalization-based therapy, emotion-focused therapy*) bu ehtiyaca cavab verir və empirik olaraq **terapiya davamlılığını artırdığı, relaps ehtimalını azaltdığı** sübut olunub [8, səh. 419-432].

Eyni zamanda, bu mövzu **ictimai və sağlamlıq siyasətləri baxımından** da vacibdir. Bağlanma pozuntuları ilə MİP arasındakı əlaqənin aydınlaşdırılması, risk altındakı əhali qruplarında (uşaq evlərində böyüyənlər, travma keçirmiş fərdlər, valideyn laqeydliyi yaşamış şəxslər) **profilaktik psixososial proqramların dizaynı** üçün mühüm nəzəri baza təmin edir [10, səh. 718-744]

Nəhayət, bu mövzu fərdi psixopatologiyanı onun sosial kontekstində başa düşmək üçün əsas qoyur. Bağlanma tərzi və maddə istifadəsi arasındakı əlaqə, **şəxsi və sistemik səviyyədə psixoloji problemlərin necə qarşılıqlı təsir etdiyini** anlamaq baxımından da vacibdir. Bu yanaşma yalnız simptomları müalicə etməyə deyil, həm də onların əsas səbəblərini başa düşməyə və aradan qaldırmağa imkan verir. Bağlanma nəzəriyyəsi tədqiqatı erkən uşaqlıqda formalaşan münasibətlərin dinamikasının gələcək riskli davranışlarla necə əlaqəli olduğunu göstərir. Bundan əlavə, sosial xidmətlər və səhiyyə sistemləri bu risk qruplarını erkən müəyyən etmək üçün bağlılıq əlamətlərinə əsaslanan skrininq modelləri hazırlaya bilər. Beləliklə, bağlanma üslublarının qiymətləndirilməsi və gücləndirilməsinə yönəlmiş müdaxilələr MİP-in qarşısının alınması və reabilitasiya prosesinin fərdiləşdirilməsi üçün strateji imkanlar yaradır.

Bu məqalənin əsas məqsədi, fərdlərin bağlanma stilləri ilə MİP arasındakı əlaqəni **psixoloji və klinik perspektivdən** analiz etməkdir. Tədqiqat müxtəlif bağlanma növlərinin (təhlükəsiz, narahat, qaçınqan, nizamsız) maddə istifadəsinə təsirini araşdırır və bu əlaqənin emosional tənzimləmə, travmatik təcrübə və şəxsiyyətlərarası münasibətlərin keyfiyyəti kimi vasitəçilik dəyişənləri ilə necə formalaşdığını izah etməyə çalışır.

Eyni zamanda məqsəd, mövcud elmi tədqiqatlar əsasında bağlanma əsaslı klinik müdaxilələrin **effektivliyini dəyərləndirmək**, terapevtik yanaşmalarda fərdi bağlanma stilinə əsaslanan **fərdiləşdirilmiş müalicə yollarının** imkanlarını araşdırmaqdır [9, səh. 595-610].

Bu istiqamətdə aparılan təhlillər psixoloji müdaxilələrin optimallaşdırılması, risk qruplarının erkən müəyyənləşdirilməsi və bağlılığa əsaslanan profilaktik strategiyaların hazırlanması üçün nəzəri və praktiki əsaslar verir.

Bağlanma Nəzəriyyəsi: John Bowlby və Mary Ainsworth-un Yanaşması.

Bağlanma nəzəriyyəsinin banisi John Bowlby, insanın erkən uşaqlıqda əsas baxıcısı (çox vaxt anası) ilə qurduğu emosional bağın onların gələcək psixoloji inkişafına və sosial münasibətlərinə böyük təsir göstərdiyini irəli sürdü. Bowlby-ın fikrincə, bu bağlılıq çətin anlarda təhlükəsizlik və dəstək təmin edən və insanın özünü və başqalarını necə başa düşməsində əsas rol oynayır.

Bowlby bağlılığa bioloji əsaslı instinkt kimi baxdı və onun insanın sağ qalma ehtiyacları ilə əlaqəsini vurğuladı. O hesab edirdi ki, bağlanma sistemi işə salındıqda (məsələn, qorxu və ya stress zamanı) uşaq əsas qayğı göstərəni axtarır və onun yanında rahatlıq tapır [12, səh. 664-678]. Bu ehtiyac ardıcıl və empatiya ilə qarşılanırsa, uşaq təhlükəsiz bağlanma tərzini inkişaf etdirir.Əks halda isə təhlükə-

siz olmayan bağlanma tərzləri formalaşır. Bowlby-nin nəzəri əsaslarını empirik tədqiqatlarla dəstəkləyən Mary Ainsworth, bağlanma tərzlərinin müəyyənləşdirilməsi üçün "Yad Vəziyyət Testi"ni (Strange Situation Procedure) hazırlamışdır. Bu test 12-18 aylıq körpələrin qısa ayrılıqlar və anaları ilə görüşmələri zamanı davranışlarını müşahidə etməyə imkan verir [2, səh. 9-35].

Ainsworth və həmkarları bu müşahidələr əsasında üç əsas bağlanma tərzini müəyyən etdilər:

1. Təhlükəsiz bağlanma: Uşaq ayrıldıqda narahatlıq keçirir, lakin ana geri qayıtdıqda asanlıqla sakitləşir.

2. Narahat (ambivalent) bağlanma: Uşaq çox narahat olur və anası qayıtdıqdan sonra belə onu sakitləşdirə bilmir. Həm yaxınlıq istəyir, həm də qəzəb göstərir.

3. Qaçınqan (avoidant) bağlanma: Uşaq ayrılığa az reaksiya verir və ana qayıtdıqda ona qarşı soyuqluq göstərir.

Sonradan digər tədqiqatçılar tərəfindən **nizamsız** bağlanma adlı dördüncü tip də əlavə olunmuşdur. Bu tipdə uşaqların davranışları ziddiyyətli və anlaşılması çətin olur [13, səh. 121-160]. Bowlby və Ainsworth-un nəzəriyyəsi yalnız uşaq inkişafı sahəsində deyil, eyni zamanda **böyüklərdə bağlanma, psixopatologiya**, və **psixoterapiya modellərində** də geniş tətbiq sahəsi tapmışdır [14, səh.197-224]. Xüsusilə, maddə istifadəsi pozuntularında bağlanma üslublarının tədqiqi insanların özünü sakitləşdirmək və ya münasibətlərdə qorxularını kompensasiya etmək üçün psixoaktiv maddələrə müraciət etməsi kimi klinik nəticələrə işıq salır. John Bowlby-nin nəzəri modeli və Mary Ainsworth-un empirik tədqiqatları birləşərək, bağlanma nəzəriyyəsini psixologiya sahəsində ən nüfuzlu və praktikası geniş olan modellərdən biri halına gətirmişdir. Bu nəzəriyyə, psixoloji müdaxilə və diaqnostikada dərin tətbiq potensialı ilə, maddə istifadə pozuntularının mənşəyini və müalicə yollarını başa düşmək üçün güclü bir anlayış təqdim edir.

Bağlanma növləri: psixoloji təhlil.

1. Təhlükəsiz Bağlanma (Secure Attachment)

Təhlükəsiz bağlanma uşağın baxıcısından sabit, ardıcıl və empatik cavablar aldığı hallarda inkişaf edir. Bu tip bağlılığa malik insanlar emosional yaxınlığa açıqdırlar, özünə və başqalarına güvənirlər və stresə daha davamlıdırlar. Onlar yaxın münasibətlərdə təhlükə hiss etmədən bağlar qura bilirlər və lazım olduqda kömək istəməkdə çətinlik çəkmirlər [17, səh. 209-214] . Təhlükəsiz bağlılığı olan insanlar emosiyaları tənzimləməkdə daha müvəffəqiyyətli olur və mənfi emosiyaların öhdəsindən səmərəli şəkildə gələ bilirlər. Onlar öz ehtiyaclarını tanıyıb ifadə etməyi, həmçinin başqalarının emosional ehtiyaclarını başa düşməyi və onlara cavab verməyi bacarırlar. Onlar həm şəxsi münasibətlərdə, həm də sosial şəraitdə daha funksional davranış nümayiş etdirir, qarşılıqlı hörmət və əməkdaşlığa üstünlük verirlər. Psixoloji nöqteyi-nəzərdən təhlükəsiz bağlanma yüksək özünə hörmət, müsbət özünü qavrayış və psixopatoloji pozuntu riskinin aşağı olması ilə əlaqələndirilir. Yetkinlik dövründə: romantik münasibətlərdə sabitlik, empatiya və konstruktiv münaqişələrin həlli ilə xarakterizə olunur.

2. Narahat (Ambivalent) Bağlanma

Bu tip bağlanma uşağın baxıcısından bir dəfə həssas, bir dəfə laqeyd cavablar aldığı zaman formalaşır. Fərdlər öz emosional ehtiyaclarının qarşılanacağına dair qeyri-müəyyənlik yaşayırlar, bu da narahatlıq, dəyərsizlik hissləri və asılı mü-

nasibətlərə səbəb olur [16, səh. 971-991]. Bu cür bağlılıq, uşağın böyüklərdən qeyri-sabit və qeyri-müntəzəm emosional dəstəyi aldığı vəziyyətlərdə inkişaf edir. Nəticədə uşaqlar münasibətlərdə inam və təhlükəsizlik hissi qazana bilmirlər ki, bu da daimi narahatlıq və sosial münasibətlərdə dəstəyə ehtiyac yaradır. Bu tip bağlılığa malik insanlar şəxsiyyətlətarası münasibətlərdə həddindən artıq həssas və həssas olurlar və emosional sabitliyi qorumaqda çətinlik çəkirlər. Yetkinlik dövründə bu vəziyyət onların psixoloji rifahına mənfi təsir göstərir, yaxınlıq və təklik qorxusunu artırır. Yetkinlik dövründə: həddindən artıq yapışma, tərk edilmə qorxusu və emosional qeyri-sabitlik ilə xarakterizə olunur.

3. Qaçınqan (Avoidant) Bağlanma

Uşağın emosional ehtiyacları davamlı olaraq rədd edildikdə və ya nəzərə alınmadıqda qaçınan bağlılıq yaranır.Bu tip fərdlər emosional yaxınlıqdan qaçır, başqalarına güvənməkdə çətinlik çəkir və özünü yetərli göstərmək üçün müstəqilliyi həddindən artıq vurğulayır [15, səh. 226-244]. Bu cür bağlılıqda insanlar emosional əlaqələrdən qaçır, özünü qoruyur və başqalarından asılılığını məhdudlaşdırır. Müstəqilliklərini vurğulamaqla, qarşılanmamış emosional ehtiyaclardan yaranan zəiflik və etibarsızlıq hissini gizlədirlər. Uşaqlıqda formalaşan bu nümunələr yetkinlik dövründə də davam edir və yaxın münasibətlərdə emosional uzaqlaşmaya və təcrid olunmağa səbəb olur. Nəticədə belə insanlar yaxınlıqdan qaçır, münasibətlərdə emosional məsafə saxlayır və hisslərini ifadə etməkdə əhəmiyyətli çətinliklər yaşayırlar. Yetkinlik dövründə: Münasibətlərdə məsafəli qalmaq, duyğuları ifadə etməkdə çətinlik və yaxınlığa qarşı narahatlıq müşahidə olunur.

4. Nizamsız Bağlanma (Disorganized Attachment)

Nizamsız bağlanma, uşağın baxıcısının eyni zamanda həm qoruyucu, həm də qorxu mənbəyi olduğu travmatik şəraitlərdə formalaşır. Uşaq bir tərəfdən valideynə yaxın olmaq istəyir, digər tərəfdən isə valideyndən qorxur. Bu, ardıcıl olmayan, nizamsız və bəzən dissosiativ davranışa gətirib çıxarır [18, səh. 666-697]. **Nizamsız** bağlanma, uşağa baxan şəxsin həm etibarlı dəstək, həm də qorxu mənbəyi olduğu mürəkkəb və travmatik bir mühitdə inkişaf edir. Bu, uşağın emosional reaksiyalarının qeyri-müəyyən və ziddiyyətli olması ilə nəticələnir, nəticədə uyğunsuz və proqnozlaşdırıla bilən bağlanma nümunələri yaranır. **Nizamsız** bağlılığı olan insanlar böyüklər kimi yaxın münasibətlərdə emosional tənzimləmə problemləri, etibarsızlıq və münaqişə yaşayırlar. Bu cür bağlılıq həm də travma sonrası stress pozuntusunu, maddə istifadəsi problemləri və bəzi şəxsiyyət pozuntularının inkişaf riskini artırır. Yetkinlik dövründə: dərin bağlar yaratmaqda çətinliklər, emosional tənzimləmə, travma sonrası simptomlar, maddə istifadəsi və şəxsiyyət pozuntuları.

Cədvəl 1: Bağlanma Tiplərinin Müqayisəsi

Bağlanma Növü	Uşaq Davranışı	Yetkin Davranış	Risk Faktoru kimi MİP ilə əlaqə
Təhlükəsiz	Ayrılıqdan sonra asan sakitləşir	Sağlam münasibətlər, emosional sabitlik	Aşağı
Narahat	Həddindən artıq narahat, yapışqan	Tərk edilmə qorxusu, münasibətdə asılılıq	Orta-Yüksək
Qaçınqan	Az emosional reaksiya göstərir	Müstəqillik vurğusu, emosional uzaqlıq	Orta
Nizamsız	Ziddiyyətli və qorxulu davranış	Emosional xaos, dissosiasiya, riskli davranışlar	Yüksək

Uşaq yaşantılarının gələcək psixoloji sağlamlığa təsiri: Uşaqlıqda formalaşan təməl psixososial təcrübələr sonrakı emosional tənzimləmə bacarıqlarında, münasibət tərzində və fərdin psixoloji sağlamlığında həlledici rol oynayır. Bu dövrün təcrübələri, xüsusən də bağlanma münasibətləri, emosional təhlükəsizlik və travmatik təcrübələr insanın sinir sisteminin inkişafını, stressə cavab mexanizmlərini və özünə qarşı münasibəti müəyyən edir [19, səh. 232-246] .

John Bowlby-nin bağlanma nəzəriyyəsinə əsasən, uşağın əsas baxıcısı ilə qurduğu münasibət, onun dünyaya və özünə qarşı inamının formalaşmasında əsas struktur rolunu oynayır. Təhlükəsiz bağlanma, adaptiv emosional tənzimləmə və sosial funksionallıqla əlaqəlidirsə, təhlükəsiz olmayan bağlanma tipləri gələcəkdə anksiyete, depressiya, şəxsiyyət pozuntuları, və MİP ilə əlaqələndirilmişdir.

Elmi araşdırmalar göstərir ki, uşaqlıqda travmatik yaşantılar (fiziki və emosional zorakılıq, baxımsızlıq, valideyn ayrılığı və s.) beynin hipokampus, amigdala və prefrontal korteks kimi emosional emalda iştirak edən strukturlarında dəyişikliklər yaradır [20, səh. 33-44]. Bu dəyişikliklər fərdlərdə hiperreaktiv stress sistemi, emosional qeyri-sabitlik, və özünütənzimləmə pozuntuları ilə nəticələnə bilər – bu isə maddə istifadəsinə qarşı həssaslığı artırır [21, səh. 174-186].

ACE (Adverse Childhood Experiences) ilə bağlı araşdırmalar göstərmişdir ki, erkən yaşlarda yaşanan neqativ hadisələr (sui-istifadə, laqeydlik, valideyn ruhi xəstəlikləri və s.) yetkinlik dövründə psixi pozuntular, alkoqol və narkotik maddələrdən istifadə, intihar cəhdləri və xroniki xəstəliklərlə birbaşa əlaqəlidir [22, səh. 245-258]. Bu tədqiqatlar göstərir ki, ACE balları artdıqca psixoloji sağlamlığa təsir artır, yəni uşaqlıq təcrübəsi nə qədər ağır olarsa, gələcəkdə risklər də bir o qədər yüksək olar. ACE-lərin uzununa tədqiqatları göstərdi ki, uşaqlıq travması stressə cavab verən beyin və neyroendokrin sistemlərin inkişafına təsir göstərir. Bu travmatik təcrübələr özünü tənzimləmə bacarıqlarında çatışmazlıqlara və riskli davranışlara qarşı həssaslığın artmasına səbəb ola bilər. Yüksək ACE balları da bağlılıq pozuntuları, impulsivlik və aşağı emosional dözümlülük kimi şəxsiyyət xüsusiyyətləri ilə əlaqələndirilir. Buna görə də, ACE ilə əlaqəli risklərin erkən müəyyən edilməsi və profilaktik psixososial müdaxilələr sonrakı həyatda MİP və digər psixi pozuntuların qarşısının alınmasında mühüm rol oynaya bilər.

Tədqiqatlar göstərir ki, güvənsiz bağlanma, emosional laqeydlik və uşaqlıq travması insanı sakitləşdirmək, emosional ağrıları azaltmaq və ya münasibətlərə olan ehtiyacı kompensasiya etmək üçün maddə istifadəsinə yönləndirə bilər. Bu, xüsusilə nizamsız bağlanma stilinə malik fərdlər üçün daha yüksək risk daşıyır.

Uşaqlıq təcrübələri, xüsusilə emosional münasibətlərin keyfiyyəti və erkən travmatik hadisələr, həyat boyu psixoloji sağlamlığı təyin edən ən mühüm amillərdəndir. Bu təcrübələrin bağlanma sisteminə və stresin tənzimlənməsinə təsiri təkcə nəzəri cəhətdən deyil, həm də neyrobioloji və klinik cəhətdən nümayiş etdirilmişdir. Buna görə də, uşaqlıq təcrübəsi ilə psixoloji sağlamlıq arasındakı əlaqəni anlamaq həm profilaktik psixososial müdaxilələrin, həm də fərdi müalicə modellərinin inkişafı üçün çox vacibdir.

Maddə istifadə pozuntusu (MİP) haqqında: Maddə İstifadə Pozuntusu (MİP)-bir və ya bir neçə psixoaktiv maddədən (məsələn: alkoqol, opiatlar, kokain, marixuana və s.) **kompulsiv, nəzarətsiz və davamlı istifadəsini təşkil edən psixiatrik diaqnozdur. Bu pozuntuda insanda maddəyə qarşı dözümlülük yara-**

nır, çəkilmə simptomları yaşanır və maddə istifadəsi şəxsin sosial, peşəkar və şəxsi fəaliyyətini ciddi şəkildə pozur.

DSM-V-ə görə, maddə istifadəsi pozuntusu bir diaqnozda birləşdirilir və əvvəlki DSM-IV-dən "maddədən sui-istifadə" və "asılılıq" anlayışlarını birləşdirir [23, səh. 481-589]. DSM-5-də (2013) maddə istifadəsi pozuntusu 12 meyar əsasında müəyyən edilir. Son 12 ayda aşağıdakı meyarlardan 2 və ya daha çoxunun olması maddə istifadəsi pozuntusunun diaqnozu üçün kifayətdir. Bu meyarlara maddənin böyük miqdarda və ya uzun müddət ərzində istifadəsi, istifadəyə nəzarətdə çətinlik və istifadəni dayandırmaq üçün uğursuz cəhdlər daxildir. Bununla belə, sosial, peşə və ya digər mühüm fəaliyyət sahələrində problemlərə baxmayaraq, davamlı istifadə də diaqnostik meyarlara daxildir. DSM-5 həmçinin tolerantlığın inkişafını və çəkilmə simptomlarının baş verməsini fizioloji asılılığın göstəriciləri kimi nəzərdən keçirir.

*DSM-V üzrə 12 Diaqnostik Meyar***:**

1. Nəzərdə tutulandan çox və ya daha uzun müddət istifadə etmək.
2. İstifadəsini azaltmaq və ya dayandırmaq üçün uğursuz cəhdlər.
3. Maddə tapmaq, istifadə etmək və ya bərpa olmaq üçün çox zaman sərf edilməsi.
4. Maddəyə güclü istək (craving).
5. Məktəbə, işə və ya ailə məsuliyyətlərinə etinasızlıq.
6. Sosial və ya şəxsi problemlərə baxmayaraq istifadə etməyə davam etmək.
7. Hobbi və ya maraqlardan imtina etmək və ya azaltmaq.
8. Maddənin fiziki cəhətdən təhlükəli olmasına baxmayaraq istifadə etməyə davam etmək (məsələn, sərxoş vəziyyətdə avtomobil idarə etmək).
9. Maddənin yaratdığı psixoloji və ya fiziki problemlərə baxmayaraq istifadəni dayandırmamaq.
10. Tolerantlıq: eyni effekti əldə etmək üçün daha çox maddəyə ehtiyac duyulması və ya əvvəlki dozanın daha az effektiv olması.
11. Çəkinmə simptomları: psixoaktiv maddələrin istifadəsini dayandırdıqda baş verən psixofizioloji simptomlar (məsələn, titrəmə, narahatlıq, əsəbilik və s.).
12. Maddənin istifadəsi ilə əlaqədar **sosial və ya şəxsiyyətlərarası münasibətlərdə təkrar problemlərin ortaya çıxması** (məsələn: mübahisələr, ailə parçalanması, dost itkisi və s.)

DSM-V, maddə istifadə pozuntusunun **şiddət səviyyəsini** aşağıdakı kimi qiymətləndirir:

- **Yüngül dərəcəli (mild):** 2-3 simptom
- **Orta dərəcəli (moderate)**: 4-5 simptom
- **Ağır dərəcəli (severe):** 6 və daha çox simptom

Bu qiymətləndirmə klinik müdaxilə səviyyəsinin, müalicə planının və psixososial dəstək strategiyalarının müəyyən edilməsində mühüm rol oynayır.

DSM-V-də təqdim olunan meyarlar maddə istifadəsi pozuntularının multifaktorial xarakterini əks etdirir: psixoloji, davranış, sosial və fizioloji komponentlər birlikdə qiymətləndirilir. Bu yanaşma göstərir ki, MİP sadəcə bioloji asılılıq deyil, davranış və emosional tənzimləmə pozuntuları ilə yaxından əlaqəli mürəkkəb bir klinik varlıqdır [24, səh. 834-851]. DSM-V diaqnostik sistemi maddə istifadəsi pozuntusunu bir sıra davranışlar, psixoloji ehtiyaclar və maddə istifadəsi ilə əlaqəli fiziki dəyişikliklər kimi konseptuallaşdırır. Bu anlayış, maddə istifadəsi pozuntusunun bağlanma prob-

lemləri, uşaqlıq travması və emosional tənzimləmə çətinlikləri ilə əlaqəsini daha ətraflı başa düşmək üçün nəzəri və praktiki əsas təmin edir. MİP bioloji meylin, emosional travmanın, ailə quruluşunun və sosial kontekstin qarşılıqlı təsiri nəticəsində yaranan mürəkkəb psixososial fenomendir. Tədqiqatlar göstərir ki, bu faktorlar ayrı-ayrılıqda deyil, bir-birini gücləndirərək risk səviyyəsini artırır.

Tədqiqatlar göstərir ki, maddə asılılığına qarşı həssaslığın təxminən 40-60%-i genetik faktorlarla bağlıdır [25, səh. 521-532]. Genetik meyl özünü dopamin və serotonin reseptorlarında dəyişikliklər, neyrotransmitter balanssızlığı və impulsiv davranışa genetik meyl kimi göstərə bilər. Məsələn, DRD2 A1 allelinin spirt və narkotik asılılığı ilə əlaqəli olduğu göstərilmişdir [26, səh. 309-333]. Genetik meyli olan şəxslər üçün ətraf mühit faktorları (məsələn, erkən həyat stressi) gen-mühit qarşılıqlı əlaqə modelinə əsaslanaraq riski daha da artırır [27, səh. 760-766]. Ətraf mühit riskləri daha çox **ailə dinamikası, valideyn nəzarəti, rol modelləri,** və **məktəb və icma strukturlarının sabitliyi** ilə əlaqəlidir. Aşağı səviyyəli ailə nəzarəti, valideynlərin maddə istifadə davranışı, və münaqişəli ailə münasibətləri MİP üçün güclü ətraf mühit risk faktorlarından hesab olunur [28, səh. 567-580]. **Ailədə asılılıq tarixi** olan fərdlər, yalnız genetik deyil, həm də **təqlid və öyrənilmiş davranış**lara görə risk altındadır. Ailə strukturlarında **emosional laqeydlik** və **nəzarətsizlik**, uşağın tənzimləmə bacarıqlarının zəif inkişafına gətirir.

Uşaqlıq travması-fiziki zorakılıq, emosional zorakılıq, laqeydlik və ya valideyn itkisi – maddə istifadəsi riskini əhəmiyyətli dərəcədə artırır. Bu cür insanlar özlərini təsəlli etmək, ağrılarını azaltmaq və ya travmatik təcrübələrdən qaçmaq üçün maddələrdən istifadə edirlər [29, səh. 105-130]. Xüsusilə **nizamsız və narahat bağlanma tipləri**, travma sonrası **emosional tənzimləmədə zəiflik, impulsiv davranışlar** və **xroniki streslə baş etmə çətinliyi** ilə əlaqələndirilir-bu da MİP üçün kritik risk faktoru rolu yaradır. Sosial və mədəni mühit, maddə istifadəsinin **normallaşdırılması, əlçatanlıq dərəcəsi**, və **dəstək şəbəkələrinin mövcudluğu** baxımından kritik rol oynayır. Aşağı sosial-iqtisadi status, yoxsulluq, işsizlik və marjinal qruplarda olmaq, **sosial stres faktorlarına təsir edir**, bu da MİP riskini yüksəldir [30, səh. 36-52]. Eyni zamanda **ictimai təcrid, mədəni mənsubiyyətlə əlaqəli stiqmalar**, **psixososial gərginliklər** də risk amili kimi müəyyən edilmişdir [31, səh. 143-155]. MİP bir tək səbəblə deyil, **çoxfaktorlu bir risk sistemi** ilə meydana çıxır. Genetik həssaslıq, travmatik hadisələr, zəif sosial dəstək və pozulmuş ailə dinamikaları bir-birini gücləndirərək fərdi MİP-ə daha həssas hala gətirir. Bu risk faktorlarının başa düşülməsi, **erkən müdaxilə proqramlarının düzgünlüyü, bağlanma əsaslı terapiyaların tətbiqi**, və **profilaktik psixososial dəstək sistemlərinin inkişafı** baxımından əhəmiyyətə malikdir.

Bağlanma və MİP arasındakı əlaqəni ölçən araşdırmalar.

Son araşdırmalar ortaya qoyur ki, bağlanma stilləri yeniyetməlik və gənclik dövründə maddə istifadəsinə təsir göstərir və bu təsir uzunmüddətli psixososial nəticələrə yol açır.Bu nəticələr əsasən üç əsas uzun müddətli tədqiqatdan əldə edilən tapıntılara əsaslanır:

1. Branstetter et al. (2011)

Bu tədqiqat 14 yaşında təhlükəsiz bağlanma göstərən yeniyetmələrin, 16 yaşına qədər maddə istifadəsi ehtimalının daha aşağı olduğunu aşkar etmişdir. Əlavə olaraq, xüsusilə ana nəzarəti (maternal monitoring) bu əlaqədə əsas vasitəçi rol

oynamışdır. Yəni, təhlükəsiz bağlanma daha yüksək səviyyədə valideyn nəzarətini asanlaşdırmış, bu da maddə istifadəsinin qarşısını alan qoruyucu bir faktor olaraq rol oynamışdır.Bu tapıntılar yeniyetməlik dövründə riskli davranışların əleyhinə valideyn-övlad münasibətinin önəmini vurğulayır. [32, səh. 611-612].

2. Danielsson et al. (2011)

Danielsson və həmkarlarının İsveçdə apardığı geniş icma əsaslı uzunmüddətli tədqiqat aparmışdır. Tədqiqatın nəticələrinə əsasən 13 yaşında təhlükəsiz bağlanma stilinə sahib olan yeniyetmələrin 15 yaşına qədər ağır içki istifadəsi (binge drinking) epizodlarının əhəmiyyətli dərəcədə aşağı olduğu göstərilmişdir. Bu tapıntı təhlükəsiz bağlanmanın uzunmüddətli psixososial qoruyucu rolunu, davranış tənzimləyicisi və riskdən qaçınma cəhətindən dəstəkləyir. [33, səh. 89-96].

3. Zhai et al. (2015)

Zhai və həmkarları, erkən yeniyetməlik dövründə (10-12yaş) formalaşan təhlükəsiz olmayan bağlanma stilinin yeniyetmənin 16 yaşında emosional qeyri-sabitliyə və bunun da şəxsin 22 yaşına çatanda artan maddə istifadəsinə səbəb olduğunu göstərən uzunmüddətli tədqiqat aparmışdır. Bu ardıcıl model erkən yaş dövrlərində yaşanan bağlanma pozuntularının gələcək dövrdə uyğun olmayan mübarizə strategiyalarına və maddə istifadəsi ilə əlaqəli problemlərə gətirib çıxardığını ortaya qoyur. Bu da asılılığın qarşının alınmasında erkən dövr emosional inkişaf və tənzimləmə bacarılarının əhəmiyyətini vurğulayır. [34, səh. 1080-1088].

Fərdi bağlanma nümunələri: stillər və təsəvvürlər:

Empirik tapıntılar, göstərir ki, fərdlərin bağlanma nümunələri onların yaxın münasibətlərdə davranışlarını, emosional tənzimləmə, stresslə mübarizə stillərinə əhəmiyyətli təsir göstərir. Bütün bu faktorlar maddə istifadə pzountuları ilə də yaxından əlaqəlidir. Bu sahədə son otuz ildə aparılmış çoxsaylı kəsdirməli (cross-sectional) tədqiqatlar fərqli bağlanma formalarının MİP ilə əlaqəsini aydınlaşdırmağa yönəlmişdir. Araşdırmalarda aşağıdakı əsas nəticələr müşahidə olunmuşdur:

AAI/AAP (Yetkin Bağlanma Müsahibəsi/ Yetkin Bağlanma Proyektivi)

Bu üsul ilə aparılan tədqiqatlar, MİP olan fərdlərdə daha çox "rəddedici" (dismissing) və "həll edilməmiş" (unresolved) bağlanma təsəvvürlərinin dominantlığı qeyd olunmuşdur. Bu tiplər öz emosional ehtiyaclarını qiymətləndirməyən və yaxınlıqdan qaçınan fərdlərlə əlaqələndirilir. Bu vəziyyət, emosional uzaqlaşma və ya özünü təmin etmək vasitəsi kimi maddələrə müraciət etmə ehtimalını artıra bilər.

HSSR (Hazan & Shaver Öz-hesabat şkalası)

Bu üsuldə əsasən "qorxulu-qaçınqan" – nizamsız bağlanma stilinə rast gəlinir. Bu stil fərdlərin həm yaxınlıq arzusu daşıyıb, həm də səmimiyyətdən qorxduqları bir daxili münaqişəni əks etdirir. Bu münaqişə münasibət qayğılarını, narahatlıqlarını idarə etmək üçün maddə istifadəsinə yönəlmələrinə səbəb ola bilər.

AAS (Yetkin Bağlanma Şkalası)

Bu üsul ilə aparılan araşdırmalar MİP sahib olan fərdlərdə əsasən "narahat/asılı" bağlanma stillərini əks etdirir. Bu insanlar intensiv münasibət ehtiyacları və tərk edilmə qorxusu yaşaya bilərlər. Buna görə də sosial narahatlıqlarını və güvənsizliklirini azaltmaq məqsədi ilə maddə istifadəsinə yönələ bilərlər.

Ölçü Metodu	Qiymətləndirdiyi şey	Ən çox tapılan bağlanma növü	Tətbiq sahəsi
AAI	Bağlanma nümayəndəliyi (şifahi)	Uzaqlaşdırıcı, Həll olunmamış	Klinik, travma araşdırmaları
HSSR	Romantik münasibətlərdə təcrübə	Qaçınqan, Narahat	Qeyri-klinik, öz hesabat
AAS	Ümumi yaxın münasibətlər	Narahat	Kollec və klinik nümunələr

Ən geniş istifadə edilən model olan Bartholomew modeli, bağlanma stillərini iki əsas ölçü üzərində qurur: təhlükəsiz-təhlükəsiz olmayan və baş etmə üslubu narahat/məşğul və ya qaçınqan (preoccupied vs dismissing). Çoxsaylı tədqiqatlar bu model əsasında qorxulu–qaçınqan (fearful–avoidant) – nizamsız bağlanmanın MIP ilə əlaqəli olduğunu göstərmişdir. Bu fərdlər həm sosial yaxınlıq axtarır, həm də ondan qorxaraq çəkinirlər, bu isə onlarda maddə istifadəsinə meyli artırır.

Əldə edilən tapıntılar təsdiqləyir ki, müxtəlif təhlükəsiz olmayan bağlanma stilləri fərqki yollarla maddə istifadəsi ilə nəticələnə bilər. Məsələn:

• Narahat (preoccupied) bağlanma stilinə sahib olan şəxslər sosial fobiya ilə mübarizə aparmaq və ya sosial əlaqələr qurmağı asanlaşdırmaq üçün maddə istifadə edə bilərlər.

• Qaçınqan (dismissing) şəxslər isə emosional ehtiyaclarını bastırmaq, self efficiacy gücləndirmək və ya tez-tez başqalarından asılı olmaqdan qaçmaq üçün maddə istifadəsinə başlaya bilərlər.

• Nizamsız/həll olunmamış (disorganized/unresolved) bağlanmaya sahib olan şəxslərdə isə travmatik təcrübələr və emosional dağınıqlıq nəticəsində maddə istifadəsi güclü başa çıxma strategiyası kimi formalaşa bilər [35, səh. 727].

Terapevtik yanaşmalar və müdaxilələr

1. Bağlanma Əsaslı Terapiyalar (Attachment-Based Therapies – ABTs)

Bağlanma əsaslı terapiyalar, erkən yaşlarda formalaşmış bağlanma pozuntularının yetkinlik dövründəki emosional tənzimləmə, şəxsiyyətlərarası dinamika, xüsusilə də MİP daxil olmaqla uyğun olmayan mübarizə yolları üzərindəki təsirini nəzərə alan terapevtik çərçivələrdir. Bu yanaşma yalnız simptomların azaltmaq, stabilləşdirmək deyil, həm də asılılıq davranışını qıcıqlandıran daha dərin əlaqə problemləri və daxili münaqişə modellərini ələ alır.

***Fletcher** və həmkarları qeyd edir ki, Bağlanma Əsaslı Terapiyalar,*

MİP müalicəsində **duyğusal ehtiyacların tanınması**, **özünü qəbul** və **təhlükəsiz terapevtik əlaqənin qurulması** proseslərini asanlaşdırır. Buna görə də xüsusilə qorxulu–qaçınqan və ya nizamsız bağlanma stilinə sahib olan fərdlər üçün daha effektivdir. [36, səh. 109-117].

Schindler isə Bağlanma Əsaslı Terapiya yanaşmalarının yalnız fərdi terapiyada deyil, həmçinin cəmiyyət və ailə əsaslı proqramlara, müdaxilələrə inteqrasiya olunduqda daha uğurlu nəticələr verdiyini irəli sürür.

2. EMDR ilə Bağlanma Travmalarının Emalı

EMDR (Göz Hərəkətinin Desensitizasiyası və Yenidən Emalı) terapiyası, erkən travmatik bağlanma təcrübələrinin nevropsixoloji izlərini emal etməyə imkan verir. Travmatik hadisələrin mənfi təsirlərindən xilas olmaq istəyən fərdlər üçün təsirli bir üsuldur. EMDR görə hazırkı problemlərin kökündə "işlənməmiş" pis xatirələri-

miz dayanır.Hər bir travmatik hadisə o an üçün özünə məxsus duyğu və düşüncələrdən ibarət qapalı bir halqa yaradır.EMDR seansları da məhz bu "qapalı halqanı" dəyişməyə yönəlir. Həmçinin EMDR müalicəsi, uşaqlıq dövründə təkrar edilən travma və əlaqə pozuntularının təkrar aktivləşdiyi SUD hallarında faydalı olmuşdur.

Kelley və həmkarları vurğulamışdır ki, EMDR, bağlanma əsaslı yanaşmalarla inteqrasiya olunduqda, MİP müalicəsində travma əsaslı müdafiə mexanizmlərinin həllində və simptomun azaldılmasında çox təsirlidir. Pasiyentlər əsasən erkən dövrlərində yarım qalmış baxım təcrübələrindən qaynaqlanan "Sevilmirəm" və ya "Tərk ediləcəyəm" kimi mənfi inanclarla gəlirlər. EMDR iki tərəfli stimullaşdırma və travmaya əsaslanan məlumatlı emal vasitəsilə bu mənfi inancları həll etməyə kömək edir. [37, səh. 147-158].

EMDR, xüsusilə **bağlanma figurlarına qarşı olan təkrar zədələyici təcrübələrin** yaratdığı "öz dəyərsizlik", "tərk edilmə qorxusu" kimi inanc sistemlərini emal etməkdə effektivdir. Bu səbəblə, relaps riski yüksək olan fərdlərdə effektiv yanaşma kimi tövsiyə olunur.

3. Bağlanma yönümlü Kognitiv Davranışçı Terapiya (CBT)

CBT, şəxsiyyətin düşüncə-emosiya-davranış üçbucağında işləyərək maddə istifadəsinə səbəb olan **sabit və funksional olmayan düşüncə nümunələrini** və davranışları dəyişdirməyi hədəfləyir. Bağlanma teoriyası ilə inteqrasiya olunduqda CBT fərdlərin erkən yaşda formalaşmış daxili bağlanma konsepsiyalarını- özdəyər, özünə və başqalarına güvən haqqında inanclarını hədəfləyir.

Meier və həmkarları qeyd edir ki, MİP olan şəxslərin **"bağlanma skriptləri"** ilə əlaqəli düşüncələr üzərində işləmək, onlarda özünə dəyər və təhlükəsizlik hissini bərpa edə bilər. Bu, terapiyanın davamlılığına və relapsın qarşısının alınmasına kömək edir. O həmçinin iddia edir ki, bağlanma terapiyalarının CBT-yə inteqrasiyası erkən uyğunlaşmayan sxemləri yenidən qurmaq qabiliyyətini artırır. [38, səh. 2-6].

Bağlanma əsaslı Koqnitiv Davranışçı Terapiya simptomları stabilləşdirməklə yanaşı kompulsiv maddə istifadəsını qıcıqlandıran şəxsiyyətlərarası dinamikanı ələ alır və bu da onu daha uzunmüddətli starategiya halına gətirir.

4. Ailə Terapiyası və Münasibət Yönümlü Müdaxilələr

MİP yalnız fərdi problem deyil; çox vaxt ailə və münasibətlər sistemindəki disfunksiyaların nəticəsidir. Ailə daxilindəki problemlər, fərdlərin emosional və mental sağlamlığına təsir edə bilər. **Ailə terapiyası,** ailə dinamiklərini anlamağa və ailə üzvləri arasındakı münaqişələri həll etməyə kömək edir. Ailə Terapiyası, xüsusilə erkən bağlanma münasibətlərinin yenidən qurulması və ailə içi **emosional təhlükəsizliyin bərpası** üçün istifadə olunur.

Diamond və həmkarları tərəfindən hazırlanan **Bağlanma Əsaslı Ailə Terapiyası (ABFT)** modeli, yeniyetmələrdə depressiya və maddə istifadəsi riskini azaltmaqda klinik olaraq təsdiqlənmişdir. Bu model, valideyn və övlad arasında pozulmuş bağlanma stillərinin yenidən qurulmasını vurğulayaraq **təhlükəsiz emosional əlaqə yaratmağı** əsas məqsəd kimi qoyur. Bu da emosional tənzimləmə üçün maddələrə olan asılılığı azaldır. [39, səh. 592-595].

Bundan əlavə, **Cütlük Terapiyası** və **Çoxyönlü Ailə Terapiyası (MDFT)** də bağlanma strukturlarını yenidən qurmaq üçün istifadə edilə bilər. Xüsusilə yüksək riskli gənclərdə və yeniyetmələrdə MDFT, həm valideyn təlimi, həm bağlanma əsaslı qarşılıqlı təsirə yönəlmişdir.

NƏTİCƏ

Əsas tədqiqatların xülasəsi:

Bu məqalə bağlanma üslubları və maddə istifadəsi pozuntuları (MİP) arasındakı mürəkkəb və bir-birindən asılı əlaqəni vurğulayır. Nəzəri modellərə, uzunmüddətli tədqiqatlara və klinik müdaxilələrə əsaslanaraq, aşağıdakı əsas tapıntılar ortaya çıxır:

1. Təhlükəsiz bağlanma üslubları, xüsusən də narahat-qaçınma, narahat-məşğul və nizamsız/həll olunmamış, ardıcıl olaraq maddə istifadəsinə qarşı həssaslığın artması ilə əlaqələndirilir. Bu bağlanma üslubları pozulmuş emosiya tənzimləməsi, uyğunlaşmayan mübarizə mexanizmləri, həll edilməmiş travma və maddə istifadəsi üçün risk faktoru kimi xidmət edə bilən şəxslərlərarası çətinliklərlə əlaqələndirilir.

2. Bunun əksinə olaraq, təhlükəsiz bağlanma tərzi möhkəm qoruyucu amil kimi görünür. Təhlükəsiz bağlanma münasibətləri (xüsusilə valideynlər və ya baxıcılarla) olduğunu bildirən yeniyetmələr daha çox dözümlülük, daha yüksək emosional tənzimləmə və erkən və ya problemli maddə istifadəsi ehtimalının aşağı olduğunu nümayiş etdirirlər. Uzunmüddətli tədqiqatlar təsdiqlədi ki, erkən bağlanma təhlükəsizliyi (10-14 yaş) yeniyetməlik və erkən yetkinlik dövründə daha aşağı maddə istifadə səviyyəsini proqnozlaşdırır [40, səh. 601-616; 41, səh. 13-19].

3. Emosional tənzimlənmənin pozulması və özünün və başqalarının uyğun olmayan daxili iş modelləri bağlanma pozuntuları ilə maddə istifadəsi pozuntularının arasında əlaqəyə vasitəçilik edir. Bu daxili sxemlər insanın təhdid, stress, yaxınlıq və rədd edilmə qavrayışlarına təsir göstərir - maddə istifadəsi davranışını formalaşdıran əsas proseslər.

4. Kliniki tədqiqatlar əlavəyə əsaslanan müdaxilələrin (məsələn, ABFT), EMDR və koqnitiv davranış terapiyasının (CBT) maddə istifadəsi pozuntularının müalicəsinə inteqrasiyasını getdikcə daha çox dəstəkləyir. Bu müdaxilələr yalnız simptomatik davranışları deyil, həm də asılılığın altında yatan əlaqə və inkişaf travmalarını hədəf alır.

Gələcək tədqiqat istiqamətləri:

Əhəmiyyətli irəliləyişlərə baxmayaraq, əlavə araşdırma tələb edən bir neçə mühüm boşluq qalmaqdadır:

• Bağlanma pozuntuları və maddə istifadəsi pozuntuları arasında səbəbli əlaqə yaratmaq üçün uzununa və müdaxilə tədqiqatlarına ehtiyac var. Mövcud tədqiqatların əksəriyyəti kəsişmə xarakteri daşıyır, inkişaf trayektoriyaları və uzunmüddətli müalicə nəticələri haqqında anlayışımızı məhdudlaşdırır.

• Bağlanma və maddə istifadəsində mədəni və kontekstual fərqlər araşdırılmalıdır. Sosial-mədəni normalar, valideynlik təcrübələri və ailə sistemləri populyasiyalar arasında dəyişir və bu, bağlanma üslublarının maddə istifadəsi riski ilə qarşılıqlı əlaqəsinə təsir göstərir.

• Gələcək tədqiqatlar maddə istifadəsi pozuntuları ilə bağlı etibarsız bağlılığın neyrobioloji və genetik əsaslarını araşdırmalıdır. Məsələn, oksitosinin, HPA oxu reaktivliyinin və dopamin mükafat yollarının tənzimlənməsinin pozulması, etibarsız bağlanmış şəxslərin nə üçün asılılığa daha çox meylli olduğunu izah etməyə kömək edə bilər.

• Xüsusi qoşma profilləri olan şəxslərdə EMDR, ABFT və CBT kimi qoşma əsaslı müalicələrin diferensial effektivliyini qiymətləndirmək üçün müqayisəli tədqiqatlara ehtiyac var.

Praktik tətbiqlər:

Bu tapıntıların qarşısının alınması, klinik praktika və siyasət üçün bir neçə mühüm təsiri var:

1. Erkən Skrininq və Riskin Qiymətləndirilməsi

Bağlanmanın qiymətləndirilməsi alətlərinin (məsələn, AAI, AAS, ECR) gənclərin sağlamlığının qiymətləndirilməsinə daxil edilməsi, maddə istifadəsi pozuntuları başlamazdan əvvəl risk altında olan şəxsləri müəyyən etməyə kömək edə bilər. Erkən müdaxilələr əlavə zəifliklər nəzərə alaraq tərtib edilə bilər.

2. Fərdi Müalicənin Planlaşdırılması

Müştərilərin bağlanma tarixçələrini nəzərə alan müalicə yanaşmaları onları daha çox cəlb edir və onların residiv riskini azaldır. Məsələn, nizamsız bağlanma tərzinə sahib olan fərdlər travma mərkəzli EMDR-dən, narahat bağlanma tərzi olanlar isə əlaqəyə əsaslanan koqnitiv davranış terapiyasından faydalana bilər.

3. Ailə və İcma Müdaxilələri

Bağlanmaya əsaslanan Ailə Terapiyasının (ABFT) və Çoxölçülü Ailə Terapiyasının (MDFT) ailə sistemində emosional təhlükəsizliyi bərpa etməklə yeniyetmələr arasında maddə istifadəsini azaltmaqda təsirli olduğu göstərilmişdir. Bu modellər baxıcı ilə uşaq arasında əlaqə və ünsiyyəti asanlaşdırır.

4. İctimai Səhiyyə Təhsili və Təlimi

Valideynlər, pedaqoqlar, terapevtlər və sosial işçilər üçün bağlanma nəzəriyyəsi psixotəhsilləri təhlükəsiz bağlanmanı təşviq edən və gələcək asılılığın qarşısını alan bir mühit yaratmağa kömək edə bilər.

Nəticə etibarilə asılılığa sadəcə davranış pozuntusu kimi deyil, inkişaf və əlaqə travması kimi baxmaq lazımdır. Güvənsiz bağlılığı olan insanlar tez-tez özlərini sakitləşdirmək və ya emosional homeostazı əldə etmək üçün maddələrdən istifadə edirlər. Buna görə də, müalicə kompulsiv istifadəyə səbəb olan əsas bağlanma pozuntularını aradan qaldırmaq üçün simptomların müzakirəsindən kənara çıxmalıdır.

Bağlanmaya əsaslanan modellərin sübuta əsaslanan metodlarla (EMDR, CBT, ailə terapiyası) inteqrasiyası klinisyenlərə yalnız simptomları azaltmaqla yanaşı, uzunmüddətli münasibətlərin bərpasını və möhkəmliyini təşviq etməyə imkan verir.

Ədəbiyyat:

1. Bowlby, J. (1969). Attachment and loss: Volume I. Attachment (pp. 194–210). New York: Basic Books.
2. Ainsworth, M. D. S., Blehar, M. C., Waters, E., & Wall, S. (1978). Patterns of attachment: A psychological study of the strange situation (pp. 9–35). Hillsdale, NJ: Lawrence Erlbaum.
3. Mikulincer, M., & Shaver, P. R. (2007). Attachment in adulthood: Structure, dynamics, and change (pp. 83–115). Guilford Press.
4. World Health Organization. (2019). International Classification of Diseases 11th Revision (ICD-11). Retrieved from https://icd.who.int/
5. Khantzian, E. J. (1997). The self-medication hypothesis of substance use disorders: A reconsideration and recent applications. Harvard Review of Psychiatry, 4(5), 231–244. https://doi.org/10.3109/10673229709030550

6. Thorberg, F. A., & Lyvers, M. (2010). Attachment in relation to affect regulation and interpersonal functioning among substance use disorder inpatients. Addictive Behaviors, 35(6), 700–705. https://doi.org/10.1016/j.addbeh.2010.03.001
7. Thorberg, F. A., & Lyvers, M. (2006). Attachment, fear of intimacy, and substance use in relation to coping in young adults. Personality and Individual Differences, 41(4), 705–714. https://doi.org/10.1016/j.paid.2006.03.008
8. Ravitz, P., Maunder, R., Hunter, J., Sthankiya, B., & Lancee, W. (2010). Adult attachment measures: A 25-year review. Journal of Psychosomatic Research, 69(4), 419–432. https://doi.org/10.1016/j.jpsychores.2009.08.006
9. Diamond, G., Russon, J., & Levy, S. (2016). Attachment-based family therapy: A review of the empirical support. Family Process, 55(3), 595–610. https://doi.org/10.1111/famp.12241
10. Dozier, M., Stovall-McClough, K. C., & Albus, K. E. (2008). Attachment and psychopathology in adulthood. In J. Cassidy & P. R. Shaver (Eds.), Handbook of Attachment: Theory, Research, and Clinical Applications (2nd ed., pp. 718–744). Guilford Press.
11. Flores, P. J. (2001). Addiction as an attachment disorder. Journal of Psychoactive Drugs, 33(4), 423–425. https://doi.org/10.1080/02791072.2001.10400578
12. Bowlby, J. (1982). Attachment and loss: Retrospect and prospect. American Journal of Orthopsychiatry, 52(4), 664–678. https://doi.org/10.1111/j.1939-0025.1982.tb01456.x
13. Main, M., & Solomon, J. (1990). Attachment in the Preschool Years: Theory, Research, and Intervention (pp. 121–160). University of Chicago Press.
14. Mikulincer, M., & Shaver, P. R. (2007). Attachment in Adulthood: Structure, Dynamics, and Change (pp. 197–224). Guilford Press.
15. Bartholomew, K., & Horowitz, L. M. (1991). Attachment styles among young adults. Journal of Personality and Social Psychology, 61(2), 226–244. https://doi.org/10.1037/0022-3514.61.2.226
16. Cassidy, J., & Berlin, L. J. (1994). The insecure/ambivalent pattern of attachment. Child Development, 65(4), 971–991. https://doi.org/10.2307/1131298
17. Mikulincer, M., & Shaver, P. R. (2007). Attachment in Adulthood: Structure, Dynamics, and Change (pp. 209–214). Guilford Press.
18. Lyons-Ruth, K., & Jacobvitz, D. (2008). Attachment disorganization and developmental transformation. In J. Cassidy & P. R. Shaver (Eds.), Handbook of Attachment (2nd ed., pp. 666–697). Guilford Press.
19. Shonkoff, J. P., Garner, A. S., et al. (2012). The lifelong effects of early childhood adversity and toxic stress. Pediatrics, 129(1), e232–e246. https://doi.org/10.1542/peds.2011-2663
20. Teicher, M. H., et al. (2003). The neurobiological consequences of early stress. Neuroscience & Biobehavioral Reviews, 27(1–2), 33–44. https://doi.org/10.1016/S0149-7634(03)00007-1
21. Anda, R. F., et al. (2006). The enduring effects of abuse and related adverse experiences. European Archives of Psychiatry and Clinical Neuroscience, 256(3), 174–186.
22. Felitti, V. J., et al. (1998). Adverse childhood experiences study. American Journal of Preventive Medicine, 14(4), 245–258.
23. American Psychiatric Association. (2013). Diagnostic and Statistical Manual of Mental Disorders (5th ed., pp. 481–589). Arlington, VA: American Psychiatric Publishing.
24. Hasin, D. S., et al. (2013). DSM-5 criteria for substance use disorders: Recommendations and rationale. American Journal of Psychiatry, 170(8), 834–851. https://doi.org/10.1176/appi.ajp.2013.12060782

25. Goldman, D., Oroszi, G., & Ducci, F. (2005). The genetics of addictions. Nature Reviews Genetics, 6(7), 521–532. https://doi.org/10.1038/nrg1635
26. Noble, E. P. (2000). DRD2 gene in psychiatric disorders. Pharmacogenomics, 1(3), 309–333.
27. Caspi, A., et al. (2005). Gene–environment interaction. American Journal of Psychiatry, 162(4), 760–766.
28. Chassin, L., et al. (1993). A longitudinal study of children of alcoholics. Journal of Abnormal Psychology, 102(4), 567–580.
29. Sinha, R. (2008). Annals of the New York Academy of Sciences, 1141(1), 105–130.
30. Galea, S., et al. (2004). Epidemiologic Reviews, 26(1), 36–52.
31. Room, R. (2005). Drug and Alcohol Review, 24(2), 143–155.
32. Branstetter, S. A., Furman, W., & Cottrell, L. (2011). The influence of representations of attachment, maternal monitoring, and peer norms on substance use trajectories in adolescence. Journal of Adolescence, 34(4), 611–621. https://doi.org/10.1016/j.adolescence.2010.10.003
33. Danielsson, A. K., Romelsjö, A., & Tengström, A. (2011). Heavy episodic drinking and its relationship with parental monitoring and adolescents' health in Sweden. Drug and Alcohol Dependence, 120(1–3), 89–96. https://doi.org/10.1016/j.drugalcdep.2011.06.015
34. Zhai, Z. W., Yip, S. W., & Potenza, M. N. (2015). Emotional dysregulation and substance use: A developmental pathway from early attachment to addiction. Substance Use & Misuse, 50(8–9), 1080–1088. https://doi.org/10.3109/10826084.2015.1013134
35. Schindler, A. (2019). Individual patterns of attachment: Styles and representations. In Attachment and substance use disorders—Theoretical models, empirical evidence, and implications for treatment. Frontiers in Psychiatry, 10, 727. https://doi.org/10.3389/fpsyt.2019.00727
36. Fletcher, K., Nutton, J., & Brend, D. (2015). Attachment, a matter of substance: The potential of attachment theory in the treatment of addictions. Clinical Social Work Journal, 43(1), 109–117. https://doi.org/10.1007/s10615-014
37. Kelley, N. J., Becker-Haimes, E. M., & Waller, R. (2020). The integration of EMDR and attachment theory in the treatment of addiction. Journal of EMDR Practice and Research, 14(3), 147–158. https://doi.org/10.1891/EMDR-D-20-00021
38. Meier, A., Hofer, P., & Schnyder, U. (2020). Integrating attachment-based approaches into cognitive behavioral therapy for substance use disorders. Addictive Behaviors Reports, 11, 100261, 2-6. https://doi.org/10.1016/j.abrep.2020.100261
39. Diamond, G. S., Russon, J., & Levy, S. (2016). Attachment-based family therapy: A review of the empirical support. Family Process, 55(3), 592–595. https://doi.org/10.1111/famp.12241
40. Branstetter, S. A., Furman, W., & Cottrell, L. (2011). The influence of representations of attachment, depression, and peer use on substance use in a diverse sample of adolescents. Journal of Youth and Adolescence, 40(5), 601–616. https://doi.org/10.1007/s10964-010-9570-2
41. Zhai, Z. W., Kranzler, H. R., Stein, M. B., et al. (2015). Childhood maltreatment, emotional dysregulation, and excessive alcohol use: Testing mediation and moderation models in a longitudinal sample. Addictive Behaviors, 46, 13–19. https://doi.org/10.1016/j.addbeh.2015.02.007

Mushfiq Mustafayev, Shafaq Shahmammadova,
Ramin Allahverdiyev, Daniz Shiraliyeva,
Shamsinur Huseynova

Summary

THE RELATIONSHIP BETWEEN TYPES OF ATTACHMENT AND SUBSTANCE USE DISORDERS: A PSYCHOLOGICAL AND CLINICAL APPROACH

This research is intended to evaluate the interplay between different types of attachment and substance use disorder (SUD) within psychological and clinical contexts. Utilizing Bowlby's attachment theory and Ainsworth's subsequent validation of it, the research sheds light on the impact of early relationship encounters and attachment style-secure, anxious, avoidant, and disorganized-on emotional regulation and susceptibility to substance misuse. More recent literature indicates that insecure attachment styles, especially anxious and disorganized, pose heightened risk for SUD through disrupted affect regulation, dysfunctional interpersonal relationships, and trauma exposure. In addition, the impact of adverse childhood experiences, particularly early emotional neglect, in fostering maladaptive coping strategies, including self-medication, is examined. The paper discusses also integrates evidence-based therapeutic models that incorporate attachment interventions and their proven effectiveness in aiding addiction recovery and supporting sustained recovery. This research reinforces the need for integrating attachment-related factors into prevention approaches and clinical treatment frameworks for substance use disorders.

Мушвиг Мустафаев, Шафака Шахмеммедова,
Рамин Аллахвердиев, Ширалиева Дениз,
Хусейнова Шемсинур

Резюме

«Взаимосвязь между типами привязанности и расстройствами, связанными с употреблением психоактивных веществ: психологический и клинический подход»

Данное исследование направлено на оценку взаимодействия различных типов привязанности и расстройства, связанного с употреблением психоактивных веществ (РНПВ) в психологическом и клиническом контексте. Используя теорию привязанности Боулби и её последующую валидацию Эйнсворт, исследование проливает свет на влияние ранних отношений и стилей привязанности (надежного, тревожного, избегающего и дезорганизованного) на эмоциональную регуляцию и склонность к злоупотреблению психоактивными веществами. Более современные данные свидетельствуют о том, что ненадежные стили привязанности, особенно тревожный и дезорганизованный, представляют повышенный риск развития РНПВ из-за нарушения регуляции аффектов, дисфункциональных межличностных отношений и травматического воздействия. Кроме того, рассматривается влияние неблагоприятного детского опыта, в частности раннего эмоционального пренебрежения, на формирование дезадаптивных стратегий совладания, включая самолечение. В статье также рассматриваются основанные на конкретных фактах данных терапевтические модели, включающие вмешательства, направленные на развитие привязанности, и их доказанная эффективность в содействии восстановлению от зависимости и поддержке устойчивого выздоровления. Данное исследование подтверждает необходимость интеграции факторов, связанных с привязанностью, в профилактические подходы и клинические схемы лечения расстройств, связанных с употреблением психоактивных веществ.

Rəyçi: dos. C.Alıyev

İCTİMAİ ELMLƏR

Afaq İsmayılova
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1077

AZƏRBAYCANDA İNTİHAR VƏ ONUN ƏSAS SƏBƏBLƏRİ

Açar sözlər: intihar, *depressiya, psixoloji problemlər, stress, insan həyatı, cinayət*
Keywords: *suicide, depression, psychological problems, stress, human life, crime*
Ключевые слова: *самоубийство, депрессия, психологические проблемы, стресс, человеческая жизнь, преступление*

Giriş. Müasir həyat tərzi, iş və başqa subyektiv səbəblər müəyyən məqamda insanları öz həyatlarına qarşı cinayət törətməyə sövq edir. Bir neçə ildir ki, sentyabrın 10-u bir qayda olaraq Ümumdünya Səhiyyə Təşkilatının (DST) qərarı ilə intiharlara qarşı mübarizə günü kimi qeyd edilir. Ümumdünya Səhiyyə Təşkilatı intiharların qarşısının alınması üzrə beynəlxalq assosiasiyanın sponsorluğu ilə hər il beynəlxalq xarakterli aksiyalar da həyata keçirir. Son illər intihar problemi artıq bütün dünyada qlobal xarakter almışdır. Statistik məlumatlara görə dünyada intiharlar nəticəsində ölənlərin sayı müharibə nəticəsində ölənlərdən çoxdur.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bildirir ki, dünyada hər 40 saniyədə bir nəfər özünü öldürür. Bu isə o deməkdir ki, hər 100 min nəfərdən 11,4%-i intihar edir. Hər baş tutan intihara qarşı 20 reallaşmayan hadisə qeydə alınır. Bu səbəbdən özünü həyatdan məhrum etmək cəhdləri reallaşan intihardan 7-10 dəfə çoxdur. Təəssüf ki, bu hadisələr çox vaxt qeydə alınmır. İntiharın 60%-i əsasən yaz-yay aylarında baş verir. İntiharın 70%-ni depressiya təşkil edir. Depressiya keçirən insanların 15%-i intihar edir.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, intiharların (suisidlərin) yaranma səbəbləri müxtəlifdir:

- 41%-i naməlum səbəblərlə əlaqələndirilir;
- 19%-i cəzalandırılma qorxusu;
- 18%-i ruhi xəstəliklər;
- 18%-i ailədaxili məhrumiyyətlər;
- 6%-i emosional gərginlik (ehtiras);
- 3%-i maddi itkilər;
- 1,4%-i həyatdan doymuşluq hissi;
- 1,2%-i isə fiziki xəstəliklərlə bağlı.

Doğrudur, bu səbəblərin hamısı deyil və nəzərə alsaq ki, insanların yaşına görə də onların özünü öldürmə səbəbləri müxtəlifdir. Məsələn, öz məhəbbətinə cavab almayanda və ya xəyanətlə üzləşəndə 16 və 16 yaşa qədər olan insanlar arasında bu səbəbdən intihar halları daha çoxluq təşkil edir. Lakin 25 yaşdan sonra bu səbəbdən intihar edən çox az insan vardır. İntihar edənlər arasında müxtəlif təbəqələrin nümayəndələrinin statistikası da xeyli diqqət çəkir. Məsələn, özünü öldürənlərin arasında məktəbli və yeniyetmə, ailədə məişət zorakılığının qurbanları (bunların arasında qadın, uşaq, hətta kişilər də var), əlil, təqaüdçü, ruhi xəstə, hərbçi, məhbus və s. vardır [1, s. 17].

İntiharların daha çox iqtisadi və sosial baxımdan yoxsul ölkələrdə baş verməsinə baxmayaraq istisnalar da mövcuddur. Məsələn, Latın Amerikasının və Yaxın Şərqin bir çox "yoxsul" ölkələrində intiharların səviyyəsi Qərbi Avropanın "zəngin" dövlətlərinə nisbətən yetərincə aşağıdır. Həmçinin də daha çox iş həyatı yaşayan, iş rejimi, qrafiki sıx olan yerlərdə də intihar hallarının sayı artıq olur. Bu da vaxt bölgüsünün düzgün qurulmaması, işlərin çoxluğu və insan əməyi ilə həll oluna bilməməsi, maddi sıxıntılarla bərabər bu amillər də rol oynayır.

Son 50 ildə intiharların sayı 60 % artmışdır. İntiharlarin yayıldığı ölkələr sırasında inkişaf etmiş ölkələr liderlik edir. Finlandiya, Latviya, Macarıstan, Yaponiya, Çin və Qazaxıstanda 100 min nəfər əhaliyə orta hesabla 20 və daha çox intihar düşür. Ukrayna, Rusiya, Sloveniya, Belarus və Litvada intiharların sayı çoxdur. Dünyadakı intiharların 30%-nin baş verdiyi Çində ölümlərin 3,6%-i intihar nəticəsində baş verir [1]. Yaponiyada ildə intiharla təxminən 30 min adam həyatına son qoyur. Afrika ölkələri ilə bağlı statistik məlumatlar yoxdur. Amma ən aşağı göstərici islam və Latın Amerikası ölkələrindədir. Məsələn, Misir, Dominikan Respublikası, AFR, Yunanıstan və İtaliyada göstərici aşağıdır.

Kişilər arasında intihar qadınlarla müqayisədə 4 dəfə çox baş verir. Amma digər tərəfdən, qadınların həyatlarına qəsdə cəhd etməsi kişilərlə müqayisədə 4 dəfə çoxdur. Ekspertlər bildirirlər ki, bu addımı atmaq qərarına gələn insanların əksəriyyəti ölməyi qəti şəkildə qarşısına məqsəd qoymurlar. İntiharın əsas səbəbləri sırasında yoxsulluq, işsizlik, cəzalandırılmadan irəli gələn qorxu, ruhi xəstəliklər, ailədəki qanqaraçılıq və sağalmaz xəstəliklərə yoluxmaqdır.

İntiharların çox olduğu ölkələr risk qrupuna daxil edilir. Azərbaycan bu qrupa aid deyil. Bizim ölkəmizdə hər yüz min nəfər əhali sayına düşən intihar faktlarına da görə vəziyyət ciddi narahatlıq doğuracaq həddə çatmayıb. Lakin son zamanlar Azərbaycanda intihar halları çoxalıb. İnsanlar müxtəlif səbəblərdən canlarına qıymaqdan vaz keçmirlər. Bu səbəbdən hər ay ən azı intihar və buna cəhd qeydə alınır. Azərbaycanda özlərini həyatdan könüllü şəkildə məhrumetmə hadisələrinin çoxu paytaxtın payına düşür. Bölgələrə gəldikdə, son illər bir qayda olaraq şimal, cənub və şimal-qərb bölgələrində yaşayanlar arasında intiharlar daha çox baş verir [3].

Şəxsin intihar həddinə çatması isə müxtəlif səbəblərdən ola bilər. Hüquq-mühafizə orqanları adətən belə hallarda araşdırma başladır və lazım gəldikdə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsinə görə (özünü öldürmə həddinə çatdırma) cinayət işi açır. Əgər ortada günahkar varsa, intihar etmiş şəxsi o vəziyyətə çatdırdığına görə məsuliyyətə cəlb edilir [1]. Lakin bəzən də iki vətəndaş arasında yaranan problemlər çərçivəsində biri digərini onun dediyini etməsə, özünü öldürəcəyi ilə şantaj edir. Təqsirkardan maddi, xidməti və ya sair

cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Əgər bu müddəada göstərilən hallar heç biri olmadan intihar, yaxud intihara cəhd baş veribsə, burada günah zərəçəkənin özündədir, başqa heç bir şəxs məsuliyyət daşımır. Kimsə kimisə daim alçaltmırsa, amansız rəftar etmirsə, böhtan atmırsa, hədə-qorxu gəlmirsə, haqqında rüsvayedici məlumatlar yaymırsa, döymürsə və bununla belə qarşı tərəf yenə də onun dediyini etməsə, intihar edəcəyi ilə hədələyirsə, buna görə şantaj olunan şəxs heç bir məsuliyyət daşımır. O, sadəcə özünü sığortalamaq üçün polisə gedib məlumat verə bilər ki, qabaqlayıcı tədbirlər görülsün.

Fransız sosioloqu Emil Dürkheym intihar hadisələrini ictimai əsaslara görə üç yerə ayırır:

1. Eqoist intiharlar – bu növ intiharlara səbəb insanın özünü yalnız hiss etməsi, öz problemləri ilə başbaşa qalmasıdır. Həyat onun üçün mənasını itirir.

2. Altruist intiharlar – bu növ intiharlar etmiş insan cəmiyyətlə öz arasındakı bağı qoparmamış, əksinə, daha da artırmış tipdir. Buna misal olaraq Hindistanda olan sati (qadınların ərləri öldükdən sonra özünü yandırması) ənənəsi göstərilə bilər. Bu intihar növündə özünü öldürən insan ictimai bir vəzifəni yerinə yetirmək üçün bu addımı atmaqdadır.

3. Anomik intihar – bu tip intiharlar ictimai böhran və cəmiyyətin quruluşunda meydana gələn dəyişikliklərin nəticəsində, fərdin həyat tərzi və mənəvi dəyərlərinin alt-üst olması ilə ortaya çıxır. Bu tip intiharlarda təkcə iqtisadi deyil, həm də ailə vəziyyəti mühüm rol oynamaqdadır.

Azərbaycanda baş verən intihar hadisələri əsasən anomik intihar tipinə aiddir. Ölkədə özünə qəsdin əsas səbəbləri ailə daxilində həll edilməmiş konfliktlər, uğursuz məhəbbət, psixoloji sarsıntı və son günlər ən çox yayılmış hal alan kredit borcu başlıca rol oynayır. Bu səbəblə intihar edənlərin əksəriyyəti yeniyetmələr olur. Gənc yaşlarında insanlar məntiqli qərarlar verməkdə çətinliklər çəkirlər. Həyat təcrübəsi olmadığından ilk uğursuzluqlar da bu yaşda olur (ilk məhəbbət, imtahandan kəsilmə uğursuzluğu və s.). Bu halda iradəsi zəif olanlar depressiyaya düşür və nəticə olaraq intihar edirlər.

2024-cü ildə Azərbaycanda 639 intihar hadisəsi qeydə alınmışdır. 2023-cü ildə isə bu rəqəm 527 idi. Rəsmi məlumata görə, həmin ildə 639 tamamlanmış intihar, 811 tamamlanmamış intihar hadisəsi qeydə alınmışdır. Ən çox intihar hadisəsi isə 2022-ci ildə olub. Həmin ildə 550 nəfər özünə qəsd edib. Təxminən 10 milyon əhalisi olan bir ölkə üçün bu rəqəmlər çox böyükdür [1].

Azərbaycanda insanlar müxtəlif səbəblərdən özünə qəsd edə bilir. Sevgi uğursuzluğu yaşayanlar, ailəsindən küsənlər üçün intihar yeganə çıxış yoludur. Ali məktəbə daxil ola bilmədiyi, evdə ona paltar alınmadığı, internetə girməyə, telefondan istifadəyə icazə verilmədiyi üçün və s. sosial problemlər ucbatından intihara əl atılır. İntihar əsasən özünü asma, yuxarı mərtəbələrdən özünü atma, odlu silahdan atəş açaraq intihar etmə halları ilə reallaşdırılır.

İntihara gətirib çıxaran ən əsas faktorlardan biri də ictimai məsələlərdir. İntihar etmək insan təbiətinə zidd addımdır, lakin əlverişsiz ictimai şərait insanı intihara sövq edə bilir. Əlverişsiz şəraitə qarşı hər bir fərdin eyni səviyyədə mübarizə aparması mümkünsüzdür.

İntihar hadisələr daha çox iqtisadi çətinliklərlə də bağlı olur. Gənclər ailə qurmaq, qızlar istədiyi cehizi almaq istəyir, amma arzuladıqlarını həyata keçirə bilmirlər. Həmçinin bu gənclərin mənzil problemləri də olur. Nəticə olaraq depressiya düşür və sonda intihara əl atırlar.

Maddi tərəflərindən başqa, intihar hallarının sosial tərəfləri də mövcuddur. Ətrafdakıların münasibəti, ailədədaxili münaqişələr mühüm rol oynayır. Bir çox ailələrdə ünsiyyət probleminin olması, keçid yaş dövrünü yaşayan uşaqlarda psixoloji çətinliklər yaradır. Bunun qarşısının alınması üçün "məktəb psixoloqu"nun valideynlərlə mütəmadi olaraq işləməsi zəruridir. Nəzərə alsaq ki, məktəblərdə yetərincə psixoloji xidmətlər göstərilməsi üçün ixtisaslı kadrların azlığını nəzərə alaraq məsələnin ciddiliyini daha aydın görürük. Valideynlər üçün xüsusi maarifləndirici seminarların keçirilməsi, sosial çarxların hazırlanıb telekanal və sosial şəbəkələrdə yayımlanması məqsədəmüvafiq olardı [2, s. 98].

İntiharın əsas səbəblərdən biri də yayılan informasiyalar və bundan insanların həddən artıq yüklənməsidir. Əvvəllər uzun sürən xəstəlikdən, zərərli vərdişlərdən əziyyət çəkənlər intihar edirdisə, bu gün isə intihar edən yeniyetmələr və gənclərdir. Onların da səhhətində ciddi bir problem yoxdur, pis vərdişlərdən əziyyət çəkənlər də azlıq təşkil edir. Bu isə insanlarda müəyyən psixoloji problemlərə, sarsıntılara səbəb olur. Depressiyaya düşən insanın isə ətraf mühit ilə münasibəti pozulur və nəticədə özünə qapanaraq intihar edir.

Ən əsas psixoloji problemlərin intihara səbəb olduğunu nəzərə almaq lazımdır. İntihara meyilli insanlarda aşağıdakı xüsusiyyətlər müşahidə olunur:

1. Ailə və dostlarından uzaq qalmaq istəyir;

2. Sevə-sevə və həvəslə gördüyü işlərdən bezir;

3. Hər hərəkətinə görə təqsirkar olduğunu düşünür, qüsuru həmişə özündə görür;

4. Diqqət dağınıqlığı olur, tək qalmaq istəyir;

5. Belə insanlar özləri üçün əhəmiyyətli olsa belə, dəyərli əşyalarını hədiyyə edib özlərindən uzaqlaşdırırlar.

Bu ruhi əlamətlər depressiya əlamətləri ilə paralellik təşkil edir. Onsuz da, intihar depressiv hadisədir.

Depressiyaya düşən şəxs kəskin psixoz, yaxud affekt halında nə edəcəyini bilmir. Onlar intihara meyilli insanlar kimi qəbul olunur və risk qrupuna daxil edilirlər. Amma bu gün intihar edənlər arasında yuxarıda göstərilən kriteriyalara cavab verməyən insanlar da var. Bu da intiharın sosial-psixoloji faktorlardan baş verdiyinin göstəricisidir.

Onlar qəflətən intihara cəhd etmirlər. Sadəcə o haqda fikirləşirlər. Eyni zamanda, bunların bir qismi intihar edən zaman affekt vəziyyətində olur, situasiyanı kontrol edə bilmir və ani qərarlar verirlər. Ona görə də tövsiyyə olunur ki, depressiyada olan insanlara psixoloji dəstək göstərilsin.

Şəxsin hansı intihar üsulunu seçməsi həmin an olduğu yerdən çox asılıdır. İntiharın böyük bir qismi ani verilən qərarla olur. Düzdür, şəxs uzun müddət bu barədə düşünür, amma addımı anidən atır. İnsan intiharı seçəndə belə daha ağrısız yolu seçməyə çalışır. Bütün hallarda intihar edən insanların son anda peşman olur. Müəyyən olunub ki, özünü suya atan, yaxud ipdən asan adamların boyunlarında

qançır izləri aşkarlanır. Bu isə onların son anda qurtulmaq istədiyinə işarədir. O an qərarı verir, amma peşman olanda geri dönüşü olmur.

İntihar çıxış yolu deyil. Kəskin stress halında olan insan diqqətini başqa bir şeyə yönəltsə, yaxud "sabah edərəm" deyib təxirə salsa, vəziyyətdən çıxmış olar.

Çətinliklərdən bezən, ümidini itirən və problemlərdən çıxış yolu görə bilməyən insanların intihara meylli olması mümkündür. Azərbaycan əhalisinin əksəriyyətinin müsəlman olduğunu nəzərə alaraq din baxımından da intihar bəyənilməyən və bağışlanılmayan əməldir.

Allah belə buyurub: "Allahın rəhmətindən ümidinizi üzməyin. Çünki Allahın rəhmətindən ümidini kəsənlər Onu tanımayanlar (inkar edənlər) dəstəsidir" (Yusuf, 12/87). Digər bir ayə də isə "Öz-özünüzü öldürməyin" buyurub (Nisa, 4/29). Bu baxımdan din xadimləri insanları intihar əməllərindən uzaq durmağa çağırırlar [3, s. 209].

Həyatda heç nə və heç bir iş insan həyatından daha dəyərli ola bilməz. Bunu həm özümüzə təbliğ etməli, həmçinin də kiçik yaşlılara, xüsusən də keçid dövrü yaşayan yeniyetmələrə olduqca ehtiyyatla vaxtaşırı çatdırmalıyıq.

Bu gün gənclər arasında yayılan intihar hadisəsinin qarşısını almaq üçün maarifləndirmə çox mühümdür. Günümüzün vacib problemlərindən biri də pisixoloji dəstək mərkəzlərinin qurulmasıdır. Burada psixoloq, ilahiyyatçı və pedaqoqlardan ibarət peşəkar mütəxəssislər tələbə və şagirdlərlə davamlı işləməli, praktiki seminarlar təşkil etməli, gəncləri zərərli vərdişlərdən **uzaq tutmalıdır.**

Praktiki əhəmiyyəti. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr intihar hallarının qarşısının alınması istiqamətində konkret tədbirlərin hazırlanmasına imkan yaradır. Bu nəticələr əsasında təhsil müəssisələrində psixoloji xidmətlərin gücləndirilməsi, müəllim və valideynlər üçün maarifləndirici proqramların təşkili, gənclər arasında emosional sabitliyin və stressə davamlılığın artırılması üzrə tədbirlərin həyata keçirilməsi mümkündür. Eyni zamanda, dövlət və ictimai təşkilatlar tərəfindən sosial layihələrin hazırlanması, risk qrupları ilə məqsədyönlü iş aparılması və kütləvi informasiya vasitələrində mövzunun düzgün işıqlandırılması üçün bu tədqiqatdan istifadə edilə bilər.

Nəticə. Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda intihar hadisələri müxtəlif sosial, psixoloji və iqtisadi amillərin təsiri ilə formalaşır və bu problem cəmiyyət üçün ciddi aktual məsələdir. Depressiya, ailədaxili münaqişələr, emosional gərginlik, sosial-iqtisadi çətinliklər və informasiya yüklənməsi intiharın əsas səbəbləri kimi çıxış edir. Xüsusilə yeniyetmələr və gənclər bu baxımdan daha yüksək risk qrupuna daxildir. Tədqiqat göstərir ki, intihar hallarının qarşısının alınması yalnız fərdi deyil, kompleks və sistemli yanaşma tələb edir və bu prosesdə ailə, məktəb və cəmiyyətin birgə fəaliyyəti mühüm rol oynayır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsi. (2024). Medianın intiharlara təsirinə dair analitik hesabat (s. 17). B. Retrieved from https://family.gov.az/storage/research/September2024/MzPLLtz1zZVQqcAXRDyd.pdf
2. Алимова, М. А. (2014). Суицидальное поведение подростков: диагностика, профилактика, коррекция (s. 98). Барнаул.
3. Məmmədəliyeva, S. (2022). İntihar əbədi və ədəbi problem kimi. Risalə. Elmi araşdırmalar jurnalı, 1(16), 209. Bakı: "Elm və təhsil" nəşriyyatı.

Afaq Ismayılova

Summary

SUICIDE IN AZERBAIJAN AND ITS MAIN CAUSES

Every year, thousands of people around the world commit suicide, ending their lives. Despite the prohibition of religion, the number of suicides not only decreases, but also increases. Psychologists and law enforcement officials say that there are several reasons for suicide. The reason for this is the psychological problems of individuals, family and home problems, depression in young people, biological causes – brain disorder, etc.

Афаг Исмаилова

Резюме

СУИЦИД В АЗЕРБАЙДЖАНЕ И ЕГО ОСНОВНЫЕ ПРИЧИНЫ

Каждый год тысячи людей во всем мире совершают самоубийство, заканчивая свою жизнь. Несмотря на запрет религии, число самоубийств не только уменьшается, но и увеличивается. Психологи и сотрудники правоохранительных органов говорят, что есть несколько причин для самоубийства. Причиной этому являются психологические проблемы отдельных лиц, семейные и домашние проблемы, депрессии у молодых людей, биологические причины – расстройство мозга и т. д.

Rəyçi: dos.S.Məhərrəmova

Mətanət Yusifova
Mingəçevir Dövlət Universiteti
https://orcid.org/0000-0002-6000-4340

https://doi.org/10.30546/2518-752X.02.101.1080

AZƏRBAYCANIN RUSİYA VƏ TÜRKİYƏ İLƏ İQTİSADİ-SİYASİ MÜNASİBƏTLƏRİNİN TARİXİNƏ BİR BAXIŞ

Açar sözlər: *Şimal-Cənub dəhlizi, Avrasiya İqtisadi İttifaqı, Şanxay Əməkdaşlıq Təşkilatı, Cənubi Qafqaz, Qərb ölkələri*
Keywords: *North-South corridor, Eurasian Economic Union, Shanghai Cooperation Organization, South Caucasus, Western countries*
Ключевые слова: *коридор «Север-Юг», Евразийский экономический союз, Шанхайская организация сотрудничества, Южный Кавказ, страны Запада*

Giriş. Azərbaycanla Rusiya arasında mövcud olan nəqliyyat və logistika sektorunda şəffaf, konstruktiv, qarşılıqlı faydalı münasibətlər bu gün son dərəcə əhəmiyyətlidir. Söhbət Şimal-Cənub beynəlxalq nəqliyyat və logistika dəhlizindən gedir. Rusiyanın Bakı ilə əməkdaşlığı həm də Cənubi Qafqazda regional gündəm, yəni burada davamlı sülhün bərqərar olması, Azərbaycan və Ermənistan arasında münaqişədən sonrakı inkişaf üçün zəruridir. Deməli, bu problemlərin həlli Bakı üçün olduğu qədər, Moskva üçün də vacibdir.

Rusiya-Azərbaycan Ekspert Şurasının Bakıda keçirilən sonuncu iclasında iki ölkə arasında əməkdaşlığın bir neçə prioritet sahəsi qeyd edildi. Əvvəla, bu, Cənubi Qafqaz regionunun təhlükəsizliyi və münaqişədən sonrakı inkişafı məsələsidir. İkinci, iqtisadi və nəqliyyat-logistika əməkdaşlığıdır. Görüşdə Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi məsələsi, həmçinin Xəzər beşliyi arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələlərinə də diqqət yetirilmişdir. Digər bir vacib məsələ də Qərbin Rusiyaya qarşı sanksiyaları kontekstində ödənişlərin milli valyutalarla həyata keçirilməsidir ki, bu məsələ ilə bağlı Azərbaycanla Rusiya arasında danışıqlar aparılır. Rusiya ödəniş sisteminin Azərbaycan ərazisində fəaliyyət göstərməsi hazırda hər iki dövlət tərəfindən həyata keçirilir.

Yaxın keçmişdə Rusiya qlobal mənada Cənub ölkələri ilə mülayim siyasət aparırdı, onlarla hərtərəfli əlaqələrin inkişafına çalışırdı. Qeyd etmək lazımdır ki, XX əsrin 90-cı illərində SSRİ dağıldıqdan sonra bu dövlətlərin bir çoxu ilə, xüsusilə Afrika ilə beynəlxalq əlaqələr diqqətdən kənarda qalmışdı. Sonrakı dövrün tələblərinə uyğun olaraq Rusiya Afrika qitəsi və ümumiyyətlə, Cənub dövlətləri ilə fəal şəkildə əlaqələri inkişaf etdirməyə çalışırdı. Lakin Ukrayna ilə müharibəyə başlaması bu siyasətə mane oldu.

Azərbaycan da öz xarici siyasətində Cənub tərəfləri ilə münasibətlərə və dekolonizasiya məsələlərinə xüsusi diqqət yetirir. Rusiya-Azərbaycan Ekspert Şurasının 5-ci iclasının müzakirə və təhlilləri göstərdi ki, müharibəyə qədər hər iki

dövlətin siyasi mövqeləri bir çox cəhətdən üst-üstə düşürdü [3]. Bu, regional, eləcə də qlobal proseslər nöqteyi-nəzərindən ikitərəfli əməkdaşlığın rolunun qiymətləndirilməsinə və ümumi çağırışlara cavab tədbirlərinin hazırlanmasına şərait yarada bilərdi.

Azərbaycan Respublikası coğrafi baxımdan Aİİ-yə (Avrasiya İqtisadi İttifaqı) üzv ölkələr arasında nəqliyyat marşrutlarının kəsişdiyi nöqtədə yerləşir. Və Azərbaycanın Avropa İqtisadi İttifaqına inteqrasiyası üzv ölkələr üçün də faydalı olardı. Lakin xatırlatmaq yerinə düşər ki, İlham Əliyev 2023-cü ilin mayında Moskvada keçirilən Aİİ sammitində iştirak etsə də, rəsmi Bakı indiki mərhələdə təşkilata üzv olmaq istəmədiyini bəyan edir. İstənilən halda, Azərbaycan iqtisadi birlik ölkələrinə öz nəqliyyat-logistika imkanlarından yararlanmağı təklif edir. Bu mövzu ilə bağlı danışıqlar prosesi davam edir. Bu, Bakının suveren seçimidir.

Azərbaycanın dünyaya və Aİİ-yə qeyri-resurs ixracının perspektivləri uzaqgörənliklə, dövrün tendensiyalarını aydın dərk etməklə, gələcək haqqında ümumi baxışla, çoxqütblü dünyanın inkişafının zəruriliyini və dövlətlərin müstəqilliyini və suverenliyini dərk etməklə bağlı olmalıdır. Bunu həm də Qərb dövlətlərinin destruktiv rolu ilə əlaqələndirmək lazımdır. Bu fikrin davamı olaraq P.Lumumba adına Rusiya Xalqlar Dostluğu Universiteti, Beynəlxalq İqtisadi Əlaqələr kafedrasının dosenti A.Pak qeyd edir ki, "Azərbaycana görə Cənubi Qafqaz regionuna təzyiq göstərməyə çalışan, regionda qeyri sabit siyasət yürüdən Fransa və digər Qərb ölkələrinin bu regiona təsiri həm Rusiya, həm də Azərbaycan üçün qəbuledilməzdir" [1,s.3]. Maraqlıdır ki, Qərb ölkələri, eləcə də Fransanın özü Azərbaycana Rusiya qədər təzyiq göstərə bilmir. Hətta Rusiyanın da təzyiqi Cənubi Qafqaz regionunda yalnız Ermənistana aid edilə bilər.

S.Lavrov 14 yanvar 2025 -ci il tarixində – "Mən Rusiya-Azərbaycan münasibətlərini çox yüksək qiymətləndirirəm, onlar etibarlıdır. Dövlət başçıları müntəzəm əlaqə saxlayırlar" deməklə, sanki dünyaya bir sakitlik, sülh mesajı ötürürdü. Lakin yalnız 2025-ci ilin 9 oktyabr tarixində Düşənbədə keçirilmiş MDB Dövlət Başçıları Şurasının Sammitindəki ikili görüş zamanı V.Putin Azərbaycan təyyarəsinin vurulması ilə bağlı hadisəyə görə "üzr" ifadəsini işlətdi, Rusiya tərəfinin təzminat ödəməyə hazır olduğunu bildirdi və uzun sürən gərginlikdən sonra Rusiya-Azərbaycan münasibətlərinin "stabil və qarşılıqlı hörmət əsasında davam etdirilməsi"ni vurğuladı [6].

"Rusiya və Azərbaycan bir tərəfdən Şanxay Əməkdaşlıq Təşkilatına maraq göstərir, digər tərəfdən Rusiya-Azərbaycan-Türküstan üçbucağında əməkdaşlığın inkişaf etdirilməsinə çalışır. Azərbaycan uzun müddətdir ki, ŞƏT-də dialoq üzrə tərəfdaş statusuna malikdir" [1, s.4]. A.Pak Rusiyanın xarici siyasətinin hərtərəfli inkişafı haqqında çox yaxşı fikirdədir. Lakin qeyd etməliyik ki, türk dünyasının gələcək perspektivlərində Azərbaycanın tərəqqisi daha real görünür.

Azərbaycanla Rusiya arasında möhkəm münasibətlər Cənubi Qafqazda sabitliyə təsir göstərən amildir. Azərbaycan Respublikası Rusiyanın regionda əsas müttəfiq dövlətlərindən biridir. Azərbaycanın xarici iqtisadi əlaqələrindən danışan A.Pak deyir: "Düşünürəm ki, regionun bütün iştirakçıları mövcud reallıqları və gələcək qarşılıqlı fəaliyyət perspektivlərini həqiqətən dərk edən aktorların qarşılıqlı fəaliyyətindən faydalanacaqlar" [1, s.4].

Azərbaycanla Rusiyanın siyasi-iqtisadi baxımdan yaxınlaşması məsələsi Böyük Avrasiya tərəfdaşlığının da diqqət mərkəzindədir. Vladimir Putinin 2024-cü il iyunun 14-də Rusiya Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə görüşündə bəyan etdiyi kimi, "Avrasiya təhlükəsizliyi üçün yeni təməl qurmaq lazımdır. Azərbaycanla Aİİ arasında qarşılıqlı əlaqələrin inkişafı potensialı haqda onu deyə bilərəm ki, həm ümumiyyətlə, çoxqütblü dünyanın inkişafı prosesi üçün, həm də Rusiya və Azərbaycan üçün faydalı olardı" [2].

İşin elmi nəticəsi: Təhlil onu göstərdi ki, Azərbaycan təyyarəsinin vurulmasına qədərki dövrdə – yəni iki ölkə arasında son gərginliyin yaranmasına qədər Rusiyada mətbuat və media tez-tez Ermənistanın sülh prosesinə münasibəti haqda Rusiya Xarici İşlər Nazirliyinin adından belə məlumatlar yayır ki, "Qərb Ermənistan və Rusiyanı münaqişəyə sövq etməyə çalışır və İrəvan getdikcə Rusiya Federasiyasına dost olmayan ölkələrin siyahısına düşür. Bu mənada Rusiya Cənubi Qafqazda davamlı sülh, sabitlik, nəqliyyat və logistika yollarının açılmasında maraqlıdır" [1, s.4]. Lakin görünən odur ki, Rusiya bu yolların açılmasında maraqlı deyil. Media isə bütün günahı Rusiyanın üzərindən atır: "Ermənistanın mövqeyi destruktiv olaraq qalır, həmişəki kimi son mərhələdə proses dondurulur" [2]. Bir daha aydın olur ki, rəsmi İrəvanın Cənubi Qafqazda əl-qol açmasına rəvac verən Rusiya idi.

İşin elmi yeniliyi: Məqalədə Azərbaycanın Türkiyə ilə münasibətlərinə A.Pakın münasibəti təhlil olunur və bir daha görürük ki, o, Rusiyanın iki qardaş ölkənin zaman-zaman hərtərəfli qarşılıqlı dəstəyinə diqqəti çəkir: "Ankara Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlət olmuşdur. Üstəlik, Türkiyə hökuməti yeni dövlətin möhkəmlənməsi üçün müxtəlif sahələrdə xeyli səy göstərmişdir. Azərbaycan xalqı 1918-ci ilin sentyabrında Bakının azad edilməsində türk əsgərlərinin rolunu yüksək qiymətləndirir. Bugünkü siyasi əlaqələr də məhz bu kontekstdə daimi və davamlı etimadın simvoludur" deyə A.Pak qardaş ölkələrin arasındakı əlaqələrə həm özünün, həm də Rusiyanın normal münasibətini nümayiş etdirir.

Azərbaycan-Türkiyə əlaqələrinin ən mühüm istiqamətlərindən biri iki ölkə arasında hərbi əlaqələrdir. 30 il ərzində iki dövlət arasında imzalanan, hərbi əlaqələrin inkişafına töhfə verən çoxlu sazişlərin və protokolların əsas prinsipi və məğzi Azərbaycan ordusunun zabit hazırlığına olan tələbatının ödənilməsi olmuşdur. Sonrakı illərdə bu əməkdaşlıq genişlənərək birgə hərbi təlimlər və müdafiə sahəsində əməkdaşlığa çevrildi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, təkcə 2022-ci ildə iki ölkə arasında 20-dən çox birgə hərbi təlim keçirilmişdir. Azərbaycan Müdafiə Nazirliyi onların məqsədini belə izah edir: "İki qardaş ölkənin hərbi şəxsi heyəti qoşunların qarşılıqlı fəaliyyətində döyüş koordinasiyasını təmin edir, idarəetməni təkmilləşdirir, təcrübə mübadiləsi aparır və şəxsi heyətin peşəkarlığını artırır" [3]. Yəni, bu təlimlər Azərbaycan ordusunun türk modelinə keçid prosesini sürətləndirir və nəticədə təhdidlər qarşısında birgə hərəkət etməyə qadir olan vahid ordu yaradılır. İki ölkə arasında hərbi əməkdaşlığın zirvəsi 2021-ci il iyunun 15-də imzalanmış Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi oldu. Bu əməkdaşlıq güclü Azərbaycan ordusunun yaradılmasına töhfə verdi və nəinki İkinci Qarabağ müharibəsinin nəticələrinə, 2023-cü ildə həyata keçirilən

lokal antiterror əməliyyatlarının uğurla başa çatdırılmasına, həm də ondan sonra gedən diplomatik danışıqların gedişinə həlledici təsir göstərdi.

Hər iki tərəf üçün ən vacib olan hərbi əlaqələrin qurulmasını bir neçə dövrə bölmək olar ki, onların da hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Birinci dövr (1990-cı illər) Türkiyənin Azərbaycan hərbi təhsilinə dəstək olduğu bir dövr idi. 1992-ci il avqustun 11-də Ankarada imzalanmış hərbi təlim sahəsində əməkdaşlıq haqqında saziş [4] Azərbaycan ordusunun zabit hazırlığına olan tələbatının ödənilməsini nəzərdə tuturdu. Bu müddət ərzində Ankara hərbi təlimlərdə yardım göstərməyə başladı. "Türkiyəli təlimatçılar Azərbaycan ordusunun peşəkarlığını artırmaq və bunu Qərb standartları səviyyəsinə çatdırmaq üçün Azərbaycan hərbçilərinə təlim keçib, onları xüsusi geyim formaları, silah və texnika ilə təmin edirdilər" [1, s.5].

1999-cu ildən növbəti dövr başlayır ki, bu dövr Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlığın genişlənməsi və intensivləşməsi ilə səciyyələnir. Artıq Türkiyə hökuməti uzunmüddətli əsaslarla hərbi əməkdaşlığın təkmilləşdirilməsi üçün Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə maliyyə yardımı və maddi-texniki dəstək göstərirdi. Üçüncü dövr isə 2010-cu ildə Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sazişinin imzalanması ilə başladı. Bu saziş iki ölkə arasında təhlükəsizlik və müdafiə əlaqələrini daha da gücləndirdi və Türkiyə ilə Azərbaycan arasında həm hərbi əməkdaşlığın, həm də təcrübə mübadiləsinin inkişafını təmin etdi.

1992-ci ildə tərəflər arasında imzalanmış müqavilə bu gün də qüvvədə qalır. Bu müqaviləyə əsasən, azərbaycanlı zabitlər Türkiyədəki hərbi məktəblərdə hazırlanır, Türkiyə komandanlığı Azərbaycanda hərbi məktəblərin yaradılmasını dəstəkləyir və orduya məsləhət yardımı göstərir. Rəsmi məlumatlara görə, Türkiyə hərbi təhsil müəssisələrində Azərbaycan ordusunun 7 mindən çox hərbçisi təlim keçmişdir [4]. Bu müqavilə sonradan ordunun digər hissələri ilə təhlükəsizlik qüvvələri arasında imzalanan əlavə razılaşma və protokollarla tamamlandı.

2010-cu il avqustun 16-da Azərbaycan və Türkiyə arasında imzalanmış strateji əməkdaşlıq sazişi [5] də tərəflər arasında dörd məsələ üzrə əməkdaşlığı nəzərdə tuturdu ki, onlardan ikisi hərbi sahəyə aid idi. Birinci məsələ hərbi-siyasi və təhlükəsizlik məsələləri üzrə razılaşma, ikinci məsələ hərbi və hərbi-texniki əməkdaşlıqla bağlı idi. Həmçinin, üçüncü dövrdə iki ölkə arasında hərbi əməkdaşlıq sürətlə inkişaf etdi. Birincisi, birgə hərbi təlimlərin sayı artırıldı. İkincisi, Türkiyənin qlobal miqyasda rəqabətədavamlı müdafiə sənayesinin uğurlu inkişafı möhkəmləndirildi.

2010-cu ildə hər iki ölkə xarici qüvvələrin hücumu zamanı qarşılıqlı təminat kimi Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Müqaviləsini imzaladı. Şərtə görə, müqavilə ratifikasiya sənədlərinin mübadiləsindən sonra qüvvəyə minir və 10 il müddətində qüvvədə hesab olunur. Yenə şərtə görə, son altı ay ərzində xitam bildirişi alınmazsa, müddət əlavə 10 il də uzadılır.

A.Pak yazır: "Beləcə, Azərbaycanın 2010-cu ildə qəbul edilmiş hərbi doktrinası ölkə ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə icazə verir və bu, Türkiyənin Ermənistanla sərhəddə, Azərbaycan anklavı olan Naxçıvan bölgəsində qoşun yerləşdirə biləcəyi ilə bağlı fərziyyələrə yol açır. Azərbaycan Naxçıvanda Türkiyənin güclü dəstəyinə malik olan bazasını saxlayır, lakin bu anklavda iki ölkə arasında hərbi əməkdaşlığın hazırkı miqyası barədə rəsmi məlumat yoxdur" [1, s.5]. Keçən müddət ərzində göründüyü kimi Azərbaycan Respublikasının düz-

gün və uzaqgörən xarici siyasəti nəticəsində artıq "ölkə ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə" ehtiyac qalmamışdır.

GUAM-ın Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlıqda iştirakı kontekstində onu regionda əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi üçün potensial mexanizm kimi qiymətləndirmək olar. GUAM-ın iştirakı dövlətlər arasında koordinasiyanı gücləndirərək təcrübə mübadiləsini və birgə layihələrin həyata keçirilməsini stimullaşdırar, habelə onların birgə geosiyasi və iqtisadi əhəmiyyətini artıra bilər.

İki ölkə arasında hərbi əməkdaşlığın inkişafı kontekstində gələcəkdə strateji tərəfdaşlıq və müdafiə haqqında sazişin imzalanması təkcə Azərbaycan üçün deyil, həm də Türkiyənin xarici siyasəti üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan və Türkiyə fəal xarici siyasət yeritmək üçün öz imkanlarını genişləndirir.

İşin tətbiqi əhəmiyyəti: Məqalədə Azərbaycanın Rusiya və Türkiyə ilə xarici siyasəti, ayrı-ayrılıqda Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı təhlil olunur. Bir daha görürük ki, Rusiya Cənubi Qafqaz üçün nəzərdə tutulan böyük layihələrdən kənarda qalır, vaxtaşırı özünü media vasitəsilə yada salmağa çalışır. Azərbaycan və Türkiyə münasibətləri isə dünyada ümumi formada strateji tərəfdaşlıq kimi səciyyələndirilə bilən nadir əlaqələrdəndir. İki ölkənin keçmişi, bu günü və gələcəyi ilə bu qədər sıx bağlı olduğu başqa nümunələr praktiki olaraq yoxdur. 70 illik ayrılıq dövrü və xüsusən indiki qlobal dinamika həm yüksək gözləntilər aşılayır, həm də onların reallaşmasını şərtləndirir. Ümumiyyətlə, politoloqların da fikrincə, iki ölkə arasında münasibətlərin siyasi, hərbi və mədəni aspektləri müsbət sayıla bilər.

Ədəbiyyat:

1. Пак, А. (n.d.). Перспективы несырьевого экспорта Азербайджана в мире и ЕАЭС. Доцент кафедры международных экономических отношений Университета Дружбы Народов России им. П. Лумумбы. Retrieved from https://russian_council.ru
2. Встреча В. Путина с руководством МИД России. (n.d.). Retrieved from http://www/kremlin.ru/news
3. Лазович, М. (2024, June 21). Отношения России и Азербайджана сегодня – фактор стабильности на Южном Кавказе. Протоколы 5-го заседания Российско-Азербайджанского Экспертного Совета, проведенного в Баку.
4. Əməkdaşlıq haqqında saziş. (1992, August 11). Ankara. Retrieved from https://e-qanun.az/framework/22411
5. Türkiyə-Azərbaycan Strateji Əməkdaşlıq Sazişi. (2010, August 16). Bakı. Retrieved from https://az.wikipedia.org
6. MDB Dövlət Başçılarının Düşənbə Sammiti. (n.d.). Retrieved from https://prezident.az

Matanat Yusifova

Summary

AN OVERVIEW OF THE HISTORY OF AZERBAIJAN'S ECONOMIC AND POLITICAL RELATIONS WITH RUSSIA AND TURKEY

This article, "A Look at the History of Azerbaijan's Economic and Political Relations with Russia and Turkey," examines Azerbaijan's relations with Russia, the fraternal bonds with Turkey, and military and political-economic mutual assistance since the late 20th

century. The author's primary objective is to analyze the nature and significance of economic relations with Russia in the first quarter of the 21st century, the nature and significance of Azerbaijani-Russian relations in the North-South international transport and logistics corridor, as well as Azerbaijan's relations with Turkey during this period, 30 years of military support, and the victory of the Azerbaijani army, which gained professionalism in the Second Karabakh War.

Метанет Юсифова

Резюме

ОБЗОР ИСТОРИИ ЭКОНОМИЧЕСКИХ И ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНА С РОССИЕЙ И ТУРЦИЕЙ

В статье под названием «Взгляд на историю экономико-политических отношений Азербайджана с Россией и Турцией» рассматриваются отношения Азербайджана с Россией, узы братства с Турцией, а также военная и политико-экономическая взаимопомощь с конца XX века. Основная цель автора – проанализировать сущность и значение экономических отношений с Россией в первой четверти XXI века, характер и значение азербайджано-российских отношений в международном транспортно-логистическом коридоре «Север-Юг», а также отношения Азербайджана с Турцией в этот период, 30 лет поддержки в военной области и победу азербайджанской армии, обретшей профессионализм во второй карабахской войне.

Rəyçi: dos.A.Şahmuradov

TİBBİ BİLİKLƏR

Yeganə Məmmədova
Azərbaycan Dillər Universiteti

https://doi.org/10.30546/2518-752X.02.101.1083

SU HƏYAT DEMƏKDİR

Açar sözlər: *su, insan sağlamlığı, susuzlaşma, su balansı*
Keywords: *water, human health, dehydration, water balance*
Ключевые слова: *вода, здоровье человека, обезвоживание, водный баланс*

Giriş. Su Yer kürəsində həyatın mövcudluğunu təmin edən ən mühüm təbii resurslardan biridir. Canlı orqanizmlərin strukturunda əsas komponent kimi çıxış edən su, eyni zamanda bütün bioloji və fizioloji proseslərin baş verməsi üçün zəruri mühit yaradır. İnsan orqanizminin böyük hissəsini təşkil edən su maddələr mübadiləsi, termorequlyasiya, qida maddələrinin daşınması və toksinlərin xaric edilməsi kimi həyati funksiyalarda iştirak edir. Müasir dövrdə sağlam həyat tərzinin əsas şərtlərindən biri düzgün su rejiminin qorunmasıdır. Bu baxımdan suyun insan sağlamlığına təsirinin öyrənilməsi aktual elmi və praktik əhəmiyyət kəsb edir.

Su Yer kürəsində həyatın əsasını təşkil edir. O, canlı orqanizmlərin əksəriyyətini təşkil edir və Yer səthinin dörddə üçünü tutur. Su olmadan nə bitkilər, nə heyvanlar, nə də insanlar mövcud ola bilməzdi. O, hüceyrələrin əsasını təşkil edir, toxumaların və orqanların tərkib hissəsidir və bütün həyat proseslərinin düzgün işləməsi üçün vacibdir. Onsuz həyat mümkün deyil. O, insan bədəninin fəaliyyəti üçün vacib bir komponentdir. Su insanın ən əsas ehtiyaclarından biridir. Yalnız oksigen daha vacibdir. Su olmadan insan cəmi 3-4 gün, qidasız isə təxminən 3 ay yaşaya bilər. Bədən çəkisinin 2%-dən az (1-1,5 litr) su itkisi susuzluğa səbəb olur; 6-8% su itkisi huşunu itirməyə səbəb olur; 10% su itkisi isə 197 mmune 197 nasiyalara və udma çətinliyinə səbəb olur. Bədən çəkisinin 10-20%-i itirilməsi həyati təhlükə yaradır. Heyvanlar bədən çəkilərinin 20-25%-ni itirdikdə ölürlər.

Su bədənimizdəki demək olar ki, bütün fizioloji proseslərdə iştirak edir. O, qida maddələrini və oksigeni hüceyrələrə daşıyır, bədən temperaturunu tənzimləyir, həzmə kömək edir, selikli qişaları nəmləndirir və oynaqlar üçün 197mmune kimi çıxış edir. Su içmək həmçinin bədəni toksinlərdən və tullantılardan təmizləməyə kömək edir. Su böyrəklər və sidik kisəsi vasitəsilə toksinlərin xaric edilməsində iştirak edir. Mütəmadi su istehlakı bu prosesi sürətləndirməyə və bədəndə toksinlərin yığılması ilə əlaqəli müxtəlif xəstəliklərin qarşısını almağa kömək edir.

İçməli suyun əsas xüsusiyyətlərindən biri həzmi yaxşılaşdırmaq qabiliyyətidir. Su olmadan qidanın heç bir qida və ya enerji dəyəri yoxdur, çünki o, sadəcə

həzm oluna bilməz. 90%-i sudan ibarət olan qan olmadan qida maddələri insan bədəninin orqan və toxumalarına müstəqil şəkildə daşına bilməz.

İçməli suyun insan sağlamlığına müsbət təsir göstərən bir çox müalicəvi xüsusiyyətləri var. Bundan əlavə, içməli suda kalsium, maqnezium, kalium və digərləri kimi bir çox faydalı minerallar var. Bu minerallar bədənin normal fəaliyyəti və güclü immun sistemi üçün vacibdir. Minerallarla zəngin suyun müntəzəm istehlakı müxtəlif xəstəliklərin qarşısını almağa və ümumi sağlamlığı yaxşılaşdırmağa kömək edir.

Buna görə də, su içmək insan bədəninin sağlamlığını və rifahını qorumaq üçün vacibdir. Mütəmadi su istehlakı nəmləndirməni qorumağa, bədəni toksinlərdən təmizləməyə, həzmi yaxşılaşdırmağa və immunitet sistemini gücləndirməyə kömək edir. Canlı orqanizmlərin hüceyrələri yalnız sulu məhluldan qidalanma almaq üçün hazırlanmışdır. Kvass, kompotlar və digər qazlı içkilər bədənimizin hüceyrələri ilə qarşılıqlı təsir göstərmir. Üstəlik, bu cür içməli su əvəzediciləri insan orqanizmi üçün əks göstərişdir. Qan analizləri göstərir ki, müəyyən qazlı içkilər bədənə daxil olduqda, qırmızı qan hüceyrələri dəyirmi formasından tikanlı "kirpilərə" çevrilir və qanı aqressiv mayelərin axınından qoruyur.

İnsan bədəninin bütün hüceyrə və toxumalarında, qanında, limfasında və digər daxili mayelərdə su ən zəruri qeyri-üzvi maddə kimi geniş yayılmışdır. Yaşlı adamın bədən kütləsinin 60-65%-ni su təşkil edir. Bəzi toxumalarda onun kütləsi 80-85% təşkil edir. Su hüceyrə və toxumalarda bioloji reaksiyaların və fizioloji proseslərin getməsi üçün optimal mühit yaradır, üzvi və qeyri-üzvi maddələr üçün yaxşı həlledicidir. Su, həmçinin bədənin istilik tənzimində, həzm prosesləri zamanı qida maddələrinin hidrolizində, bir sıra maddələrin, o cümlədən, hormonların sintezində yardımçı amil kimi iştirak edir. Su sabit bədən temperaturunu saxlayır və həyati əhəmiyyətli orqanları qoruyur, hüceyrələrin və orqanların formasını saxlamağa kömək edir və sağlam dəri üçün vacibdir. Su bədənin tullantıları xaric etməsinə kömək edir: tər və sidik bir çox toksinləri xaric edir, su (göz yaşı və tüpürcək) isə aşındırıcı maddələri yuyub durulaşdırır. Orqanizmə gündəlik daxil olan suyun xeyli hissəsi (1-1,5%) işləndikdən sonra, sidik və tər vasitəsilə bədəndən xaric edilir.

İnsan bədənində susuzlaşma prosesləri bir sıra ağır pozğunluqlara, hətta ölümə gətirib çıxarır.

Yaşlı adamın hər kiloqram bədən kütləsinə görə suya olan gündəlik tələbatı 40 ml hesab edilir. Uşaqlarda və yeniyetmələrdə bu təxminən 2-3 dəfə artıqdır. Yarım litrə qədər su bədəndə qida maddələrinin tam parçalanması zamanı əmələ gəlir. Gün ərzində hər bir adam 2,5 litrə yaxın su (təmiz su, çay, sular, müxtəlif içkilər, qida məhsulları tərkibindəki su) qəbul edir.

Suyun orqanizmə gündəlik daxil olması, onun həyat fəaliyyətinin saxlanılmasının əsas şərtlərindən biridir. İnsan bədəninin 2/3 hissəsi sudan ibarətdir. Bu baxımdan, orqanizmdə olan suyun miqdarı tələb olunan fizioloji normada olmalıdır. Müəyyən olunmuşdur ki, yaşlı insanların orqanizmində suyun miqdarı ən azı bədən kütləsinin 58-67%-i həddində olmalıdır. Orqanizm nə qədər cavan olarsa, ondakı toxumalarda suyun miqdarı da bir o qədər çox olar. Orqanizmdə su, onun əsas orqanlarında (qaraciyər, beyin, dəri və s. toxumalarında), əzələ toxumasında (76%), böyrəkdə və birləşdirici toxumalarda (80-93%) toplanmışdır. Bütövlükdə götürdükdə, toxumaların hamısının 75-85%-ni su təşkil edir. Burada su sərbəst

(hərəkət edən) vəziyyətdə və birləşmiş halda (kolloidlər şəklində) yerləşir və o, əsasən toxuma zülallarına birləşmiş vəziyyətdə toplanmışdır. Suyun toxumalarda zülallarla necə əlaqədə olmasından asılı olaraq, onlar bu və ya digər konsistensiyaya malik olurlar. Adətən, maddələr mübadiləsi proseslərində əsasən sərbəst su iştirak edir. Bu su mütəmadi olaraq, kənar edilməklə təzələnir. Bu işi insan orqanizmində böyrəklər (sidik vasitəsilə), tər vəziləri (tər halında) və tənəffüs orqanları buxar şəklində həyata keçirirlər. Əgər orqanizmə daxil olan suyun miqdarı və ətraf mühitin temperaturası dəyişmirsə, ondan kənar edilən suyun miqdarı da təxminən dəyişməz qalır.

Su rejiminə riayət etmək həyat boyu vacibdir. Bu, yorğunluq, süstlük, əsəbilik, yüksək təzyiq və digər simptomlar kimi xoşagəlməz simptomların qarşısını almağa kömək edir. Kifayət qədər təmiz su istehlakı ömrü orta hesabla 15-20 il artırır. Su tam toxuma bərpasını və bədəndəki bütün funksional prosesləri stimullaşdırır. Həzmi yaxşılaşdırır, qidadan vacib qida maddələrinin mənimsənilməsində fəal iştirak edir. Bu, maddələr mübadiləsini sürətləndirməyə və 199mmune sisteminin funksiyasını bərpa etməyə kömək edir. Bu, bütün bədənin sürətli sağalmasına və cavanlaşmasına, eləcə də çəkinin normallaşmasına gətirib çıxarır.

Alimlər bədəndəki su səviyyəsinin 2% azalmasının insanın zehni və fiziki performansının 20% azalmasına səbəb ola biləcəyini göstəriblər. Buna görə də hər adama gündə 1,5-2 litr su içmək tövsiyə olunur. Müxtəlif fizioloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, orqanizmin normal fəaliyyətində ondan sutkada 1,5-2 litrə qədər su ayrılır. Bu da susuzluq şəklində meydana çıxır və orqanizmin suya olan tələbatını şərtləndirir. Susuzluğun meydana çıxmasının əsas səbəbi bədəndə olan qanın qatılaşmasıdır və bununla da baş-beyin və onun nahiyələrində qıcıqlanmaların güclənməsidir. Suyun qəbulu zamanı, onun sorulması 8-10 dəqiqə ərzində gedir, bir sıra hallarda orqanizm tələb olunan miqdardan artıq su qəbul edir. Bu da müsbət əlamət sayılmır. Suyun artıq miqdarı tərləməni gücləndirir, hüceyrələrdən və qandan mineral duzların ayrılmasına təsir edir. Bu da onların susaxlama qabiliyyətinə mənfi təsir göstərir.

Bütün bunları nəzərə alaraq, orqanizmin güclü tərləmələri zamanı suyu qurtum-qurtum, müəyyən fasilələrlə qəbul etmək lazım gəlir. Bu məqsədlə, mineral suların (duzlu su) içilməsi məsləhətdir. Çünki, son nəticədə qanda və hüceyrələrdə suyun orqanizm üçün normal səviyyədə saxlanılması təmin olunur. Qeyd etmək lazımdır ki, susuzluq hissi və bununla baş verən proseslər, qida ilə çoxlu miqdarda duzlu məhsullar qəbul etdikdə də müşahidə olunur. Bu halda hüceyrələrdən suyun çoxlu miqdarda toplanması, həm də qanın tədricən susuzlaşması hesabına gedir deyə, sonuncunu qatılaşdırır və susuzluq hissini doğurur. Ona görə də duzlu xörəkləri qəbul edən zaman həm də kifayət qədər maye (su) qəbul edilməlidir. Bütün bunlarla yanaşı, nəzərə alınmalıdır ki, insan öz həyatında suya olan tələbatını şirin su mənbələri hesabına ödəyir. Ona görə də içməli suyun tərkibinə xüsusi tələblər qoyulur.

Məlumdur ki, su təkcə həyat vermir, həm də onu alır. Xəstəliklərin 80%-dən çoxunun su mənbələri vasitəsilə ötürüldüyü sübut olunub. Hər il dünyada 25 milyon insan bu cür xəstəliklərdən ölür.

Su təmizləyici, sağaldıcı, bərpaedici və cavanlaşdırıcı xüsusiyyətlərə malikdir. Su təkcə həyat mənbəyi, sağlamlığın və bədənin tam fəaliyyətinin qarantı deyil, həm də uzun illər rifah hissi, əla əhval-ruhiyyə və cəlbedici görünüş təmin edir.

Tədqiqatın **praktiki əhəmiyyəti** ondan ibarətdir ki, əldə olunan nəticələr gündəlik həyat fəaliyyətində düzgün su istehlakı vərdişlərinin formalaşdırılmasına kömək edir. Su balansının qorunması orqanizmdə susuzlaşmanın qarşısını alır, fiziki və zehni fəaliyyətin səmərəliliyini artırır, həmçinin müxtəlif xəstəliklərin yaranma riskini azaldır. Bununla yanaşı, tədqiqat materialları təhsil müəssisələrində, xüsusilə biologiya və ekologiya fənlərinin tədrisində istifadə oluna bilər. Eyni zamanda, bu məlumatlar əhali arasında sağlam həyat tərzinin təşviqi və suyun düzgün istifadəsi ilə bağlı maarifləndirmə işlərində praktik baza rolunu oynayır.

Nəticə. Aparılan təhlillər göstərir ki, su insan həyatının və sağlamlığının qorunmasında əvəzsiz rol oynayır. O, yalnız bioloji proseslərin əsasını təşkil etmir, həm də orqanizmin normal fəaliyyətinin təmin olunmasında həlledici amildir. Su çatışmazlığı ciddi fizioloji pozğunluqlara, hətta həyati təhlükəyə səbəb ola bilər. Buna görə də gündəlik su tələbatının ödənilməsi və düzgün su rejiminə riayət edilməsi vacibdir. Ümumilikdə, suyun həyatdakı rolu onun yalnız təbii resurs deyil, həm də sağlamlığın və uzunömürlülüyün əsas təminatçısı olduğunu sübut edir.

Ədəbiyyat:

1. https://airwet.ru/tpost/kska1bazu1-znachenie-vodi-dlya-cheloveka
2. https://ecology.aonb.ru/woda-osnowa-ghizni.html
3. https://aqualife.ru/blog/znachenie-vodi/?srsltid=AfmBOooLLXBFkJY08Lf8Hhewd B6c55IMqbRg1dSMfj91x9s3jjYzvWH4
4. https://www.water.ru/bz/param/water_in_life/

Yegana Mammadova

Summary

WATER MEANS LIFE

Without water, the existence of life on planet Earth is impossible. The primary role of water in the life of all living organisms, including humans, is related to the fact that it is a universal solvent for a vast number of chemical substances and serves as the medium in which all vital processes take place.

Water possesses cleansing, healing, restorative, and rejuvenating properties. It is not only a source of life and a guarantee of health and proper functioning of the body, but it also provides a sense of well-being, enhances mood, and contributes to an attractive appearance for many years.

Егана Мамедова

Резюме

ВОДА – ЭТО ЖИЗНЬ

Без воды на планете Земля невозможно существование живого мира. Первостепенная роль воды в жизни всех живых существ, и человека в том числе, связана с тем, что она является универсальным растворителем огромного количества химических веществ, фактически является той средой, в которой и протекают все процессы жизнедеятельности.

Вода обладает очищающими, целебными, восстанавливающими и омолаживающими свойствами. Она не только источник жизни, залог здоровья и полноценного функционирования организма, но и дарит ощущение благополучия, отличное настроение и привлекательный внешний вид на долгие годы.

Rəyçi: N.Məmmədova

Зияфат Рафиева
Азербайджанский университет языков

https://doi.org/10.30546/2518-752X.02.101.1086

ЭКОЛОГИЧЕСКАЯ КУЛЬТУРА БУДУЩЕГО, ТЕХНОЛОГИИ И ОБРАЗОВАНИЕ

Ключевые слова: *мировоззрение, зеленая экономика, культура, эковоспитание, сознание, образование*
Açar sözlər: *dünyagörüşü, yaşıl iqtisadiyyat, mədəniyyət, ekotərbiyə, düşüncə, təhsil*
Keywords: *worldview, "green economy," culture, environmental education, consciousness, education*

Введение. Экологический кризис, который поражает планету последние годы, вносит существенные изменения в такие отношения как человек и природа.

С середины двадцатого столетия, когда перед человечеством встала данная проблема, как уничтожение живого в результате развития промышленной деятельности, начала развиваться наука – экология и как следствие появилось новое направление – экологическая культура.

В связи с происходящим нужно выяснить как человек влияет на окружающую среду, и почему экокультура и воспитание так сейчас важны.

Уровень просвещения находится в прямой зависимости от эковоспитания. От таких важных факторов зависит выживание человечества – сможет ли он жить в здоровой среде, или же его ждет деградация. Также важное значение имеет экологическая ответственность – она включает самоконтроль, критику к себе и к другим, соблюдение требований, связанных отношением к природе.

В формировании мировоззрения человека, основную роль играет его окружение – семья, социальная и культурная среда, школа, общество, а также его взгляд на все с самого раннего возраста.

Цель. В настоящее время каждый человек должен быть экологически образован и культурен. Имея в наличии такие ценности, он может реально оценивать последствия своей деятельности на природу. В деле экопросвещения проводится много работы, а насчет экокультуры мало что предпринято и поэтому, чтобы узнать суть этого направления надо знать – это система знаний, умений, ценностей, чувство ответственности по отношению к природе. Основными компонентами культуры личности должны стать – экознания, мышление, чувство любви и бережного отношения к окружающей среде, умение правильно анализировать проблемы, прогнозировать и своевременно ликвидировать ситуационные последствия.

Суть данного образования – это формирование ответственного отношения, активная деятельность по охране местности, защита природных богатств,

и чтобы все это превратилось в норму для каждого человека, необходимо с детских лет воспитывать в них определенные качества, выработать активную жизненную позицию по восприятию проблемы окружающей среды.

В современном мире данная тема становится актуальной. Она охватывает некоторые аспекты экологической культуры будущего: технологии, образование и осознанное потребление.

Современные экотехнологии направлены на снижение негативного влияния человека на природу - например:

– развитие солнечных ветряных источников энергии
– экологический транспорт
– переработка отходов, создание биоразлагаемых материалов
– производство безотходной продукции
– уменые города

Экокультура и просвещение в будущем может выглядеть так – внедрение образования в школы и вузы; изучение экологии и климатологии, различные тематические курсы и т.д.

Экологи – это те специалисты, которые пытаются объяснить, почему происходят различные негативные процессы в природе, что к этому приводит, причины развития и вследствии разрабатывают меры по снижению пагубного влияния на среду.

Ученые собирают, анализируют, дифференцируют данные о природных ресурсах, экосистеме, для того чтобы дать правильный прогноз о предстоящих изменениях и их последствиях, влияющих на жизнь и здоровье человека, а также выработать конкретные принципы по охране и защите окружающей среды.

Благодаря этому человечество сможет регулировать численность исчезающих видов животных и растений, увеличить их популяцию, может предотвратить загрязнение мирового океана [5, 6].

Основным направлением специалистов является просветительская работа, – донесения до масс информации о важности сохранения природного многообразия.

Экологические проблемы наблюдаются и в Азербайджанской Республике – это загрязнение воздуха, связанное с деятельностью промышленных предприятий, автотранспортом, обмеление рек, деградация почвы.

Климатические изменения в виде ливневых дождей привело к тому, что во многих районах наблюдались сели, оползни, размывы дорог, дожди и град испортили посевные угодья. Немаловажное значение имеет проблема Каспия – уровень которого постепенно снижается. Ученые Азербайджана и прикаспийских стран занимаются насущной проблемой, пытаясь найти самое оптимальное решение.

Основная задача ученых – грамотно разработать стратегию по предотвращению отрицательного воздействия на природу, живую среду и ликвидацию последствий нанесенного ущерба.

Одним из основных разделов также является экоурбанистика, которая занимается проектированием и планированием застроек городской среды, с учетом всех необходимых факторов, т.е. школы, больницы, детсады должны

быть на удалении от магистрали, вдоль дорог высажены зеленые насаждения - т.е. надо создать селитебную зону, которая поможет снизить уровень шума, уменьшить количество токсических веществ в воздухе.

В последние годы сформировалась такая модель как «зеленая экономика», которая связывает промышленность с природными богатствами и окружающей средой. Учитывая растущие потребности населения и уменьшение ресурсов нужно найти баланс, при котором экономическое развитие и технологический прогресс должны претворяться в жизнь без ущерба для живой природы и человечества [4,14].

В рамках такого направления возрастает актуальность экологически безопасных, транспорта, альтернативной энергетики, безотходного производства, замена старых промышленных объектов на новые технопарки, внедрение нанотехнологиий во многие отрасли производства.

Экологическое воспитание, как и культура в современном мире являются приоритетным направлением, – оно необходимо для гармоничного развития молодежи. Человечество и природа неразрывно связаны и это взаимодействие может перерости в глобальную проблему, если люди не научаться бережно относиться к окружающей среде. Для этого надо воспитывать культуру и ответственность, и начинать надо со школьного возраста, так как приобретенные в это время знания могут во взрослом состоянии преобразоваться в стойкие убеждения.

Эковоспитание – востребовано необходимостью обучить молодое поколение формам культурной коммуникации с окружающей средой. Детям необходимо рассказывать о природе, учить их ухаживать за животными, растениями, воспитывать в ребенке сознательность, сопереживание.

Экологическое воспитание решает следующие задачи: во-первых, оно направлено на изучение и исследование окружающей среды, во-вторых, учит заботиться о ней. Все учебные предметы: биология, химия, общественные и художественные науки дают понимание о природе и способах ее сохранения.

Целью воспитания является обучение и подготовка такой личности, которая будет знать, как его образ жизни повлияет на окружающую среду и сможет способствовать ее сохранению.

Человек познает мир на протяжении всей своей жизни, в восприятии которого большую роль играет образование – а цель современного обучающего процесса сохранение и развитие общества и продолжения человеческой цивилизации.

Поколение, которое сейчас учится в школах или обучается в ВУЗ-ах, будут в дальнейшем решать все проблемы, связанные с состоянием среды и к этому нужно быть готовым психологически и интеллектуально. Такой подход активизирует молодое поколение, стимулирует его на поиск альтернативных решений экопроблем. Этот подход подталкивает молодежь к научной деятельности в сфере изучения природы и защиты окружающей среды. В результате создаются различные центры, кружки, клубы юных натуралистов и т.д., целью которых является проведение научных исследований, изучений проблем, анализ и принятие определенных конкретных решений.

Формирование культуры складываются из мышления и грамотности в процессе общения с природой, налаживания контакта с окружающей средой. В процессе эковоспитания большое внимание уделяется изучению и распространению «зеленых технологий», которые актуальны на современном этапе.

Практическое применение информационных ресурсов помогает в развитии культуры у молодежи, как следствие им прививают любовь к природе и учат не быть безучастными к миру.

Для школьников надо проводить различные акции, такие как очистка территорий от мусора, пластика, высаживание деревьев, работа в питомниках, где находятся брошенные животные.

Одной из главных задач, стоящих перед современным обществом, – экообразование молодого поколения. Чтобы избежать неблагоприятного влияния на среду и не создавать ситуации опасных для здоровья, современный человек должен обладать новым типом мышления и элементарными знаниями.

Спасти и сохранить окружающую среду можно при условии, когда люди будут осознавать и нести ответственность за судьбу общего дома под названием Земля. Основной принцип – это непрерывность, т.е. взаимосвязь обучения, воспитания и развития человека на протяжении всей его жизни.

Цель воспитания – формирование бережного отношения к природе, которое строится на базе экосознания, и сопровождается проектами, которые способствуют повышению сознательности подростков и молодежи и формированию их мышления [5].

Принимая участия в различных научных исследованиях, общество знакомится с проблемами связанными с выбросом токсических веществ, необходимостью раздельного сбора мусора, о возможности дать вторую жизнь старым вещам.

Цель реализации таких проектов – формирование экосознания подрастающего поколения, повышение их грамотности и ответственности.

Для осуществления стоящих перед учеными-экологами задач по улучшению состояния окружающей среды, необходимо сформировать у людей эстетическое отношение к природе и научить нести ответственность за ее состояние.

В обществе есть свой закон об охране природы, который должен выполняться каждым гражданином. К его реализации подрастающее поколение готовится в условиях единого учебно-воспитательного процесса, и эффект будет достигнут, тогда, когда сознание и поведение станут частью общей культуры молодого поколения [3, 23].

Азербайджан не исключение, здесь претворяются в жизнь различные проекты, связанные с чистой средой.

Примером служит фонд «Красные сердца» – созданный в 2019 году по инициативе сотрудников – волонтеров «Капитал Банк». Он служит формированию экокультуры в стране, выступает в защиту окружающей среды, восстановлению экобаланса, образованию, обучению и просвещению молодого поколения и старается объединить вокруг фонда небезразличных людей.

Основной целью экологических проектов является сохранение и улучшение качества окружающей среды для будущих поколений.

Они затрагивают различные аспекты природы, среды, такие как водные ресурсы, воздушное пространство, биоразнообразие, управление отходами. Культура ответственного потребления предполагает: отказ от пластика и использование стекла и бумаги; одежду из переработанных или органических тканей, минимализация энергопотребления, установка солнечных панелей.

Министерство экологии и природных ресурсов проводит экопросветительские кампании.

Разрабатываются законы, регулирующие утилизацию отходов, защиту водных ресурсов и лесных массивов. Экологическое воспитание включено в школьные и вузовские программы, проводят олимпиады и конкурсы на данную тематику.

В стране действуют различные организации: «İDEA» молодежное экодвижение, организующее акции по посадке деревьев и очистке прибрежных зон Каспия [4, 112-125].

В крупных городах установлены контейнеры для раздельного сбора мусора, вводится зеленое строительство. Однако остаются такие вопросы как загрязнение воздуха, отходы производства, проблемы Каспия, которые необходима решать [5, 45-67].

Заключение. На сегодняшний день важно донести до молодого поколения, что каждый человек связан с природой невидимой нитью, и находится в полной зависимости от нее не только биологически, но и духовно, и учиться жить с ней в гармонии. Все должны понимать, что все существа - т.е. люди обязаны этим природе.

В прививании молодежи культуры взаимоотношений с окружающим миром, основная роль принадлежит воспитанию, которое оказывает поддержку личности, а также помогает в налаживании гармоничных отношений с миром, и определяет перспективы культурного развития.

Если общество хочет жить в гармонии с природой, в здоровой среде, и спасти себя от биологического исчезновения, разрушения, то прежде всего надо создать равновесие в социальных отношениях.

Будущее экологической культуры зависит от баланса технологий, образования и осознанного потребления. Развитие технологии может сделать производство и транспорт экологичнее, образование – сформирует ответственное отношение к природе, а осознанное потребление – сократить отходы и вредные выбросы.

Литература:

1. Алиев, М. (2020). Экологическая культура и образование в Азербайджане. Баку.
2. Гусейнова, Р. (2018). Основы экологического воспитания и культуры. Баку.
3. Кнященко, Н. И., & Лейзеров, Н. Л. (1983). Эстетическая культура и эстетическое воспитание. Москва: Просвещение.
4. Поломошнова, Н. Ю. (2021). Экология.

Ziyafət Rafiyeva

Xülasə

GƏLƏCƏYİN EKOLOJİ MƏDƏNİYYƏTİ, TƏHSİL VƏ TEXNOLOGİYALAR

Məqalədə əsas ekoloji aspektlər açıqlanır: mədəniyyət, yeni texnologiyalar, təhsil və yeni proektlər. Qeyd olunanlar insanın ətraf mühitə, təbiətə, neqativ təsirinin azaldılmasına yönəldilir.

Ekoloji mədəniyyət maarifsiz mümkün deyil, hansı ki, onun öyrənilməsi məktəblərdə və ali təhsil müəsisələrində vacibd sayılır. Azərbaycanda ekoloji tərbiyə və mədəniyyət dövlət proqramının əsas prioritetlərindən biridir və əhalinin maarifləndirilməsini təmin edir.

Ekoloji mədəniyyətin gələcəyi əhalinin dünya görüşündən və təhsilindən asılıdır.

Ziyafat Rafiyeva

Summary

ECOLOGICAL CULTURE OF THE FUTURE, TECHNOLOGY, AND EDUCATION

This article explores key environmental issues: the culture of the future, new technologies, education, and new projects. All of this is aimed at reducing the negative human impact on nature.

Environmental culture is impossible without education, which must be studied in schools and higher education institutions for further sustainable development in society.

In Azerbaijan, environmental education and culture are key aspects of state policy and are aimed at increasing environmental awareness among the population.

The future of ecoculture depends on worldview and education.

Rəyçi: S.Zamanova

PERSONALİLƏR

NURƏDDİN KAZIMOV – 100

YADDAŞLARDA QALAN ÖMÜR

Şəxsiyyəti həyatda ən çox yüksəldən onun ictimai borca şüurla münasibət bəsləməsi, sözü ilə işinin bir olması, gündəlik davranış təcrübəsində yüksək mənəvi keyfiyyətlərə sahib çıxması ilə ölçülür. Söz və əməl birliyinin vəhdətindən yaranan bütövlük, şəxsiyyətyönümlülük, rəqabətlilik kimi nəcib mənəvi keyfiyyətlər o zaman daha mükəmməl və monolit təsir gücünə qadir olur ki, şəxsiyyət humanitar və demokratik düşüncə sahibinə çevrilsin, ətrafdakılara şəxsi nümunə olsun. Belə insanlar həyatda əbədiyaşarlıq siqləti qazanmaqla, həmişə özünü mətin və cəsarətli ideyalar arxasınca səfərbər edir, gün-güzəran psixologiyasını daima nikbin notlarla haşiyələndirməyə böyük diqqət yetirir.

Həyat və ömür-gün yoluna çox yaxından bələd olduğum əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor mərhum Nurəddin Mustafa oğlu Kazımovun həyat və fəaliyyəti haqqında qədirbilən oxucularımızla çox saylı müsamirələr aparmış, elmi-nəzəri, yaradıcı potensialına çıraq tutan xeyli sayda akademik məqalələr də çap etdirmiş, onun yaradıcı dünyasını zənginləşdirməyə rəvac verən biblioqrafik və publisistik məqalələr də hazırlamışam.

Haşiyə. Əlbəttə, belə bir parlaq ömür yolu keçmiş məhsuldar alimin şərəf və ləyaqətinə xidmət edən tutumlu məqalələr sırasında yubiley məramlarını əks etdirən sanballı elmi nəşrlərin hazırlanması problematikasının ümumxalq və ümumdövlət səviyyəli bir iş olduğunu nəzərə alıb, yaradıcı ömrünün yuvarlaq mərhələlərini qruplaşdırmaqla – (60; 70; 75; 80; 85; 90; 95 illik yubiley yaşlarını nəzərə almaqla) respublikada geniş panoramada, ümumxalq səviyyəsində pedaqoji icti-

maiyyətin cazibə mərkəzinə gətirmək hər birimiz üçün nəcib və şərəfli iş sayılmalıdır. Onun ömür dolaylarının füsunkar və əzəmət dolu hər bir tarixi mərhələsini yaddaşlara hopdurmaq bizim üçün daimi və müstəsna missiya olmalıdır.

Bunu isə bizdən həyatın özü tələb edir.

Bu möhtəşəm ömürün yüzillik təntənəsi isə bu ilin aprel ayının 28-də tamamlanır. Bu gün əbədiyyətə aparan ayrılıq yolu onu bizdən cismən ayırsa da, (2013-cü ildən üzü bəri) bu cahanşümal ömür sahibi daima xatırlanır, yaşadığı həyatın məna dolu çalarlarını gələcək nəsil üçün bir "ərmağan" olaraq həkk edib, özünə əbədiyaşarlıq nümunəsi qazandırmışdır.

Yaşamaq və yaratmaq idealı onun həyat manifesti idi. Çoxşaxəli yaradıcılıq yolu özünəməxsus çeşmələnib, qələmindən çıxan hər bir əsərdə öz fəlsəfi-idraki həllini tapırdı.

Tərcümeyi-halından bəzi məqamlar...

"1926-cı il aprelin 28-də Kirovabad (indiki Gəncə) şəhərində anadan olmuşdur. 1933-cü ildə Kirovabadın "III İnternasional" adına orta ümumtəhsil məktəbinə daxil olmuş və 1943-cü ildə həmin məktəbi bitirmişdir. 1945-ci ildə Azərbaycan Dövlət Universitetində tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuşdur.

1947-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinin fəlsəfə fakültəsinin III kursuna köçürülmüş və 1956-cı ildə həmin fakültəni bitirmişdir. 1950-1952-ci illərdə (Nuxa) Şəki Müəllimlər İnstitutunun pedaqogika və psixologiya kafedrasında baş müəllim vəzifəsində işləmişdir. 1953-cü ilin noyabrından 1956-cı ilin noyabrına kimi Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda aspirant olmuşdur. 1956-cı ilin noyabrından 1957-ci ilin sentyabrına kimi yenidən Azərbaycan SSR Maarif Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyinin) Ali və orta pedaqoji təhsil şöbəsində inspektor vəzifəsində işləmişdir. 1957-ci ilin oktyabrından 1973-cü ilin mayına qədər Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda elmi işlər üzrə direktorun müavini işləmişdir. 1968-ci ilin sentyabrından 1970-ci ilin sentyabrına kimi V.İ.Lenin adına APİ-də (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində) pedaqogika kafedrasının professoru olmuşdur.

1976-cı ilin mayından 1982-ci ilin oktyabrına kimi (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində elmi işlər üzrə prorektor vəzifəsində çalışmışdır. 1982-ci ilin oktyabrından 1984-cü ilin sentyabrına kimi M.A.Əliyev adına indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində professor vəzifəsində işləmişdir.

1984-cü ilin sentyabrından ta 2013-cü ilin son təqvim ilinədək Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasında (indiki Psixologiya və Pedaqogika) rəhbərlik etmişdir".

Professor Nurəddin Kazımovun yaradıcılıq qalereyası mürəkkəb və mükəmməl zəmin üzərində qruplaşdırılmış, yaradıcı fəaliyyətinin əsas konseptual ideyaları monoqrafiyalarında, dərsliklərində, kitab və kitabçalarında, tezislərində, jurnal və qəzet məqalələrində təsbit olunmuşdur.

Onun siyasi və ictimai fəaliyyəti daha planlı və geniş diapazonda tədqiq olunmuş, bu sahədə yenilik ruhu yaradan maarifçilik konsepsiyalarına dəstək vermişdir.

İctimai fəaliyyətinin əsas sahələri ümummxalq və ümumdövlət səviyyəsində dövlət maraqlarını özündə əks etdirmişdir.

Onun tətbiqi elmlər və milli pedaqogika sahəsində həddən ziyadə çalışqanlığı, problemləri aradan qaldırmaq cəhdi, demək olar ki, sırf akademik inkişaf metodikası ilə araya-ərsəyə gətirməsi imkanları da özünəməxsus amil olub, dünya səviyyəsində elmi axtarışlar aparmağın milli və ümumbəşəri müvəffəqiyyətini xeyli təkmilləşdirməyə xidmət etmiş, elmi-pedaqoji, çoxsaylı sosial-mədəni səviyyəli radio və televiziya çıxışlarında, görüş və söhbətlərində icra olunaraq öz təzahür formalarını əks etdirmişdir.

N.M.Kazımov 400-dən çox əsərin kitab və kitabçaların, dərslik və dərs vəsaitlərinin, jurnal və qəzet məqalələrinin müəllifi olmuşdur. Onun əsərlərinin mövzu dairəsi yüksək zəka mədəniyyətinə xidmət edən elm və təhsil problematikası üzərində köklənmişdir. Xüsusən elmi kredosuna həmişə vətəndaş-alim mövqeyindən, humanist pedaqogika baxışından nəzər-diqqət yetirmək yolunda apardığı araşdırmaları ona dünya şöhrəti qazandırmış, haqqında lütfkar sözlər, müdrik fikirlər söylənilmişdir.

Xüsusən pedaqoji elm və proses sahəsində atdığı uğurlu addımlar ona dünya şöhrəti qazandırmış, bu fundamental elm sahəsinin nəzəri-metodoloji prinsiplərinin, qanunauyğunluqlarının metodologiyasını düzgün müəyyənləşdirməkdə, tətbiqi pedaqogika fənni üzrə ölkə məktəblərinin inkişaf xüsusiyyətlərini gənc, böyüyən nəslə mənimsətməyin sosial-mədəni yönəlişliyini çatdırmaqda müstəsna rolu olmuşdur.

Professor Nurəddin Kazımov ömür boyu səmərəli fəaliyyət göstərmiş, ölkədə və xaricdə elmi-pedaqoji kadr hazırlığı sahəsində mükəmməl metodik sistem layihələri irəli sürmüş, bütün zaman kəsiyi üçün aktual olan elmi ideyalar hasilə gətirməklə ölkədə milli fütühata istinad edən sağlam metodologiya axtarışında olmuşdur.

Bu cəhətdən onun elmi arenasında yüksək məzmun dəyərliliyi ilə fərqlənən "Tətbiqi pedaqogika", "Milli pedaqogika yollarında", "Mərhələli tərbiyə nəzəriyyəsi", "Məktəb pedaqogikası", "Ali məktəb pedaqogikası", "Ana dili" (IV sinif) dərsliyi, "Pedaqoji ustalıq" adlı kitablarının elmi-metodiki səviyyəsi mütəxəssis tədqiqatçılar və novator müəllimlər tərəfindən təqdir olunmuş, haqqında real fakt və hadisələrə söykənən mülahizələr açıqlanmışdır.

Nurəddin Kazımovun elmi axtarışlar yolunun səbatlılığı çox dəyərli və anlaşıqlıdır. Fikir və mülahizələrini məntiqi-sosial prizmadan təhlil-tərkib etmək, şərh olunan mühakimələri konseptual nəzəriyyələr sistemi ilə, müqayisəli paradiqmalar yolu ilə ümumiləşdirmək cəhdi, onun kreativ tənqidi düşüncəsinin ideya məhvəri, yanaşma metodologiyasıdır. O, ilk dəfə olaraq "təbiət və cəmiyyət hadisələrini başa düşməyə və bu əsasda fəaliyyət göstərməyə adamı istiqamətləndirən vahid baxışlar sisteminə dünya görüşü deyilir" ibarəsi ilə yanaşaraq, tam inamla sübut etmişdir ki, pedaqoji elm və proses kateqoriyaları tamdır, bütövdür, vəhdətdədir. Onun "Tərbiyənin elmi-pedaqoji əsasları" kitabı bu yönümdən gənc nəslin humanist keyfiyyətlər zəminində formalaşması yolunda həm öz tarixi dövrü, həm də müasir dövr üçün qiymətli araşdırma mənbəyi kimi bu sahəyə çox uğurlu yol açmış tədqiqatçıdır.

"N.M.Kazımovun fəaliyyəti elmi-pedaqoji problemlər çərçivəsi ilə məhdudlaşmamışdır. O, respublikamızda baş verən bütün ictimai və siyasi hadisələrə öz münasibətini bildirmiş, bir çoxunun fəal iştirakçısı olmuşdur. Qarabağ hadisələri onun yaralı yeri idi. Düşmən ideoloqlarını susdurmağa yönəlmiş neçə-neçə təsiredi-

ci mahiyyət daşıyan kütləvi çıxış və məqalələri demək olar ki, əksər pedaqoji kollektivlərdə müzakirə olunmuş, radio və televiziya efirlərində səsləndirilmişdir".

Professor Nurəddin Kazımov yüksək ixtisaslı elmi-pedaqoji kadr hazırlığında da müstəsna əməyi olan məhsuldar və çevik işgüzarlığı ilə seçilən alim-pedaqoq idi. Onun yetişdirmələrinin böyük bir qismi bu gün öz sələflərindən əxz etdiyi mənəvi keyfiyyətləri, təşəbbüskarlığı, öndərliyi, comərdliyi, prinsipiallığı, tolerantlığı humanizmi, məhz, onun mənəvi varisləri olaraq icra edir. Vətən, xalq, millət yolunda halal və ədalətli siyasi mövqe mədəniyyəti göstərərək bütöv Azərbaycanımıza ləyaqətlə xidmət edirlər.

O, bu gün yaddaşlarda əsl vətəndaş-alim statusu ilə şan-şöhrət qazanmış, "Qabaqcıl maarif xadimi", "SSRİ maarif əlaçısı" döş nişanları və "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Ona fədakar əməyinə görə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Azad və sərbəst düşüncəyə malik, sərt, lakin ağıllı tələb üzərində pərvəriş tapan bu qədir bilən insan inanırıq ki, bundan sonra da daim yaddaşlarda iz salacaq, vətən üçün əbədiyaşarlıq nümunəsinə çevriləcəkdir.

Bu gün 100 illik parlaq ömrün cazibəsini yaşayıb-yaratmış professor Nurəddin Mustafa oğlu Kazımovun ideya-mənəvi irsi bundan sonra da təfərrüatlı axtarışlara yol açacaq, humanist xarakterimizin formalaşmasına dəstək olacaqdır.

O, bütün müasirləri üçün sadiqkeş həmkar, vəfalı dost, ustad müəllim, görkəmli şəxsiyyət, nüfuzlu alim olaraq tanınmış və bundan sonra da tanınacaqdır.

Vidadi Bəşirov,
Azərbaycan Dillər Universiteti

RƏYLƏR

QƏDİM EPOSUN MÜASİR DƏRKİ

Xalq yazıçısı, akademik Kamal Abdulla Azərbaycan xalqının dili, tarixi, mədəniyyəti ilə sıx bağlı olan oğuz eposu "Dədə Qorqud" üzərində yarım əsrdən artıq davam edən ardıcıl (və məhsuldar) araşdırmalarının nəticəsi olaraq "Gizli "Dədə Qorqud" – yeni mənalar axtarışında" monoqrafiyasını nəşr etdirmişdir. Kitabın "Müəllifdən" başlıqlı ilkin qeydləri bir neçə baxımdan maraq doğurmaya bilməz. Birincisi ona görə ki, Kamal Abdulla üçün müəllif konsepti həm "Dədə Qorqud"a, həm də bu möhtəşəm epos haqqında öz düşündüklərinə, yazdıqlarına münasibətdə strateji əhəmiyyət daşıyır. Və neçə on illərdir ki, bizim müasirimiz olan bir müəllif (Kamal Abdulla) neçə yüz, bəlkə də, min illər bundan əvvəl yaşamış, əcdadımız olan başqa bir Müəllifin (Dədə Qorqudun və ya Qorqud Atanın) "Kitab"ını şərh edir, onun dərin, gizli qatlarına nüfuz etməyin son dərəcə uğurlu üsul, metod və örnəklərini verir.

Əlbəttə, qorqudşünaslığın bütün türk dünyasını və ümumən dünyanı əhatə edən kifayət qədər zəngin bir tarixi vardır. Keçən əsrin 50-ci illərində Sovetlər Birliyində eposun araşdırılması, xalq kütlələri arasında təbliği və onu yaradan xalq və ya xalqların yaddaşına yenidən qaytarılması dövlət səviyyəsində yasaqlansa da, əsası 20-ci, 30-cu illərdə qoyulmuş Azərbaycan qorqudşünaslığı "yumşalma" illərində təşəbbüsü yenidən ələ aldı. H.Araslı, Ə.Dəmirçizadə, M.H.Təhmasıb, Ə.Sultanlı, F.Zeynalov, T.Hacıyev, Ş.Cəmşidov, Anar, S. Əlizadə və b. müəyyən mənada daha sərbəst olan türkiyəli həmkarları – F.Köprülüzadə, O.Ş.Gökyay, M.Ergin, Ə.B.Ərcilasun, F.Türkmən, O.F.Sərtqaya və b. ilə birlikdə (və eyni zamanda xalqımızın mənşəyini saxtalaşdıran bir sıra tarixçilərə qarşı mübarizədə!) tədricən sübut etməyə nail oldular ki, "Kitabi-Dədə Qorqud" dili, ideya-məzmunu, toponimiyası ilə Azərbaycan xalqının pasportudur. Və bu elmi-mənəvi qənaəti müstəqillik illərində Ulu Öndər Heydər Əliyev eposun 1300 illik yubileyini yüksək dövlət səviyyəsində (və dünya miqyasında!) keçirməklə onun üzərinə qoyulmuş hər cür siyasi yasaqları aradan qaldırmış oldu.

Şübhəsiz, Kamal Abdullanın "Kitab" haqqındakı araşdırmalarının ideya-metodoloji əsasında, özünün də dəfələrlə etiraf etdiyi kimi, zəngin qorqudşünaslıq ənənələri dayanır. Ancaq yalnız Azərbaycan yox, bütün dünya qorqudşünaslarına artıq yaxşı məlumdur ki, xüsusilə, 1990-cı illərin əvvəllərindən – "Gizli Dədə Qorqud"un Bakıda ilk nəşri çıxandan Kamal Abdulla bu sahədəki araşdırmalarını eninə deyil, dərininə inkişaf etdirməkdədir. 1991-ci ildən indiyə qədər keçən otuz beş illik son dərəcə məhsuldar bir dövrdə "Gizli Dədə Qorqud" müəllifi eposun nəinki gizli – "alt qatda" olan mənalarını fakt-fakt aşkarlamış, eyni zamanda a) həmin faktların ciddi bir sistem təşkil etdiyini, b) bu sistemin miflə yazı arasındakı tarixi münasibətin təkzibedilməz qanunauyğunluqlarına dayandığını, c) mənsub olduğu oğuz-türk cəmiyyətinin etnoqrafik, etnopsixoloji, etnointellektual və s. təbiətindən irəli gəldiyini və ç) ümumbəşəri xarakterə malik olduğuna görə dünya eposunun ən mükəmməl örnəklərindəki faktlarla geniş müqayisə imkanları açdığını özünəməxsus analitik məntiqlə üzə çıxarmışdır.

Haqqında söhbət açdığımız kitabın "Aşkar və gizli Dədə Qorqud" adlı girişində müəllif əcdad "Kitab"ın, daha doğrusu, "Kitab"a ("Yazı"ya) çevrilmiş "Dastan"ın tarixi missiyası barədə deyir:

"Bu sirli Dastanın mahiyyətinə vardıqca, onun çoxqatlı dərinliyinə nüfuz etdikcə görürsən ki, o nəinki mənəvi dünyamızın müəyyənləşib formalaşmasına, həm də, ümumiyyətlə cəmiyyətin – bizim artıq haqsız olaraq unutmağa başladığımız Oğuz cəmiyyətinin bir cəmiyyət kimi inkişafına təkan vermişdir. Təkan vermək də azdır – cəmiyyətin daxili dünyasını, sinirlərini, aparıcı məqamlarını müəyyənləşdirmiş, hüquqi qanunlarını, etik-əxlaqi prinsiplərini, yasaq sistemini əmələ gətirib nizamlamış qədim insanın cəmiyyət daxilində inkişafı üçün müəyyən, yəni konkret yollar cızmışdır".

Kamal Abdullanın elmi-filoloji təfəkküründün çox böyük məziyyətidir ki, eposun Mətnini ideya-məzmun və poetika-forma planları üzrə həm ayrı-ayrılıqda, həm də qarşılıqlı əlaqədə dəyərləndirməyin klassik nümunələrini verir. Yuxarıda gətirdiyimiz sitat eposu nə qədər ideya-məzmunca səciyyələndirirsə, aşağıdakı sitat o qədər məhz poetika-formaca təyin edir:

"Kitabi-Dədə Qorqud" dastanı bu keçidin – bütövdən təkcəyə, külldən vahidə, insan cəmiyyətindən insana keçidin ən ümumi, ən aparıcı məqamlarını təsvir etdiyi surətlərdə, hadisələrdə yaşadır. Mifdən Yazıya! Dastan bu ideyanı həyata keçirən, onu tezləşdirən bir vasitə kimi göz önündə canlanır".

Müasirimiz olan müəllifin əcdadımız olan Müəlliflə bu cür anlaşması, tarixi Mətni (özü də necə Mətni!) müasir dilə (və düşüncəyə) bütün adekvatlığı ilə tərcümə-təfsir eləməsi yalnız filoloji peşəkarlığın nəticəsi ola bilməz, burada fövqəladə istedaddan, doğma keçmişin ruhuna dərinliklərinə qədər nüfuz edə bilən dərrakə enerjisindən söhbət gedə bilər.

Kamal Abdulla "Dədə Qorqud"un sirlərini, artıq qeyd etdiyimiz kimi, fakt-fakt, motiv-motiv, kompleks-kompleks açır. 1991-ci ildən başlayaraq, bu mövzuda onun çoxlu məqalə, müsahibə və kitablarının (özü də müxtəlif dillərdə) yayınlandığı və bu əsərlərin hər birinin hadisəyə çevrildiyi, geniş müzakirələr doğurduğu məlumdur. O da məlumdur ki, müəllif əsərdən-əsərə yeni mülahizələr, qənaətlər, nəticələr (və müxtəlif miqyaslı kəşflərlə) keçmişdir. "Gizli Dədə Qorqud" silsiləsini göz önündə canlandırıb, görkəmli alimin tədqiqat üsulu barədə düşünərkən belə bir fikrə gəlməmək mümkün deyil ki, Kamal Abdulla hər şeyi zahirən adi görünən bir sözdən başlayıb bütöv bir obraza, süjetə, ideyaya qədər gedir, ancaq apardığı təhlilin heç bir mərhələsində həmin o "adi söz"ü – dayaq nöqtəsini (çox mürəkkəb ideyalar kompleksinin toplanıb sıxıldığı nöqtəni) unutmur. Ona görə də müəllifin mülahizələri nə qədər şaxələnib işıq şüaları kimi mövzunun qaranlıq, dumanlı qatlarına, süxurlarına yayılsa da, mənbəyi məlum olduğundan, nəticə etibarilə, öz məntiqi sistemindən, metodoloji bütövlüyündən yayınmır.

Silsilənin yeni kitabı biri digəri ilə sıx bağlı olan beş mövzunu ehtiva edir ki, buraya 1) mifdən yazıya və yaxud sirr içində dastan, 2) anavariantlara doğru, 3) mətnin semantik boşluqları, 4) mətnin oyun elementləri və 5) gizlindəki semantik sayrışmalar daxildir. Bu mövzuların hər biri eposun son dərəcə səciyyəvi dilmətn materialları əsasında, onların üzərində aparılmış genişmiqyaslı müşahidələrin nəticəsi olaraq işlənmişdir. Azacıq diqqət yetirilsə, dərhal görünər ki, müəllif sitat gətirməyə o qədər də meyilli deyil, yalnız xüsusi hallarda, onda da mötəbər ümumnəzəri mənbələrə müraciət edir. Fikrimizcə, bunun birinci səbəbi odur ki,

müəllifin yüksək elmi-metodoloji hazırlığı hər dəfə istinad axtarmağa ehtiyac görmür; ikincisi, əsərdə istinad funksiyasında məhz eposun öz materialları və həmin materiallarla, əsasən, qədim yunan eposundan olan materialların müqayisəsi çıxış edir; nəhayət, üçüncüsü, kitabın (və müəllifin) üslubunda aydın şəkildə özünü göstərən lirik-fəlsəfi və ya esseistik intonasiya, ən əsası isə, eposun öz ruhundan ilham alaraq qanadlanan məntiqi olduğu qədər də emosional, eşqli təxəyyül sitat (və polemika) prozaikliyinə enmir.

Əsərin son sözündə müəllif yenə də ilkin nəticələrə qayıtmağa ehtiyac duyur. Və bunu nə texniki-mexaniki, nə də formal-trafaret bir üslub manerası kimi deyil, mövzunun dərinliklərinə varmağın növbəti addımı kimi icra edərək yazır ki, ""Dədə Qorqud" cismi ilə (ilk növbədə dili ilə) XVI əsrdədir, ruhu ilə daha qədim dövrlərdə… Bizim dastanın ruhu ilə cismi bir-biri ilə uyğunlaşmır. Ruh cismin içində deyil. Ruh özü-özü üçündür, cism – özü-özü üçün. Amma bəzən bu uyğunlaşmağa cəhd kimi bəzi məqamlar da özünü göstərir… Həqiqətən, cism çapalayır, ruh isə narahatdır.

Bu, reallıqdır.

Bu, normaldır.

Bu, təbiidir".

Və bu cür hallarda bizim müəllifin təhkiyəsi, Aristotelin təbiri ilə desək, Loqos, Pafos və Etos həmahəngliyinin fövqünə yüksəlir.

Kitaba əlavə olaraq Kamal Abdullanın müxtəlif indiyə qədərki digər kitablarından seçilmiş parçalar verilmişdir ki, bunlar mövzunun daha geniş əhatəsinə xidmət etməklə yanaşı, müəllifin sözügedən sahədə apardığı araşdırmaların təfərrüatı barədə də məlumat verir: mifolinqvistikanın interdissiplinar bir dilçilik elmi kimi yaşamaq hüququnun əsaslandırılması, Birun- Əndərun münasibətləri, mağaranın içində və çölündəki həyat, dövlətçilik kimi məsələlər eposun ideya-məzmun kontekstində aparılmış ciddi araşdırmaların mükəmməl yekunlarıdır.

Kamal Abdulla ilə Rafiq Əliyevin birgə araşdırmalarının məhsulu olan (və 2024-cü ildə ilk dəfə "Ədəbiyyat qəzeti"ndə yayınlanmış) müsahibələri isə ayrıca qeyd etmək lazımdır. Bu iki görkəmli alimin fizika ilə metafizikanın hüdudlarında bir araya gələrək etdikləri söhbətlərin qorqudşünaslığın, ümumən Azərbaycan söz sənəti haqqındakı elmin qarşısında hansı metodoloji perspektivləri açdığı artıq mütəxəssislərə yaxşı məlumdur.

"Gizli "Dədə Qorqud" müəllifin bu mövzudakı əsərləri barəsində son illərdə yazılmış məqalələrindən seçmələrin kitaba əlavə edilməsinə gəldikdə isə, demək lazımdır ki, Kamal Abdullanın "Dədə Qorqud"u araşdıra-araşdıra yaratdığı mətnlərin özlərini də araşdırmağın vaxtı çatmış, xüsusilə, Azərbaycan və Türkiyədə Kamal Abdullanın qorqudşünaslıq mətn-mülahizələri kifayət qədər nüfuzlu mütəxəssislərin tədqiqat predmetinə çevrilmişdir. Və unutmaq olmaz ki, "Dədə Qorqud" araşdırmalarında Kamal Abdulla dərin mətləblərə nüfuz etməyə ona görə nail olur ki, eposa həm bir dilçi, həm bir ədəbiyyatşünas, həm bir tarixçi, həm bir psixoloq, həm bir sənətşünas… kimi akademik səviyyədə baxmaqla yanaşı, onun – Dədə Qorqud mətninin postmodernist yazıçı mövqeyindən ən yaxşı ideya-estetik interpretasiyaları da məhz Xalq yazıçısı Kamal Abdullaya mənsubdur.

Nizami CƏFƏROV

Xronika

Azərbaycan Dillər Universiteti (ADU) "Müasir dillər" proqramı üzrə dünyanın ən yaxşı 151–200 universiteti sırasında yer almış, "Linqvistika" proqramı üzrə isə ilk dəfə iştirak edərək 251–300-cü mövqedə qərarlaşmışdır.

25 mart tarixində "Quacquarelli Symonds" (QS) beynəlxalq reytinq agentliyi 2026-cı il üçün fənn sahələri üzrə dünyanın ən yaxşı universitetlərinin növbəti reytinq cədvəlini dərc edib. Nəticələrə əsasən, Azərbaycan Dillər Universiteti "Müasir dillər" istiqaməti üzrə mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdıraraq 151–200 aralığında qərarlaşıb. Universitet eyni zamanda "Linqvistika" sahəsi üzrə ilk dəfə reytinqə daxil olaraq 251-300-cü yerlər qrupunda təmsil olunub.

QS tərəfindən bu ilin reytinqlərinin hazırlanması məqsədilə təxminən 6,273 ali təhsil müəssisəsinin akademik nüfuzu və elmi-tədqiqat fəaliyyətinin nəticələri təhlil edilib. Bu qurumlar arasından 1,908 universitet 55 dar ixtisas sahəsi və 5 geniş fənn istiqaməti üzrə qiymətləndirilmiş, nəticədə 21,000-dən çox göstərici formalaşdırılmışdır. Bu statistika QS-in fənn reytinqlərinin hazırlanmasının genişmiqyaslı və kompleks xarakter daşıdığını nümayiş etdirir.

Qeyd edək ki, Azərbaycan Dillər Universiteti əvvəlki illərlə müqayisədə dinamik inkişaf nümayiş etdirib. Belə ki, universitet 2023 və 2024-cü illərdə "Müasir dillər" sahəsi üzrə 301–340 aralığında qərarlaşdığı halda, 2025-ci ildə mövqeyini 201-250 aralığına yüksəltmiş, 2026-cı ildə isə bu göstəricini daha da yaxşılaşdıraraq ilk 200-lükdə yer almışdır.

QS fənn reytinqləri beş əsas indikator əsasında formalaşdırılır: akademik nüfuz, işəgötürənlər arasında nüfuz, bir məqaləyə düşən istinadların sayı, H-indeks və beynəlxalq elmi əməkdaşlıq indeksi. Bu göstəricilər ali təhsil müəssisələrinin həm elmi-tədqiqat potensialını, həm də qlobal akademik mühitdəki mövqeyini kompleks şəkildə qiymətləndirməyə imkan verir.

Aprelin 14-də Azərbaycan Dillər Universitetində görkəmli alim, tanınmış pedaqoq, professor, Əməkdar elm xadimi Nurəddin Kazımovun 100 illik yubileyinə həsr olunmuş "Dil, təhsil və pedaqogikanın problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Öncə Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Görkəmli alim, tanınmış pedaqoq, professor, Əməkdar elm xadimi Nurəddin Kazımovun həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

ADU-nun rektoru, akademik Kamal Abdulla konfrans iştirakçılarını salamlayıb, konfransın əhəmiyyətindən söz açıb. Qeyd olunub ki, belə mötəbər beynəlxalq elmi konfransların keçirilməsi həm milli elmi-pedaqoji ənənələrin inkişafı, həm də beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Rektor vurğulayıb ki, professor Nurəddin Kazımov Azərbaycan dilçiliyi və pedaqogika sahəsində dərin iz qoymuş alimlərdən biridir və onun zəngin elmi irsi bu gün də aktuallığını qoruyub saxlayır.

Bildirib ki, konfrans çərçivəsində müzakirə olunacaq mövzular – dilçilik, təhsil və pedaqogikanın aktual problemləri – müasir dövrün çağırışları ilə səsləşir və bu sahələrdə yeni yanaşmaların formalaşdırılmasına töhfə verəcək.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli çıxışında professor Nurəddin Kazımovun 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın işini yüksək qiymətləndirərək bildirib ki, bu cür elmi platformalar müasir elmin aktual problemlərinin müzakirəsi və yeni elmi istiqamətlərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Dil, təhsil və pedaqogika sahələri bir-biri ilə sıx bağlı olub, cəmiyyətin intellektual inkişafında əsas rol oynayır. Görkəmli alim Nurəddin Kazımovun zəngin elmi irsi Azərbaycan elminin mühüm tərkib hissəsidir və onun tədqiqatları bu gün də aktual olaraq qalır. İsa Həbibbəyli alimin pedaqoji fəaliyyətinin xüsusilə gənc nəslin formalaşmasında əvəzsiz rol oynadığını diqqətə çatdırıb.

O, həmçinin qeyd edib ki, Azərbaycan Milli Elmlər Akademiyası bu kimi elmi tədbirlərin keçirilməsinə daim dəstək verir və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsini prioritet istiqamətlərdən biri hesab edir.

Akademik konfransın işinə uğurlar arzulayaraq, onun nəticələrinin gələcək elmi tədqiqatlara və təhsil sahəsinin inkişafına mühüm töhfələr verəcəyinə əminliyini ifadə edib.

Türkiyənin Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunun rəhbəri, professor Atıf Akgün video müraciətlə çıxış edib. Professor çıxışında görkəmli alim Nurəddin Kazımovun elmi irsinin yalnız Azərbaycan üçün deyil, bütövlükdə türk dünyası üçün dəyərli olduğunu vurğulayıb.

O, həmçinin Ege Universiteti ilə Azərbaycan elmi müəssisələri arasında əlaqələrin inkişafının vacibliyini qeyd edərək, gələcəkdə birgə layihələrin və elmi proqramların həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov bildirib ki, bu cür yubiley tədbirləri alimlərin fəaliyyətinin daha geniş şəkildə tanıdılmasına və gənc tədqiqatçılar üçün örnək olmasına imkan yaradır. Qeyd olunub ki, professor Nurəddin Kazımov ömrünü elmə və təhsilin inkişafına həsr etmiş, yetişdirdiyi tələbələr və yazdığı əsərlərlə Azərbaycan pedaqoji fikrində silinməz iz qoymuşdur.

Daha sonra çıxış edənlər: Özbəkistanın Denov Sahibkarlıq və Pedaqogika İnstitutunun Pedaqogika fakültəsinin dekanı Rano Salomova, Hüquq elmləri doktoru, Avrasiya Universitetinin professoru İbrahim Quliyev, Pedaqogika elmləri doktoru, professor, Bakı Slavyan Universitetinin Pedaqogika kafedrasının müdiri Piralı Əliyev, Əməkdar müəllim Zülfiyyə Vəliyeva, Pedaqogika elmləri doktoru, dosent, Əməkdar müəllim Heydər Cəfərov, Azərbaycan Dillər Universitetinin Psixologiya və pedaqogika kafedrasının baş müəllimi Misgər Məmmədov, ADU-nun Psixologiya və pedaqogika kafedrasının dosenti Oqtay Abbasov, əməkdar artist Ağalar Bayramov, dosent Vidadi Bəşirov görkəmli alim, tanınmış pedaqoq, professor, Əməkdar elm xadimi Nurəddin Kazımov və konfrans haqqında fikirlərini bölüşüblər.

Qeyd olunub ki, professor Nurəddin Kazımovun elmi fəaliyyəti Azərbaycan pedaqoji fikrinin inkişafında mühüm mərhələ təşkil edir və onun əsərləri bu gün də ali və orta ixtisas təhsil müəssisələrində geniş şəkildə istifadə olunur.

Çıxış edənlər alimin pedaqogika sahəsində irəli sürdüyü ideyaların müasir təhsil sistemində aktuallığını qoruduğunu xüsusi vurğulayıblar.

Görkəmli alim, professor Nurəddin Kazımovun oğlu Araz Kazımov konfransda çıxış edərək, atasının-görkəmli alim, professor Nurəddin Kazımovun həyat və elmi fəaliyyətindən bəhs edib, onun xatirəsinə göstərilən diqqət və ehtirama görə ADU rəhbərliyinə və kollektivinə, Pedaqogika və psixologiya kafedrasının bütün əməkdaşlarına, təşkilatçılara və iştirakçılara dərin minnətdarlığını bildirib.

Daha sonra bədii hissə təqdim olunub. Konfrans işini bölmə iclasları ilə davam etdirib. Konfransın bağlanış mərasimində çıxış edən ADU-nun Elm və innovasiya məsələləri üzrə prorektoru, professor Həmidə Əliyeva konfransın əhəmiyyətindən danışıb, təşkil olunan bölmə iclaslarının fəaliyyətinə toxunulub. Qeyd olunub ki, professor Nurəddin Kazımovun 100 illik yubileyinə həsr olunan beynəlxalq elmi konfrans öz işini uğurla yekunlaşdırıb.

Çapa imzalanıb: 30.04.2026.
Format: 84x108 1/16. Qarnitur: Times.
Həcmi: 13,5 ç.v. Tiraj: 300.

Redaksiyanın ünvanı:
Az1014, Bakı şəhəri, R.Behbudov küçəsi, 134.
Azərbaycan Dillər Universiteti,
Email: aduelmixeberler@gmail.com